www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

"Orijinaldan bədii-filoloji tərcümələr"

# Frans Kafka

# "MƏHKƏMƏ"

## roman

**Alman dilindən çevirəni:
Vilayət Hacıyev**

2012

Yeni Yazarlar və Sənətçilər Qurumu. e-nəşr N 03 (56 2012)

**Milli Virtual Kitabxananın təqdimatında**

Bu elektron nəşr http://www.kitabxana.net - Milli Virtual Kitabxananın "Orijinaldan bədii-filoloji tərcümələr" Kulturoloji-Tərcümə Layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 03

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 03 - 56 (2012)

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Azərbaycan Yazıçılar Birliyi - http://www.azyb.net

# Frans Kafka

# "MƏHKƏMƏ"

**roman**

**Alman dilindən çevirəni:**
**Vilayət Hacıyev**

Alman və dünya ədəbiyyatının görkəmli nümayəndəsinin çox maraqlı romanı ilk dəfə ana dilimizdə...

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 03 (56 - 2012)

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana

Bakı – 2012

Yeni tərcümələr

# FRANS KAFKA

# MƏHKƏMƏ

**Roman**

**Alman dilindən çevirən:**

**Vilayət HACIYEV**

# BİRİNCİ FƏSİL

## Həbs. Frau Qrubaxla, sonra da frölayn Bürstnerlə söhbət

Deyəsən, kimsə Yozef K.-nı şərləmişdi, çünki elə bir pis iş tutmasa da, səhər-səhər gəlib onu həbs etdilər. Sahibəsi Qrubaxın hər gün saat səkkizə qalmış ona səhər yeməyi gətirən qulluqçusu da bu gün gəlmədi. Heç vaxt belə olmamışdı. K. bir az da gözlədi, başını yastıqdan qaldırmadan üzbəüz evdə yaşayan, indi də xüsusi bir maraqla onu müşahidə edən yaşlı qadına baxdı, sonra isə həm aclıq, həm də nəsə bir anlaşılmazlıq hiss edərək zəngi basdı. Elə həmin anda da qapı döyüldü və içəri bu evdə heç vaxt görmədiyi bir kişi girdi. Arıq, ancaq tökməbədən bir kişi idi və əynində də özünə yaraşan paltar vardı; lap səfər paltarına oxşayırdı, üstü cürbəcür büzmələrlə, toqqalarla, düymələrlə dolu idi, belində kəməri də vardı və bütün bunların nə üçün olduğu bilinməsə də, onu çox qıvraq göstərirdi.

– Siz kimsiniz? – deyə K. çarpayısında dikəldi.

Kişi suala fikir vermədi, sanki bununla gəlişinin təbii olduğunu göstərmək istədi və özü soruşdu:

– Zəngi siz basdınız?

– Anna mənim səhər yeməyimi gətirsin, – deyən K. əvvəlcə sakitcə, diqqətlə, təfərrincə bu kişinin kim olduğunu özü üçün aydınlaşdırmağa çalışdı. Ancaq kişi K.-nın baxışları altında çox da dayanmayıb dönüb arxasında dayanmış adama nəsə demək üçün qapını bir az araladı:

– Deyir, Anna ona səhər yeməyi gətirsin!

Qonşu otaqdan qısa gülüş səsi eşidildi, ancaq bu səsdən orda nə qədər adam olduğu bilinmədi. Düzdür, yad adam hiss etdi ki, bununla müsahibindən təzə bir şey eşitməyəcək, ancaq buna baxmayaraq, yenə də rəsmi tərzdə dedi:

– Buna icazə verilmir!

– Bu da təzə çıxdı? – deyə K. çarpayıdan duraraq tələsik şalvarını əyninə taxdı. – Hələ baxım görüm qonşu otaqdakılar kimlərdir və frau Qrubax bu narahatlığa nə cavab verəcək!

Və o dəqiqə də fikirləşdi ki, gərək bunu ucadan deməyəydi, çünki bununla həmin yad adamın ona nəzarət etmək haqqını müəyyən mənada tanımış olurdu, ancaq həm də hiss etdi ki, daha bunun elə bir mənası yoxdur.

– Bəlkə elə burda qalasınız?

– Özünüzü təqdim etməyincə nə burda qalmaq, nə də sizinlə danışmaq istəmirəm!

– Sizə yaxşılıq etmək istəyirdim, – deyə yad adam özü qapını onun üçün açdı.

K.-nın istədiyindən də asta addımlarla daxil olduğu qonşu otaq ilk baxışda dünən axşam gördüyü otağın eyni idi. Bu, frau Qrubaxın qonaq otağıydı və ağzınacan mebellə, xalılarla, çini qablarla, şəkillərlə dolu olsa da, həmişəkindən geniş görünürdü. Ancaq bu genişlik o dəqiqə nəzərə çarpmırdı və ən çox da ona görə ki, içəridəki dəyişiklik vur-tut açıq pəncərənin qabağında oturub kitab oxuyan bir kişidən ibarət idi.

Kişi başını kitabdan qaldırdı:

– Gərək otağınızda qalaydınız.... Bəs Frans bunu sizə demədi?

– Axı siz məndən nə istəyirsiniz? – deyə K. baxışlarını "təzə tanış"ından ayırıb Frans dedikləri və hələ də qapının ağzında dayanmış kişiyə tərəf döndərdi, sonra yenə əvvəlkinə baxdı. Açıq pəncərədən bayaqkı yaşlı qadın görünürdü. O, yalnız qocalara xas olan bir maraqla üzbəüz pəncərənin qarşısına gəlmişdi ki, hər şeyi yaxşı görə bilsin.

– Mən frau Qrubaxla.... – deyə K. durduğu yerdə öz-özünə elə dartındı ki, sanki ondan xeyli aralıda dayanmış kişilərin əlindən çıxmaq istəyirdi.

– Olmaz! – deyə pəncərənin qabağında oturmuş kişi dilləndi və əlindəki kitabı stolun üstünə ataraq ayağa qalxdı. – Heç yana gedə bilməzsiniz, çünki həbs olunubsunuz!

– Deyəsən, elədir.... Axı nə üçün? – K. soruşdu.

– Bunu sizə deməyə səlahiyyətimiz çatmır. Otağınıza gedib gözləyin. Artıq cinayət işi açılıb və vaxtı çatanda, hər şeyi biləcəksiniz. Əslində, sizinlə bu cür mehriban danışmaqla da səlahiyyətimi aşıram. Ancaq ümid edirəm ki, bunu Fransdan başqa heç kəs eşitmir və elə o da qanunu pozaraq, sizinlə xoş davranır. Əgər bundan sonra da keşikçi sarıdan bəxtiniz belə gətirsə, deməli, narahat olmaya bilərsiniz.

K. oturmaq istədi və birdən gördü ki, bu boyda otaqda pəncərənin qabağındakı kreslodan başqa oturmağa heç nə yoxdur.

– Özünüz də görəcəksiniz ki, dediklərimiz hamısı həqiqətdir, – Frans dilləndi və kişilərin ikisi də birdən ona tərəf addımladı.

İkinci kişi boyca K.-dan hündür idi və tez-tez də əli ilə onun kürəyinə vururdu. İkisi də K.-nın gecə köynəyinə müştəri gözü ilə baxaraq dedilər ki, indi köhnə bir köynək geysə yaxşıdır, ancaq bununla belə, istər bu köynəyi, istərsə də başqa əşyalarını saxlayacaqlar, iş yaxşı qurtarsa, özünə qaytaracaqlar.

– Ancaq daha yaxşı olar ki, şeylərinizi saxlama kamerasına yox, bizə verəsiniz, – dedilər, – çünki saxlama kamerasında tez-tez saxtakarlıq edirlər, bundan əlavə də, müəyyən vaxt keçəndən sonra həmin şeyləri satırlar, məhkəmənin qurtarıb-qurtarmamasına fikir vermirlər. Bu məhkəmələr də nə qədər uzanır, Allah bilir. Xüsusən də son vaxtlar... Belə olan halda, saxlama kamerası şeylərinizin əvəzinə pul verəcək, ancaq bu məbləğ cox cüzi olacaq, çünki alqı-satqı zamanı malın keyfiyyəti deyil, rüşvətin miqdarı əsas rol oynayır. Üstəlik də, əldən-ələ, ildən-ilə keçən həmin məbləğ sizə çatana qədər lap azalır.

K. bu sözlərə o qədər də fikir vermədi, çünki indi onun üçün əşyalarının taleyi deyil, düşdüyü vəziyyətin aydınlaşdırılması daha önəmli idi, ancaq bu adamların yanında fikrini cəmləşdirə bilmirdi, çünki ikinci keşikçinin – bu adamlar yəqin ki keşikçi idilər – qarnı tez-tez "ərklə" ona toxunurdu və K. da hər dəfə başını qaldıranda, onun iri gövdəsinə heç də yaraşmayan arıq, sümüyü çıxmış sifətini, əyri burnunu və bir də onun başı üzərindən yoldaşı ilə him-cimləşən gözlərini görürdü. Axı bu adamlar kim idi? Nə danışırdılar? Hansı idarədən gəlmişdilər? Axı K. hüquqi bir dövlətdə yaşayırdı, hər yanda əmin-amanlıq idi, bütün qanunlar işləyirdi, kimin nə ixtiyarı vardı ki, onun evinə soxulaydı?! Həmişə çalışmışdı ki, hər şeyə fikir verməsin, pis lap pis olanda da onun pisliyinə inanmasın, hətta hər hansı bir təhlükənin gəldiyini hiss etsə də, əvvəlcədən ona qarşı tədbir görməsin. Ancaq indi ona elə gəldi ki, bunların yeri deyil. Düzdür, bütün bunların hamısını bankdakı dostlarının nə üçünsə, ola bilsin, bu gün otuz yaşının tamam olması münasibətilə düzüb-qoşduqları kobud bir zarafat kimi qəbul etmək olardı və bəlkə doğrudan da eləydi, sadəcə olaraq, keşikçilərin üzünə gülmək lazım idi, yəqin onlar da gülüşərdilər. Bəlkə də elə tinlərdə dolaşan avaralardandır – əslində, elələrinə də oxşayırdılar – ancaq, nədənsə, Frans adlanan gözətçini görən kimi hiss etdi ki, bu adamlardan nədəsə üstündür və onu da heç vaxt əldən vermək olmaz. Bir az da ondan çəkinirdi ki, sonralar ona gülələr və deyələr ki, zarafatı başa düşməyib. Düzdür, başına gələndən ibrət dərsi götürən deyildi, ancaq bu dəfə xatırladı ki, bir neçə xırda məsələdə, dostlarından fərqli olaraq, sonra nə olacağını fikirləşmədən qəsdlə ehtiyatsızlıq eləmişdi və bunun da altını çəkmişdi. İndi belə şeyə yol vermək olmazdı! Ən azı, bu dəfə heç olmazdı! Kimsə onun üçün komediya düzəltmişdisə, eybi yox, o da rola girər!

Ancaq hələlik azad idi!

– İcazənizlə, – deyərək tələsik addımlarla gözətçilərin arasından keçib otağına girdi.

Arxadan səs gəldi:

– Ağıllı adama oxşayır.

İçəri girən kimi yazı stolunun siyirtmələrini dartdı: orada hər şey səliqə ilə düzülmüşdü, ancaq həyəcanlı olduğundan, axtardığı icazə kağızlarını o dəqiqə tapa bilmədi. Axırda velosiped sürmək üçün aldığı icazə vərəqi əlinə keçdi, keşikçilərin yanına dönmək istədi, ancaq fikirləşdi ki, bu azdır, doğum haqqında şəhadətnaməsini tapana qədər axtarmağa davam etdi. Qonaq otağına qayıdan anda üzbəüz qapı açıldı və frau Qrubax içəri girmək istədi. Ancaq bu, bircə an çəkdi, çünki K.-nı görən kimi pərt oldu, üzr istədi, tələsik döndü, qapını da arxasınca çox ehtiyatla çəkdi. Bununla belə, K. – "Gəlin,gəlin!"– deyə bildi.

K. indi, əlində kağızlar, otağın ortasında dayanıb qapıya baxırdı. Qapı isə bir daha açılmadı və açıq pəncərənin qabağındakı stolun arxasında oturmuş gözətçilərin səsini eşidəndə diksindi, yenicə gördü ki, onun səhər yeməyini aşırırlar.

– O niyə içəri girmədi? – deyə K. soruşdu.

– İxtiyarı yoxdur! – Ucaboy keşikçi dilləndi. – Axı, siz həbs olunubsunuz!

– Necə yəni həbs olunmuşam? Belə də həbs olar?

– Aha, yenə başladınız! – deyə keşikçi əlindəki buterbrodu bala batırdı. – Bu cür suallara biz cavab vermirik.

– Cavab verməli olacaqsınız! Bu da mənim icazə kağızlarım! İndi isə siz sənədlərinizi göstərin! İlk öncə də həbs orderini!

– İlahi! Siz hələ də düşdüyünüz vəziyyətlə barışa bilmirsiniz! Elə hey çalışırsınız ki, bizi – bəlkə də bu dəqiqə yer üzündə sizə ən yaxın adamları heç nədən əsəbiləşdirəsiniz!

– İnanın ki elədir, – deyə Frans əlindəki qəhvə fincanını ağzına aparmaq əvəzinə, K.-nı uzun-uzadı, bəlkə də mənalı, ancaq anlaşılmaz baxışlarla süzdü. K. istər-istəməz Fransla bir az göz-göz oynamalı oldu, sonra da əlindəki kağızları göstərib dedi:

– Bu da mənim icazə kağızlarım!

– Onların bizə nə dəxli? – Ucaboy keşikçi qışqırdı. – Özünüzü uşaqdan da betər aparırsınız! Bununla nə demək istəyirsiniz? Bizimlə, yəni adi keşikçilərlə icazə kağızları, həbs orderi barədə danışmaqla o lənətə gəlmiş məhkəmənizi tez-tələsik sona çatdırmaq istəyirsiniz? Biz xırda məmurlarıq, icazə kağızlarından başımız çıxmır. Bizim vəzifəmiz yalnız ondan ibarətdir ki, hər gün on saat sizin keşiyinizi çəkək, əvəzində də haqqımızı alaq. Bizim işimiz bundan ibarətdir, vəssalam. Ancaq buna baxmayaraq bilirik ki, tabe olduğumuz yüksək çinli məmurlar belə bir həbsə qərar verməmişdən əvvəl onun səbəblərini, həbs olunan adamın şəxsiyyətini dəqiq müəyyənləşdirirlər. Burda səhv ola bilməz. Mən bildiyimə görə, bizim idarə – mən orda yalnız aşağı çinli məmurları tanıyıram – ictimaiyyətin arasında günahkar axtarmır, qanunda deyildiyi kimi, günah özü onu axtarıb tapır, o da biz keşikçiləri göndərir. Qanun belədir! Burda səhv ola bilər?

– Mən belə qanun tanımıram, – K. dilləndi.

– Sizin üçün lap pis! – keşikci cavab verdi.

– Yəqin bu qanun sizin başınızdadır, – deyə K. nəsə bir yol tapıb keşikçilərin nə fikirləşdiyini duymaq, ondan öz xeyrinə istifadə etmək istədi. Ancaq keşikci çəmkirdi:

– Onun nə demək olduğunu hiss edəcəksiniz.

Frans da söhbətə qarışdı:

– Ona bax, Villem, deyir ki, qanundan xəbəri yoxdur, ancaq eyni zamanda da günahsız olduğunu iddia edir.

– Tamamilə doğru deyirsən, ona heç nəyi başa salmaq mümkün deyil.

K. onlara cavab verməyib ürəyindən keçirdi: “Axı nə üçün bu alçaq məxluqların – özləri deyir ki, belədirlər – çərənləmələri məni çaşdırmalıdır? Özləri də başları çıxmadığı şeylərdən danışırlar. Səfeh olduqları üçün də belə qətiyyətlidirlər. Beləlari ilə uzun-uzadı çənə vurmaqdansa, öz səviyyəmdə olan bir adamla iki-üç kəlmə danışıb hər şeyi aydınlaşdırmaq olar.”

O, otağın boş yerində iki-üç dəfə var-gəl etdi və gördü ki, bayaqkı qarı özündən yaşlı bır kişini dartıb pəncərənin qabağına gətirib və özü də, az qalır, onun belinə çıxsın. K. bu tamaşaya son qoymalı idi və ona görə də dedi:

– Məni öz rəisinizin yanına aparın!

– O istəyəndə, aparacağıq, – Villem adlanan keşikçi cavab verdi, – əvvəlcədən apara bilmərik... – Sonra da əlavə etdi: – Sizə məsləhətim budur ki, otağınıza gedin, bir az sakitləşin, haqqınızda çıxarılacaq qərarı gözləyin. Məsləhət görərdik ki, beyninizi mənasız fikirlərlə yormayın, özünüzü ələ alın, çünki sizi qarşıda daha böyük çətinliklər gözləyir. Bizimlə çox pis rəftar etdiniz, halbuki sizə göstərdiyimiz münasibət heç də buna layiq deyildi, unutdunuz ki, biz hər kim olsaq da, sizinlə müqayisədə ən azı azad insanlar idik. Bunun özü az üstünlük deyil. Ancaq bütün bunlara baxmayaraq, pulunuz varsa, üzbəüz qəhvəxanadan sizə səhər yeməyi alıb gətirə bilərik.

K. bu təklifə cavab verməyərək bir anlığa susdu. Bəlkə də indi yan otağın, ya da elə qonaq otağının qapısını açıb çıxsaydı, heç birinin ona mane olmağa cəsarəti çatmazdı. Bəlkə də “ya allah” – deyib aradan çıxmaq məsələnin ən sadə həlli olardı. Ancaq nə bilmək olar, bəlkə də onu tutardılar. Onda həmin adamların qarşısında alçalmış olardı, indiyə qədər onlara qarşı qoruyub saxladığı psixoloji üstünlüyü də itirərdi. Buna görə də riskə getmək istəmədi. Hər şeyi öz axarına buraxmaq qərarına gələrək otağına qayıtdı, nə özü bir kəlmə söz dedi, nə də keşikçilər dilləndi.

Özünü çarpayıya atdı, dünəndən səhər yeməyinə saxladığı qəşəng almanı əlüzyuyanın üstündən götürdü. İndi bu alma onun olub – qalan səhər yeməyi idi. Hər halda, elə ilk dişləmdə hiss etdi ki, bu alma keşikçilərin mərhəmət göstərib üzbəüzdəki iyrənc qəhvəxanadan gətirmək istədikləri səhər yeməyindən qat-qat ləzzətli oldu. Özünü yaxşı və inamlı hiss etməyə başladı. Düzdür, bu gün günortaya qədər bankdakı işinə gedə bilməyəcək, ancaq eybi yoxdur, tutduğu vəzifəyə görə bağışlayarlar. Bəlkə hər şeyi olduğu kimi orda açıb desin? Fikirləşdi ki, belə də eləsin.

Ona inanmasalar – belə bir vəziyyətdə onları da qınamaq olmazdı – ya frau Qrubaxı, ya da artıq o biri pəncərənin qarşısına tərəf gedən qocaları şahid göstərərdi. Eyni zamanda, təəccübləndi və ən azı da, özünü keşikçilərin yerinə qoyaraq heyrətləndi ki, nə yaxşı, onu otağına qaytarıb tək buraxdılar, axı, burda adamın özünü öldürmək üçün çoxlu imkanları vardı. Elə həmin anda da özünü öz yerinə qoyaraq sual elədi ki, bunu eləmək üçün əsası var, ya yox? Ona görə eləməlidir ki, indi iki nəfər yanında oturub onun səhər yeməyini həzm-rabedən keçirir? Özünü öldürmək o qədər mənasız idi ki, hətta istəsəydi də, bu mənasızlığına görə həmin işi tutmazdı. Keşikçilərin kütlüyü bu qədər açıq-aşkar olmasaydı, fikirləşmək olardı ki, onlar da belə düşündüklərindən heç nədən şübhələnməyib onu tək buraxıblar. İndi nə qədər istəyirlər onun divardakı dolaba yaxınlaşaraq öz sevimli şnapsını necə götürdüyünə, bir qədəh süzərək səhər yeməyinin əvəzinə, ikincini də cəsarətlənmək üçün gillətdiyinə kənardan tamaşa etsinlər. Düzdür, bəlkə də bu cəsarət heç lazım olmayacaqdı, ancaq bilmək olmazdı...

Bu vaxt qonşu otaqdan gələn səs onu elə diksindirdi ki, əlindəki qədəh dişlərinə dəyib cingildədi.

– İnspektor sizi çağırır!

Onu diksindirən qısa, kəsik, hərbiçilərə xas olan bir səs idi və Frans adlı gözətçidən belə səsi heç gözləmirdi. Ancaq əmr ürəyindən oldu: – Axır ki! – deyərək dolabın qapısını bağladı və qonşu otağa tələsdi.

Onu yenə keşikçilər qarşıladılar və təbii bir olay kimi itələyib öz otağına saldılar:

– Neylədiyinizdir?! – dedilər, – Köynəkdə də inspektorun yanına getmək olar? Sizi də kötəklətdirər, bizi də...

– Lənət şeytana, buraxın məni! – gözətçilərin az qala paltar dolabına qədər itələyib gətirdikləri K. qışqırdı. – Yataqda başımın üstünü kəsdirəndə elə bilirdiniz, əynimdə ütülü köynək olacaq?

– Xeyri yoxdur!

K. nə qədər qışqırsa da, keşikçilər haldan getmir, hətta az qala kədərlənirdilər, sanki bununla onu ya özündən çıxarmaq, ya da bir az ağıllandırmaq istəyirdilər.

– Gülməli mərasimdir! – deyə donquldanan K., hər halda, pencəyini stulun başından götürüb onu bir anlığa hər iki əlində saxladı, sanki keşikçilərin nə deyəcəklərini gözlədi.

Keşikçilər başlarını yırğaladılar və dedilər:

– Qara rəngli sürtuk olmalıdır!

K. pencəyi döşəməyə tullayıb dedi:

– Axı bu hələ istintaq deyil! – Ancaq bununla nə demək istədiyini özü də bilmədi.

Keşikçilər gülümsədilər, lakin dediklərindən dönmədilər:

– Qara sürtuk olmalıdır, vəssalam!

– Əgər bununla iş tezləşəcəksə, etirazım yoxdur, – deyə K. dolabı açdı, bir xeyli ordakı paltarları eşələdi, ən yaxşı qara pencəyini seçib götürdü.

Bu pencək əyninə elə yaxşı otururdu ki, tanış-bilişləri ona valeh olurdular... Başqa köynək götürüb diqqətlə geyinməyə başladı. Ürəyinin dərinliklərində fikirləşdi ki, bununla məsələni tezləşdirə bildi və yaxşı ki, keşikçilərin yadından çıxıb onu çimməyə göndərmədilər. Onların üzünə baxdı ki, birdən yadlarına düşər. Əlbəttə, yadlarına düşmədi və üstəlik, Villem Fransı inspektorun yanına göndərdi ki, K-nın geyinib qurtardığını xəbər versin.

Geyinib qurtarandan sonra Villemlə dal-qabaq boş olan qonşu otaqdan keçərək qapısı taybatay açıq olan növbəti otağa keçdilər. K. dəqiq bilirdi ki, lap yaxınlarda bu otağa Bürstner adlı bir frölayn köçüb. Qız makinaçı idi, çox tezdən durub işə gedir, axşam da gec qayıdırdı və K. ilə salam-sağoldan başqa kəlmə də kəsməmişdi. İndi qızın çarpayısının yanındakı tumbanı otağın ortasına çəkərək ondan istintaq masası kimi istifadə edirdilər və inspektor da onun arxasında oturmuşdu. O, qıçını-qıçının üstə aşırmış, bir qolunu da qaldırıb stulun söykənəcəyinə qoymuşdu.

Otağın bir küncündə üç cavan oğlan dayanıb frölayn Bürstnerin çərçivəyə salınaraq divardan asılmış fotoşəkillərinə baxırdılar. Açıq pəncərənin dəstəyindən ağ bir kofta asılmışdı. Bayaqkı qarılar yenə də üzbəüz pəncərədən asıla qalmışdılar, indi çoxalmışdılar, çünki onların başları üzərindən köynəyinin yaxası açıq yekəpər bir kişi boylanır, barmaqlarının ucu ilə qırmızıya çalan saqqalını tumarlayır, bururdu.

– Yozef K. sizsiz? – İnspektor bu sualı bəlkə də K.-nın dalğın baxışlarını özünə cəlb etmək üçün verdi. K. başını tərpətdi.

– Bu səhər baş verənlər sizi çox təəccübləndirdi, elə deyilmi? – deyə soruşan inspektor tumbanın üstündəki şeyləri – şamdanı, onun yanındakı kibriti, kitabı, iynə yastıqcasını hər iki əli ilə özünə tərəf elə çəkdi ki, deyərdin bunların hamısı istintaqa lazımdır.

– Elədir ki var, – deyən K. nəhayət, ağıllı bir adama rast gəldiyini, onunla işi barədə danışa biləcəyini hiss edərək rahat nəfəs aldı. – Əlbəttə, ancaq o qədər də çox təəccüblənmədim.

– Çox təəccüblənmədininz? – soruşan inspektor şamı tumbanın ortasına qoydu, qalan əşyaları da onun ətrafına düzdü.

– Bəlkə də məni düz başa düşmürsünüz, – K. tələsik dilləndi. – Yəni demək istəyirəm ki... – K. burada sözünə ara verərək gözləri ilə kreslo axtardı, – Otura bilərəm? – deyə soruşdu.

– İcazə verilmir, – inspektor bildirdi.

– Demək istəyirəm ki, – K. bu dəfə sözünə ara vermədi, – əslində, çox təəccübləndim, ancaq adam otuz il bu dünyada yaşayandan, mənim qismətimə düşdüyü kimi, hər şeyi təkbaşına qazanmalı olandan sonra, onun üçün heç nə gözlənilməz olmur, hamısına dözür... Xüsusilə də, bu gün baş verənlərə...

– Niyə məhz bu gün baş verənlər?

– Demək istəməzdim ki, bu gün baş verənlərin hamısına zarafat kimi baxıram, əksinə, burada göstərilən tamaşalar zarafat üçün çox oldu. Pansionun hamısının, eləcə də sizin hamınızın bu tamaşada iştirak etməsi zarafatın sərhədlərini aşdı. Ona görə də buna zarafat deməzdim.

– Tamamilə düzdür, – deyən inspektor qutudakı kibrit çöplərini saymağa başladı.

– Ancaq digər tərəfdən... – deyə sözünə davam edən K. sanki içəridəkilərin hamısına, o cümlədən şəkillərə baxan üç nəfərə də eşitdirmək istədi, – ... digər tərəfdən də bunların heç biri ciddi işə oxşamır. Ona görə belə deyirəm ki, mən ittiham olunuram, ancaq ittiham olunmaq üçün heç bir günah da tapa bilmirəm. Əslində, bunun özü də elə vacib deyil, əsas məsələ odur ki, məni kim ittiham edir? İşi hansı idarə aparır? Siz məmursunuzmu? Heç biriniz məmur kimi geyinməmisiniz. Əyninizdəki məmur geyimi deyilsə, – bu sözləri deyəndə Fransa tərəf döndü, – onda, deməli, səfər paltarıdır. Elə bu məsələlərdə sizdən aydınlıq tələb edirəm və əminəm ki, məhz bu aydınlıqdan sonra sizinlə səmimi şəkildə görüşüb ayrıla biləcəyik.

İnspektor kibrit qutusunu tıqqıltı ilə masanın üstünə atdı:

– Siz çox böyük bir səhvə yol verirsiniz, – dedi, – bu cənablar da, mən də sizin məsələnizdə ikinci dərəcəli adamlarıq, hətta haqqınızda da, demək olar ki, heç nə bilmirik. Biz lap xüsusi paltar geyinib gəlmiş olsaydıq da, işiniz pisləşməzdi. Eyni zamanda, onu da deyə bilmərəm ki, siz nədəsə ittiham olunursunuz və ya işiniz bundan da betərdir. Heç sizin günahkar olub-olmadığınızı da bilmirəm. Həbs olunmağınız düzdür, özgə heç nə bilmirəm. Bəlkə keşikçilər nəsə çərənləyiblər, ancaq hamısı boş şeydir. Suallarınıza cavab verə bilməsəm də, sizə məsləhət

görərdim ki, bizə də, gələcəkdə sizi nə gözlədiyinə də çox fikir verməyin, daha çox özünüzü düşünün. Günahsız olduğunuz barədə də bu qədər hay-küy qaldırmayın, çünki bu hay-küy sızin yaratdığınız pis təəssüratı poza bilmir. Ümumiyyətlə, az danışsanız daha yaxşı olar, çünki indiyə kimi danışdıqlarınızın hamısını bir neçə sözlə ifadə etmək olardı, nə demək istədiyiniz hərəkətlərinizdən bilinərdi, halbuki, dediklərinizin heç biri xeyrinizə deyildi.

K. matdım-matdım inspektorun üzünə baxdı. Yoxsa özündən çox kiçik olan bu oğlan ona məktəb uşağı kimi dərs keçmək istəyirdi? Yoxsa səmimiyyətinə görə töhmətlənirdi? Bəs nəyə görə həbs olunduğunu, kimin onu həbs etdirdiyini bilməyəcək? Bir az həyəcanlandı, var-gəl etməyə başladı, heç kəs də ona mane olmadı, köynəyinin qollarını çırmaladı, yaxasna sığal çəkdi, saçlarını düzəltdi, şəkillərin qarşısında dayanmış üç nəfərin yanından keçəndə dedi:

– Mənasızlığa bax!

Həmin üç nəfər çevrilib onu lütfkarlıqla, eyni zamanda, ciddi nəzərlərlə süzdülər. K. yenə də inspektorun oturduğu masaya çatanda dayandı.

– Prokuror Hasterer yaxın dostumdur, – dedi, – ona zəng vura bilərəm?

– Əlbəttə! – İnspektor dilləndi. – Ancaq bilmirəm, şəxsi işinizi onunla müzakirə etməyin nə mənası var?!

– Nə mənası var? – K. səsini ucaltdı, sanki əsəbiləşməkdən çox pərt oldu. – Axı siz kimsiniz? Özünüz dünyanın ən mənasız işləri ilə məşğul ola-ola hər şeydə məna axtarırsınız? Bu, adamın qabağına daş diyirlətmək deyil, bəs nədir? Cənablar əvvəlcə mənə hücum çəkirlər, sonra da ya otururlar, ya gəzişirlər, məni də qabaqlarında uşaq kimi oynadırlar. Nahaq yerdən həbs oluna-oluna prokurora zəng vurmağın mənası yoxdur, eləmi? Yaxşı, zəng vurmaram.

– Yox, yox , vurun, – deyə inspektor əli ilə telefon olan otağı göstərdi, – buyurun, zəng edin.

– Yox, daha lazım deyil! – deyən K. pəncərəyə tərəf getdi.

Bayaqkı dəstə hələ də pəncərənin önündə dayanmışdı və K.-nın da oraya yaxınlaşması, deyəsən, onları bir az narahat etdi. Qarılar durmaq istədilər, ancaq arxalarında dayanmış kişi onları sakitləşdirdi.

– Hələ ordakı dəstəyə baxın! – bu sözləri K. ucadan inspektora dedi və şəhadət barmağı ilə bayırı göstərdi. – Çəkilin oradan! – bu sözləri isə oradan baxanlara dedi. Onların üçü də o dəqiqə çəkildi. Qadınlar hətta cüssəli kişinin arxasında gizlənməyə çalışdılar. Kişinin dodaqlarının tərpənməsindən bilindi ki, onlara nəsə deyir. Ancaq çıxıb getmədilər, sanki fürsət gözləyirdilər ki, gizlincə pəncərəyə yaxınlaşsınlar.

– Nə zəhlətökən, qanacaqsız adamlardır! – K. geri döndü, gözünün ucu ilə inspektora baxanda ona elə gəldi ki, o da bununla razılaşdı. Ancaq belə də ola bilərdi ki, K.-nın dediklərini heç eşitməyib, çünki bir əlini masanın üstünə qoymuşdu və elə bil barmaqlarının uzunluğunu ölçməklə məşğul idi. Keşikçilər üstünə naxışlı palaz salınmış sandığın üstündə oturub dizlərini ovuşdururdular. Üç gənc də əllərini belinə qoyub bekarçılıqdan o yan-bu yana baxırdı. Elə sakitlik idi ki, deyərdin, başsız qalmış yerdir.

– Hə, cənablar, – deyən K.-ya birdən elə gəldi ki, içəridəkilərin hamısını çiyinlərində daşıyır, – Görkəminizə baxanda demək olar ki, mənimlə işinizi qurtardınız. Mənə elə gəlir, sizin bu hərəkətlərinizin haqlı və ya haqsız olduğu barədə fikirləşməkdənsə, barışıq əlaməti kimi bir-birimizin əlini sıxıb ayrılmaq daha yaxşı olar. Əgər siz də mənim kimi düşünürsünüzsə, onda buyurun... – deyən K. inspektorun oturduğu stola yaxınlaşıb əlini ona uzatdı. İnspektor başını qaldırdı, dodaqlarını çeynədi və K.-nın ona tərəf uzanmış əlinə baxdı. K.-ya hələ də elə gəlirdi ki, inspektor əl verəcək. Ancaq o, ayağa durub frölayn Bürstnerin çarpayısının üstünə qoymuş olduğu dəyirmi qalın papağını götürdü, hər iki əli ilə ehtiyatla başına qoydu, sanki onu təzə almışdı, yoxlayırdı.

– Bütün bunlar sizə necə də sadə görünür, – dedi. – Deyirsiniz, bu məsələni barışıqla sona çatdıraq, eləmi? Yox, yox, doğrudan da belə olmaz. Əlbəttə, bununla heç də demək istimirəm ki, ümidinizi üzün. Yox, niyə üzəsiniz? Siz yalnız həbs olunmusunuz, vəssalam. Mən bunu sizə deməliydim və dedim, eyni zamanda, necə qəbul etdiyinizi də gördüm. Bu günlük kifayətdir və biz vidalaşa bilərik, ancaq müvəqqəti... Yəqin indi banka gedəcəksiniz, elədirmi?

– Banka? Mən elə bilirdim, həbs olunmuşam... – K. bu sözləri saymazyana dedi, çünki inspektor əl verməsə də, onun ayağa durduğu andan özünü sərbəst, hər şeydən əvvəl də, bu adamlardan asılı olmadığını hiss edirdi. Onlarla oynamağa başladı. Fikirləşdi ki, gedəsi olsalar, qapıya qədər arxalarınca qaçıb desin ki, bəs onu həbs etmişdilər... Ona görə də təkrar etdi:

– Həbs olunmuşamsa, banka necə gedə bilərəm?

– Belə de... – artıq qapıya çatan inspektor cavab verdi. – Siz məni düz başa düşmədiniz. Əlbəttə, həbs olunubsunuz, ancaq bu, işinizə mane olmayacaq. Heç gündəlik həyat tərzinizi də dəyişdirməməlidir.

– Belə həbs olunmağa nə var ki! – deyən K. inspektora tərəf getdi.

– Mən də elə düşünürəm... – İnspektor cavab verdi.

– Belə olan halda həbs olunmağım barədə xəbərdarlıq etmək elə də vacib deyildi, – deyən K. inspektora bir az da yaxınlaşdı. İndi içəridəkilərin hamısı qapının ağzına yığışmışdı.

– Bu mənim borcum idi, – dedi inspektor.

– Səfeh borcdur! – K. təslim olmaq istəmədi.

– Ola bilər... Ancaq gəlin belə söhbətlərlə vaxt itirməyək. Mən elə bildim, banka getmək istəyəcəksiniz. Lakin hər deyilən sözə bir məna verdiyiniz üçün əlavə edirəm: sizi banka getməyə məcbur etmirəm, sadəcə olaraq, elə bildim ki, oraya getmək istəyirsiniz və işinizi yüngülləşdirmək, oradakıların diqqətini cəlb etməmək üçün bu üç cənabı – öz həmkarlarınızı ixtiyarınıza vermək istədim.

– Necə? – K. heyrətlə həmin üç nəfərə baxdı. Bu çəlimsiz, diqqəti cəlb etməyən, yalnız kollektiv şəkillərdən yadında qalan üç cavan, həqiqətən, onunla bir bankda çalışırdılar, ancaq heç birinə həmkarı demək olmazdı və bu da sübut edirdi ki, inspektorun çox şeydən xəbəri yoxdur, ancaq doğrudan da orada aşağı vazifədə işləyirdilər. Bəs necə olmuşdu ki, bu, K.-nın gözündən yayınmışdı? Gör inspektorla keşikçilər başını necə qatmışdılar ki, onları tanımamışdı!

Qaraqabaq, danışanda əl-qolunu ölçən Rabenştayneri, gözləri çuxura düşmüş sarışın Kullixi və bir də səyriyən sifətində həmişə zəhlətökən bir təbəssüm dolaşan Kamineri!

– Sabahınız xeyir! – K. azacıq sonra dilləndi və yüngülcə baş əyməklə hər üçünə əl verdi. – Sizi tanıya bilmədim... Deməli, indi işə gedirik, elə deyilmi?

Cənablar tələsik gülərək başlarını tərpətdilər, sanki səhərdən elə bunu gözləyirmişlər və məlum olanda ki, K. papağını yadından çıxarıb otaqda qoyub, üçü də birdən oraya cumdu, hiss olundu ki, həyəcanlı imişlər. K. sakitcə dayanıb onların arxasınca baxdı. Əlbəttə, lap axırda hər şeyə biganə Rabenştayner zərif addımlarla yeriyirdi. Kaminer papağı ona uzatdı və K., həmişə bankda olduğu kimi, bu dəfə də özünü inandırmalı oldu ki, o, qəsdlə gülümsəmədi, heç qəsdlə gülümsəyə də bilməzdi. Ön otaqda özünü zərrə qədər də günahkar sanmayan frau Qrubax mənzilin qapısını çıxanlar üçün açıq saxladı və K. onun, adəti üzrə, yenə də dolu bədəninə mənasız yerə bərk-bərk sıxılmış önlüyünün bağına baxdı. Saatı əlində olan K. aşağıda qərara aldı ki, maşınla getsinlər, heç nədən gecikdikləri yarım saatı bir az da uzatmasınlar. Kaminer taksi gətirmək üçün tinə qaçdı, qalan iki nəfər isə sanki K.-nın başını qatmaq istədi, Kullix üzbəüz binanın giriş qapısını göstərdi: orada bayaqkı iri cüssəli, sarı bığlı kişi peyda oldu və əvvəlcə sanki bu iri bədənini göstərdiyinə pərt oldu, divarın dibinə çəkilib ona söykəndi. Yəqin ki qarılar da indi pilləkənlə enirdilər. K.-nın Kullixə acığı tutdu ki, niyə onların diqqətini həmin kişiyə cəlb etdi. Özü onu hamıdan əvvəl görmüşdü, hətta bəlkə gözləmişdi də...

– O tərəfə baxmayın! – deyə çəmkirdi və heç ağlına da gəlmədi ki, qarşısındakı müstəqil adamlardır, onlarla bu tərzdə danışmaq yaxşı deyil. Ancaq bunun fərqinə varmaq lazım olmadı, çünki həmin anda taksi gəlib çıxdı, yola düşdülər. K. yalnız indi xatırladı ki, nə inspektorun, nə də keşikçilərin getdiyinə fikir verməyib, əvvəlcə onlar iş yoldaşlarını görməyə qoymamışdılar, indi də iş yoldaşları onları... Deməli, gözlənilməz təsadüflərə hazır deyilmiş və qərara aldı ki, belə məsələlərdə daha dəqiq olsun. Qeyri-ixtiyari döndü, bir az dikəlib maşının arxa şüşəsindən baxdı ki, bəlkə inspektorla keşikçiləri görə bildi. Lakin tez də başını çevirdi, maşının bir küncündə yerini rahatladı, daha heç kəsi itirib-axtarmadı. Üzündən görünməsə də, məhz bu anda kiminləsə danışmağa ehtiyacı vardı, ancaq oğlanlar yorğun görünürdülər. Rabenştayner maşının pəncərəsindən sağa, Kullix isə sola baxırdı, yalnız irişən Kaminerlə danışa bilərdi, ancaq onu da ələ salmağa insanlıq yol vermirdi.

* * *

K. bu yaz axşamlarını adətən belə keçirirdi: işdən sonra imkan olanda – çox vaxt saat doqquza kimi otağında qalıb işləyirdi – tək və ya iş yoldaşları ilə bir az gəzişirdi, sonra da pivəxanaya gedirdi, həmişəki stolun arxasında adətən yaşlı adamlarla saat on birə qədər oturardu. Bəzən bu düzəndə müstəsnalar da olurdu: məsələn, işçilərinə, aralarındkı etimada xüsusi önəm verən bank direktoru onları maşın gəzintisnə və ya villasında axşam yeməyinə dəvət edirdi. Bundan əlavə, həftədə bir dəfə gecəni səhərə qədər meyxanalardan birində xidmətçi işləyən, gündüzlər qonaqlarını elə yataqda qarşılayan Elza adlı bir qızın yanına gedirdi.

Ancaq bu axşam – gərgin işlədiyindən, ad günü münasibətilə coxlu təbriklərdən, arzulardan sonra gün çox tez ötüb keçmişdi – evə getmək istədi. İş arası qısa fasilələrdə həmişə bu barədə düşünmüşdü. Nəyi nəzərdə tutduğunu dəqiq bilməsə də, ona elə gəlirdi ki, busəhərki hadisə frau Qrubaxın mənzilində nəsə bir intizamsızlıq yaradıb və oranı özü qaydaya salmalıdır. Orada hər şey qaydaya düşsə, hər şey əvvəlki kimi olardı. Xüsusilə, o üç məmurdan ehtiyat etməyə dəyməzdi, onların başı yenə də ağır bank işlərinə qarışmışdı, heç birində də dəyişiklik hiss olunmurdu. K. üçünü də gah tək-tək, gah da birlikdə otağına çağırmış, məqsədi də onları müşahidə etmək olmuş və bütün hallarda da razı qalmışdı.

Saat onun yarısında yaşadığı evin qarşısına çatanda, girişdə ayaqlarını aralı qoyaraq qəlyan çəkən bir gənclə rastlaşdı.

– Kimsiniz? – deyə tez soruşdu və başını oğlana tərəf uzatdı, çünki dəhlizin yarıqaranlığında onu yaxşı görə bilmədi.

– Dalandarın oğluyam, mərhəmətli cənab, – deyə oğlan qəlyanını ağzından çıxararaq yana çəkildi.

– Dalandarın oğlu? – bir də soruşan K. səbirsizliklə əlindəki əsa ilə döşəməni tıqqıldatmağa başladı.

– Bəlkə mərhəmətli cənaba nəsə lazımdır?! Atamı çağırım?

– Xeyr, xeyr, – K.-nın səsində nəsə rəhmdillik duyulurdu, elə bil oğlan pis iş görmüşdü, K. da onu bağışlayırdı. Sonra: – Hər şey qaydasındadır, – deyərək yoluna davam etdi, ancaq pilləkənə çatar-çatmaz bir də dönüb baxdı.

İstəsə, birbaşa öz otağına gedə bilərdi, ancaq frau Qrubaxla danışmaq istədiyi üçün onun qapısını döydü. Frau əlində corab stolun arxasında oturmuşdu və stolun üstündə də bir yığın köhnə corab vardı. K. nə edəcəyini bilməyərək, belə gec gəldiyi üçün üzr istədi, ancaq frau Qrubax onu çox mehriban qarşıladı, üzr istəməyə qoymadı və dedi ki, istədiyi vaxt gələ bilər, çünki K. onun ən yaxşı, ən sevimli kirayənişinidir. K. yan-yörəsinə boylandı: otaqda hər şey əvvəlki yerində idi, səhər yeməyi gətirilmiş, qab-qacaq da pəncərənin yanındakı balaca stoldan yığışdırılmışdı. “Sakitlik olanda, qadın əlləri çox iş görə bilir...” – deyə ürəyindən keçirdi. Özü onları elə yerindəcə sındırardı, heç vaxt harayasa daşıyıb aparmazdı. Bir növ, minnətdərlıq hissi ilə frau Qrubaxa baxdı.

– Niyə gecənin bu vaxtı da işləyirsiniz? – deyə soruşdu.

Hər ikisi stolun arxasında oturmuşdu və K. da hərdən əlini onun üstündəki corabların arasına salırdı.

– İş çoxdur, – qadın dilləndi, – gündüzlər kirayənişinlərin ixtiyarında oluram. Yalnız axşamlar öz işlərimlə məşğul ola bilirəm.

– Yəqin bu gün də mən sizə xeyli əlavə iş yaratdım... Özü də qeyri– adi bir iş...

– Necə yəni? – qadın dikəldi və əlindəki işi saxladı.

– Bu gün səhər tezdən gələn kişiləri deyirəm.

– Belə de... – qadın sakitləşdi. – Mənim üçün heç bir əlavə iş yaratmadılar...

K. sakitcə onun işinə təzədən başlamasını seyr etdi. "Deyəsən, mənim bu barədə söhbət açdığıma təəccübləndi..." -deyə fikirləşdi, – "bu haqda danışdığıma yaxşı baxmır..."

– Xeyr, yəqin ki yaratmış oldum. Ancaq bir də belə şey olmayacaq.

– Yox, bir də belə şey ola bilməz! – qadın K.– nın dediklərini təsdiqlədi və kədərli bir təbəssümlə onun üzünə baxdı.

– Ciddi sözünüzdür?

– Bəli! – qadın yavaşdan dilləndi. – Ancaq bunu da çox ürəyinizə salmayın. Bu dünyada nələr olmur ki! Bir halda ki mənimlə belə səmimi söhbət edirsiniz, cənab K., onda boynuma alıram ki, bir az qapının arxasında dayanıb qulaq asdım, bir az da o iki keşikçi ilə söhbət etdim. Əslində, söhbət sizin gələcəyinizdən gedir və doğrudan da sizə heyfim gəlir, bəlkə də bunun mənə heç dəxli yoxdur, çünki mən, olsa-olsa, sizin ev sahibəsiyəm. Düzdür, bəzi şeylər eşitdim və deməzdim ki, vəziyyət çox pisdir. Xeyr! Düzdür, siz həbs olunmusunuz, ancaq oğru kimi tutulmamısınız. Oğru kimi həbs olunmaq pis şeydir, ancaq sizin tutulmağınız... Mənə elə gəlir, burda nəsə bir elmi cəhət var... Əgər səfeh-səfeh danışıramsa, üzr istəyirəm... Düzdür, nə olduğunu başa düşmürəm, ancaq mənə elə gəlir, burda nəsə bir elmi cəhət var. Bəlkə də bunu heç başa düşmək lazım deyil...

– Dedikləriniz heç də səfeh sözlər deyil, frau Qrubax, ən azı, mən də qismən sizin kimi düşünürəm, ancaq bütün olub-keçənləri daha kəskin şəkildə mühakimə edirəm və burda da heç bir elmilik görmürəm, hamısını mənasız şey hesab edirəm. Məni pis yerdə yaxaladılar, vəssalam... Oyanan kimi Annanın gecikməsindən çaşmayıb ayağa dursaydım, kimliyindən asılı olmayaraq, qarşıma çıxanlara fikir verməyib birbaşa sizin yanınıza gəlsəydim, müstəsna hal kimi, bu dəfə mətbəxdə nahar etsəydim, sizdən paltarlarımı gətirməyi xahiş etsəydim, bir sözlə, ağıllı tərpənsəydim, heç nə də olmazdı, sonradan baş verənlərin hamısının qarşısı elə əvvəlcədən alınardı. Ancaq adam belə şeylərə çox vaxt hazır olmur. Məsələn, bankda belə şeylərə hazır oluram, orda heç vaxt başıma belə iş gələ bilməz, çünki özümün xidmətçim, şəhər telefonum var. Otağımdakı telefon aparatları qarşımdakı masanın üstündədirlər. Tez-tez yanıma adamlar, müştərilər, məmurlar gəlir, bundan əlavə, orda həmişə başım işə qarışır, hər cür təsadüfə hazır oluram və elə yerdə başıma bu cür iş gəlsəydi, əksinə, sevinərdim. Ancaq bütün bunların hamısı artıq arxada qalıb. Əslində, bu barədə heç danışmaq istəmirdim də, ancaq sizin fikrinizi, ağıllı bir qadının fikrini öyrənmək istəyirdim və çox şadam ki, bu barədə eyni cür düşünürük. İndi isə mənə əl verin, bu cür uyarlıq əl verməklə təsdiqlənməlidir.

"Görəsən əl verəcəkmi?! İnspektor vermədi..." – deyə ürəyindən keçirdi və həmişəkindən fərqli olaraq, qadını sınayıcı nəzərlərlə süzdü. Qadın ayağa durdu, çünki K. da ayaq üstə idi. Frau Qrubax bir az pərt olmuşdu, çünki K.-nın dediklərinin hamısını başa düşməmişdi. Pərt olduğu üçün də istəmədiyi, həm də yerinə düşməyən sözlər dedi:

– Bunu çox da ürəyinizə salmayın, cənab K.

Həmin anda da doluxsundu və əlbəttə, əl verməyi unutdu.

– Heç bilməzdim ki, mənə belə təsir edəcək, – deyən K. qəflətən yorulduğunu, bu qadının onun dərdinə şərik olduğunun mənasızlığını hiss elədi.

Qapıya çatanda bir də soruşdu:

– Frölayn Bürstner evdədir?

– Xeyr, – frau Qrubax gülümsədi və bu adi məlumatı ilə, gec də olsa onun dərdinə şərik çıxdığına sevindi. – Teatra gedib. Onunla işiniz vardı? Nəsə çatdırmaq lazımdır?

– Ah, ona bir-iki kəlmə sözüm vardı.

– Təəssüf ki nə vaxt qayıdacağını bilmirəm. Teatra gedəndə, adətən, gec qayıdır.

– Eybi yoxdur, – deyən K. getmək istədi. – Sadəcə, bu səhər otağını əlindən aldığıma görə üzrxahlıq etmək istəyirdim.

– Lazım deyil, cənab K., siz cox nəzakətli adamsınız, qızın heç nədən xəbəri yoxdur, səhər tezdən çıxandır, hələ qayıtmayıb, indi də gördüyünüz kimi, hər şey yerli-yerindədir. – Qadın bunu deyib frölayn Bürstnerin otağının qapısını açdı.

– Təşəkkür edirəm, dediklərinizə inanıram, – deyən K. ancaq yenə də açıq qapıya tərəf getdi. Qaranlıq otağa ayın işığı düşürdü. Görünən yerlərdə, doğrudan da, hər şey yerində idi, hətta koftanı da pəncərənin dəstəyindən götürmüşdülər. Diqqəti ən çox cəlb edən çarpayının ay işığında parıldayan pardaxlı yerləri idi.

– Frölayn tez-tez evə gec gəlir... – deyə K. frau Qrubaxa baxdı, sanki buna da o cavabdeh idi.

– İndi bütün cavanlar belədir! – frau Qrubax üzr istədi.

– Elədir, elədir! Ancaq bunun axırı pis ola bilər.

– Olar! Çox düz deyirsiniz, cənab K. Bəlkə də indiki vəziyyətdə tam haqlısınız. Əlbəttə, frölayn Bürstnerə qara yaxmaq istəmirəm, çünki çox yaxşı, sevimli, mehriban, səliqəli, dəqiq, zəhmətkeş qızdır və bunların hamısını yüksək qiymətləndirirəm, ancaq bu da həqiqətdir ki, o daha məğrur, səbirli olmalıdır. Elə bu ay onu iki dəfə xəlvət küçələrdə, özü də başqa-başqa oğlanlarla görmüşəm. Çox pisimə gəldi. Allah haqqı, bu haqda yalnız sizə deyirəm, amma ola bilsin, qızın özü ilə də bu barədə danışdım.

– Siz çox böyük bir səhvə yol verirsiniz, frau Qrubax! – K. qəzəbini gizlədə bilmədi. – Yeri gəlmişkən, frölayn haqqında mənim dediklərimi də düz başa düşməmisiniz, mən o mənada demirdim. Düz sözümdür, qıza heç nə deməyin, çünki yanılırsınız, mən frölaynı çox yaxşı tanıyıram, sizin dediklərinizin heç biri həqiqətə uyğun deyil. Bəlkə də mən bir az ağ eləyirəm, sizə mane olmaq istəmirəm, ona nə istəyirsiniz deyin. Gecəniz xeyrə qalsın.

– Cənab K., – frau Qrubax yalvarıcı bir səslə dilləndi və qapını açıb öz otağına girən K.– nın ardınca tələsdi. – Hələlik frölayna heç nə demək istəmirəm, əlbəttə, ona hələ göz qoyacam, indi yalnız sizə etibar eləyib, bildiklərimi dedim. Axı pansionda təmizliyin olması da kirəkeşlərin xeyrinədir.

Həmin anda K. qapını örtdü və onun yavaşdan döyülməsinə fikir vermədi.

Yatmağa həvəsi olmadığından qərara aldı ki, oyaq qalsın və fürsətdən istifadə edərək frölayn Bürstnerin nə vaxt qayıtdığından xəbər tutsun. Bəlkə də, çox gec olsa da, onunla bir-iki kəlmə kəsə bildi. Pəncərənin qabağında uzanıb yorğun gözlərini ovuşduranda hətta bir anlığa fikirləşdi ki, bəlkə frölayn Bürstneri də inandırsın, ikisi də başqa yerə köçüb getsin. Ancaq elə həmin dəqiqə də hiss etdi ki, məsələni çox şişirdir. Hətta özündən şübhələnməyə başladı ki, bəlkə də səhərki hadisəyə görə buralardan uzaqlaşmaq istəyir. Yox, bundan böyük səfehlik ola bilməzdi, hər şeydən əvvəl də, nifrət qazanardı, niyə belə elədiyini heç özü də bilməzdi.

Boş küçəyə baxmaqdan bezdi, durub divanda uzandı, qapını da bir az aralı qoydu ki, içəri girən olsa, görsün. Təxminən saat on birin yarısına kimi sakitcə uzanıb siqar çəkdi. Sonra dəhlizə çıxdı, sanki bununla frölayn Bürstnerin gəlişini tezləşdirmək istəyirdi. Onunla görüşməyə cox da həvəsli deyildi, hətta qızın görkəmini də düz-əməlli xatırlaya bilmirdi, ancaq onunla danışmaq istəyirdi, əsəbiləşirdi ki, gec qayıtdığı üçün bu gün belə narahat, qarışıqlıqla sona yetir. Axşam yeməyinə, sonra da Elzanın yanına gedə bilməməsinin günahkarı da qız idi. Ancaq ikisinin də əvəzini Elzanın işlədiyi meyxanaya getməklə çıxa bilərdi. İstəyirdi ki, frölayn Bürstnerlə danışandan sonra belə də eləsin.

Pilləkəndə ayaq səsləri eşidiləndə, saat on ikinin yarısını keçmişdi. Fikirli-fikirli, sanki öz otağındaymış kimi, ön dəhlizdə arxayın-arxayın gəzişən K. qapısının arxasına keçdi. Gələn frölayn Bürstner idi. O, çöl qapısını bağladı, üşüyə-üşüyə ipək şalı çiyninə saldı. İndicə otağına girəcək və məlum məsələ idi ki, K. da gecənin bu vaxtında oraya gedə bilməyəcəkdi. Deməli, indi onunla danışmalı idi, ancaq bədbəxtlikdən otağının işığını yandırmamışdı və birdən-birə qaranlıq otaqdan çıxması hücum çəkmək kimi başa düşülərdi, ən azı, qızı qorxudardı. Nə edəcəyini bilmədi, vaxt da itirmək olmazdı və ona görə də qapının açıq yerindən pıçıldadı:

– Frölayn Bürstner! – bu, sanki çağırış deyil, nəsə bir xahiş kimi səsləndi.

– Kim var burda? – gözləri böyümüş qız ətrafa boylandı.

– Mənəm, – deyə K. içəridən çıxdı.

– Ah, sizsiniz, cənab K.! – frölayn Bürstner gülümsədi. – Axşamınız xeyir, – deyib ona əl verdi.

– Sizə bir-iki kəlmə sözüm var. İndi icazə olar?

– İndi? Mütləq indi? Bir az təəccüblüdür, elə deyilmi?

– Saat doqquzdan sizi gözləyirəm.

– Elədir, teatra getmişdim, gözlədiyinizi bilmirdim axı...

– Səhər-səhər baş verən hadisədən sonra sizinlə danışmağı qərara aldım.

– Elə isə mənim ciddi etirazım yoxdur, ancaq o qədər yorulmuşam ki, az qalır yıxılam. Onda bir-iki dəqiqəliyə mənim otağıma gəlin. Onsuz da burada danışa bilmərik, hamını oyadarıq. Heç özümüzə də yaxşı deyil, camaat eşidər. Mən otağımın işığını yandırana kimi gözləyin, sonra buranı söndürərsiniz.

K. onun dediyi kimi elədi, qız öz otağından “Gəlin” – deyənə kimi gözlədi.

– Əyləşin, – deyə qız divanı göstərdi, özü isə bayaq dediyi kimi, çox yorğun olsa da, çarpayının yanında dayandı. Hətta güllərlə bəzədilmiş şlyapasını da çıxarmadı. – Nə buyurursunuz? Doğrudan da maraqlıdır...

– Bəlkə də deyəcəksiniz, bu elə vacib məsələ deyilmiş ki, bu gün müzakirə olunsun... – K. sözə başladı. – Ancaq....

– Onsuz da mən giriş hissəsinə qulaq asmıram.

– Bu mənim işimi daha da asanlaşdırır. Bu gün səhər tezdən otağınıza, qismən də olsa, mənim günahım üzündən yad adamlar girmişdi. Mənim xəbərim olmayıb, ancaq dediyim kimi, mənim günahım üzündən olub və buna görə də üzr istəyirəm.

– Mənim otağıma? – frölayn Bürstner otağa baxmaq əvəzinə K.-nı sualedici nəzərlərlə süzdü.

– Elədir... – Onlar bayaqdan bəri ilk dəfə bir-birinin gözünün içinə baxdı. – Bunun necə və niyə belə olduğu barədə də heç danışmağa dəyməz.

– Ancaq, əslində, ən maraqlısı elə budur.

– Xeyr.

– Olsun! Mən kiminsə sirrini öyrənmək fikrində deyiləm. Əgər bunun maraqlı olmadığını israr edirsinizsə, onda mən də israr etmirəm. Məmnuniyyətlə də sizin üzrxahlığınızı qəbul edirəm. Ən azı ona görə ki, buraya kiminsə girdiyindən əsər-əlamət yoxdur. – O, əllərini belinə qoyaraq otaqda gəzişdi, fotoşəkillərin yanına çatanda dayandı. – Bir bura baxın! – Ucadan dilləndi. – Şəkilləri qurdalayıblar... Yaramazlar! Deməli, kimsə özbaşınalıq eləyib, otağıma soxulub...

K. başını tərpədərək ürəyində səfeh, mənasız çılğınlığını heç vaxt cilovlaya bilməyən məmur Kamineri söydü.

– Qəribədir, – frölayn Bürstner sözə başladı, – mən sizə özünüz özünüzə yasaq etməli olduğunuz bir şeyi qadağan etməliyəm, daha doğrusu, mən olmayanda, otağıma girməyi...

– Axı sizə dedim, frölayn, – K. da şəkillərə yaxınlaşdı,– şəkilləri mən qurdalamamışam. İndi ki mənə inanmırsınız, onda düzünü deyərəm: istintaq komissiyası özü ilə üç bank işçisi gətirmişdi, yəqin ki onlardan biri – imkan düşən kimi, onu işdən qovacam – fürsətdən istifadə eləyib şəkillərə əl vurub. – frölayn Bürstnerin sualedici nəzərlərlə ona baxdığını görən K. əlavə etdi: – Bəli, istintaq komissiyası idi.

– Sizə görə gəlmişdi?

– Bəli...

– Ola bilməz! – frölayn Bürstner güldü.

– Olar! Elə bilirsiniz, mən günahsızam?

– Hə, günahsız... Mən elə bu dəqiqə nəticəsi bəlkə də ağır olan hökm vermək istəməzdim, sizi də elə yaxından tanımıram. Ancaq çox ağır cinayət olmalıdır ki, kiminsə arxasınca evə istintaq komissiyası göndərilsin. Ancaq indi siz azadlıqdasınız, bu sakit görkəminizdən bilinir ki, həbsxanadan qaçmamalısınız, deməli, ağır cinayət törətməmisiniz.

– Elədir! Ancaq istintaq komissiyası aydınlaşdırmalı idi ki, mən günahsızam və ya fikirləşdikləri qədər də günahkar deyiləm.

– Əlbəttə, ola bilər... – frölayn Bürstner bu sözləri çox ehtiyatla dedi.

– Görürsünüzmu, məhkəmə işlərindən yaxşı baş çıxara bilmirsiniz.

– Elədir, yaxşı başım çıxmır. Özüm də buna tez-tez təəssüflənirəm, çünki hər şeyi bilmək istəyirəm, xüsusilə də, məhkəmə məsələləri məni dəhşətli dərəcədə maraqlandırır. Məkəmə proseslərinin özünəməxsus cazibədarlığı var, elə deyilmi? Ancaq çox güman ki, bu istiqamətdə biliklərimi artıra biləcəm, çünki gələn aydan vəkillər idarəsinin dəftərxanasında işləyəcəm.

– Çox yaxşı oldu. Onda məhkəmədə mənə kömək də edərsiniz.

– Ola bilər! Niyə də olmasın?! Bildiklərimdən istifadə etməyi xoşlayıram.

– Ciddi sözümdür. Ya da, ən azı, sizin düşündüyünüz kimi, yarıciddidir. Belə xırda iş üçün vəkil tutmağa dəyməz, ancaq məsləhətçi lazımdır.

– Elədir. Ancaq mən məsləhətçi olacağamsa, söhbətin nədən getdiyini bilməliyəm.

– Elə məsələ də bundadır, heç mən özüm də bilmirəm.

– Deməli, məni yaxşıca ələ saldınız... – frölayn Bürstner əməlli-başlı pərt oldu. – Ancaq bunun üçün gecənin bu vaxtını seçmək lazım deyildi... – qız bunu deyib bayaqdan yanında yanaşı dayandıqları şəkillərdən aralandı.

– Elə deyil, frölayn, ələ salmıram... Eh, siz də mənə inanmaq istəmirsiniz! Bildiklərimin hamısını sizə dedim. Hətta bildiklərimdən də çox dedim, çünki bu, istintaq komissiyası deyildi, özüm belə deyirəm, çünki adını bilmirəm. İstintaq olmadı, məni həbs etdilər, özü də komissiya tərəfindən həbs olundum.

Frölayn Bürstner divana oturub yenə güldü:

– Hə, necəydi?

– Dəhşətli! – deyən K. daha o barədə düşünmürdü, indi gözlərini frölayn Bürstnerdən ayıra bilmirdi. Qız divanın yastığına dirsəklənib üzünü də əlinə söykəmişdi, o biri əli ilə də baldırını sığallayırdı.

– Bu çox ümumi oldu, – dedi qız.

– Nə ümumi oldu? – soruşan K. hər şeyi təzədən xatırladı. -Necə olduğunu göstərim? – o, yerindən tərpəndi, ancaq getmədi.

– Daha yoruldum... – dedi frölayn Bürstner.

– Gec gəldiniz...

– Bəli, axırda da məzəmmət olunuram. Mənə haqq olur, sizi içəri buraxmaq lazım deyildi.

– Lazım idi. İndi özünüz də görəcəksiniz. Tumbanı çarpayınızın yanından bura çəkmək olar?

– Bu hardan ağlınıza gəldi? Əlbəttə olmaz!

– Onda göstərə bilmərəm! – K. bu sözləri elə həyəcanla dedi ki, sanki bununla böyük bir şeyi itirmiş olurdu.

– Əgər nəsə göstərmək istəyirsinizsə, onda səs eləmədən çəkin, – dedi frölayn Bürstner və azacıq sonra da zəif səslə əlavə etdi: – Elə yorğunam ki, nə desəniz, razı olacam.

K. tumbanı otağın ortasına çəkib onun arxasında oturdu.

– Adamların harda dayandıqlarını təsəvvürünüzə gətirin, çox maraqlıdır. Mən inspektoram, ordakı sandığın üstündə iki keşikçi oturur, şəkillərin yanında isə üç cavan oğlan dayanıb. Onu da deyim ki, pəncərənin dəstəyindən də ağ kofta asılıb. İndi başlayır! Bəli, mən özümü unuduram. Burdakı ən vacib adam, yəni mən, tumbanın qarşısında dayanmışam. İnspektor rahatca oturub, ayaqlarını bir-birinin üstünə aşırıb, əlini də söykənəcəyə qoyub, gicbəsərə oxşayır. İndi doğrudan başlayır! İnspektor ucadan danışır, sanki məni oyatmaq istəyir, bəlkə... qışqırır, təəssüf ki, sizi daha yaxşı başa salmaq üçün mən də qışqırmalıyam, əslində, dediyi söz də yalnız mənim adımdır...

Gülə-gülə ona qulaq asan frölayn Bürstner tez şəhadət barmağını dodaqlarına apardı ki, qışqırmağına mane olsun, ancaq artıq gec idi. K. rola girmişdi və yavaş-yavaş qışqırırdı: “Yozef K.!” Düzdür, təsvir etdiyi qədər də ucadan qışqırmadı, ancaq kifayət qədər ucadan oldu. Qonşu otağın qapısı bir neçə dəfə döyüldü. Bərkdən, özü də dalbadal. Frölayn Bürstner avazıdı, əlini ürəyinin başına qoydu. K. daha çox qorxdu, çünki bir anlığa səhər baş verən hadisədən, onu qıza nümayiş etdirmək həvəsindən başqa heç nə barədə düşünmürdü. Özünə gələn kimi frölayn Bürstnerə tərəf cumub onun əlindən tutdu:

– Heç nədən qorxmayın, – deyə pıçıldadı, – özüm hər şeyi qaydasına salacam. Görəsən bu kim ola bilər? Böyürdəki qonaq otağıdır və orda da heç kim qalmır.

– Qalır, – frölayn Bürstner K.-nın qulağına pıçıldadı. – Dünəndən orda frau Qrubaxın bacısı oğlu yatır, kapitandır. Başqa boş otaq yox idi. Mən də unutmuşdum... Siz də elə qışqırdınız ki... Vay mənim halıma...

– Narahatlığa əsas yoxdur, – deyən K. başını yastığın üstünə əyən frölayn Bürstnerin yanağından öpdü.

– Gedin, gedin! – deyə qız tez dikəldi. – Gedin də... Daha nə istəyirsiniz, çıxın gedin, axı, qapıdan qulaq asır, hamısını eşidir... Məni çox incidirsiniz....

– Siz sakitləşməyincə gedən deyiləm. Otağın o biri küncünə gedək, oradan bizi eşidə bilməz... – Müqavimət göstərməyən qızı o biri tərəfə apardı. – Heç fikirləşmirsiniz ki, söhbət burda xoş olmayan bir məsələdən getsə də, sizi heç bir təhlükə gözləmir. Bilirsiniz ki, bu məsələdə əsas söz sahibi olan frau Qrubaxın mənə xüsusi hörməti var, kapitan da bacısı oğlu olduğu üçün, nə

desəm inanacaq. Digər tərəfdən, məndən asılıdır, ona xeyli pul borc vermişəm. İndi bir yerdə olduğumuzun səbəbi barədə nə desəniz, lap məqsədəuyğun olmasa da, onu qəbul etməyə hazıram və söz verirəm ki, frau Qrubax dediklərinizə elüzəri deyil, sidq-ürəkdən, səmimiyyətlə inanacaq. Bu məsələdə mənə yazığınız gəlməsin. Desəniz ki, sizə hücum çəkmişəm, eybi yox, frau Qrubaxa əvvəlcədən deyiləcək, mənə etibarını itirmədən buna inanacaq. – frölayn Bürstner büzüşərək sakitcə yerə baxırdı. – Axı bir də frau Qrubax niyə inanmamalıdır ki, mən sizə hücum çəkmişəm? – deyə K. əlavə etdi.

Qızın tağlanmış, möhkəm-möhkəm düyünlənmiş qızılı saçlarına baxdı. Ona elə gəldi ki, qız da indi başını qaldırıb K.-ya baxacaq. Lakin o, qımıldanmadan dedi:

– Bağışlayın, qapının qəfil döyülməsi məni elə qorxutdu ki... Özü də kapitana görə yox... Siz qışqırandan sonra sakitlik oldu və birdən qapı döyüldü, bərk qorxdum, qapının yaxınlığında oturmuşdum, lap yaxınlıqda döyüldü... Təkliflərinizə görə təşəkkür edirəm, ancaq qəbul edə bilmərəm. Mənim otağımda baş verənlər üçün məsuliyyəti özüm daşıyıram, hamıya da cavab verməyə hazıram. Məni təəccübləndirən odur ki, xoş niyyətlə deyildiyini başa düşsəm də, təkliflərinizin necə xətrimə dəydiyini hiss eləmirsiniz. İndisə gedin, məni tək buraxın, tək qalmaq mənə əvvəlkindən də çox lazımdır. Bir-iki dəqiqə xahiş etmişdiniz, ancaq yarım saat, bəlkə də çox oldu.

K. əvvəlcə onun əlindən, sonra da biləyindən yapışdı:

– Mənə acığınız tutmadı ki?

– Xeyr, xeyr, mənim heç vaxt heç kimə acığım tutmur.

K. yenə də frölayn Bürstnerin biləyindən yapışdı, qız müqavimət göstərməyib onu qapıya tərəf çəkdi. Özü də qəti qərara gəlmişdi ki, çıxıb getsin. Ancaq qapıya çatanda dayandı, elə bil burada qapı olacağını heç gözləmirdi. Frölayn Bürstner də bundan istifadə edərək onun əlindən çıxdı, qapını açaraq ön otağa keçdi, elə oradan da yavaşca dedi:

– Xahiş edirəm, gəlin! Görürsünüz, – o, kapitanın ayaq tərəfindən işıq gələn qapısını göstərdi, – işığı yandırıb, bizdən danışırlar...

– Gəldim! – deyə K. irəli yeridi, qızı qucaqlayıb dodaqlarından , sonra da üz-gözündən öpməyə başladı, elə bil susuzluqdan alışıb yanan heyvan idi, qəflətən tapdığı çeşməni yalayırdı... Axırda boğazından öpdü, dodaqlarını uzun zaman ayırmadı. Kapitanın otağından səs eşidiləndə, başını qaldırdı.

– İndi gedirəm, – dedi və qızı xaç adı ilə çağırmaq istədi, ancaq onun necə olduğunu bilmədi. Frölayn Bürstner yorğun halda başını tərpətdi, azacıq geri dönərək öpmək üçün əlini ona tərəf uzatdı, sanki heç nəyin ona dəxli yox idi və büzüşmüş halda otağına girdi. Azacıq sonra K. da artıq öz çarpayısında uzanmışdı. Çox tez yuxuya getdi və yuxuya getməmişdən əvvəl bir az etdiyi hərəkət barədə düşündü. Özündən razı qaldı, həm də təəccübləndi ki, hələ heç vaxt özündə belə razılıq hissi duymamışdı. Eyni zamanda da narahat oldu ki, birdən kapitan frölayn Bürstner üçün başağrısına çevrilər...

## İKİNCİ FƏSİL

### İlk istintaq

Telefonla K.-ya dedilər ki, gələn bazar onun işi üzrə ilk istintaq keçiriləcək. Diqqətinə çatdırdılar ki, istntaq, hər həftə olmasa da, bir qayda olaraq, tez-tez keçiriləcək. Bu hər iki tərəfin marağına uyğundur. Belə ki, məhkəmə tez qurtarar, həm də istintaq hərtərəfli aparılmalıdır, eyni zamanda da çoxlu gərginliklər yaratdığı üçün çox uzanmamalıdır. Ona görə də çıxış yolunu tez-tez keçirilən qısa istintaqlarda görüblər. İstintaq günü üçün də ona görə bazarı seçiblər ki, K.-nın işinə mane olmasınlar. Belə hesab edirlər ki, K. bununla razılaşacaq, ancaq razılaşmayıb başqa gün istəsə, imkan daxilində, güzəştə gediləcək. Məsələn, istintaqı gecələr də aparmaq mümkündür, ancaq K. yəqin ki yorğun olar. Hər halda, K. etiraz eləmirsə, elə bazar günü də qalsın. Məlum məsələdir ki, o mütləq gələcək, bunu xatırlatmaq artıqdır. Getməli olduğu evin nömrəsini dedilər. Şəhərin kənarındakı küçələrdən birində idi, K. orada heç vaxt olmamışdı.

K. cavab vermədən bu xəbəri axıracan dinlədi, sonra dəstəyi asdı. O dəqiqə də qərara aldı ki, bazar günü getsin. Bu mütləq lazım idi, məhkəmə başlamışdı, özünü müdafiə etməli idi, ilk istintaq həm də sonuncu olmalıydı. Hələ də fikirli-fikirli telefonun yanında dayanmışdı və arxadan direktor müavininin səsini eşitdi: o, zəng etmək istəyirdi, K. isə yolunu kəsmişdi.

– Pis xəbər oldu? – deyə ağızucu soruşan direktor müavininin məqsədi nəsə öyrənmək deyil, onu aparatdan uzaqlaşdırmaq idi.

– Xeyr, xeyr, – deyən K. yana çəkilsə də, getmədi.

Direktor müavini dəstəyi götürüb bağlantını gözləyə-gözləyə dedi:

– Bir söz soruşum, cənab K., bazar günü tezdən bizi şərəfləndirib mənim yelkənli qayığımla səyahətə çıxarsınız? Adam çox olacaq, əlbəttə, sizin tanışlardan da gələn olacaq. Prokuror Hasterer də gələcək. Gələrsiniz? Gəlin, gəlin!

K. çalışırdı ki, direktor müavininin hər sözünün mənasını başa düşsün. Bu, lazım idi, çünki münasibətlərinin çox pis olduğu direktor müavininin dəvəti onun tərəfindən barışıq cəhdi kimi qiymətləndirilə bilərdi və bu da öz növbəsində, K.-nın artıq bankda necə vacib adam olduğundan, burada ikinci adam hesab olunan bir şəxsin onunla dostluğa can atdığından, ən azı, neytral mövqeyinə hörmətlə yanaşmağından xəbər verirdi. Bu dəvəti telefon bağlantısını gözləyə-gözləyə ağzını dəstəyə tutub desə də, hər halda, onun geri çəkilməsi demək idi. Ancaq K. onu ikinci dəfə də alçalmağa məcbur etməli idi və ona görə də dedi:

– Təşəkkür edirəm! Ancaq təəssüflər olsun ki, bazar günü vaxtım yoxdur, başqasına söz vermişəm.

– Heyf! – direktor müavini bu sözü deyən anda bağlantı alındı və telefonla danışmağa başladı. Danışıq xeyli çəkdi və nə edəcəyini bilməyən K. da bütün bu vaxt ərzində telefon aparatının

yanındaca dayanıb qaldı. Direktor müavini dəstəyi asanda diksindi və burada mənasız yerə dayandığına, az da olsa, haqq qazandırmağa çalışdı:

– Mənə elə indi zəng vurub bir yerə çağırdılar, ancaq saat neçədə gedəcəyimi demədilər.

– Zəng vurun, soruşun da...

– Yox, elə də vacib deyil, – deyən K. bununla bayaq onsuz da mənasız görünən üzrxahlığını bir az da qiymətdən saldı. Gedərkən yolda direktor müavini başqa şeylərdən danışmağa başladı. K. özünü məcbur edib ona cavab versə də, fikirləşdi ki, bazar günü səhər saat doqquzda ora getsə yaxşı olar, çünki iş günlərində də məhkəmələr elə həmin vaxtlar başlayırdı.

Bazar günü hava tutqun idi. K. çox yorulmuşdu, çünki gecənin yarısına qədər həmişə getdiyi kafedə daimi müştərilərin təşkil etdiyi qonaqlıqda olmuşdu və az qala, yatıb qalacaqdı. Çox fikirləşmədən tələsik, bütün həftə ərzində qurduğu planları təzədən saf-çürük eləmədən, paltarını geyinib deyilən qəsəbəyə tərəf üz qoydu, heç səhər çörəyini də yemədi. Qəribə də olsa, vaxtı az qalsa da, ətrafına da göz gəzdirə bildi, onun işində iştirak edən məmurları – Rabenştayneri, Kullixi, Kamineri də gördü. Birinci iki nəfər tramvayda yanından keçib getdi, Kullix isə qəhvəxananın artırmasında oturmuşdu və K. ordan keçən anda maraqla arakəsmənin üzərindən küçəyə boylanırdı. Yəqin ki üçü də onu gördü və rəislərinin belə qaça-qaça getdiyinə təəccübləndi. Elə bil inada düşmüşdü ki, maşınla getməsin, sanki hamıdan çəkinirdi, ən azı kiminsə bu işdə ona kömək etməsini istəmirdi. Heç onu da istəmirdi ki, kiminsə vaxtını alsın, son nəticədə öz sirrini hamıya açmış olsun. Nəhayət, son dərəcə dəqiq olması ilə özünü istintaq komissiyasının yanında alçaltmaq da ürəyincə deyildi. Buna baxmayaraq, yenə də qaçırdı ki, dəqiq vaxt qoyulmasa da, saat doqquz tamamda oraya çatsın.

Ona elə gəlmişdi ki, hər hansı bir nişanəsinə və ya qapısından girib-çıxanlara görə binanı uzaqdan tanıyacaq. Bina Yuliusştrassedə olmalıydı və K. onun başlanğıcında dayanıb baxanda gördü ki, hər iki tərəfində də, demək olar, bir-birindən seçilməyən evlərdir. Uca, bomboz, kirəkeşlərin yaşadığı evlər... Bazar günü olduğundan, pəncərələrin çoxunun qabağı boş deyildi, uzunqol köynək geyinmiş kişilər divara söykənib ya siqaret çəkir, ya da balaca uşaqları ehtiyatla, nəvazişlə qucaqlarında tutub küçəni göstərirdilər. Bəzi pəncərələrdən də yorğan-döşək üzləri sallanır və hərdən də onların arxasından, ötəri də olsa, qadınların pırpızlanmış başları görünürdü. Qışqıra-qışqıra küçənin bu biri tərəfindən o biri üzü ilə danışanlar da vardı və bu qışqırtılardan biri də K. oradan keçərkən gülüş doğurdu. Uzun küçə boyu bir-birindən eyni məsafədə aralı zirzəmilərdə, səkidən iki-üç pilləkən aşağıda ərzaq malları mağazaları vardı. Qadınlar da mağazalara girib-çıxır, ya da elə pilləkəndəcə dayanıb çənə vururdular. Meyvə satan bir kişi öz mallarını pəncərədən baxanlara tərifləyə-tərifləyə K. kimi özünü unudaraq, az qala əl arabası ilə onu vurub yerə sərəcəkdi. Həmin anda qəsəbənin nisbətən varlılar yaşayan hissəsində bir qrammofon səsləndi.

K. yavaş-yavaş küçənin ortalarına qədər getdi. Elə bil indi vaxtı çox idi və ya ümid edirdi ki, müstəntiq onu pəncərələrin birindən görəcək, K.-nın gəlib çıxdığını biləcək. Saat doqquzu yenicə keçmişdi. Bina çox uzaqda idi, özü də uzun görünürdü, xüsusilə də həyətə giriş qapısı hündür, enli idi. Görünür, bu qapı ətrafdakı bağlı mağazaların maşınları üçün idi. Onların qarşısından müxtəlif firma adları yazılmış lövhələr asılmışdı və K. da həmin firmaların bir neçəsini bankdan tanıyırdı. Adəti xilafına, bütün bunları diqqətlə gözdən keçirən K. həyətin girişində bir az

ləngidi. Lap böyründə ayaqyalın bir kişi boş qutunun üstündə oturub qəzet oxuyurdu. İki oğlan uşağı da əl arabasında oturub onu irəli-geri diyirlədirdilər. Su quyusunun yanında çəlimsiz bir qız uşağı gecə köynəyində cürdəyini doldura-doldura K.-ya baxırdı. Həyətin bir küncündə iki pəncərədən bir-birinə ip uzadılmış və onun üstünə də yorğan-döşək üzləri sərilmişdi. Aşağıda bir kişi dayanıb hərdən qışqıra-qışqıra kimlərəsə göstəriş verirdi.

K. istintaq otağına getmək üçün pilləkənə tərəf yön aldı, ancaq yenə də dayanmalı oldu, çünki həyətdə evə girən daha üç pilləkən gördü, üstəlik, həyətin qurtaracağında ikinci həyətə çıxan balaca bir keçid də vardı. Əsəbiləşdi ki, niyə otağın yerini dəqiq demədilər, ona qarşı belə diqqətsizlik, ya da biganəlik göstərdilər və qərara aldı ki, bu barədə onlarla açıq danışacaq, susmayacaq. Nəhayət, pilləkənlə qalxmağa başladı və gedə-gedə də keşikçi Villemin o vaxt dediyi sözləri xatırladı ki, günah özu məhkəmənin tuşuna gəlir və buradan da belə nəticə çıxarmaq olardı ki, K.-nın təsadüfən seçdiyi pilləkən onu istintaq otağına aparır.

Qalxa-qalxa pilləkəndə oynayan çoxlu uşağa mane oldu, onların arasından keçəndə, hamısı dönüb acıqla K.-ya baxdı. Ürəyindən keçirdi ki, bir də buraya gələsi olsa, ya onları ələ almaq üçün özü ilə konfet götürsün, ya da döymək üçün toxmaq... İkinci mərtəbəyə çathaçatda hətta bir az dayanıb gözləməli oldu ki, uşaqların diyircəyi dayansın: üz-gözlərindən səfillik yağan iki oğlan uşağı onun şalvarından yapışdı. Onları itələyib uzaqlaşdırsaydı, yəqin ki əl-qolları ağrıyardı və qorxdu ki, qışqırarlar.

Əsil axtarış ikinci mərtəbədə başladı. Əlbəttə, istintaq komissiyasını axtardığını deyə bilməzdi və ona görə də dülgər Lantsı soruşmağa başladı. Bu ad da ona görə ağlına gəldi ki, kapitanın, yəni frau Qrubaxın bacısı oğlunun adı belə idi. Fikirləşdi ki, bütün mənzillərdən dülgər Lantsı soruşsun və beləliklə də, hamısının içinə baxa bilsin. Sonradan məlum oldu ki, bunsuz da keçinmək olarmış, çünki az qala qapıların hamısı açıq idi, uşaqlar girib-çıxırdılar. Çoxu balaca, birpəncərəli otaq idi və xörəyi də elə buradaca bişirdilər. Bəzi qadınlar, südəmər körpələri qucaqlarında, bir əllə yemək hazırlayırdı. Sanki önlükdəcə gəzən balaca qız uşaqları işgüzarlıqla ora-bura qaçışırdılar. Heç bir otaqda çarpayılar yığışdırılmamışdı, bəzilərində xəstələr uzanmışdı, bəzilərində hələ də yatırdılar, bəzilərinin üstünə də elə pal-paltarlı yıxılmışdılar. K. qapıları bağlı olan otaqların zəngini basdı, dülgər Lantsı soruşdu. Çox vaxt qapını qadın açır, onun kimi istədiyini biləndən sonra dönüb, bəlkə də yenicə yataqdan qalxmaq istəyən kimdənsə soruşurdu:

– Cənab Lants adlı dilgəri axtarır.

– Dülgər Lantsı? – çarpayıdakı adamın səsi eşidilirdi.

– Bəli, – deyən K. başa düşürdü ki, istintaq komissiyası burda ola bilməz və bununla da işini bitmiş hesab edirdi. Çoxlarına elə gəlirdi ki, dülgər Lants K.-ya çox lazımdır, uzun-uzadı fikirləşirdilər, hansı dülgərisə xatırlayırdılar, ancaq onun adı Lants olmurdu və elə ad çəkirdilər ki, Lants adına heç yaxın gəlmirdi, ya da qonşulardan soruşurdular, K.-nı uzaq-uzaq qapılara aparırdılar. Onların fikrincə, belə bir adam, çox güman ki, künc-bucaqlarda qala bilərdi, ya da elə adam tapılardı ki, burda yaşayanları daha yaxşı tanısın. Axırda heç K.-nın özünün soruşmasına ehtiyac qalmadı, kiminsə arxasına düşüb mərtəbələri gəzəsi oldu. Əvvəlcə ona çox əlverişli görünən bu plandan axırda özü də bezdi. Sonuncu mərtəbəyə çatanda qərara gəldi ki, daha axtarmasın və onu lap yuxarıya qədər aparmaq istəyən gənc mehriban fəhlə ilə vidalaşaraq aşağı

düşdü. Sonra bu mənasız hərəkətindən özü də əsəbiləşdi, təzədən yuxarı qalxaraq altıncı mərtəbədəki birinci mənzilin qapısını döydü. Balaca otaqda ilk gözünə sataşan iri divar saatı oldu: on iki idi!

– Dülgər Lants burda yaşayır? – deyə soruşdu.

– Buyurun, – deyən qadının qara parlaq gözləri vardı, ləyəndə uşaq paltarları yuyurdu və su damcılayan əli ilə qonşu otağın açıq qapısını göstərdi.

K.-ya elə gəldi ki, iclas zalına girdi. Çox da böyük olmayan ikipəncərəli otaqda hər cür adam vardı, basabas salmışdılar, içəri girənə fikir vermirdilər və otağın az qala tavana dəyən qalereyası vardı. Ora da adamla dolu idi və hamısı da ikiqat əyilmişdi, çiyinləri, kürəkləri tavana dəyirdi. İçəridə boğulan K. bayıra çıxdı, bəlkə də onu düz başa düşməyən gənc qadına dedi:

– Mən sizdən dülgər soruşdum... Lants adlı dülgəri...

– Elədir, – dedi qadın, – buyurun, içəri keçin.

Əgər qadın ona tərəf gəlib qapının dəstəyini burmasaydı, K. bəlkə də ona qulaq asmazdı.

– Arxanızca qapını bağlamalıyam... Daha heç kəs ora girə bilməz.

– Əcəb işdir! İçəridə heç yer yoxdur, – deyən K. buna baxmayaraq, təzədən otağa girdi.

Düz qapının ağzında dayanıb söhbət edən iki kişinin arasından – onlardan biri əllərini elə oynadırdı ki, deyərdin pul sayır, ikincisi də onun gözlərinin içinə baxırdı – bir əl uzanıb K.-dan yapışdı. Balaca, qırmızıyanaq bir oğlan idi və:

-Gəlin, gəlin! – dedi.

K. onun ardınca getdi. Məlum oldu ki, basabas salan bu adamların arasında dar bir yol var və həmin yol da yəqin onları iki dəstəyə bölürdü. K. oradan keçərkən həm sağdakı, həm də soldakı adamların üzlərini deyil, yalnız kürəklərini görməsi də bunu təsdiqləyirdi. Həmin adamlar üzlərini öz dətəsinə tərəf çevirib nəsə deyirdilər. Çoxu qara geyinmişdi, əyinlərində uzun, gen sürtuk var idi. Belə sürtukları, adətən bayram günləri geyərdilər. K.-nı çaşdıran da elə bu geyim oldu, yoxsa elə bilərdi ki, siyasi iclasa gəlib çıxıb.

Zalın digər qurtaracağında – oğlanın K.-nı gətirdiyi yerdə adamla dolu alçaq bir səhnə vardı və həmin səhnəyə də balaca bir stol çəpinə qoyulmuşdu. Stolun arxasında, səhnənin qurtacağına yaxın yerdə kök, tövşük bir kişi oturmuş, qollarını kreslonun qoltuqaltısına söykəmiş, ayaqlarını da bir-birinin üstünə aşırmışdı və arxasında dayanıb gülüşən adamlarla nə barədəsə söhbət edirdi. Bəzən də əli havada qövs cızırdı, sanki kiminsə karikaturasını çəkirdi. K.-nı buraya gətirən oğlan ona çox çətinliklə məlumat verə bildi. İki dəfə barmaqlarının ucuna qalxıb nəsə demək istədi, ancaq kişi ona fikir vermədi. Yalnız səhnədəki adamlardan biri onun diqqətini oğlana yönəldəndən sonra kişi ona tərəf döndü, əyilərək alçaqdan verilən məlumatı dinlədi. Sonra saatını çıxarıb baxdı və tələsik K.-ya tərəf döndü:

– Siz bir saat beş dəqiqə bundan əvvəl gəlməli idiniz, – dedi.

K. nəsə demək istədi, ancaq çatdıra bilmədi, çünki kişi sözünü qurtarar-qurtarmaz zalın sağ tərəfindəki dəstədən uğultu qopdu.

– Siz bir saat beş dəqiqə bundan əvvəl gəlməli idiniz! – kişi səsini qaldırdı və zala baxdı. Yenə də uğultu eşidildi və kişi susduğu üçün tədricən itib getdi. İndi zalda bayaqkına nisbətən sakitlik idi. Yalnız qalereyadakı adamlar susmaq bilmir, söz atırdılar. Yuxarı yarıqaranlıq, tüstü-dumanlı olduğu üçün həmin adamların aşağıdakılara nisbətən kasıb geyindikləri güclə seçilirdi. Bəziləri hətta özləri ilə döşəkçə gətirib başları ilə tavanın arasına qoymuşdular ki, yaralanmasın.

K. qərara almışdı ki, danışmaqdan çox buranı müşahidə etsin və elə buna görə də gecikdiyinə bəraət qazandırmaq əvəzinə dedi:

– Gecikmiş olsam da, hər halda, gəlmişəm, burdayam.

Yenə də zalın sağ tərəfində əl çaldılar. “Bunları öz tərəfimə çəkmək asandır,” – deyə ürəyindən keçirən K.-nın sol tərəfdəkilərdən nəsə xoşu gəlmədi: onlar düz K.-nın arxasında dayanmışdılar və bir neçəsi də əl çaldı. Fikirləşdi ki, nəsə tapıb desin, soldakıları bu dəfə, buna imkan olmasa, gələcəkdə tədricən öz tərəfinə çəksin.

– Elədir, – dedi kişi, – ancaq mən sizi indi istintaq etməyə məcbur deyiləm... – yenə uğultu eşidildi, ancaq bu dəfə səbəbi bilinmədi, çünki kişi əlinin işarəsi ilə onları susdurdu və sözünə davam etdi: – Buna baxmayaraq, müstəsna hal kimi, mən bu işi indi görərəm. Ancaq belə gecikmək bir daha təkrar olunmamalıdır! Yaxşı, irəli durun!

Kimsə səhnədən tullandı ki, orda K.-ya yer olsun və o, yuxarı qalxdı. Stola lap yaxın dayanmışdı, arxasında isə elə basabas düşmüşdü ki, müstəntiqi stolqarışıq itələyib səhnədən salmasınlar deyə, müqavimət göstərməli oldu. Ancaq bu, müstəntiqin vecinə deyildi, kresloda rahatca oturmuşdu və arxasında dayanan kişiyə son sözünü deyəndən sonra stolun üstündəki yeganə əşyanı – balaca qeyd dəftərçəsini əlinə götürdü. Bu dəftərçə köhnə idi, şagird dəftərinə oxşayırdı və çox işləndiyindən, didik-didik olmuşdu.

– Beləliklə, – deyə müstəntiq dəftərçəni vərəqlədi və nədəsə yəqinlik hasil etmiş adam kimi sözə başladı, – siz rəngsazsınız.

– Xeyr, böyük bir bankın birinci prokuristiyəm.

Bu cavab aşağıda – zalın sağ tərəfində gülüş doğurdu. Ancaq bu gülüş o qədər səmimi idi ki, K. özü də onlara qoşuldu. Adamlar əllərini dizlərinə dayamışdılar, sanki onları öskürək tutmuşdu, əyilib-qalxırdılar. Hətta qalereyadakılardan da gülən oldu. Bərk əsəbiləşmiş müstəntiq, bəlkə də aşağıdakılara gücü çatmadığından, onların hayıfını qalereyadakılardan almaq istədi, ayağa qalxaraq onları hədələdi, başqa vaxtlar diqqəti cəlb etməyən qara, qalın qaşları gözlərinin üstündə dartılmağa başladı.

Zalın sol tərəfi hələ də sakit idi, hamısı cərgə ilə düzülmüşdü, nəzərləri səhnəyə dikilmişdi və dinməzcə yuxarıda danışanlara, o biri dəstənin səs-küyünə qulaq asırdılar, hətta hərdən öz dəstələrindən kimlərinsə o biri dəstədəkilərin hərəkətlərini təkrar etdiklərinə də fikir vermirdilər. Sol tərəfdəkilərin sayı az idi və əslində, sağdakılar kimi elə böyük rol oynamasalar da, sakit

dayanmaqları zala nəsə bir məna verirdi. K. da danışmağa başlayanda əmin idi ki, dedikləri onların xoşuna gələcək.

– Canab müstəntiq, mənim rəngsaz olmağım barədə verdiyiniz sual – daha doğrusu, soruşduğunuz yox, boynuma qoyduğunuz – əslində, haqqımda qaldırılan iddiaya çox uyğundur. Etiraz edə bilərsiniz ki, bu hələ istintaq deyil, çox düz deyirsiniz, çünki o vaxt istintaq ola bilər ki, mən onu qəbul edəm. Ancaq mən onu indiki an üçün qəbul edirəm. Özü də yalnız sizə, müəyyən mənada, yazığım gəldiyi üçün... Adamın da o vaxt yazığı gələr ki, burda baş verənləri nəzərə alsın. Mən demirəm ki, bu çox mənasız bir istintaqdır, ancaq istəyirəm ki, bunu özünüz başa düşəsiniz.

K. sözünə ara verib zala göz gəzdirdi. Dedikləri kəskin oldu, bəlkə istədiyindən də kəskin alındı, ancaq hamısı həqiqət idi.

Ara-sıra alçalanlar nəzərə alınmasa, tam sakitlik idi, yəqin hamı gərginlik içində cavabın necə olacağını gözləyirdi. Bəlkə də bu sükut içində hər seyə son qoyacaq bir partlayış hazırlanırdı. Zalın sonunda qapının açılması hamının diqqətini yayındırdı: gələn gənc paltaryuyan qadın idi. Yəqin işini qurtarmışdı, ancaq nə qədər ehtiyatla tərpənsə də, bəziləri dönüb ona baxdı. Gözü müstəntiqdə olan K. sevindi: deyəsən, bu sözlər onu elə həmin dəqiqə tutmuşdu. Bu vaxtda qədər K.-nın dediklərinə ayaq üstə qulaq asmışdı, ancaq əslində zalı sakitləşdirmək üçün ayağa qalxmışdı, K.-nın bu nitqinə elə təəccüblənmişdi ki, hələ oturmamışdı. İndi fasilə yaranan kimi asta-asta yerinə oturdu, sanki heç kəsin diqqətini cəlb etmək istəmədi. Bəlkə də həyəcanını gizlətmək üçün dəftərçəni təzədən əlinə götürdü.

– Bir şey çıxmayacaq, cənab müstəntiq, – K.sözünə davam etdi, – dəftərçəniz də mənim haqlı olduğumu sübut edəcək.

Bu qəribə iclasın sakitliyində yalnız öz səsini eşitdiyindən razı qalan K. hətta cəsarətlənib barmaqlarının ucu ilə müstəntiqin dəftərçəsini elə götürdü ki, sanki bircə vərəqinin əlinə gələcəyindən, sıx-sıx yazılmış, ləkə-ləkə olmuş, sarı rənglə haşiyələnmiş digər vərəqlərin yerə səpələnəcəyindən qorxdu.

– Bu da müstəntiqin istintaq sənədləri! – deyə dəftərçəni stolun üstünə tulladı. – Nə qədər istəyirsiniz, ordakıları oxuyun, cənab müstəntiq, mən, doğrudan da, bu "günahlar kitabı"ndan qorxmuram. Halbuki, orda nə yazıldığını oxuya da bilmirəm, çünki barmaqlarımın ucu ilə onlara toxunuram, hec vaxt da əlimə götürmərəm.

Müstəntiq əməlli-başlı pərt oldu – ən azı, belə düşünmək olardı – dəfərçə stolun üstünə düşən kimi onu əlinə götürdü, ora– burasını düzəltdi və yenidən oxumağa başladı.

Birinci cərgədəki adamlar K.-ya elə diqqətlə baxırdılar ki, o da bir anlığa nəzərlərini onlara dikdi. Yaşlı adamlar idi, bəzilərinin saçı-saqqalı ağarmışdı. Bəlkə hər şeyi həll edən elə bunlar idi? K.danışmağa başlayan andan qımıldanmayan, hətta müstəntiqin pərt olduğuna belə fikir verməyən adamlara təsir edə bilərdimi?

– Mənim başıma gələn iş.... – K. əvvəlkindən də asta səslə sözünə davam etdi və birinci cərgədəki adamların üzünə baxdı, nitqi bir az da rəvanlaşdı, – ... mənim başıma gələn iş nadir

hadisələrdəndir, ona görə də elə vacib deyil, heç ürəyimə də salmıram. Ancaq bu hadisə göstərir ki, çoxlarını beləcə istintaqa cəkirlər. Mən də özümə görə deyil, elə buna görə belə danışıram.

Qeyri– ixtiyari səsini ucaltmışdı. Kimsə bərkdən əl çalaraq dedi:

– Əhsən! Niyə də danışmayasan?! Əhsən!

Birinci cərgədəki adamlardan bir neçəsi saqqalını sığalladı, ancaq heç biri bu çağırışa qoşulmadı. Heç K.-nın ozü də buna fikir vermədi, ancaq bununla belə, həvəsləndi: ona elə gəlirdi ki, indi hamının əl çalması o qədər də vacib deyil, əslində, hamının artıq bu barədə düşünməyə başlaması, hərdən kiminsə fikrini dəyişərək onun tərəfinə keçməsi kifayət edir.

– Mən burda natiqlik qabiliyyətimi göstərmək istəmirəm, – K. elə bu baxımdan da sözünə davam etdi, – bunu hec bacarmaram da... Yəqin cənab müstəntiq məndən də yaxşı danışır, çünki sənəti bunu tələb edir. Mən, sadəcə olaraq, ictimai bir olayın ictimai müzakirəsini istəyirəm. Qulaq asın: təxminən on gün bundan əvvəl məni həbs etdilər. Həbsin səbəbi özümə də gülünc gəlir. Ancaq indi bunun yeri deyil. Səhər-səhər yatarkən mənə hücum etdilər. Bəlkə də, müstəntiqin dediyi kimi, hələ hər şey tam araşdırılmayıb – onlara mənim kimi günahsız olan bir rəngsazı tutmaq tapşırılıbmış, ancaq seçim mənə düşüb. Qonşu otağı iki kobud keşikçi “zəbt etmişdi”. Əgər mən təhlükəli bir cani olsaydım, bunu çox yaxşı təhlükəsizlik tədbiri hesab etmək mümkün idi. Bundan əlavə, həmin keşikçilər tərbiyəsiz fırıldaqçılar idi, rüşvət tələb etdilər, başımı yozub pal-paltarımı elə keçirmək istədilər, dedilər ki, pul ver, sənə səhər yeməyi alaq, halbuki özləri utanıb-qızarmadan mənim səhər yeməyimi gözümün qabağında aşırdılar. Bu, bəs eləmədi, məni ayrı bir otağa – inspektorun yanına apardılar. Bura çox böyük hörmət bəslədiyim bir xanımın otağı idi və onlar, heç bir günahın sahibi olmasam da, mənə görə bu otağın səliqə-sahmanını pozdular. Sakit dayanıb baxmaq olmurdu, ancaq mən dözdüm, sonra tamamilə sakit tərzdə inspektordan – özü burda olsa, dediklərimi təsdiq edərdi – nə üçün həbs olunduğumu soruşdum. Bəs inspektor nə cavab verdi? Bayaq dediyim xanımın kreslosuna necə mənasız bir təkəbbürlə yayxandığı hələ də gözlərim önündən getmir... Bəli, cənablar o, əslində, səbəb göstərmədi, bəlkə heç özü də onu bilmirdi, məni həbs etmişdi və buna görə də sevinirdi. Hələ başqa bir iş də görmüş, işlədiyim bankın üç aşağı vəzifəli məmurunu da özü ilə gətirmişdi və onlar da qadına məxsus olan fotoşəkilləri qurdalayır, otağın səliqəsini pozurdular. Əlbəttə, məmurları buraya başqa məqsədlə gətirmişdi: onlar da ev sahibəsi, qulluqçu qız kimi həbs olunduğumu camaata yaymalı, məni ictimaiyyət arasında hörmətdən salmalı və ən çox da bankdakı mövqeyimi laxlatmalı idilər. Ancaq bundan bir şey çıxmadı, zərrə qədər də xeyri olmadı, hətta sadə bir insan olan sahibə – onun adını burda böyük hörmətlə cəkirəm: frau Qrubax – bəli, frau Qrubax da ağıllı olduğu üçün, başa düşdü ki, bu həbs küçə uşaqlarının tində dalaşması kimi bir şeydir. Təkrar edirəm: bütün bunlar mənim üçün xoşagəlməz bir hadisədən, ötəri qəzəbdən başqa bir şey olmadı, ancaq nəticəsi daha ağır ola bilməzdimi?!

K. sözünə ara verib sakitcə oturmuş müstəntiqə nəzər yetirəndə ona elə gəldi ki, kişi baxışları ilə zaldakılardan kiməsə nəsə işarə etdi. K. gülümsəyib sözünə davam etdi:

– İndi yanımda oturan müstəntiq sizlərdən kiməsə gizli işarə göndərdi. Deməli, aranızda eləələri var ki, buradan, yəni yuxarıdan idarə olunur. Bilmirəm, bu işarə bəlkə də fitə basmaq, ya da əl çalmaq üçün idi. Ancaq işin üstünü vaxtından əvvəl açdığım üçün bilə-bilə həmin işarənin mənasına varmayacam. Mənim üçün elə bir fərqi yoxdur və cənab müstəntiqə də açıq şəkildə

icazə verirəm ki, aşağıdakı muzdlu işçilərinə gizli işarələr göndərməkdənsə, ucadan əmrlər versin. Məsələn, belə desin: "İndi fitə basın! İndi isə əl çalın!"

Ya pərt olduğundan, ya da səbri tükəndiyindən, müstəntiq kresloda qurcuxdu. Arxasında dayanıb bayaq onunla sohbət edən kişi yenə də əyildi, sanki ona ürək-dirək, ya da tutarlı bir məsləhət vermək istədi. Aşağıdakı adamlar alçaqdan, ancaq qızğın sohbət edirdilər. Əvvəlcə sanki başqa-başqa fikirlərdə olan dəstələrin adamları indi birləşmişdilər, bəziləri barmaqla K.-nı, bəziləri də müstəntiqi göstərirdi. İçəridəki tüstü– duman dözülməz idi. Hətta azacıq aralıda dayananları belə düz– əməlli görmək olmurdu. Ən çox da qalereyada dayananların vəziyyəti cətin idi. Məcbur olub qorxa-qorxa müstəntiqə baxır, məsələdən halı olmaq üçün astadan aşağıdakılara suallar verirdilər. Cavab verənlər də əllərini ağızlarına tutub yavaşcadan danışırdılar.

– Bu dəqiqə qurtarıram, – deyən K. zəng olmadığından əlini stola döydü və həmin anda müstəntiqlə məsləhətçisinin başları təlaş içində bir-birindən aralandı, – bu işin mənə heç bir dəxli yoxdur, ona görə də belə sakit danışıram və sizin bu mənasız məhkəmədə nəsə bir marağınız varsa, məndən eşitdiklərinizin xeyri çox olacaq. Xahiş edirəm, bu dediklərimi aranızda müzakirə etməyi sonraya saxlayasınız, çünki indi vaxtım yoxdur, çıxıb gedirəm.

O dəqiqə ətrafa sükut çökdü. K. artıq zalı ələ almışdı. Daha əvvəlki kimi qışqıran yox idi, heç əl də çalmırdılar, sanki eşitdiklərinə inanmışdılar və ya inanmağa başlayırdılar.

– Şübhə yoxdur ki, – K. alçaqdan danışırdı, çünki gərgin zalı ələ ala bildiyinə sevinirdi və bu sakitliyin özündə də elə bir uğultu vardı ki, ən coşqun alqışdan da ləzzətli idi, – ...şübhə yoxdur ki, bu məhkəmə prosesinin, mənim həbs olunmağımın, indiki istintaqın arxasında böyük bir təşkilat dayanır. Elə bir təşkilat ki, yalnız rüşvətxor keşikçilərdən, lazım gələndə özlərini təvazökar aparmağı bacaran səfeh inspektorlardan, müstəntiqlərdən ibarət deyil, onun, hər halda, yüksək, çox yüksək səviyyəli hakimləri, buna uyğun da xidmətçiləri, katibləri, jandarmları, digər köməkçi heyəti, hətta bəlkə – mən bu sözü çəkinmədən deyirəm – cəlladları da var. Bəs bu böyük təşkilat nədən ötrüdür, cənablar? Ondan ötrü ki, günahsız adamlar həbs olunsun, mənasız, elə mənimlə olduğu kimi, nəticəsiz bir istintaqa cəlb edilsin! Belə bir mənasızlıqda məmurların dəhşətli rüşvətxorluğundan qaçmaq olarmı? Bu mümkün deyil və ən yüksək səviyyəli hakim də burda təmiz qala bilməz. Buna görə də keşikçilər az qalır həbs etdikləri adamın paltarını əynindən çıxarsın, buna görə də inspektorlar tanımadıqları evlərə soxulurlar, buna görə də günahsızlar dindirilmək əvəzinə dəstə-dəstə adamların qarşısında alçaldılırlar. Keşikçilər mənə həbs olunanların əşyalarının saxlandığı kameralardan danışdılar – ah, kaş oğru məmurlar çırpışdırmamış həbs olunan həmin insanların alın təri ilə qazandıqları əşyaların orda necə kif atdığını görə biləydim!

Zalın o biri başından gələn qışqırtı səsi K.-nın sözünü ağzında qoydu. İçəri düşən ölgün günəş işığı tüstü-dumanı ağ rəngə boyamışdı və gözləri qamaşan K. əlini qaşlarının üstünə qoyub o tərəfə baxdı. Paltaryuyan qadın idi, içəri girən kimi mane oldu. Ancaq indi onun günahkar olub-olmadığını demək çətin idi. K.yalnız onu gördü ki, kişilərdən biri onu küncə cəkib özünə sıxmışdı. Ancaq qışqıran qadın deyil, kişi idi, ağzını ayırıb tavana baxırdı. Onların ətrafına bir neçə adam yığışmışdı və qalereyadakılara ləzzət elədi ki, K.-nın yaratdığı ciddilik bu yolla pozuldu. K.tələsik həmin yerə qaçmaq istədi, ona elə gəldi ki, hamı orda qayda-qanun yaradılmasını istəyir, ən azı, onların ikisini də bayıra çıxarmaq lazımdır, ancaq ilk cərgədəki adamlar yerlərində mohkəm dayanmışdılar, heç biri tərpənmədi, K.-ya yol verən olmadı, əksinə,

maneçilik törətdilər, yaşlı kişilər əlləri ilə yolunu kəsdilər, hətta kimsə yaxalığından yapışdı, vaxt olmadığından K. geri dönüb onun kim olduğunu görə bilmədi. K. artıq kişi ilə qadın barədə düşünmürdü, ona elə gəlirdi ki, azadlığı əlindən alınıb, həbs olunması ciddiləşir və heç nəyə fikir verməyib səhnədən tullandı. İndi basabas salan adamlarla göz-gözə dayanmışdı. Bu adamları düzgünmü qiymətləndirmişdi? Yoxsa əbəs yerə dediklərinin onlara təsir etdiyinə çox inanmışdı? Yoxsa o danışanda hamısı özünü başqa cür aparmış, ancaq axırda dediklərinə dözə bilməmişdilər? Ətrafındakı sifətlərə bir bax! Balaca, qara gözlər onu çalın-çarpaz doğrayır, yanaqları içkili adamlar kimi sallanıb, uzun seyrək saqqalları biz kimidir. Adama elə gəlirdi ki, onlara əl uzatsan, saqqaldan yox, ləlləkdən yapışarsan. Ancaq bu saqqallar qurtaran yerdə, adamların yaxasında – bu, əslində, K.-nın kəşfi idi – müxtəlif ölçülü, müxtəlif rəngli nişanlar parıldayırdı. Görə bildiyi adamların hamısının döşündə bu nişandan var idi. İlk baxışdan sağ-sol dəstələrə bölünmüş bu adamlar əslində bir imişlər və K. qəflətən dönəndə gördü ki, əllərini qoynuna qoyub sakitcə aşağı baxan müstəntiqin döşündə həmin nişandan var.

– Belə de...! – K. qışqıraraq əlini qaldırdı, çünki bu qəfil kəşfdən sonra əli yanında dayana bilməzdi. – Görürəm ki, hamınız məmursunuz, indicə əleyhinə danışdığım rüşvətxor dəstəsiniz. Burda basabas saldınız, guya qulaq asdınız... Yalandan iki dəstəyə bölünübsünüz... Bir dəstə məni alqışladı, imtahana çəkdi... Hamınız günahı olmayan bir adamı necə çaşdırmağın yolunu öyrənmək istəyirdiniz. Ümid edirəm ki, burda boş yerə dayanmadınız, ya həvəslə günahsız bir adamın sizdən kömək diləyəcəyini gözlədiniz, ya da... Yol ver, yoxsa vuraram, – deyə K.ona lap yaxın dayanaraq titrəyən qocaya acıqlandı, – ... ya da doğrudan da, nəsə öyrəndiniz. Beləliklə, bu işinizdə sizə uğurlar diləyirəm.

O, tələsik stolun bir küncünə qoyduğu şlyapasını götürdü, bəlkə də heyrətdən sükuta qərq olmuş adamları yara-yara qapıya tərəf getdi. Deyəsən, müstəntiq K.-dan cəld tərpənmişdi, qapının ağzında dayanıb onu gözləyirdi və dedi:

– Bircə dəqiqə...

K.dayansa da müstəntiqə tərəf deyil, artıq dəstəyindən yapışdığı qapıya baxırdı.

-Yanız bunu diqqətinizə catdırmaq istəyirdim ki, – müstəntiq sözünə davam etdi, – siz bu gün özünüz də bilmədən özünüzü istintaqın müttəhimə verdiyi üstünlükdən məhrum etdiniz.

K. hələ də qapıya baxa-baxa güldü:

– Səfehlər! Bütün istintaqları sizə bağışladım! – deyə qapını açdı, tələsik aşağı düşdü. Arxasınca yenidən canlanmış insanların səs-küyü eşidildi. Yəqin ki olub-keçənləri tələbələrsayağı müzakirə edirdilər...

## ÜÇÜNCÜ FƏSİL

Boş iclas zalında. Tələbə. Dəftərxanalar

K. sonrakı həftə hər gün yeni çağırış gözlədi, inanmadı ki, istintaqa bir daha gəlməyəcəyini ciddi qəbul etmiş olalar və çağırışın şənbə günü axşama qədər də gəlmədiyini görüb fikirləşdi ki, yəqin bu sükut həmin vaxt həmin yerə dəvət olunması deməkdir. Ona görə də bazar günü oraya getdi, ancaq bu dəfə pilləkəni, qapını səhv salmadı. Onu xatırlayan bir neçə adam qapısının ağzında K.-ya salam verdi, ancaq bu dəfə heç kimdən heç nə soruşmadı, tezliklə qapıya catdı. Onu döyən kimi açdılar. Qapının ağzında dayanmış həminki qadına fikir vermədən tələsik qonşu otağa keçmək istədi.

– Bu gün iclas yoxdur, – dedi qadın.

– Niyə yoxdur? – o inanmaq istəmədi, ancaq qadın qonşu otağın qapısını açanda, inanmalı oldu. Otaq bomboş idi və bu boşluqda ötən bazar günündəkindən də məzlum görünürdü. Hələ də səhnədə qalmış stolun üstündə bir neçə kitab var idi.

– Bu kitablara baxmaq olar? – K. kitablarla çox maraqlandığına görə deyil, gəlişinin əbəs yerə olmaması üçün soruşdu.

– Xeyr, – deyə qadın qapını örtdü, – icazə yoxdur. Müstəntiqin kitablarıdır.

– Belə de... – K. başını yırğaladı, – qanun kitabları olar. Yəqin bu məhkəmənin bir xüsusiyyəti də adamları günahsız yerə deyil, həm də xəbər vermədən mühakimə etməsidir.

– Bəlkə də elədir... – qadın onu yaxşı başa düşmədi.

– Onda mən gedim.

– Müstəntiqə nəsə deyim?

– Onu tanıyırsınız?

– Əlbəttə! Ərim məhkəmədə işləyir.

K. indi gördü ki, o gün içində yalnız paltar tiyanı olan otaq indi ağzına kimi dolu bir mənzilə çevrilib. Qadın onun heyrətləndiyini görüb dedi:

– Bu otağı bizə pulsuz veriblər. Ancaq məhkəmə keçirilən günlərdə onu boşaldırıq. Ərimin işinin belə xoşagəlməz cəhətləri də var.

– Mənzilə görə o qədər də təəccüblənmirəm, – deyə K. acıqla qadına baxdı, – ən çox ərdə olduğunuza təəccüblənirəm.

– Bəlkə axırıncı iclasda nitqinizə mane oluğuma işarə vurursuz?

– Əlbəttə, – dedi K. – Eybi yox, hamısı keçib gedib, demək olar ki, yaddan çıxıb. Ancaq onda məni yaman əsəbiləşdirdiniz. İndi özünüz deyirsizniz ki, ərli qadınsınız...

– Nitqinizin kəsilməsi ziyanınıza olmadı. Ondan sonra haqqınızda çox, özü də pis danışdılar.

– Ola bilər... – K.saymazyana dilləndi. – Ancaq bu sizə bəraət qazandırmır.

– Məni tanıyanların qarşısında bəraətim var. Onda məni qucaqlayan kişi də arxamca çoxdan düşüb. Ümumiyyətlə götürəndə, mən cazibədar deyiləm, ancaq, görünür, onun üçün beləyəm.

Burda heç nə demək olmaz, hətta ərim də bununla barışıb. Əgər işini saxlamaq istəyirsə, dözməlidir. Çünki həmin kişi tələbədir və çox güman ki, yüksək vəzifə sahibi olacaq. Məndən əl çəkmir, elə sizin qabağınızca çıxıb getdi.

– Belə də olmalıdır, – dedi K.,– bu məni heç də təəccübləndirmir.

– Yəqin burda nəyisə düzəltmək istəyirsiz, elə deyilmi? – qadın asta– asta, sınayıcı nəzərlərlə onu süzə-süzə elə soruşdu ki, sanki dedikləri K.dan çox onun üçün təhlükəli idi. – Bunu nitqinizdən başa düşdüm, şəxsən mənim çox xoşuma gəldi. Əslində, yalnız bir hissəsini eşitdim, əvvəlinə çatmadım, axırında da tələbə ilə döşəmədə uzanmışdım... Bura lap iyrəncdir, – deyə o, ani fasilədən sonra dilləndi və K.-nın əlindən yapışdı. – Burda nəyisə düzəldə biləcəyinizə inanırsınız?

K. gülümsəyərək əlini onun yumşaq əlləri arasında azacıq tərpətdi:

– Əslində, – dedi, – məni heç kəs, sizin dediyiniz kimi, burda nəyisə düzəltmək üçün göndərməyib. Bunu, məsələn, müstəntiqə desəniz, ya sizə gülər, ya da cəzalandırar. Sözün düzü, heç vaxt öz xoşumla belə işlərə qarışmazdım və bu məhkəmənin düzəlişə olan ehtiyacı da mənim yuxuma haram qata bilməzdi. Ancaq boş yerdən həbs olunduğum üçün – axı mən həbsdəyəm – məcburiyyət qarşısında qalıb qarışdım, özü də özümə görə... Əgər burda sizə nədəsə köməyim dəyərsə, böyük məmnuniyyətlə edərəm. Ancaq yalnız bəşər övladına məhəbbətim xatirinə deyil, həm də ona görə ki, siz də mənə kömək edəsiniz.

– Sizə necə kömək edə bilərəm? – qadın soruşdu.

– Məsələn, stolun üstündəki kitabları mənə göstərə bilərsiniz.

– Əlbəttə, göstərərəm! – deyən qadın tələsik onu ardınca çəkib apardı.

Köhnə, didik-didik olmuş kitablar idi. Ortadakı cild, demək olar ki, cırıq-cırıq olmuşdu, vərəqləri sapdan asıla qalmışdı.

– Burda hər şey iyrəncdir! – deyən K. başını buladı.

O, kitabları götürməmişdən əvvəl qadın önlüyü ilə, üzdən də olsa, onların tozunu sildi. K. üstdəki kitabı açdı və abırsız bir şəkil gördü. Kişi ilə qadın divanda çılpaq oturmuşdular. Əlbəttə, rəssamın bəd niyyəti aydınca bilinirdi. Ancaq o qədər naşılıq eləmişdi ki, orda görünən yalnız kişi ilə arvad idi və onların da təkcə bədənləri nəzərə çarpırdı, dimdik oturmuşdular, yanlış perspektivdən təsvir olunduqları üçün bir-birinə tərəf dönə də bilmirdilər. K. həmin kitabı örtüb ikincinin titul vərəqini açdı: “Qretenin öz əri Hansdan gördüyü əzablar” adlı roman idi.

– Bu da onların oxuduqları qanun kitabları! Gör məni kimlər mühakimə edəcək!

– Sizə kömək edəcəm! – qadın dilləndi. – İstəyirsiniz?

– Doğrudanmı özünüz üçün heç bir təhlükə yaratmadan bunu edə bilərsiniz? İndicə dediniz ki, əriniz öz rəislərindən çox asılıdır.

– Buna baxmayaraq, sizə kömək etmək istəyirəm. Gedək, biz bunu müzakirə etməliyik. Məni gözləyən təhlükə barədə bir daha danışmayın, mən təhlükədən yalnız o vaxt qorxuram ki, özüm ondan qorxmaq istəyirəm. Gəlin, – deyə qadın səhnəni göstərdi və K.-dan xahiş etdi ki, pilləkəndə onunla yanaşı otursun.

– Sizin qəşəng qara gözləriniz var... – onlar oturandan sonra qadın sözə başladı və aşağıdan yuxarı K.-ya baxdı. – Deyirlər ki, mənim də gözlərim gözəldir, ancaq sizinkilər daha gözəldir. Yeri gəlmişkən, siz buraya ilk dəfə gələndə mən bunu hiss etdim. Sonradan iclas zalına girməyimin səbəbi də elə bu oldu. Yoxsa mən heç vaxt bura girmirəm. Hətta, müəyyən mənada, bura girmək mənə yasaqdır.

“Deməli, bunun da dərdi varmiş, – deyə K. ürəyindən keçirdi, – “ özünü mənə təklif edir... o da burdakı adamlar kimi pozulub, məhkəmə məmurlarından doyub... onu da başa düşmək olar... ona görə də yad bir adam gələn kimi, onun gözlərinə kompliment deyir...”

K. sakitcə ayağa durdu, sanki bu sükutu ilə düşündüklərini ucadan demiş və bununla da qadına öz münasibətini bildirmişdi.

– İnanmıram ki, mənə kömək edə biləsiniz... – dedi. – Mənə kömək etmək istəyən adamın gərək yüksək çinli məmurlarla əlaqəsi olsun. Siz də, məlum məsələdir ki, buralarda vurnuxan aşağı vəzifəli məmurları tanıyırsız. Əlbəttə, bu məmurları lap yaxşı tanıyırsınız, hətta bəzi işləri də onlardan aşıra bilərsiniz, buna şübhəm yoxdur, ancaq nə qədər böyük işlər görsələr də, məhkəmənin nəticəsinə təsir edə bilməzlər. Ancaq siz bununla dostlarınızdan bir neçəsini itirməli olarsınız ki, mən də bunu istəmirəm. Bu vaxta qədər onlarla hansı münasibətdə olmusunuzsa, qoyun eləcə də qalsın və mənə elə gəlir, onlar sizə hələ lazım olacaq. Bunu heç də təəssüf hissi ilə demirəm, yalnız dediyiniz komplimentə cavab olaraq etiraf edirəm ki, siz də mənim çox xoşuma gəlirsiniz. Ən çox da heç bir səbəb olmadan mənə belə kədərli-kədərli baxanda... Siz mənim mübarizə apardığım bir cəmiyyətin üzvüsünüz, orada da özünüzü çox rahat hiss edirsiniz, hətta bir tələbəni də sevirsiniz. Sevməsəniz də, ən azı, onu ərinizdən üstün tutursunuz. Dediklərinizdən aydınca hiss olunur...

– Yox! – deyə qadın qışqırdı və K.-nın əlindən yapışdı. K. əlini çəkməyə macal tapmadı. – İndi çıxıb gedə bilməzsiniz! Mənim haqqımda belə pis fikirdə ola-ola gedə bilməzsiniz! Doğrudan gedə bilərsiniz? Doğrudanmı mənə yaxşılıq etmək xatirinə burda bir az qalmağınıza da layiq deyiləm?

– Məni başa düşmədiniz, – deyən K. təzədən oturdu. – Əgər doğrudan da lazımdırsa, məmnuniyyətlə qalaram, vaxtım da var. Elə o hesabla da gəlmişdim ki, bu gün məhkəmə olacaq. Bayaq dediklərimlə də sizdən xahiş etmək istəyirdim ki, mənim məhkəmə işimə qarışmayasınız. Bu da gərək xətrinizə dəyməsin ki, bu məhkəmənin necə qurtaracağı məni maraqlandırmır və hansı hökmü cıxarsa da ona güləcəm. Ancaq bir şərtlə ki, məhkəmə doğrudan da sona qədər olsun və mən də buna şübhə edirəm. Elə düşünürəm ki, ya tənbəllikdən, ya unutqanlıqdan, ya da bəlkə məmurların qorxaqlığından bu məhkəmə dayanıb və ya gələcəkdə dayanacaq. Belə də ola bilər ki, böyük məbləğdə rüşvət qoparmaq üçün məhkəmə, elüzəri də olsa, keçiriləcək, ancaq xeyri yoxdur. Elə indidən deyə bilərəm ki, heç kəsə rüşvət verən deyiləm. Mənə yaxşılıq etmək istəyirsinizsə, ya müstəntiqə, ya da bu cür vacib xəbərləri tez yaymağın ustası olan bir adama çatdırın ki, hansı hoqqalardan çıxsalar da, – yəqin canablar bu sahədə usta olarlar! – məni rüşvətə

təhrik edə bilməyəcəklər. Onlara açıq deyə bilərsiniz ki, özlərini yormasınlar. Bilmək olmaz, bəlkə özləri də bunu artıq hiss eləyiblər. Əgər etməyiblərsə, mənim üçün fərqi yoxdur, indi eləyərlər. Ancaq cənablar bunu indiyəcən hiss etmiş olsaydılar, belə əziyyət çəkməzdilər və yeri gəlmişkən, mənə də əzab verməzdilər. Ancaq mən bu əziyyəti məmnuniyyətlə çəkirəm, çünki çəkdiklərimin hamısını bircə-bircə özlərinə qaytaracağımı bilirəm. Çalışacam ki, belə olsun. Siz müstəntiqi tanıyırsınız?

– Əlbəttə tanıyıram, – qadın dilləndi, – sizə kömək təklif edəndə, yadıma birinci o düşdü. Ancaq bilmirdim ki, onun vəzifəsi aşağıdır, əgər siz deyirsinizsə, deməli, elədir. Deyirsiniz ki, məmurlar tənbəldir, ancaq hamısı elə deyil. Xüsusilə, bu müstəntiq elələrindən deyil, yaman çox yazır. Məsələn, ötən bazar iclas axşama qədər çəkdi, sonra hamı çıxıb getdi, ancaq müstəntiq zalda qaldı, ona lampa gətirəsi oldum. Balaca mətbəx lampası idi, amma çox razı qaldı və o dəqiqə də yazmağa başladı. Bu aralıqda həmin gün məzuniyyətdə olan ərim də gəlib çıxdı, mebeli içəri daşıdıq, mənzili qaydaya saldıq, qonşular gəldi, şam işığında söhbət elədik, sözün qısası, müstəntiqi unutduq, yatmağa getdik. Qəflətən gecəyarı oyanıram, müstəntiq qapının yanında dayanıb, əli ilə işığın qabağını kəsib ki, ərimin gözünə düşməsin, ancaq ehtiyat etməyə dəyməzdi, çünki ərim elə bərk yatır ki, lampa işığına ayılmaz... Elə qorxdum ki, az qaldı qışqıram, ancaq müstəntiq çox mehriban idi, ehtiyatlı olmağımı işarə etdi, pıçıldadı ki, bu vaxta qədər yazıb, indi də lampanı gətirib və mənim yatanda necə gözəl göründüyümü heç vaxt unutmayacaq. Bütün bunları söyləməkdə məqsədim yalnız sizə onu deməkdir ki, müstəntiq xeyli məlumat yazır, çoxu da sizin haqqınızdadır, çünki bazar günü olan istintaq günün əsas iclası idi. Axı, belə uzun məlumatlar mənasız ola bilməz! İndi özünüz də görürsünüz ki, müstəntiq mənə vurulub və hər şey də təzəcə başladığı üçün – deyəsən, mənə yenicə diqqət yetirib – sözüm keçərli olacaq. Müstəntiq üçün kim olduğumu göstərən başqa sübutlar da var. Dünən çox inandığı, həm də işçisi olan tələbə ilə ipək corab hədiyyə göndərmişdi, guya iclas zalını yığışdırmışam, ancaq bu bəhanədir, çünki oranı təmizləmək mənim vəzifəmdir, buna görə də ərimə pul verirlər. Bir baxın, nə gözəl corablardır! – deyə qadın ayaqlarını uzatdı, paltarının ətəyini dizinə qədər çəkdi və özü də corablara baxdı. – Qəşəng corablardır, ancaq çox zərifdir, mənlik deyil.

O qəflətən susdu, əlini K.-nın əlinin üstünə qoydu, sanki onu sakitləşdirmək istəyirdi və pıçıldadı:

– Sakit! Bertold bizə baxır.

K. baxışlarını yavaş-yavaş qaldırdı. Qapının ağzında cavan bir oğlan dayanmışdı və qısa, qalın, qırmızıya çalan saqqalını sığallaya-sığallaya özünə ciddi görkəm verməyə çalışırdı. K. maraqla ona baxdı, axı tamamilə xəbərsiz olduğu hüquq elmi sahəsində ilk tələbə idi ki, belə yaxından görürdü. Yəqin ki gələcəkdə yüksək vəzifə sahibi olacaqdı! Tələbə isə, əksinə, deyəsən K.-ya heç fikir vermirdi və əlini bir anlığa saqqalından çəkərək bir barmağı ilə qadını yanına çağırdı, özü də pəncərəyə sarı getdi. Qadın K.-ya tərəf dönərək pıçıldadı:

– Mənə acığınız tutmasın... Çox xahiş edirəm, haqqımda pis fikirləşməyəsiniz, indi onun yanına getməliyəm... Bu iyrəncin yanına! Siz bir onun samıya oxşayan qıçlarına baxın! Ancaq bu dəqiqə qayıdıram, sonra sizinlə gedəcəm, istədiyiniz kimi olacaq, bacardığım qədər burdan uzun müddətə ayrılıb xoşbəxt olacam! Yaxşı olardı ki, elə həmişəlik aralanaydım...

O, K.-nın əlini bir də sığalladı, durub pəncərəyə tərəf qaçdı. K., qeyri ixtiyari, onun qolundan yapışmaq istədi, ancaq əli boşa çıxdı. Qadın doğrudan da onu cəzb edirdi və K. nə qədər çalışsa da, özünü bu cazibənin ixtiyarına buraxmamaq üçün tutarlı bir dəlil tapa bilmədi. Qadının onların adamı olması, K.-nı ələ almaq üçün göndərilməsi şübhəsini çətinlik çəkmədən rədd etdi. Axı onu necə ələ ala bilərdi? Məgər o, azad adam deyildimi və bu məhkəməni, ən azı, ona aid olan iclası darmadağın edə bilməzdimi? Doğrudanmı, az da olsa, özünə inamı qalmamışdı? Ancaq qadın kömək təklif edən zaman səsində səmimiyyət duymuşdu və bəlkə də bu kömək nəyəsə yarayardı. Ola bilsin, bu qadını əllərindən alıb özü ilə aparmaq müstəntiqdən də, onun ətrafından da qisas almağın ən yaxşı yolu idi... Onda bu müstəntiq K. haqqında saxta məlumutlar yazmaqdan yorulub gecə yarısı onun yanına gələndə görəcək ki, çarpayısı boşdur. Ona görə boş olacaq ki, indi o, K.-nın idi, ona görə boş olacaq ki, indi pəncərənin yanında dayanan o koppuş qadın, onun qalın, kobud parçadan tikilmiş paltarın içindəki oynaq, hərarətli bədəni yalnız və yalnız K.-ya məxsus olacaq.

Bu minvalla qadına qarşı yaranmış bütün şübhə-tərəddüdləri qovandan sonra ona elə gəldi ki, pəncərənin qarşısındakı pıçıldaşma çox çəkdi, əvvəlcə barmaqlarının qatlanan yeri ilə, sonra da yumruğu ilə kürsünü döyəclədi. Tələbə bircə anlığa başını qaldıraraq qadının çiyinləri üzərindən K.-ya tərəf baxdı, ancaq halını pozmadı, hətta qadına bir az da yaxınlaşıb onu qucaqladı. Qadın başını əydi, sanki oğlana diqqətlə qulaq asmağa başladı. Ona tərəf əyiləndə, tələbə qadının boğazından marçıltı ilə öpdü, eyni zamanda, danışığına da ara vermədi. K. gördü ki, qadın haqlı imiş, nə üçünsə bu zülmkar tələbədən asılıdır və durub otaqda var-gəl etməyə başladı. Çəpəki nəzərlərlə tələbəni süzən K. fikirləşirdi ki, bir yol tapıb onu burdan aralasın və bəlkə də elə buna görə K.-nın getdikcə ucalan ayaq səslərindən əsəbiləşən oğlan danışmağa başlayanda sevindi.

– Səbriniz çatmırsa, çıxıb gedə bilərsiniz. Siz xeyli əvvəl də gedə bilərdiniz, çünki heç kəsə lazım deyilsiniz. Bəli, bəli, hətta getməli idiniz! Özü də elə mən içəri girən kimi! Həm də tez! Elə həmin dəqiqə!

Tələbə bu sözlərlə sanki bütün acığını ifadə etdi və eyni zamanda, zəhləsi getdiyi müttəhimlə danışan gələcək məhkəmə məmurunun necə təkəbbürlü olduğunu göstərdi. K. onların lap yaxınlığında dayandı və təbəssümlə dedi:

– Elədir. Mən səbirsizəm, ancaq bu səbirsizliyə son qoymağın ən asan yolu odur ki, siz burdan çıxıb gedəsiniz. Əgər buraya nəsə öyrənməyə gəlibsinizsə, – eşitdiyimə görə, tələbəsiniz – onda şərait yaradaram, qadınla birlikdə çıxıb gedərəm. Yeri gəlmişkən, hakim olana qədər çox şeyi öyrənməlisiniz. Düzdür, mən sizin məhkəmə sistemini yaxşı tanımıram, ancaq düşünürəm ki, utanıb-qızarmadan çox ustalıqla belə qaba danışmağınız o qədər də uzağa gedə bilməyəcəyinizdən xəbər verir.

– Onun indi belə sərbəst gəzib-dolaşmağına icazə vermək lazım deyildi! – deyən tələbə sanki qadına K.-nın bu təhqiramiz sözlərinin izahatını verirdi. – Səhv addım idi... Bunu müstəntiqə də dedim. Ən azı, istintaq gedən vaxt ərzində onu ev dustağı etmək lazım idi. Bəzən bu müstəntiqi də başa düşmək olmur...

– Mənasız sözlərdir! – K. əlini qadına tərəf uzatdı. – Gəlin!

– Bir buna bax! – Tələbə etiraz etdi. – Xeyr, xeyr, o heç vaxt sizin olmayacaq!

Və tələbə – heç deməzdin, onda belə güc olar – qadını qucağına alıb, nəvazişlə ona baxa-baxa, əyilə-əyilə qapıya qaçdı. Hiss olundu ki, K.-dan bir az çəkindi, ancaq onu bir az da qıcıqlandırmağa özündə cəsarət tapa bildi. Boş olan əli ilə qadının qolunu sığalladı, sonra da sıxdı.

K. bir az onların yanınca qaçdı, oğlanı tutmaq, girəvə tapan kimi onu boğmaq istədi. Ancaq elə həmin anda qadın dilləndi:

– Xeyri yoxdur, müstəntiq apartdırır, sizinlə gedə bilmərəm. Bu əclaf... – oğlanın üzünə bir sillə vurdu, – ... bu balaca əclaf məni buraxan deyil!

– Heç özünüz də bunu istəmirsiniz! – deyə K. tələbənin çiynindən yapışdı. Oğlan onun əlini ağzına saldı.

– Yox! Yox! – qadın qışqıraraq əlləri ilə K.-nı itələdi, – yox, bunu eləmək olmaz! Neylədiyinizi bilirsiniz? Bu mənə baha oturar! Onu buraxın, xahiş edirəm, buraxın! Axı, o yalnız müstəntiqin əmrini yerinə yetirir, məni onun yanına aparır.

– Elə isə, qoy aparsın! Heç mən də sizi görmək istəmirəm! -pərt olan K. qəzəblə dilləndi və tələbəni arxadan itələdi. Oğlan səndələdi, ancaq yıxılmadığına sevinərək qucağındakı ”yüklə” irəli atıldı.

K. asta addımlarla onların arxasınca gedə-gedə hiss etdi ki, artıq buna başqa ad vermək olmaz, bu adamlara iki dəfə məğlub oldu. Əlbəttə, burda qorxulu bir şey yox idi, ona görə məğlub olmuşdu ki, mübarizəyə özü başlamışdı. Evdə qalıb gününü adəti üzrə keçirsəydi, bu adamların hər birindən yüz dəfə, min dəfə yüksəkdə dayanmış olardı və hərəsinə bircə təpik vurub yolundan uzaqlaşdırardı. Məsələn, təsəvvüründə belə bir gülməli səhnəni canlandırdı: bu bədbəxt tələbə, bu təkəbbürlü uşaq, samıqıç oğlan əlləri qoynunda Elzanın çarpayısı önündə diz çökür, bağışlanmasını diləyir... Bu səhnə K.-nın çox xoşuna gəldi və qərara aldı ki, imkan düşən kimi, tələbəni bir dəfə Elzanın yanına aparsın.

Maraq güc gəldiyi üçün K. qapıya tərəf getdi: qadının hara aparıldığını bilmək istəyirdi. Tələbə, qadın da qucağında küçəyə çıxası deyildi ki! Məlum olduğu ki, yol çox qısa imiş. Mənzillə üzbəüz pilləkən yəqin ki evin damı üçün idi və yolda buruldüğundan sonu görünmürdü. Tələbə yavaş-yavaş, hıqqana-hıqqana qadını həmin pilləkənlə qaldırdı. Bayaq yüyürdüyü üçün yorulmuşdu. Qadın aşağıda dayanmış K.-ya əl elədi və çiyinlərini çəkməklə ona başa salmağa çalışdı ki, burda onun günahı yoxdur, zorla aparırlar. Ancaq bu hərəkətlərindən o qədər də peşmançılıq duyulmurdu. K. ona yad bir adam kimi baxdı və bununla da məyus olduğunu, bu məyusluğun da belə tez keçib getməyəcəyini gizlətmək istədi.

Tələbə ilə qadın gözdən itsələr də, K. hələ də qapının ağzında dayanmışdı. Başa düşmüşdü ki, qadın yalnız etibarsızlıq eləməyib, həm də yalan danışıb ki, guya onu müstəntiqin yanına aparırlar. Axı müstəntiq damda oturub gözləməzdi! Nə qədər tamaşa eləsə də, onsuz da bu taxta pilləkən ona heç nə deyəsi deyildi. Həmin anda K. qapının yanında nəsə bir yazı gördü. Yuxarı qalxıb əyri-üyrü uşaq xətti ilə yazılmış lövhəni oxudu. “Məhkəmə dəftərxanalarına giriş”. Deməli, bu yaşayış evinin damında məhkəmə dəftərxanaları da varmış! Bura elə yer idi ki, çox da diqqət, xərc tələb etməzdi və müttəhim bunu görəndə sakitləşərdi ki, kasıb kirəkeşlərin

lazımsız əşyalarını atdıqları yerdə dəftərxanaları yerləşirdisə, deməli, məhkəmənin vəsaiti çox az idi.

Belə də ola bilərdi ki, kifayət qədər pul ayrılırdı, ancaq məhkəmə üçün xərclənənə qədər məmurlar onun axırına çıxırdı. İndiyə qədər burda gördüklərinə əsasən K.-ya elə gəldi ki, bu ən düzgün ehtimaldır və belə olan halda, məhkəmənin bu cür acınacaqlı hala salınması, bir tərəfdən, müttəhim üçün həqarət hesab olunurdusa, digər tərəfdən də adamı sakitləşdirirdi ki, məhkəmə lap dilənçi kökündədir. K. indi başa düşdü ki, müttəhimi ilkin istintaqda evin damına çağırmağa utanırlar və ona elə öz mənzilindəcə hücum edirlər. Beləliklə, çardaqda oturan hakimlə K.-nın fərqi aydın görünməyə başladı: onun bankda böyük iş otağı, qəbul otağı vardı və böyük pəncərələrdən həmişə adamla dolu şəhər meydanına tamaşa edə bilərdi! Yeri gəlmişkən, heç yerdən əlavə gəliri yox idi – rüşvət almırdı, israfçılıq eləmirdi və xidmətçi də heç bir qadını qucağına alıb onu kabinetinə gətirmirdi. K. da, ən azı, yaşadığı bu həyatda belə şeylərdən uzaq olmaq istəyirdi.

Pilləkənlə bir kişi qalxanda, K. hələ də lövhənin yanında dayanmışdı. Kişi qapısı açıq olan mənzilə, ordan da iclas zalına baxdı və K.-dan burda qadın görüb-görmədiyini soruşdu.

– Məhkəmədə işləyirsiz? – K. cavab əvəzinə soruşdu.

– Bəli. Siz müttəhim K.-sınız, elə deyilmi? İndi tanıdım... Xoş gəlmisiniz.

Və K.-nın heç gözləmədiyi halda, kişi ona əl uzatdı. K. hələ də susduğu üçün məhkəmə məmuru dedi:

– Bu günə iclas təyin olunmayıb.

– Bilirəm, – deyən K. onun mülki pencəyinə baxdı: adi düymələrin arasında ikicə qızılı rəngli düymə onun bu sistemdə işlədiyini göstərirdi və onlar da, çox güman ki, köhnə zabit şinelindən qoparılıb oraya tikilmişdi. – Bir az bundan əvvəl arvadınızla söhbət edirdim, indi burda yoxdur, tələbə onu müstəntiqin yanına apardı.

– Görürsünüzmü, – məmur şikayətləndi, – həmişə onu mənim əlimdən alıb aparırlar. Bu gün bazardır, işləməməliyəm, ancaq məni burdan uzaqlaşdırmaq üçün lazımsız bir işin dalınca göndərdilər. Düzdür, çox uzağa göndərməmişdilər və ümid edirdim ki, tez getsəm, vaxtında qayıda bilərəm. Qaça-qaça gedirəm, qapını bir az aralayıb tövşüyə-tövşüyə deməli olduğum sözləri yanına göndərildiyim adama elə deyirəm ki, bəlkə də heç nə başa düşmür, təzədən qaça-qaça geri qayıdıram, ancaq, görünür, tələbə məndən də çox tələsib. Axı onun yolu çox qısadır, çardağın pilləkənlərini düşür, vəssalam. Əgər işim onlardan keçməsəydi, o tələbəni divara sıxıb əzik -əzik eləyərdim. Bax, elə bu lövhənin yanındaca! Həmişə də bunu arzulamışam: bax, burda döşəmədə oturub, kürəyini divara söykəyib, qolları yana düşüb, barmaqlarının hərəsi bir tərəfə baxır, əyri ayaqları qatlanıb, hər yer də qan... Ancaq bu, indiyə qədər arzu olaraq qalır.

– Başqa yolu yoxdur? – K. təbəssümlə soruşdu.

– Başqasını bilmirəm... İndi daha pis oldu, bu vaxta qədər öz yanına aparırdı, ancaq indi, çoxdan ürəyimə damdığı kimi, müstəntiqin də yanına aparır.

– Burda arvadınızın hec günahı yoxdur? – artıq özünün də qısqandığını hiss edən K. bunu zorla gizlətdi.

– Əlbəttə var! Ən böyük günah elə arvadımdadır! Özü ondan əl çəkmir! Qaldı oğlan... o harda qadın görür, arxasınca düşür. Elə təkcə bu binada soxulduğu beş evdən qovulub. Yeri gəlmişkən, mənim arvadım bu binada ən gözəl qadındır və mənim də onu qorumağa ixtiyarım çatmır!

– Belədirsə, deməli, buna əlac yoxdur.

– Niyə yoxdur ki?! Arvadımı aparanda o qorxağı bir dəfə elə əzişdirmək lazımdır ki, bir də buna cəsarəti çatmasın. Ancaq bunu özüm eləyə bilmərəm, başqaları da mənə yaxşılıq eləmək istəmir. Çünki hamı ondan çəkinir. Bunu yalnız sizin kimi adam eləyə bilər!

– Axı niyə mən? – K. heyrətləndi.

– Çünki siz müttəhimsiniz.

– Elədir, ancaq mən elə buna görə qorxmalıyam ki, məhkəmənin nəticəsinə təsir etməsə də, hər halda, ilkin istintaqa eləyə bilər.

– Bəli, eləyə bilər! – məmur bu sözləri elə dedi ki, sanki onun fikri K.nın fikri ilə üst-üstə düşürdü. – Ancaq bizdə, adətən, ümidsiz məhkəmələr aparılmır.

– Mən sizinlə razılaşmıram, ancaq bu o demək deyil ki, tələbə ilə məşğul olmayacam.

– Sizə çox minnətdar olardım! – məmur bir qədər rəsmi tərzdə dilləndi, deyəsən, ən böyük arzusunun həyata keçəcəyinə inanmırdı.

– Bəlkə də..ə, – K. sözünə davam etdi, – sizin məmurlarınızdan bəziləri, ola bilsin də, elə hamısı paylarını alacaq.

– Elədir, elədir! – məmur sanki adi bir həqiqəti təsdiq edirmiş kimi dilləndi, sonra da inamla K.-ya baxdı. İndiyə qədər ona nə qədər mehribanlıq göstərmiş olsa da, belə baxmamışdı və sözünə əlavə etdi: – Onsuz da hamı narazıdır, qalxıb... -ancaq məmur, deyəsən, bu söhbətdən özü də narahat oldu, mövzunu dəyişdi: – Gərək gəldiyimi dəftərxanaya bildirəm. Mənimlə getmək istəyirsiniz?

– Orda mənim nə işim?!

– Dəftərxanalara baxarsınız. Sizə fikir verən olmayacaq.

– Baxmağa dəyər? – deyə tərəddüd edən K. hiss etdi ki, getmək istəyir.

– Elə bildim, sizin üçün maraqlı olar...

– Yaxşı, – K. nəhayət, dilləndi, – gedirəm... – Və pillələri məmurdan tez qalxdı.

İçəri girəndə az qaldı yıxılsın, çünki qapıdan sonra da bir pillə vardı.

– Camaatı fikirləşmirlər, – dedi.

– Heç veclərinə də deyil! – məmur təsdiqlədi. – Hələ bir gözləmə otağına baxın!

Qarşısında uzun bir dəhliz vardı və buradakı yöndəmsiz qapılar çardaqdakı otaqlara açılırdı. İçəri birbaşa işıq düşməsə də, çox qaranlıq deyildi, çünki bəzi otaqların dəhliz tərəfdəki divarları bir-birinə kip geyindirilmiş taxta arakəsmə əvəzinə, tavana çatan ağac şəbəkələrdən düzəldilmişdi və aralarından həm içəri işıq düşürdü, həm də stolların arxasında oturub yazı yazan, ya da arakəsmənin lap yaxınında dayanıb deşiklərdən dəhlizdəkilərə baxan məmurlar görünürdü. Yəqin bazar günü olduğundan, dəhlizdə az adam vardı. Hamısı da sadə adam təsiri bağışlayırdı. Dəhlizin hər iki tərəfinə qoyulmuş uzun taxta skamyaların üstündə, demək olar ki, bir-birindən eyni məsafədə aralı oturmuşdular. Üzlərindəki ifadədən, duruşlarından, saqqal saxlamaqlarından və digər güclə nəzərəçarpan əlamətlərindən çoxlarının yüksək cəmiyyətə mənsub olduqları bilinsə də, hamısı pis geyinmişdi. Asılqan olmadığından yəqin ki bir-birinə baxıb şlyapalarını skamyanın altına qoymuşdular. Qapıya yaxın oturanlar K. ilə məmuru görən kimi ayağa durub salam verdilər, bunu görən qalanları da fikirləşdilər ki, onlar da salam verməlidirlər və beləliklə, K. ilə məmur yanlarından keçdikcə hamısı ayağa durdu. Ancaq heç biri qəddini düzəldə bilmədi: çiyinləri qısılmış, dizləri bükülmüşdü, küçədə dilənənlərə oxşayırdılar. K. arxasınca gələn məmuru gözləyib dedi:

– Gör necə alçaldılıblar!

– Elədir..! Müttəhimlərdir... Burda gördüklərinizin hamısı müttəhimdir.

– Deməli, mənim həmkarlarımdır, – deyə K. yanındakı ucaboy, arıq, saçları, demək olar ki, tam ağarmış kişiyə tərəf dönərək nəzakətlə soruşdu:

– Siz niyə gözləyirsiniz?

Gözlənilməz müraciət kişini çaşdırdı, lap yazıq görkəm aldı. Hiss olunurdu ki, dünyagörmüş adamdır, başqa bir yerdə özünü ələ almağı bacarardı, belə qətiyyətsiz olmazdı. Ancaq indi adicə bir suala cavab verə bilmirdi, yanındakılara baxırdı, sanki onlar kömək etməyə borclu idilər və kömək eləməsələr, heç kəs ondan cavab tələb edə bilməzdi. Həmin anda məmur özünü yetirdi, kişini sakitləşdirmək, həm də cəsarətləndirmək üçün dedi:

– Bu cənab soruşur ki, niyə burda gözləyirsiniz, vəssalam! Cavab versəniz!

Görünür, bu tanış səs kişini ürəkləndirdi:

– Mən... Mən... gözləyirəm... – dedi və yenə də dayandı. Çox güman ki, suala dəqiq cavab vermək üçün belə başladı, ancaq sonra nə deyəcəyini bilmədi. Gözləyənlərdən bir neçəsi onlara yaxınlaşıb araya aldılar və məmur o dəqiqə dilləndi:

– Çəkilin... Çəkilin! Yolu boşaldın!

Adamlar bir az çəkilsələr də, yerlərinə qayıtmadılar. Bu aralıqda kişi özünü toplamışdı və hətta bir az da təbəssümlə sözə başladı:

– Bir ay bundan əvvəl işimlə bağlı bir neçə sübut təqdim etmişəm, indi cavab gözləyirəm.

– Deyəsən, çox əziyyət çəkibsiniz!

– Elədir, – dedi kişi, – neyləmək olar, öz işimdir.

– Ancaq hamı sizin kimi düşünmür. Məsələn, mən özüm də müttəhiməm, amma nəyə desəniz and içərəm ki, nə bir sübut təqdim etmişəm, nə də buna bənzər bir iş görmüşəm. Sizcə bu vacibdir?

– Dəqiq bilmirəm... – kişinin səsindən yenə də inamsızlıq duyulurdu. Yəqin elə güman edirdi ki, K. onunla zarafat edir, ona görə də təzədən nəsə bir səhvə yol verəcəyindən qorxaraq bayaq dediklərini eynilə təkrar etmək istədi. Ancaq K.-nın səbirsiz baxışları altında yalnız bu sözləri deyə bildi: – Mən özüm üçün deyirəm ki, sübutlarımı təqdim etmişəm.

– Yəqin mənim də müttəhim olduğuma inanmırsınız, eləmi?

– İnanıram... İnanıram! – deyə kişi bir az yana çəkildi. Onun səsində inamdan çox qorxu vardı.

– Deməli, mənə inanmırsınız? – deyən K. kişinin yazıq görkəmini görəndə, qeyri-ixtiyari, onun qolundan tutub azacıq sıxdı, sanki onu inandırmaq istədi. Əlbəttə istəmirdi onun qolu ağrısın, ona görə də yavaşca tutmuşdu, ancaq kişi elə qışqırdı ki, deyərdin K. onun qolunu iki barmağı ilə deyil, közərmiş kəlbətinlə sıxıb. Bu gülünc qışqırtıdan sonra K.– nın ondan lap zəhləsi getdi. Eybi yox, onun da müttəhim olmasına inanmırlarsa – daha yaxşı! Bəlkə də elə bilirdi, hakimdir! Və vidalaşmaq əlaməti olaraq, bu dəfə onun qolundan bərk sıxaraq yerinə oturtdu, yoluna davam etdi.

– Müttəhimlərin çoxu belə dəymədüşərdir, – dedi məmur.

Onlar aralanan kimi, demək olar ki, bütün gözləyənlərin hamısı qışqırtısına ara vermiş kişinin başına yığışıb, nə baş verdiyini öyrənmək istəyirdilər. K. bir keşikçi ilə üzbəüz gəldi. Onun keşikçi olduğu belindən asılmış qılıncdan, ən azı da bu qılıncın alüminiumdan hazırlanmış qınından bilinirdi. K. çox təəccübləndi və hətta əli ilə ona toxundu da. Qışqırtıya gəlmiş keşikçi nə baş verdiyini soruşdu. Məmur onu bir neçə kəlmə ilə sakitləşdirməyə çalışdı, ancaq keşikçi bildirdi ki, özü baxmalıdır və əlini gicgahına apararaq tələsik, xırda addımlarla – deyəsən, podaqradan əziyyət çəkirdi – o tərəfə getdi.

K. ona, eləcə də ora yığışanlara çox da fikir vermədi, çünki artıq dəhlizin yarısına çatmışdı və gördü ki, qapısı olmayan bir keçiddən sağa dönmək olar. Məmurdan sağa dönməli olduğunu soruşdu, o da başını tərpətdi və K. doğrudan da sağa döndü. Həmişə məmurdan bir-iki addım qabaqda getməsindən təngə gəldi: ən azı burda elə fikirləşərdilər ki, həbs olunub. Ona görə də tez-tez dayanıb onu gözləyir, məmur da həmişə geri qalırdı. Nəhayət, bu narahatlığa son qoymaq üçün dedi:

– Artıq buraların necə olduğunu gördüm, indi getmək istəyirəm.

– Siz hələ hamısını görməmisiniz, – məmur saymazyana dilləndi.

– Hamısını görmək istəmirəm, – K. doğrudan da yorulduğunu hiss etdi, – getmək istəyirəm, çıxış haradandır?

– Doğrudan yolu unutdunuz? – məmur heyrətləndi. – Burdan tinə qədər gedirsiniz, sonra sağa dönüb dəhlizlə qapıya çatırsınız.

– Mənimlə gedək, burda yol çoxdur, çaşaram.

– Burda bircə yol var! – məmur artıq məzəmmətlə danışırdı. – Sizinlə qayıda bilmərəm, gəldiyimi xəbər verməliyəm, onsuz da çox vaxt itirdim...

– Mənimlə gedəcəksiniz! – K. sərtləşdi, sanki məmurun yalanının üstünü açmışdı.

– Belə qışqırmayın, – məmur pıçıldadı. – Buralar hamısı iş otaqlarıdır. Tək qayıtmaq istəmirsinzsə, sizi ötürərəm, ya da gözləyin, işimi qurtarım, sonra məmnuniyyətlə sizinlə qayıdaram.

– Xeyr, xeyr, gözləməyəcəm! Elə indi mənimlə getməlisiniz!

K. hələ indiyəcən olduğu yerə əməlli-başlı baxmamışdı və yalnız ətafındakı çoxlu taxta qapılardan biri açılanda, içəri baxdı. Çox güman ki, K.-nın hündürdən danışdığını eşitmiş bir qız içəri girib soruşdu:

– Cənab nə istəyir?

Onun arxasındakı uzaq yarıqaranlıqdan bir kişi onlara tərəf gəlirdi. K. məmura baxdı: axı o demişdi ki, K. ilə heç kəs maraqlanmayacaq, ancaq artıq ikisi gəlmişdi və bir azdan da bütün məmurlar yığışacaq, nəyə gəldiyini soruşacaqlar. Yeganə başadüşülən bircə bəhanəsi vardı ki, müttəhimdir, növbəti istintaqın vaxtını öyrənmək istəyir, ancaq məhz indi belə bir izahat vermək istəmirdi – ən çox da ona görə ki, bu da həqiqətə uyğun deyildi, çünki yalnız maraq ucundan gəlmişdi ki, bu məhkəmənin daxilinin də zahiri kimi iyrənc olduğunu öz gözləri ilə görsün və bunu da açıq deyə bilməzdi. Deyəsən, düz fikirləşibmiş, çox da dərinə getmək olmazmış, onsuz da indiyəcən gördükləri kifayət edirdi, bu anda qapıların birindən çıxacaq hər hansı yüksək çinli məmurla üzbəüz dayanmaq iqtidarında deyildi, çıxıb getmək istəyirdi, özü də məmurla, lazım gəlsə, lap tək də...

Ancaq susub dayanması, deyəsən, diqqəti cəlb eləmişdi, çünki qız da, məmur da ona elə baxırdılar ki, sanki indicə K.-da nəsə böyük bir dəyişiklik baş verəcəkdi və onlar da bu anı gözdən qaçırmaq istəmirlər. K.-nın bayaq uzaqdan gördüyü kişi də artıq qapının ağzında dayanmışdı və alçaq qapının üst tirindən yapışaraq səbri tükənmiş tamaşaçı kimi barmaqlarının ucunda yırğalanırdı. Ancaq qız hamıdan əvvəl hiss etdi ki, K.-nın bu hərəkəti onun özünü nəsə pis hiss etməsi ilə bağlıdır və gedib bir kreslo gətirdi:

– Bəlkə oturasınız? – dedi.

K. o dəqiqə oturdu və daha etibarlı olsun deyə qollarını onun söykənəcəyinə qoydu.

– Başınız hərlənir? – deyə qız soruşdu. Sifəti K.-ya lap yaxınlaşmışdı və onda bəzi qadınların gəncliyinin çiçəkləndiyi dövrə məxsus bir ciddilik vardı.

– Buna fikir verməyin, – dedi qız, – burda qeyri-adi heç nə yoxdur, birinci dəfə gələnlərin, demək olar ki, hamısı bu vəziyyətə düşür. Bura birinci dəfədir gəlirsiniz? Yaxşı, deməli burda qeyri-adi heç nə yoxdur. Günəş damı yandırır, oda dönən taxtalar da havanı ağırlaşdırır, nəfəs almaq olmur. Ona görə də, bir çox üstünlüklərinə baxmayaraq, bura dəftərxana üçün yaramır. Ancaq havası... Gündüzlər gəlib-gedən çox olduğu üçün – hər gün də belə olur – nəfəs almaq çətinləşir. Nəzərə alsanız ki, qurutmaq üçün yuxarı hər cür paltar asırlar – bunu kirayənişinlərə

yasaq etmək olmaz – onda birdən-birə özünüzü pis etməyiniz sizi heç də təəccüblәndirməyəcək. Ancaq belə havaya çox tez öyrəşirsən. İkinci, üçüncü dəfə gələndə, daha boğulmayacaqsınız. İndi özünüzü bir az yaxşı hiss edirsiniz?

K. cavab vermədi. Qəfil zəifliyin onu bu adamlardan asılı vəziyyətə salmasına çox dilxor olmuşdu və üstəlik, özünü pis etməsinin səbəbini öyrənəndən sonra, yaxşılaşmaq əvəzinə, bir az da pisləşmişdi. Qız bunu o dəqiqə hiss etdi, divara söykədilmiş qarmağı götürüb K.-nın başının üstündən deşik açdı ki, təmiz hava gəlsin. Ancaq içəri o qədər his doldu ki, qız tez deşiyi qapadı, yaylığını çıxarıb K.-nın hisə bələnmiş əllərini təmizlədi. K. elə yorulmuşdu ki, özü təmizləyə bilməzdi. Çıxıb getmək üçün güc toplayana qədər məmnuniyyətlə sakitcə burda oturardı və bu da o vaxt mümkün olardı ki, yanındakılar onu rahat buraxardılar. Hələ bu azmış kimi, qız dedi:

– Burda qala bilməzsiniz, gediş-gəlişə mane oluruq.

K. sualedici nəzərlərlə qıza baxdı: yəni hansı gediş-gəlişə?

– İstəsəniz, sizi tibb məntəqəsinə apararam. Lütfən kömək edin! – qız qapıda dayanmış kişiyə tərəf döndü və o da həmin dəqiqə gəldi. Ancaq K. tibb məntəqəsinə getmək istəmirdi , daha harayasa aparılması ürəyincə deyildi, çünki aparıldıqca hirslənəcəkdi. Ona görə də “Özüm gedərəm!”– deyib çox rahat kreslodan titrəyə-titrəyə ayağa qalxdı. Ancaq qəddini düzəldə bilmədi, “Yox, bacarmıram!” – deyib başını buladı, köksünü ötürərək təzədən oturdu. Məmur yadına düşdü: o istəsə, K.-nı sakitcə burdan aparardı, ancaq deyəsən, çoxdan aradan çıxmışdı. Qarşısında dayanmış qızla kişinin arasından irəli baxdı, amma məmuru görə bilmədi.

– Mənə elə gəlir ki, – deyən kişi çox şıq geyinmişdi, ən çox da ətəkləri düz olan qəhvəyi jileti diqqəti cəlb edirdi, – cənabın özünü pis hiss etməsi buranın ab-havası ilə bağlıdır, buna görə də yaxşı olar ki, onu əvvəlcə tibb məntəqəsinə aparmayaq, elə birbaşa dəftərxanadan bayıra çıxaraq... Özünün də ürəyincə olar...

– Elədir ki var! – K. sevinclə kişinin sözünü kəsdi. – O dəqiqə halım yaxşılaşar, özüm də o qədər zəif deyiləm, sadəcə olaraq, çiyinlərimdən tutub bir az dayaq vermək lazımdır. Sizə çox əziyyət verməyəcəm, elə uzaq yol da deyil, qapıya qədər aparın, pilləkənlərdə bir az oturub özümə gələrəm, məndə belə şey heç vaxt olmayıb, özümə də qəribə gəlir. Mən də məmuram, belə otaq havasına öyrəşmişəm, ancaq özünüz də dediniz ki, buranınkı daha ağırdır. Zəhmət deyilsə, məni qapıya qədər aparın, başım hərlənir, özüm tək ayağa dursam, halım daha da pisləşəcək, – deyə K. çiyinlərini bir az qaldırdı ki, onlara asan olsun.

Ancaq kişi onun dediklərinə fikir vermədi, əllərini heç şalvarının cibindən çıxarmayıb ucadan güldü və qıza dedi:

– Görürsünüzmü, lap gözündən vurmuşam! Cənabın halı, başqa yerdə yox, yalnız burda pis olurmuş!

Qız da gülümsədi və barmaqlarının ucu ilə yavaşca onun qoluna toxundu, sanki demək istədi ki, bu zarafatı çox kobud oldu.

– Narahat olmayın, – kişi hələ də gülməyinə davam edirdi, – mən cənabı doğrudan da bayıra çıxarmaq istəyirəm.

– Lap yaxşı, – deyən qız zərif başını bir anlığa aşağı əyərək yenidən kədərlənmiş, gözlərini uzaq bir nöqtəyə zilləmiş, sanki hər şeyi anlamış K.-ya tərəf döndü: – Onun gülməyinə cox da fikir verməyin... Bu cənab... Sizi təqdim edə bilərəm? (kişi əlinin işarəsilə razılıq verdi) Hə, bu cənab məlumat bürosunda işləyir. Gözləyənlərə lazım olan bütün məlumatları verir. Camaat bizim məhkəmə sistemimizə yaxşı bələd olmadığı üçün ortaya çoxlu suallar çıxır. O, bütün sualların cavabını bilir. Nə vaxtsa həvəsiniz olsa, onu yoxlayarsınız. Ancaq bu onun yeganə üstünlüyü deyil, ikinci üstünlüyü də belə qəşəng geyinməsidir. Biz, yəni burdakı bütün məmurlar, belə hesab elədik ki, müştərilərimizlə ilk görüşən o olur və ilk təəssüratın yaxşı olması üçün həm də qəşəng geyinməlidir. Biz isə, təəssüflər olsun ki, elə mənim üst-başımdan gördüyünüz kimi, çox pis, köhnə dəblə geyinmişik. Paltara pul verməyin də mənası yoxdur, çünki az qala bütün vaxtı dəftərxanada oluruq, elə burda da yatırıq. Ancaq, bayaq dediyim kimi, elə hesab elədik ki, məlumat bürosunda işləyən üçün qəşəng paltar vacibdir. Bu məsələdə başqa mövge tutan idarəmizdən heç nə ala bilmədiyimiz üçün özümüz pul yığdıq, hətta müştərilərimizdən də verən oldu, ona bu gəşəng paltarı, əlavə də bir neçəsini aldıq. Demək olar ki, yaxşı təəssürat yaratmaq üçün hər şeyi eləmişik, ancaq o, öz gülüşü ilə hamısını korlayır, camaatı qorxuzur.

– Elədir, elədir! – kişi istehza ilə dilləndi. – Ancaq, frölayn, bilmirəm bu cənab istəmədiyi halda niyə bütün “sirlərimizi” ona açırsınız, daha doğrusu, beyninə yeridirsiniz?! Baxın görün öz aləminə necə qapılıb oturub!

K.-nın etiraz etməyə həvəsi yox idi. Qız bəlkə də bunu xoş niyyətlə eləyirdi və məqsədi o idi ki, K. imkan tapıb özünə gəlsin, ancaq alınmırdı ki, alınmırdı. O, kişiyə tərəf döndü:

– Sizin gülüşünüzün mənasını açıqlayırdım, yoxsa xətrinə dəyərdi.

– Zənnimcə, onu bu saat bayıra çıxarsam, bundan da pis təhqirləri bağışlar.

K. dinmədi, heç baxışlarını da qaldırmadı. Bu iki nəfərin onun haqqında cansız bir əşya kimi danışdıqlarına dözdü, hələ bəlkə də xoşuna gəldi. Ancaq qəflətən bir qolunda məlumat bürosunda işləyən kişinin, digərindəsə, qızın əlini hiss elədi.

– Zəif kişi, ayağa durun! – dedi kişi.

– Hər ikinizə çoxlu-çoxlu təşəkkürlər! – K. sevinc dolu heyrət içində dilləndi, yavaş-yavaş qalxmağa başladı, özü onların əllərini bədənin dayaq istəyən yerlərinə apardı.

Onlar dəhlizə yaxınlaşanda, qız K.-nın qulağına pıçıldadı:

– Belə çıxdı ki, mən məlumat bürosunda işləyən kişini sizin gözünüzdə qaldırmaq istəyirdim, ancaq inanın ki, həqiqəti deyirəm. Elə də daşürəkli deyil. Xəstə müştəriləri bayıra çıxarmaq onun borcu deyil, ancaq görürsünüz ki, bunu edir. Bəlkə de heç birimizin ürəyi daşdan deyil, bəlkə də böyük məmnuniyyətlə hamıya kömək edərdik, ancaq məhkəmə məmurları kimi özümüzü yalandan daşürəkli adamlar kimi göstərir və guya heç kimə kömək etmək istəmirik. Mənə təsir eləyən də elə budur...

– Bəlkə burda bir az oturasınız?! – kişi soruşdu. Onlar artıq dəhlizə çatmışdılar və indi K.-nın bayaq içəri girəndə söhbət etdiyi kişinin yanında idilər. K., demək olar ki, ondan utandı, çünki

bir az bundan əvvəl qarşısında şax dayanmışdı, ancaq indi iki nəfər onu güclə ayaq üstə saxlayırdı, kişi onun şlyapasını düzəldirdi, dağılmış saçları tər basmış alnına tökülmüşdü. Lakin həmin kişi, deyəsən, bunu hiss etmədi, onun başı üzərindən harasa baxan məlumat bürosu rəhbərinin qarşısında qorxa-qorxa nə üçün bura gəldiyinə haqq qazandırmağa çalışdı:

– Bilirəm, – dedi, – ərizələrimin cavabı bu gün hazır olmaz, ancaq buna baxmayaraq, gəldim. Fikirləşdim ki, gözləyərəm, bazar günüdür, vaxtım var, heç kəsə də maneçiliyim yoxdur.

– Buna görə belə üzrxahlıq etmək lazım deyil, – məmur onu sakitləşdirdi, – sizin bu narahatlığınız tərifəlayiqdir. Düzdür, burda artıq yer tutursunuz, ancaq mənə mane olmadığınız üçün, etirazım yozdur, burda qalıb işinizin gedişini izləyə bilərsiniz. Öz vəzifələrini başa düşməyən həyasız adamlarla rastlaşandan sonra sizin kimiləri görüb səbrli olmağı öyrənmək lazımdır! Əyləşin!

– Görürsünüz, müştərilərlə necə danışır?! – qız pıçıldadı. K. başını tərpətdi, ancaq məlumat bürosunda işləyən kişi yenə də: «Burda bir az oturmaq istəmirsiniz?" – deyə soruşanda diksindi.

– Xeyr, – dedi, – dincəlmək istəmirəm.

Bu sözləri qətiyyətlə deməyə çalışdı, ancaq otursaydı yaxşı olardı. Elə bil dəniz xəstəliyinə tutulmuşdu. Ona elə gəlirdi ki, bərk yırğalanan bir gəmidədir. Ona elə gəlirdi ki, su gəminin taxta gövdəsinə çırpılır, dəhlizin o başından bir dalğa gəlir, hər yanı su basır, dəhliz løngər vurur, orda oturan adamlar qalxıb-düşür. Ən qəribəsi isə, onu aparan qızla kişinin sakitliyi idi. İndi canı onların əlində idi, buraxsalar, daş kimi yerə düşərdi. Hərdən onların sərt baxışlarını üzərində hiss edir, özü artıq yeriməsə də, onların ahəngdar addım səslərini eşidirdi. Qəflətən hiss etdi ki, ona nəsə deyirlər, ancaq heç nə başa düşmürdü, yalnız bütün dəhlizi başına götürmüş səs-küyü və bu səs-küyün içində həyəcan siqnalına oxşayan bir güyültü eşidirdi. Başı əyilmişdi və güclə pıçıldadı:

– Ucadan danışın! – dediyindən özü də utandı, çünki bilirdi ki, o, başa düşməsə də, kifayət qədər ucadan danışırlar. Qəflətən elə bil divar deşildi, təmiz hava üzünə vurdu və yanındakıların səsini eşitdi:

– Əvvəl çıxıb getmək istəyir, sonra da min dəfə deyirsən ki, çıxış qapısı budur, qımıldanmır ki qımıldanmır!

K. hiss etdi ki, çıxış qapısına çatıblar və qız onu açıb. Ona elə gəldi ki, bütün gücü birdən-birə özünə qayıtdı və azadlığın ilk sevincini dadmaq üçün ayağını pillələrdən birinə qoydu, elə ordan da qapının ağzında dayanıb ona tamaşa edən müşayiətçiləri ilə vidalaşdı.

– Çox sağ olun! – deyə təkrar edərək hər ikisinin əlini bir də sıxdı və qəflətən ona elə gəldi ki, dəftərxana havasına öyrəşmiş bu adamlar pilləkənlərdən üzlərinə vuran təmiz havada boğulurlar və... əllərini buraxdı. Heç biri cavab verə bilmədi və K. qapını çöldən tez bağlamasaydı, qız yıxılacaqdı...

K. bir anlığa pilləkənin başında sakit dayandı, sonra cib güzgüsünü çıxarıb saçlarını qaydaya saldı, növbəti pilləkən duracağına düşmüş şlyapasını – yəqin məlumat bürosunda işləyən kişi ora tullamışdı – götürüb başına qoydu və pilləkənləri elə gümrah addımlarla, tullana-tullana düşdü ki, az qala özü də qorxdu. Heç vaxt şikayətlənmədiyi səhhəti indiyədək onu belə imtahana

çəkməmişdi. Bəlkə bədəni üsyana qalxıb, köhnə həyat tərzini çətinliklərsiz yaşadığını görüb, ona yeni həyat tərzi hazırlayır?! Tərəddüdlə də olsa, ağlına gələn bu fikirlə razılaşdı ki, imkan düşən kimi, həkimə getsin, ancaq qərara aldı ki, – burda artıq heç kəsin məsləhətinə ehtiyac yox idi – gələcək bazar günlərini bugünkündən yaxşı keçirsin.

## DÖRDÜNCÜ FƏSİL

### Frölayn Bürstnerin rəfiqəsi

Növbəti günlərdə K. frölayn Bürstnerlə bircə kəlmə də kəsə bilmədi. Onunla qarşılaşmaq üçün müxtəlif vasitələrə əl atdı, ancaq qız yaxınlıq vermədi ki vermədi. İşdən çıxan kimi evə gəldi, otağında işığı söndürmədi, divanda oturdu və ön otağı müşahidə etməkdən savayı heç bir işlə məşğul olmadı. İçəridə heç kəsin olmadığını güman edən qulluqçu qız qapını örtəndə də bir az gözləyib, onu təzədən aralı qoyurdu. Səhərlər həmişəkindən bir saat tez dururdu ki, bəlkə onu işə gedəndə tək tuta bilə. Ancaq bu cəhdlərin heç biri alınmadı. Sonra ona məktub yazıb birini iş yerinə, birini də evə göndərdi, yenə də hərəkətinə bəraət qazandırmağa çalışdı, yazdı ki, günahını hər cür yumağa hazırdır, söz verdi ki, qızın qoyduğu sərhədi heç vaxt aşmayacaq, xahiş etdi ki, yalnız bircə dəfə söhbət etməyə şərait yaratsın, çünki onunla danışmamış frau Qrubaxla heç nə barədə razılığa gələ bilməz və axırda da xəbər göndərdi ki, növbəti bazar bütün günü evdə oturub ondan işarə gözləyəcək: ya onun təklifini qəbul edir, ya da, ən azı niyə qəbul etmədiyinin səbəbini açıqlayır, axı qız necə istəsə, elə də olacağına söz verib. Məktublar geri qayıtmadı, ancaq cavab da çıxmadı. Əksinə, bazar günü çox aydın bir işarə gəldi: səhər tezdən açar deşiyindən baxan K. ön otaqda qeyri-adi bir canlanmanın şahidi oldu və onun səbəbi də tezliklə bilindi. Fransız dili müəllimləsi – zəif, solğun bənizli, ayağını da azacıq çəkən bu qız milliyyətcə alman, soyadı da Montaq idi, bu vaxta qədər də otağı tək kirələmişdi – frölayn Bürstnerin otağına köçürdü. Saatlarla ön otaqda vurnuxdu. Gah yataq dəstindən nəsə, gah hansısa bir palaz, gah da kitab yaddan çıxmış olurdu və qız da onları bir-bir təzə mənzilə daşıyırdı.

Frau Qrubax səhər yeməyini gətirəndə – K. onu əməlli-başlı acılayandan sonra frau Qrubax ən xırda işləri də qulluqçuya etibar etmirdi – beş günlük fasilədən sonra onunla ilk dəfə danışmaqdan özünü saxlaya bilmədi.

– Niyə bu gün ön otaqda belə səs-küy var? – deyə özünə qəhvə süzə-süzə soruşdu. – Bunu kəsmək olmaz? Mütləq bazar günü yır-yığış etmək lazımdır? – Frau Qrubax tərəfə baxmasa da, hiss etdi ki, o, yüngülləşdi, dərindən nəfəs aldı. K.-nın hətta bu sərt suallarını da barışıq əlaməti və yaxud barışığa doğru atılan addım hesab elədi.

– Yır-yığış eləmirlər, cənab K., – dedi, – frölayn Montaq frölayn Bürstnerin yanına köçür, şeylərini ora daşıyır.

Qadın susaraq K.-nın buna necə baxacağını öyrənmək istədi və bir də gözlədi ki, K. ona sözünə davam etməyə icazə verəcək, ya yox. K. isə onu sınağa çəkdi, fikirli-fikirli əlindəki qaşıqla qəhvəsini qarışdırdı, sonra başını qaldırıb ona baxdı və dedi:

– Daha frölayn Bürstnerdən şübhələnmirsiniz ki?

– Cənab K.! – Frau Qrubax bu sualı sanki çoxdan gözləyirdi və əllərini ona tərəf uzatdı, elə bil yalvarırdı. – Siz adicə bir iradı ürəyinizə saldınız. Sizin və ya bir başqasının xətrinə dəymək ağlıma belə gəlməzdi! Siz ki məni çoxdan, özü də yaxşı tanıyırsınız, ona görə də dediklərimə inanmalısınız. Axı siz bilmirsiniz ki, mən bu son günlərdə necə əzab çəkdim! İşə bax, mən öz kirayənişinlərimə qara yaxmalıyam! Siz də buna inandınız, cənab K.! Dediniz ki, sizi çıxarıram! Sizi çıxarmaq?!– axırıncı sözləri göz yaşları içində boğula-boğula dedi və sonra da önlüyünü üzünə aparıb hıçqırdı.

– Ağlamayın, frau Qrubax, – deyə K. pəncərədən çölə baxdı. İndi yalnız frölayn Bürstner barədə fikirləşirdi və fikirləşirdi ki, o, tanımadığı bir qızı necə yanına götürə bilər. Geri dönəndə qadının hələ də ağladığını görüb bir də dedi: – Dedim ki, ağlamayın! Mən də o vaxt həmin sözləri pis mənada demədim. Biz, sadəcə olaraq, bir-birimizi başa düşməmişik. Köhnə dostlar arasında da hərdən belə şeylər olur.

Frau Qrubax onun doğrudan da barışdığına əmin olmaq üçün önlüyünü gözlərindən çəkdi.

– Bəli, bəli, elədir! – deyən K. frau Qrubaxın özünü necə aparmağından başa düşdü ki, kapitan ona heç nə deməyib və bundan cəsarətlənərək əlavə etdi: – Doğrudanmı elə fikirləşirsiniz ki, mən yad bir qıza görə sizinlə düşmən ola bilərəm?

– Elə məsələ də bundadır, cənab K.! – deyən frau Qrubaxın bədbəxtliyi orasında idi ki, özünü bir az sərbəst hiss edən kimi ağzından nəsə qaçırırdı. – Həmişə özümə sual verirdim ki, görəsən nəyə görə cənab K. frölayn Bürstnerə belə qahmar çıxır? Bilə-bilə ki, onun hər ağır sözündən sonra mən bütün gecəni yata bilmirəm – o qıza görə mənimlə davaya çıxır! Axı, mən frölaynın haqqında öz gözlərimlə gördüklərimdən başqa heç nə deməmişəm!

K. dinmədi, dinsəydi, gərək onu otaqdan qovaydı və bunu istəmirdi. Yalnız qəhvəsini içməklə kifayətləndi ki, frau Qrubax burda artıq olduğunu özü başa düşsün. Bayırdan yenə frölayn Montaqın ön otağı başına götürən ağır addım səsləri eşidildi.

– Eşidirsiniz? – deyə K. əli ilə qapını göstərdi.

– Bəli! – Frau Qrubax köksünü ötürdü. – İstədim özüm də, qulluqçu qız da ona kömək eləyək, ancaq inad elədi, dedi ki, hamısını özü daşıyacaq. Bu frölayn Bürstnerə lap mat qalmışam. Mən çox vaxt frölayn Montaqın kirayənişinim olmasına təəssüflənirəm, frölayn Bürstner isə, onu öz yanına aparır...

– Bunun sizə dəxli yoxdur! – K. fincanın dibindəki son qənd parçalarını da qaşıqla əzdi. – Məgər siz bununla nəsə itirirsiniz?

– Xeyr, əslində, qazanıram, bir otaq boşalır və qohumum kapitanı yerləşdirərəm. Çoxdan qorxurdum ki, son günlər qonşuluğunuzdakı qonaq otağında qaldığı üçün sizə mane ola bilər. Deyən kimi köçəcək...

– Görün ağlınıza nələr gəlir! – deyə K. ayağa durdu. – Bu barədə söhbət ola bilməz! Deyəsən, məni həddən artıq həssas adam hesab eləyirsiniz, çünki frölayn Montaqın bu “gəzinti”lərinə – baxın, indi qayıdır – dözə bilmirəm.

Frau Qrubax nə edəcəyini bilmədi:

– Cənab K., bəlkə ona deyim ki, köçməyinin qalanını təxirə salsın? İstəyirsiniz elə bu dəqiqə deyim.

– Ancaq o, frölayn Bürstnerin yanına köçməlidir.

– Elədir, – deyən frau Qrubax K.-nın bununla nə demək istədiyini yaxşı başa düşmədi.

– Belə olan halda o, şeylərini daşımalıdır.

Frau Qrubax yalnız başını tərpətdi. Zahirən inadkarlıqdan başqa heç nəyə oxşamayan bu lal yazıqlıq K.-nı daha da cinləndirdi. Otaqda var-gəl etməyə başladı – qapıdan pəncərəyə, pəncərədən də qapıya tərəf getdi və bununla bəlkə də çoxdan çıxıb getmək istəyən frau Qrubaxa mane oldu.

K. bir də qapıya çatanda, o döyüldü. Qulluqçu qız idi və dedi ki, frölayn Montaq cənab K. ilə nə barədəsə danışmaq istəyir və xahiş edir, yemək otağına gəlsin, onu orda gözləyir. K. fikirli-fikirli qızı dinlədi, sonra da, demək olar ki, istehzalı nəzərlərlə özünü itirmiş frau Qrubaxa tərəf baxdı. Bu baxışla sanki demək istəyirdi ki, frölayn Montaqın onu söhbətə dəvət edəcəyini əvvəlcədən bilirmiş və bu dəvət də frau Qrubaxın kirayənişinlərinin bazar günü səhər tezdən başlayaraq K.–nı narahat etmələrinə çox uyğun gəlir. Qıza dedi ki, indi gəlir və paltar dolabına tərəf getdi ki, pencəyini dəyişsin. Qızın onu təngə gətirdiyindən şikayətlənən frau Qrubaxdan isə, yalnız bunu xahiş etdi ki, səhər yeməyini apara bilər.

– Axı, siz ona heç əl vurmadınız!

– Ah, dedim ki, aparın! – K. səsini ucaltdı və ona elə gəldi ki, bütün bu işlərdə frölayn Montaqın əli var, aranı qarışdıran da odur.

Ön otaqdan keçəndə, frölayn Bürstnerin qapısının bağlı olduğunu gördü. Ancaq onun otağına deyil, yemək otağına dəvət olunmuşdu və döymədən də qapını itələyib açdı.

Çox uzun, həm də dar, birpəncərəli otaq idi. Yer az olduğundan, qapı tərəfdə olan künclərə iki dolab çəpinə qoyulmuşdu, qalan sahəni isə yemək stolu tutmuşdu. Düz qapının yanından başlayan bu stol az qala böyük pəncərəyə çatırdı, onların arasından keçmək olmurdu. Stol artıq açılmışdı və özü də çox adam üçün nəzərdə tutulmuşdu, çünki bazar günü, demək olar ki, bütün kirayənişinlər burada nahar edirdi.

K. – nın gəldiyini görən frölayn Montaq pəncərədən aralanaraq yemək stolunun yanından keçə-keçə ona tərəf gəldi. Səssiz görüşdülər. Frölayn Montaq həmişə olduğu kimi başını qəribə tərzdə dik tutaraq dedi:

– Bilmirəm məni tanıyırsınız, ya yox?!

K. gözlərini qıyaraq ona baxdı:

– Əlbəttə, tanıyıram, – dedi, – axı çoxdan frau Qrubaxın pansionunda qalırsınız.

– Bildiyimə görə, siz bu pansionla o qədər də maraqlanmırsınız.

– Elə deyil...

– Oturmaq istəmirsiniz? – Frölayn Montaq soruşdu.

Dinmədən stolun qurtaracağından hərəsi bir kreslo çəkib üzbəüz oturdular. Ancaq frölayn Montaq elə o dəqiqə də ayağa qalxdı, çünki çantasını pəncərənin qabağında qoymuşdu və onu gətirməyə getdi. Ayaqlarını sürüyə-sürüyə, çantasını da azacıq yellədə-yellədə bütün otağı dolaşaraq geri qayıdanda dedi:

– Rəfiqəmin tapşırığı ilə sizinlə yalnız bir neçə kəlmə söhbət etmək istəyirəm. Özü gəlmək istəyirdi, ancaq bu gün özünü pis hiss edir. Bağışlayın ki, onun əvəzinə mənimlə danışmalı oldunuz. Ancaq o da sizə mənim dediklərimdən başqa heç nə deməyəcəkdi. Əksinə, düşünürəm ki, bu işə qarışacağım olmadığı üçün mən daha çox şey deyə bilərəm. Buna da inanmırsınız?

– Nə deyim ki?! – K. artıq frölayn Montaqın onun dodaqlarından çəkilmək bilməyən baxışlarından yorulmuşdu. – Belə çıxır ki, frölayn Bürstner mənimlə şəxsən söhbət eləmək istəmədi.

– Elədir, – frölayn Montaq dilləndi. – Daha doğrusu, heç də elə deyil, siz məsələni çox kəskin qoyursunuz. Əslində, bu cür xahişlərə nə "hə" deyirlər, nə də "yox". Ancaq belə də olur ki, həmin xahişlərə əməl etməyi lazım bilmirlər və indiki halda da elədir. Sizin bu sözlərinizdən sonra açıq danışa bilərəm. Siz həm şifahi, həm də yazılı şəkildə rəfiqəmlə söhbət etmək istədiyinizi bildirmisiniz. Ancaq rəfiqəm bilir ki, – ən azı, mənə belə gəlir – söhbət nədən gedəcək və mənə məlum olmayan səbəblərdən əmindir ki, bu söhbət baş tutsa, heç bir tərəfə xeyir gətirməyəcək. Yeri gəlmişkən, bu barədə mənə dünən, özü də lap ötəri şəkildə danışdı, onu da dedi ki, bu söhbət sizin üçün də çox vacib olmaya bilər, çünki təsadüfən bu fikrə gəlmisiniz, indi olmasa da, lap yaxın zamanlarda heç bir xüsusi izahat olmadan bütün olub-keçənlərin mənasız olduğunu başa düşəcəksiniz. Ona dedim ki, bəlkə də düz fikirləşir, ancaq hər şeyi aydınlaşdırmaq üçün sizə konkret cavab vermək daha yaxşı olar. Təklif etdim ki, bu vəzəfini mən öz üzərimə götürüm, o da bir az tərəddüddən sonra razılıq verdi. Ümid edirəm ki, bu həm də sizin ürəyinizcə oldu, çünki ən mənasız işdə də kicik bir şübhə adama əzab verir və indi olduğu kimi, onu asanca aradan qaldırmaq mümkündürsə, bunu həmin dəqiqə eləmək daha yaxşıdır.

– Təşəkkür edirəm! – tez cavab verən K. yavaş-yavaş ayağa durdu, əvvəlcə frölayn Montaqa, sonra stola, lap axırda da pəncərədən çölə baxdı, – qarşıdakı bina günəşin şəfəqlərinə qərq olmuşdu – qapıya tərəf getdi. Frölayn Montaq onun arxasınca bir-iki addım atdı, sanki K.-ya tam inanmırdı. Ancaq qapıya çatanda, hər ikisi geri çəkilməli oldu; kapitan Lants içəri girdi. K. ilk dəfə idi ki, onu belə yaxından görürdü. Ucaboy, təxminən qırx yaşlarında bir kişi idi və ətli sifəti sanki gündən qaralmışdı. Yüngülcə təzim etdi – bu həm də K.-ya aid idi – sonra frölayn Montaqa tərəf gedib nəzakətlə onun əlindən öpdü. Hərəkətlərində cəldlik vardı. Onun frölayn Montaqla belə nəzakətlə davranması K.-nın qızla davranışından fərqlənirdi. Ancaq buna baxmayaraq, deyəsən, frölayn Montaq K.-dan inciməmişdi, hətta ona elə gəldi ki, K.-nı kapitana təqdim etmək də istədi. K. isə bunu heç arzulamırdı, çünki indi nə kapitana, nə də frölayn Montaqa mehribanlıq göstərmək iqtidarında deyildi. Bu əlöpmə səhnəsindən sonra qızı elə adamların cərgəsinə qoşdu ki, özlərini zahirən çox xeyirxah, təmənnasız göstərə– göstərə onu frölayn Bürstnerlə görüşməyə qoymurlar. K.-ya elə gəldi ki, təkcə bunu kəşf etmədi, eyni zamanda, onu da başa düşdü ki, frölayn Montaq çox yaxşı, həm də ikibaşlı bir üsul seçib. O, frölayn Bürstnerlə K.-nın

münasibətlərini, hər şeydən əvvəl, söhbət etmək xahişinin mənasını çox şişirdirdi və eyni zamanda, bunu elə fırlatmağa çalışırdı ki, guya hər şeyi şişirdən K.-nın özüdür. Ancaq yanılırdı, K. heç nəyi şişirtmək istəmirdi, çünki bilirdi ki, frölayn Bürstner adicə bir makinaçı qızıdr, ona uzun zaman müqavimət göstərməyi bacarmaz. Elə buna görə də qız haqqında frau Qrubaxdan öyrəndiklərini burda qəsdən nəzərə almadı. Bütün bunları ağızucu sağollaşıb çıxarkən fikrindən keçirdi. Öz otağına getmək istəyirdi, ancaq arxasınca frölayn Montaqın yemək otağından eşidilən qısa gülüş səsindən sonra ağlına gəldi ki, bəlkə ikisinə də – yəni kapitana da, frölayn Montaqa da yaxşı bir dərs versin. Ətrafına baxdı, yaxınlıqdakı otaqları dinşədi: sakitlik idi, yalnız yemək otağında söhbət edirdilər və bir də mətbəxə gedən dəhlizdən frau Qrubaxın səsi eşidilirdi. Deyəsən, fürsət düşmüşdü və K. frölayn Bürstnerin qapısına tərəf gedib onu astadan döydü. İçəridən səs çıxmadığını görüb bir də döydü, ancaq yenə də cavab gəlmədi. Yatmışdı? Bəlkə doğrudan da özünü pis hiss edirdi? Yoxsa qapının belə asta döyülməsindən gələnin K. olduğunu başa düşdüyü üçün özünü danızdırırdı? K.-ya elə gəldi ki, özünü danızdırır və bu dəfə bərkdən döydü, bundan bir şey çıxmadığını görüb, ehtiyatla, eyni zamanda da ədalətsiz, mənasız bir iş tutduğunu hiss edə-edə onu açdı. İçəridə heç kəs yox idi. Əslində, heç otaq da K.-nın tanıdığı otağa bənzəmirdi. Divar uzunu iki çarpayı baş-başa qoyulmuşdu, qapının yaxınlığındakı üç kreslonun üstü pal-paltarla dolu idi, dolabın da qapısı açıq qalmışdı. Yəqin ki frölayn Montaq yemək otağında K.-nı yola gətirmək istəyəndə, frölayn Bürstner çıxıb getmişdi. Ancaq bu, K.-ya o qədər də təsir eləmədi, çünki frölayn Bürstnerlə belə asan yolla görüşə biləcəyinə özü də inanmırdı, bunu da, demək olar ki, frölayn Montaqın acığına eləmişdi. Ancaq qapını örtərkən frölayn Montaqla kapitanın yemək otağının açıq qapısı yanında dayanıb söhbət etdiyini görəndə əhvalı pozuldu. Onlar bəlkə də K.-nın qapını açdığı andan orda dayanmışdılar, özlərini elə göstərirdilər ki, guya onu güdmürlər və astadan söhbət edirdilər, ancaq gözucu onun bütün hərəkətlərini elə izləyirdilər ki, sanki söhbət əsnasında baxışları ora-bura qaçırdı. Amma K. bu baxışların ağırlığına dözə bilmədi, divarın dibi ilə otağına tərəf tələsdi.

## BEŞİNCİ FƏSİL

### Adamdöyənlər

Növbəti axşamların birində K. onun iş otağı ilə pilləkəni ayıran dəhlizə – bu dəfə demək olar ki, hamıdan sonra evə gedirdi, yalnız ekspedisyada iki nəfər hələ də qalıb lampanın zəif işığında işləyirdi – çatanda, heç vaxt içini görmədiyi və həmişə anbar hesab elədiyi otağın qapısı arxasından inilti səsi eşitdi. Heyrət içində dayandı, yanılmadığına əmin olmaq üçün diqqətlə dinşədi, bir anlığa sakitlik oldu, sonra yenə də inilti səsi gəldi. Əvvəlcə xidmətçilərdən birini çağırmaq istədi ki, bəlkə şahid lazım oldu, ancaq qəflətən onu elə bir qarşısıalınmaz maraq bürüdü ki, qapını şaqqıltı ilə açdı. Düz bilmişdi, bura doğrudan da anbar idi. Qapının ağzında lazımsız, köhnə kağız-kuğuz, boş mürəkkəbqabları qalaqlanmışdı. Otağın ortasında isə üç kişi

dayanmışdı və otaq alçaq olduğu üçün başlarını əymişdilər. Rəflərin birinə bərkidilmiş şam içərini işıqlandırırdı.

– Siz burda neyləyirsiniz? – həyəcanlı-həyəcanlı, ancaq alçaqdan soruşdu.

Görünüşündən onların böyüyünə oxşayan və daha çox diqqəti cəlb edən kişi qara rəngli qolsuz, sinəsinə qədər yaxası açıq olan gödəkçə geyinmişdi. O cavab vermədi, qalan iki nəfər isə birdən qışqırdılar:

– Cənab, biz cəza almalıyıq, müstəntiqə bizdən şikayət etmisiniz.

K. yalnız indi onları tanıdı: doğrudan da keşikçilər – Fransla Villem idilər və üçüncünün əlində də onları cəzalandırmaq üçün kötək vardı.

– Ola bilməz! – deyə K. diqqətlə onlara baxdı. – Mən şikayət etməmişəm, yalnız mənzilimdə baş verənləri danışmışam. Ancaq sizin də səhvləriniz oldu.

– Cənab, – indi danışan Villem idi, Frans isə özünü üçüncü adamdan qorumaq üçün onun arxasında gizlənmişdi. – Əgər bizə nə qədər əməkhaqqı verdiklərini bilsəydiniz, haqqımızda elə danışmazdınız. Mən ailəmi dolandırmalıyam, bu Frans da evlənmək istəyirdi, adam çalışır ki, hardansa pul qazansın, nə qədər çox işləsən də, maaşla dolanmaq olmur. Sizin o qəşəng paltarlardan keçə bilmədim, əlbəttə, belə şeylər keşikçilərə yasaqdır, biz düz eləmədik, ancaq adətə görə, o şeylər keşikçilərə qalmalıdır, inanın mənə, həmişə də bu cür olub. Belə olan halda, bəxti gətirməyib həbs olunan üçün nə fərqi, onun şeyləri kimə qalır?! Bunu da dilinə gətirəndə, bizi cəzalandırırlar.

– Sizin indi dediklərinizdən mənim xəbərim yox idi, heç sizi cəzalandırmağı da tələb etməmişəm, orda prinsip vardı.

– Gördün, Frans? – Villem o biri keşikçiyə tərəf döndü. – Sənə demədim ki, cənab bizi cəzalandırmağı tələb etməyib? Eşitdin ki, heç bizim cəza alacağımızı da bilmirmiş...

– Onların bu danışıqlarına çox da fikir verməyin! – üçüncü kişi K.-ya dedi. – Cəza ədalətlidir və ona görə də qaçılmazdır.

– Ona qulaq asma! – deyən Villem sözünə ara verməli oldu, çünki əlini çubuq dəyən dodaqlarına apardı – ... ona görə cəza verirlər ki, bizi satıbsınız. Yoxsa hətta orada olanlardan xəbər tutsaydılar da, bizə heç nə eləməzdilər. Buna ədalət demək olar? Biz ikimiz də – ən çox da mən – özümüzü yaxşı keşikçi kimi göstərmişdik – özün də etiraf eləməlisən ki, sənə onların istədiyi kimi keşik çəkdik – istəyirdik, bir az irəli gedək, kötəkçi olaq... Bəxti gətirib, ondan şikayət edən olmayıb, çünki bizdə belə şikayətlər nadir hallarda olur. Ancaq bizimki burda qurtardı, daha heç yana çıxa bilmərik, bundan sonra keşik çəkməkdən də pis işlərə göndərəcəklər, üstəlik də indi yaxşıca kötək yeyəcəyik.

– Doğrudan bu kötək elə ağrıdır? – deyə K. diqqətlə kişinin onun gözləri önündə oynatdığı kötəyə baxdı.

– Axı biz indi lüt soyunmalı olacağıq, – Villem dilləndi.

– Belə de... – K. diqqətlə kötəkçiyə baxdı: o, dərisi gündən qaralmış matrosa oxşayırdı və sağlam, sırtıq sifəti vardı. – Elə olmaz ki, bunları kötəkləməyəsiniz?

– Xeyr! – kötəkçi təbəssümlə başını buladı. – Soyunun!– deyə keşikçilərə əmr etdi və sonra da K.-ya tərəf döndü: – Onların dediklərinə inanma, kötəkdən qorxduqları üçün ağıllarını itiriblər, – Villemi göstərdi, – məsələn, elə götür bunu, özünə yaxşı bir tərcümeyi-hal düzəltdi, adamın gülməyi gəlir. Piy basıb, ilk kötəkləri heç hiss eləməyəcək. Bilirsən, niyə belə piylənib? Çünki həbs olunanların səhər yeməyini aşırmağa adət eləyib. Sənin də səhər yeməyini aşırdı? Yemiş olar! Özü də belə qarın sahibi heç vaxt kötəkçi ola bilməz! Heç vaxt!

– Belə kötəkçilər də var! – kəmərini açmağa başlayan Villem dilləndi.

– Yoxdur! – Kişi kötəyi onun boğazına toxundurdu, Villem diksindi. – Sən bizə qulaq asma, soyun!

– Onları buraxsan, yaxşı pul qazanarsan, – deyə K. kötəkçiyə baxmadan pulqabını çıxardı – belə alver zamanı göz-gözə dayanmasalar yaxşı idi!

– Məni də satmaq istəyirsən? Məni də kötəklətdirmək fikrinə düşübsən? Yox, keçməz!

– Ağlın olsun, əgər onları cəzalandırmaq istəsəm, indi pul verib buraxdırmaq fikrinə düşməzdim. Kirimişcə qapını örtüb evimə gedərdim, heç nə görməzdim, heç nə də eşitməzdim. Ancaq bunu eləmirəm, cünki onları buraxdırmaq fikrim ciddidir. Bilsəydim, onlara cəza veriləcək və ya cəza almalıdırlar, adlarını çəkməzdim. Əslində, onların günahı yoxdur, günahkar işlədikləri təşkilatdır, orada oturan yüksək çinli məmurlardır.

– Elədir, elədir! – keşikçilər bir ağızdan qışqırışdılar və elə o dəqiqə də çılpaq kürəklərindən dümsük yedilər.

– Əgər indi hakimin özünü kötəkləməli olsaydın, – K. danışa-danışa onun təzədən yuxarı qaldırmaq istədiyi kötəkdən tutub aşağı saldı, – sənə heç mane olmazdım, əksinə, pul da verərdim ki, yaxşı kötəkləyəsən!

– Dediklərin düzdür, ancaq rüşvət alan deyiləm. Mən kötəkçiyəm, ona görə də kötəkləməliyəm.

Bu vaxta qədər bəlkə də K.-nın işə qarışmasından yaxşı nəticə gözlədiyi üçün dinməyən Frans adlı keşikçi, əynində də bircə şalvar qapıya tərəf gəldi, diz çökərək onun qolundan yapışdı:

– İkimizi də xilas edə bilmirsənsə, – deyə pıçıldadı, – ən azı, məni buraxdırmağa çalış! Villem məndən yaşca böyükdür, hər cəhətdən də ürəklidir, özü də bir neçə il bundan əvvəl, yüngül də olsa, kötək cəzası alıb, ancaq mən hələ indiyəcən alçaldılmamışam, elədiklərimi də Villem öyrədib, yaxşısını da , pisini də... Yazıq nişanlım indi bankın qabağında dayanıb məni gözləyir. Utanıram, mənə rəhm edin... – göz yaşlarına bələnmiş üzünü K.-nın pencəyinin ətəyinə sürtdü.

– Daha gözləyən deyiləm! – kişi hər iki əli ilə kötəyi yuxarı qaldırdı, Fransı döyməyə başladı. Villem bir küncdə büzüşərək, başını qaldırmağa belə cəsarət etmədən oğrun-oğrun onlara tərəf baxırdı. Həmin anda Fransdan dəhşətli bir qışqırtı qopdu, sanki insan qışqırmadı, hansı bir musiqi alətisə sındırıldı və onun kəsilmək bilməyən səsi bütün dəhlizi başına götürdü, bütün binada eşidildi.

– Qışqırma! – deyən K. özünü saxlaya bilmədi, xidmətçilərin səsi eşidib gələ biləcəyi tərəfə baxa-baxa Fransa bir dürtmə vurdu. Çox bərk itələməsə də, huşunu itirmiş keşikçi yerə yıxıldı, çapalaya-çapalaya döşəməni cırmaqlamağa başladı. Ancaq kötəkçinin zərbələri boşa çıxmır, döşəmənin üstündə də onu tapırdı. Kötəyin ucu qalxıb-endikcə Frans yerində qıvrılırdı. Uzaqdan qulluqçular göründü: biri irlidə gəlirdi, biri də iki-üç addım ondan geridə. K. tez qapını örtüb pəncərələrdən birinə yanaşdı, onu açdı. Daha qışqırtı eşidilmirdi. K. xidmətçilərin yaxınlaşmasına imkan verməmək üçün dedi:

– Mənəm!

– Axşamınız xeyir, cənab prokurist, – o tərəfdən səs gəldi, – nəsə olub?

– Xeyr, xeyr! Həyətdən it səsi gəlir. – xidmətçilərin buna fikir vermədiyini görüb əlavə etdi: – Siz işinizdə olun...

Xidmətçilər onunla söhbətə başlamasın deyə əyilib pəncərədən bayıra baxdı. Bir az keçəndən sonra dönüb dəhlizə baxanda gördü ki, xidmətçilər gedib. Pəncərənin qarşısında dayanıb qaldı: anbara tərəf getməyə ürək eləmirdi, evə də getmək istəmirdi. Onun baxdığı dördkünc balaca bir həyət idi, xidməti otaqlar onu dövrəyə almışdılar və hamısının da pəncərəsi qaranlıq idi, yalnız yuxarıdakılarda ayın işığı əks olunurdu. Yorğun baxışları qaranlığı yararaq həyətin uzaq küncünə – bir neçə əl arabasının dayandığı yerə dikildi. Kötəkçiyə mane ola bilmədiyinə görə əzab çəkirdi, ancaq onun günahı deyildi, əgər Frans qışqırmasaydı – yəqin çox ağrıtdı, amma elə anlar var ki, adam özünü saxlamağı bacarmalıdır – hə, qışqırmasaydı, çox güman ki, nəsə bir bəhanə tapıb kötəkçini yola gətirərdi. Əgər aşağı çinli məmurların hamısı yaramaz idisə, onda ən iyrənc vəzifə sahibi olan kötəkçi niyə istisna olmalı idi? Əskinası görəndə gözlərinin necə parıldadığını K. yaxşı gördü və doğrudan da döyməyə başlaması da, məlum məsələ idi ki, məbləği bir az çoxaltmaq üçün idi. K. da simiclik eləməzdi, çünki məqsədi həqiqətən də keşikçiləri azad etmək idi. Əgər bu məhkəmə sistemini darmadağın etmək istəyirdisə, elə buradan başlaması da təbii idi. Ancaq Frans bağırmağa başladığı andan hər şey bitdi. K. heç vaxt imkan verə bilməzdi ki, xidmətçilər, ya da başqaları gəlib onu anbarda bu adamlarla bir yerdə görəndə təəccüblənsinlər. Belə qurbanlığı heç kəs K.-dan tələb edə bilməzdi. Əgər bu işi etmək qəsdində olsaydı, sadə bir yolu seçərdi, soyunub kötəkçiyə deyərdi ki, keşikçilərin əvəzinə onu döysün. Yeri gəlmişkən, bəlkə də kötəkçi heç buna razılıq verməzdi, çünki havayı yerdən vəzifə borcunu yerinə yetirməmiş hesab olunardı və qanunu da ikiqat pozardı, axı K. istintaq altında idi, məhkəmə məmurları ona toxuna bilməzdilər. Əlbəttə, burda xüsusi hallar da ola bilərdi. Hər halda, K. başqa cür hərəkət edə bilməzdi, qapını örtməli idi, halbuki bunun özü də onun təhlükədən tam azad olması demək deyildi. Son anda Fransa dürtmə vurduğuna təəssüfləndi, ancaq bunu da həyəcanına bağışlamaq olardı.

Uzaqdan xidmətçilərin addım səsləri eşidildi. Onların diqqətini cəlb etməmək üçün pəncərəni bağlayıb əsas pilləkənə tərəf getdi. Anbarın yanından keçəndə, ayaq saxlayıb içərini dinşədi. Tam sakitlik idi. Bəlkə də kişi onları ölənəcən döymüşdü, çünki hər şey onun ixtiyarına buraxılmışdı. K.-nın əli artıq dəstəkdə idi və onu tez geri çəkdi. Daha heç birinə kömək edə bilməzdi, xidmətçilər də indi gəlməli idilər. Özünə söz verdi ki, bu işi belə qoymasın, əsil günahkarları, hələ indiyədək cəsarət edib onun qabağına çıxa bilməyən o yüksək çinli məmurları, imkanı daxilində, layiqincə cəzalandırsın. Bankın qabağındakı pillələri düşərkən bütün ətrafa diqqətlə göz gəzdirdi, ancaq o həndəvərdə kimisə gözləyən qız görmədi. Nişanlısının onu

gözlədiyini deyən Fransın sözləri yalan çıxdı, ancaq bu yalanı bağışlamaq olardı, çünki kiminsə qəlbində daha çox mərhəmət hissi oyatmaq üçün deyilmişdi.

Səhəri gün də keşikçilər K.-nın yadından çıxmadı. Fikri dağınıq olduğu üçün yaxşı işləyə də bilmədi və onu qurtarmaq üçün kabinetində dünənkindən çox qalmalı oldu. Evə gedəndə yenə anbarın yanından keçəsi oldu və sanki adət etdiyi üçün onun qapısını açdı. İçəridə qaranlıq əvəzinə gördükləri onun ağlını başından çıxartdı. Hər şey dünən qapını açarkən gördüklərinin eyni idi: girəcəkdə qalaqlanmış köhnə kağız-kuğuzlar, əlində kötək olan kişi, çılpaq keşikçilər, rəfdəki şam... Keşikçilər o dəqiqə şikayətə başladılar:

– Cənab...

K. tez qapını çırpdı, üstəlik də onu yumruqladı, sanki bununla daha bərk bağlamaq istəyirdi. Az qala ağlaya-ağlaya sakitcə oturub nüsxə çıxaran xidmətçilərin yanına getdi. Onlar K.-nı görən kimi dayandılar.

– Anbarı da qaydaya salın! – ucadan dedi. – Zibilin içində batıb qırılırıq!

Xidmətçilər söz verdilər ki, sabah mütləq təmizləyəcəklər. K. başını tərpətdi, gecənin bu vaxtı onları işləməyə məcbur etmək olmaz, halbuki elə bu niyyətlə gəlmişdi. Xidmətçilərin yaxınlığında olmaq məqsədilə bir az da oturdu, nüsxələrdən bir-iksini götürüb baxdı, özünü elə göstərdi ki, guya onları yoxlayır və sonra da çıxdı. Bilirdi ki, xidmətçilər onunla birlikdə çıxmağa cəsarət eləməyəcəklər və daha heç nə haqqında düşünməyərək yorğun halda evə qayıtdı.

## ALTINCI FƏSİL

### Əmi. Leni.

Bir gün günortadan sonra – poçtu göndərmə vaxtı olduğu üçün K. çox məşğul idi – kağızları gətirən xidmətçilərlə birlikdə əmisi Karl da – o, mülkədar idi və kənddə yaşayırdı – içəri girdi. K. bir ay bundan əvvəl onun gələcəyini fikirləşərkən qorxduğundan az qorxdu. Təxminən bir ay bundan əvvəl dəqiq bilirdi ki, əmisi mütləq gələcək. Onda fikirləşirdi ki, qəddi bir az əyilmiş əmisi yastı şlyapası da sol əlində uzaqdan sağ əlini ona tərəf uzadaraq gələcək, masanın üstündən K.-ya tərəf tələsən əli qarşısına çıxan hər şeyi silib-süpürəcək. Əmisi həmişə tələsirdi, çünki beynində belə bir axmaq fikir dolaşırdı ki, paytaxta gəldiyi bircə günün ərzində nəzərdə tutduğu bütün işləri görsün, bundan əlavə də təsadüfən alınan danışıqları, alveri, ya da əyləncəni əldən buraxmasın. Bunula belə, K. çalışırdı ki, həmişə ona arxa olmuş dayısına, imkanı daxilində, kömək eləsin. Üstəlik də gecələmək üçün onu həmişə özünün qaldığı evə aparmışdı. Adını da "Kənddən gələn xəyal" qoymuşdu.

Salamlaşan kimi, hətta K.-nın təklif etdiyi kresloya oturmamış dedi ki, onunla təklikdə danışmaq istəyir.

– Belə lazımdır, – güclə danışa bilirdi, – rahat olmağım üçün belə lazımdır.

K. o dəqiqə xidmətçilərə dedi ki, çıxsınlar və yanına da heç kəsi buraxmasınlar.

– Eşitdiklərim düzdür, Yozef? – tək qalan kimi kişi soruşdu və oturdu. Yeri rahat olsun deyə əlinə keçən bir neçə kağız qalağını da altına qoydu.

K. susdu, söhbətin nədən gedəcəyini başa düşdü, ancaq çox gərgin işdən sonra onu qəfil, şirin bir yorğunluq bürüdü, gözlərini pəncərəyə dikdi: oturduğu yerdən qarşıdakı küçənin balaca üçkünc bir hissəsi, iki mağazanın vitrinləri arasındakı boş divarlar görünürdü.

– Sən hələ pəncərəyə baxırsan! – Əmisi əllərini göyə qaldırdı. – Allah eşqinə, mənə cavab ver, Yozef! Bu doğrudur? Belə şey ola bilər?

– Əziz əmi! – K. nəhayət özünə gəldi. – Axı sənin nə istədiyini bilmirəm...

– Yozef! – əmisi xəbərdarlıq etdi. – Bildiyimə görə sən həmişə həqiqəti danışmısan. İndi bu son sözlərini nəsə bir pis əlamət kimi qəbul etməliyəm?

– Nə istədiyini başa düşürəm, – K. ona tabe oldu, – yəqin məhkəmə barədə eşitmisən...

– Elədir... – əmisi başını asta-asta yırğaladı. – Eşitmişəm, məhkəməyə düşübsən.

– Kimdən eşitmisən?

– Erna yazmışdı... Düzdür, səninlə get-gəli yoxdur, özün də, təəssüf ki, onunla az maraqlanırsan, ancaq buna baxmayaraq, xəbər tutub. Məktubu bu gün aldım və o dəqiqə də durub gəldim. Bura gəlməyimin başqa səbəbi yoxdur, ancaq bunun özü də elə-belə səbəb deyil. Sənə aid olan yerlərini oxuya bilərəm, – deyə məktubu cibindən çıxardı, – bax budur, yazır: “Yozefi çoxdandır ki, görmürəm, keçən həftə banka getmişdim, ancaq işi çox olduğundan məni yanına buraxmadılar, bir saata yaxın gözlədim, sonra evə qayıtdım, çünki piano dərsim vardı. Onunla söhbət etməyə çox can atıram, bəlkə yaxın günlərdə fürsət düşəcək. Çox mehriban, diqqətcildir, ad günümdə mənə bir böyük qutu şokolad göndərmişdi. Sizə yazmağı unutmuşdum, ancaq indi onu soruşduğunuz üçün yadıma düşdü. Onu da bilməlisiniz ki, pansiona gələn şokolad o dəqiqə yoxa çıxır, kiminsə sənə şokolad bağışlamasını görürsən, elə o dəqiqə də yoxa çıxır. Yozef barədə sizə bir söz demək istəyirəm. Yuxarıda yazdığım kimi, bankda məni onun yanına buraxmadılar, çünki bir cənabla söhbət edirdi. Bir xeyli sakitcə oturub gözləyəndən sonra xidmətçidən söhbətin təxminən nə qədər çəkə biləcəyini soruşdum. Dedi ki, yəqin çox çəkər, ola bilsin, cənab prokuristin məhkəməsi barədə danışırlar. Soruşdum ki, bu nə məhkəmədir, bəlkə yanılır, dedi ki, yox, yanılmır, məhkəməyə verilib, özü də çətin məhkəmədir, özgə heç nə bilmir. O özü də böyük məmnuniyyətlə cənab prokuristə kömək edərdi, çünki çox yaxşı, ədalətli insandır, ancaq bunu necə edəcəyini bilmir, indi bircə onu arzulayır ki, sözükeçən cənablar ona arxa dursunlar. Yəqin belə də olacaq, hər şey yaxşı qurtaracaq, ancaq cənab prokuristin ovqatından hiss edir ki, hələlik işlər yaxşı getmir. Əlbəttə, onun dediklərinə çox da fikir vermədim, o sadəlövhü sakitləşdirməyə çalışdım, eyni zamanda da dedim ki, bu barədə heç kəsə danışmasın və mən bütün bunların hamısını şayiə hesab edirəm. Lakin bununla belə, əziz ata, bəlkə növbəti gəlişində özün bu məsələni araşdırasan, çünki sənə həqiqəti öyrənmək daha asan olar və əgər doğrudan da lazım gələrsə, sözükeçən dost-tanışlarını işə qoşasan. Lazım gəlməsə – çox güman ki, belə də olacaq – onda ən azı, tezliklə qızın Ernaya səni bərk-bərk qucaqlayıb

sevinməyə şərait yaratmış olarsan...” Yaxşı qızdır... – deyə məktubu qurtaran əmisi göz yaşlarını sildi.

K. başını tərpətdi, doğrudan da son vaxtlar başı çox qarışıq olduğundan Ernanı büsbütün yaddan çıxarmışdı, hətta onun ad gününü də unutmuşdu və qız da yəqin bu şokolad məsələsini ona görə uydurmuşdu ki, əmisi ilə bibisi K.-dan incik düşməsinlər. K.-nın qəlbi riqqətə gəldi, fikirləşdi ki, bundan sonra tez-tez ona teatr bileti alıb göndərsin. Düzdür, bu elə böyük mükafat olmayacaqdı, ancaq bilirdi ki, indi pansiona gedib on səkkiz yaşlı gimnaziya tələbəsi ilə söhbət etmək iqtidarında deyil.

– Bəs buna deyirsən? – kişi məktubu oxuyandan sonra sakitləşmişdi, daha tələsmirdi və sanki onu təzədən oxumağa başlayırdı.

– Bəli, əmi, elədir!

– Elədir? – əmisi qışqırdı. – Necə yəni elədir? Belə necə ola bilər? Nə məhkəməsidir? Yoxsa cinayət məhkəməsidir?

– Cinayət məhkəməsidir.

– Cinayət məhkəməsinə düşə-düşə özün də burda sakitcə otura bilirsən?

– Nə qədər sakit otursam, nəticəsi də o qədər yaxşı olar. – K. yorğun halda dilləndi. – Qorxma...

– Yox, bununla məni sakitləşdirə bilməzsən... Yozef, əzizim Yozef, özünü, qohumlarını, yaxşı adımızı fikirləş! İndiyə kimi həmişə fəxrimiz olubsan, ona görə də bundan sonra bizə ləkə ola bilməzsən! Sənin görkəmin... – deyə kişi başını bir az əyərək çəpəki nəzərlərlə onu süzdü, – xoşuma gəlmir, ağlı başında olan günahsız adam özünü belə aparmır. Mənə tez de görüm söhbət nədən gedir, de ki, kömək eləyə bilim. Yəqin bankdan gedir, eləmi?

– Yox, – deyə K. ayağa durdu, – sən çox hündürdən danışırsan, əmi, yəqin indi xidmətçi qapının arxasında dayanıb hamısına qulaq asır. İstəmirəm, bunu kimsə bilsin. Yaxşısı budur, gedək. Çalışaram ki, sənin bütün suallarına, imkan daxilində, ətraflı cavab verəm. Ailə qarşısında məsuliyyət daşıdığımı çox yaxşı başa düşürəm.

– Düzdür! Çox düz deyirsən! Elə isə tez ol, Yozef, tez ol!

– Bir-iki tapşırıq verəcəm, – K. telefonla müavinini yanına çağırdı. Müavin o dəqiqə içəri girdi, həyəcan içində olan kişi , heç buna ehtiyac olmasa da, əli ilə K. – nı göstərdi ki, o çağırıb. Yazı stolunun yanında dayanmış K. bir neçə kağızı götürüb soyuqqanlılıqla, diqqətlə ona qulaq asan cavan oğlana sakit səslə o gedəndən sonra bu gün üçün görülməli işləri başa saldı. Kişi onlara mane oldu, bərəlmiş gözlərini oynada-oynada, dodaqlarını çeynəyə-çeynəyə əvvəlcə onların yanında dayandı, danışılanlara qulaq asmasa da, bu görünüşü ilə narahatçılıq yaratdı, sonra otaqda var-gəl etməyə başladı, gah şəkillərin, gah da pəncərənin qarşısında dayanıb qaldı, hər dəfə də deyindi: “Heç nə başa düşmürəm!”, “Bir mənə deyin görüm, bunun axırı necə olacaq!” Cavan oğlan heç nə eşitmirmiş kimi, tapşırıqlara sakitcə axıracan qulaq asdı, bəzi qeydlər elədi və K.– ya da, arxası ona tərəf pəncərənin önündə dayanıb pərdələri çəkən kişiyə də təzim edərək çıxdı. Qapı örtülər-örtülməz kişi qışqırdı:

– Axır ki bu təlxək çıxıb getdi, indi biz də gedə bilərik.

Təəssüflər ki, dəhlizdən keçərkən ətrafda bir neçə məmurun, xidmətçilərin yığışmasına və eləcə də həmin anda direktor müavininin burdan keçməsinə baxmayaraq əmisinin məhkəmə haqqında verdiyi sualları əngəlləmək mümkün olmadı.

– Yaxşı, Yozef, – kişi ətrafdakıların təziminə yüngülcə əlini yellətməklə cavab verə-verə sözə başladı, – indi mənə açıq de görüm, bu nə məhkəmədir!

K. bir neçə anlaşılmaz söz dedi, güldü və yalnız pilləkənlərdə əmisinə dedi ki, camaatın yanında açıq danışmaq istəmirdi.

– Yaxşı eləyirdin, indi danış, – o, başını azacıq yana əyərək əlindəki siqarı tələsik, ancaq qısa soluqlarla sümürə-sümürə K.-ya diqqət kəsildi.

– Əmi, hər şeydən əvvəl, onu deyim ki, burda söhbət adi bir məhkəmə prosesindən getmir.

– Bu daha pis...

– Necə? – K. əmisinin üzünə baxdı.

– Deyirəm ki, bu daha pisdir, – əmisi təkrar etdi.

Onlar artıq küçəyə enən pilləkəndə dayanmışdılar. Qapıçının hamısını eşidəcəyindən qorxan K. əmisini aşağıya tərəf dartdı və küçədəki canlı izdiham onları uddu. Əmisi K.-nın qolundan tutmuşdu, daha məhkəmə barədə dalbadal suallar yağdırmırdı, hətta bir xeyli susdular da...

– Bəs niyə belə oldu? – nəhayət, əmisi soruşdu və qəfildən yerindəcə dayanıb qaldı, arxadan gələnlər qorxaraq yana çəkildi.

– Belə işlər birdən-birə olmur, bunun üçün hazırlıq görülür, yoxsa buna görə mənə yazmadın? Özün bilirsən ki, sənin üçün hər şey eləməyə hazıram, mən hələ də müəyyən mənada sənin böyüyünəm və indiyə qədər də bununla fəxr edirəm. Əlbəttə, yenə də sənə kömək edəcəm. Ancaq indi, məhkəmə artıq başlayandan sonra bu, çətin olacaq. Ancaq, hər halda, qısa məzuniyyət götürüb kəndə gəlsən yaxşıdır... Bir az da arıqlayıbsan, indi gördüm... Kənddə özünü toplayarsan, belə yaxşı olar, yəqin qarşıda gərginliklər olacaq. Bunlardan əlavə də, bu məhkəmə sistemindən bir az uzaq olacaqsan. Burda onların təsir vasitələri çoxdur, məcburiyyət qarşısında qalıb, qeyri-ixtiyari onları sənə də tətbiq edəcəklər. Ancaq kənddə olsan, gərək nümayəndələrini göndərələr, ya da məktubla, teleqramla, telefonla sənə təsir etməyə çalışalar. Əlbəttə, bu səni tam azad etməsə də, həmin təsiri bir az zəiflədər, özünü toplarsan.

– Mənə harayasa getməyi yasaq da edə bilərlər, – deyəsən əmisinin dedikləri, az da olsa, K.-nın ağlına batmışdı.

– İnanmıram belə iş tutsunlar, – əmisi fikirli– fikirli dilləndi,– harayasa getməyinlə sənin üzərindəki nəzarəti o qədər də itirmirlər.

– Elə bilirdim, – deyə K. əmisinin qolundan tutdu ki, onu bir də dayanmağa qoymasın, – məndən fərqli olaraq, belə şeylərə çox da fikir verməyəcəksən, ancaq indi görürəm ki, özün bunu çox ürəyinə salırsan.

– Yozef! – kişi dayanmaq üçün qolunu onun əlindən çıxarmaq istədi, ancaq K. buna imkan vermədi. – Sən dəyişibsən, axı əvvəllər çox düzgün nəticələr çıxarmaq qabiliyyətin vardı, onu elə indi itirməli idin?! Məhkəməni uduzmaq istəyirsən? Bilirsən bu nə deməkdir? Bu o deməkdir ki, sən aramızdan biryolluq gedirsən. Bütün qohum-əqraba da səninlə bir yerdə gedir, ya da, ən azı, başlarını soxmağa yer axtaracaqlar. Özünü ələ al, Yozef! Sənin bu biganəliyin ağlımı başımdan çıxarır. Sənin üzünə baxanda, adam az qalır bu atalar sözünə inansın: “Bu cür məhkəməyə getmək – onu əvvəlcədən uduzmaq deməkdir!”

– Əziz əmi, həyəcanlanmaq nə sənə lazımdır, nə də mənə... Həyəcanlanmaqla məhkəmə udmaq olmaz, sənin təkliflərin məni nə qədər təəccübləndirsə də, həmişə qəbul etmişəm və indi də edirəm, ancaq bu dəfə qoy öz təcrübəmdən istifadə edim. Deyirsən ki, bu məhkəmədən bütün ailə üzvləri əziyyət çəkəcək – sözün düzü, niyəsini mən özüm də başa düşmürəm, ancaq bu, əsas məsələ deyil – eybi yox, səninlə razıyam. Ancaq sən dediyin mənada kəndə getmək fikrilə razılaşmıram, çünki buna qaçmaq, günahını boynuna almaq kimi baxarlar. Düzdür, təqiblər çox olacaq, ancaq burda qalmaqla işimlə daha çox məşğul ola bilərəm.

– Düz deyirsən! – əmisi bu sözləri elə dedi ki, sanki nəhayət razılığa gəldilər. – Ona görə belə dedim ki, burda qalıb öz biganəliyinlə işi korlayacağından qorxdum. Fikirləşdim ki, özüm sənin əvəzinə nəsə eləsəm, daha yaxşı olar. Əlbəttə, özün var gücünlə bu işə girişsən, lap yaxşı olar.

– Deməli, bu barədə razılığa gəldik! Yaxşı, indi de görüm, haradan, nədən başlayacağım haqqında təklifin var?

– Gərək bu barədə bir az düşünəm. Nəzərə al ki, mən iyirmi ildir kənddə yaşayıram, heç yana çıxmıram, ona görə də belə məsələlərdə nəsə demək bir az çətin olur. Bəlkə də belə işlərdən daha yaxşı başı çıxan adamlarla əlaqələr öz-özünə azalıb. Özün bilirsən ki, mən kənddə qaldığım üçün də bir az unudulmuşam. Bu da belə işlər olanda üzə çıxır. Digər tərəfdən də, Ernanın məktubundan nəsə ürəyimə damsa da, bu gün səni görən kimi onun doğru olduğunu bilsəm də, sənin bu məsələn mənim üçün gözlənilməz oldu. Ancaq bunun elə bir mənası yoxdur, indi əsas məsələ vaxtı itirməməkdir. – əmisi artıq danışa-danışa ayaqlarının ucuna qalxaraq maşınlardan birinə əl eləmişdi və indi sürücüyə ünvanı deyə-deyə K.-nı arxasınca dartıb ona oturtdu. – İndi vəkil Huldun yanına gedirik, məktəbdə bir oxumuşuq. Yəqin onun adını eşitmiş olarsan? Yox? Qəribədir... Axı o müdafiəçi, yoxsulların vəkili kimi çox məşhurdur. Ancaq mən ona bir insan kimi çox inanıram.

K. əmisinin bu tələsikliyindən, elə həmin dəqiqə işə başlamasından bir az narahat olsa da dedi:

– Necə istəyirsən, elə də et! – Müqəssir kimi vəkil yanına getmək o qədər də xoşa gələn iş deyildi. – Heç bilmirdim ki, belə işlərdə vəkil tutmaq lazımdır.

– Əlbəttə lazımdır, – dedi əmisi, – başqa cür ola bilməz! Niyə də tutmayaq? Hə, indi mənə bu vaxtacan olanların hamısını danış ki, iş haqqında dəqiq məlumatım olsun.

K. heç nəyi gizlətmədən, hər şeyi olduğu kimi danışmağa başladı və onun bu səmimiyyəti məhkəmənin rüsvayçılıq olması barədə əmisinin dediklərinə yeganə etiraz əlaməti kimi səsləndi. Frölayn Bürstnerin adını bircə dəfə, özü də ötəri çəkdi, ancaq bu onun səmimiyyətinə xələl gətirmədi, çünki qızın məhkəmə ilə heç bir əlaqəsi yox idi. Danışa-danışa pəncərədən çölə baxırdı və gördü ki, məhkəmənin yerləşdiyi qəsəbəyə yaxınlaşırlar. Bunu əmisinə dedi, ancaq kişi bu təsadüfə o qədər də əhəmiyyət vermədi. Maşın qaranlıq bir evin qarşısında dayandı. Əmisi birinci mərtəbədə qarşılarına çıxan ilk mənzilin zəngini basdı. Onlar gözləyən zaman əmisi təbəssümlə dişlərini qıcıdaraq dedi:

– Saat səkkiz vəkil yanına gəlmək üçün yaxşı vaxt deyil, ancaq Huld məni bağışlayar.

Qapının gözlüyündə bir cüt iri, qara gözlər göründü, onlar bayırdakı qonaqlara baxıb yox oldular, ancaq qapı açılmadı. Əmisi də, K. da bir-birinə təsdiqlədi ki, bir cüt gözün baxdığını görüblər.

– Yəqin təzə qulluqçudur, tanımadığı üçün qorxdu, – deyən əmisi qapını bir də döydü. Gözlər yenə göründü, ancaq bu dəfə deyəsən bir az kədərli idilər, ya da, ola bilsin, başları üzərində çırtıltı ilə yanan qaz lampasının zəif işığı onları aldadırdı.

– Açın! – əmisi qışqırdı və yumruğu ilə qapını döyməyə başladı. – Cənab vəkilin dostlarıyıq!

– Cənab vəkil xəstədir, – deyə kimsə arxa tərəfdən pıçıldadı. Balaca dəhlizin o biri başındakı qapının ağzında gecə xalatında olan bir cənab dayanmışdı və bu sözləri də çox alçaqdan dedi. Çox gözlədiklərinə əsəbiləşən əmisi qəflətən geri dönüb ucadan dedi:

– Xəstədir? Deyirsiniz xəstədir?

Və acıqlı-acıqlı ona tərəəf getdi, elə bil onu bu kişi xəstələndirmişdi.

– Açdılar! – deyə kişi vəkilin qapısını göstərdi və xalatının ətəklərini yığışdıraraq gözdən itdi.

Qapı doğrudan da açılmışdı və uzun, dümağ önlük taxmış gənc bir qız da – K. həmin o qara, bir az da bərəlmiş gözləri tanıdı – əlində şam ön otaqda dayanmışdı. O, yüngülcə təzim etdi və kişi də salam əvəzinə dedi:

– Gələn dəfə tez açarsınız! – sonra da qızın yanından sivişib keçmək istəyən K.-ya tərəf döndü: – Gəl, Yozef!

Kişinin dayanmadan qapıya tərəf getdiyini görən qız dilləndi:

– Cənab vəkil xəstədir.

K. təəccübləndi ki, qız belə tez geri dönüb qapının ağzını kəsdirib. Onun sifəti gəlincik sifəti kimi yumru idi və yalnız solğun yanaqları, çənəsi deyil, gicgahları da, alnının kənarları da yumrulanmışdı.

– Yozef! – deyə təzədən qışqıran əmisi qıza tərəf döndü: – Ürəyidir?

– Deyəsən elədir... – qulluqçu bu arada vaxt tapıb əlində şam qapıya yaxınlaşaraq onu açmışdı. Otağın şam işığı çatmayan küncündən saqqallı bir sifət çarpayıda dikəldi.

– Leni, kimdir gələn? – şam işığı gözlərini qamaşdırdığı üçün qonaqları tanımadı.

– Albertdir... Köhnə dostun...

– Ah, Albert... – vəkilin başı təzədən yastığa düşdü, elə bil hiss etdi ki, bunların yanında özünü xəstəliyə vurmağın mənası yoxdur.

– Doğrudan özünü pis hiss eləyirsən? – deyə kişi çarpayının kənarında oturdu. – İnanmıram... Yenə ürəyin tutub, həmişəki kimi keçib gedəcək.

– Ola bilsin... – vəkil astadan dilləndi. – Ancaq əvvəlkilərdən betərdir, çətin nəfəs alıram, heç yata bilmirəm, günbəgün də zəifləyirəm.

– Belə de... – Albert şlyapasını dizinə keçirib onu əli ilə aşağı basdı. – Bu heç yaxşı xəbər olmadı. Heç olmasa, sənə yaxşı baxırlar? Bura yaman gündədir, qaranlıqdır. Çoxdan buralara gəlmirəm, o vaxtlar yaxşı idi... Bu balaca frölayn da heç şən qıza oxşamır, ya da özünü belə aparır...

Qız hələ də əlində şam qapının ağzında dayanmışdı və qeyri-müəyyən nəzərlərlə əmisindən çox K.-ya tərəf baxırdı, sanki indi onun haqqında danışan K. idi. K. isə kreslolardan birini ona yaxın çəkib oturmuşdu.

– Mənim kimi xəstələrə sakitlik lazımdır, bura da pis deyil, – deyən vəkil sözünə azacıq ara verdi, sonra da əlavə etdi: – Leni mənə yaxşı baxır, qoçaq qızdır.

Bu sözlər kişini inandıra bilmədi, onsuz da elə əvvəlcədən qızdan xoşu gəlməmişdi, ancaq xəstəyə də etiraz etmədi və elə həmin anda çarpayıya yaxınlışıb əlindəki şamı tumbanın üstünə qoyaraq xəstənin yastığını düzəldə-düzəldə ona nəsə pıçıldayan qızı ciddi nəzərlərlə süzdü. Sonra sanki burda xəstə olduğunu unudaraq ayağa durdu, qulluqçunun arxasında elə bir görkəmdə gəzişməyə başladı ki, əgər onun ətəyindən tutub geri dartsaydı, K. buna heç də təəccüblənməzdi. Özü isə sakitcə dayanıb baxırdı, hətta vəkilin xəstə olmasına bəlkə də sevinirdi, çünki əmisinin bu tələskənliyinə qarşı çıxa bilməmişdi və indi K.-nın köməyi olmadan onun diqqətinin bir az yayınması ürəyincə oldu. Həmin anda əmisi bəlkə də yalnız qızı incitmək xatirinə dedi:

– Frölayn, lütfən bizi bir az tək buraxın, dostumla şəxsi bir məsələni müzakirə etmək istəyirəm.

Xəstəyə tərəf bir az da əyilib divar tərəfdən döşəkağını düzəldən qulluqçu yalnız başını geri döndərib acığından əvvəlcə kəkələyən, sonra rəvan danışmağa başlayan kişidən fərqli olaraq sakit səslə dedi:

– Görürsünüz ki, cənab xəstələnib, şəxsi məsələ müzakirə eləyə bilməz.

Güman ki, qız onun sözlərini qeyri-ixtiyari təkrarladı, ancaq bu işə qarışacağı olmayan adam da ondakı istehzanı duyardı və məlum məsələ idi ki, əmisi yerindən oynadı:

– Lənətə gəlmiş! – Hirsindən boğulduğu üçün bu sözləri elə dedi ki, heç başa düşülmədi. Təxminən buna bənzər nəsə gözləyən K. diksinərək ayağa durdu, əlləri ilə ağzını tutmaq üçün əmisinə tərəf tələsdi. Xoşbəxtlikdən, həmin anda xəstə dikəldi, üz-gözünü elə turşutdu ki, sanki nəsə acı bir şey uddu və sonra da sakitcə dedi:

– Əlbəttə, biz hələ ağlımızı itirməmişik, əgər mənim istədiyim mümkün deyilsə, onu istəmərəm. İndisə, xahiş edirəm, çıxın gedin!

Qız çarpayının önündə dikələrək kişiyə tərəf döndü və K.-ya elə gəldi ki, bir əli ilə vəkilin əlini sığallayır.

– Leninin yanında hər şeyi danışa bilərsən, – vəkilin səsində təhrikedici bir xahiş vardı.

– Söhbət məndən getmir, mənim sirrim deyil, – deyə o geri döndü, sanki bununla heç bir güzəştə getməyəcəyini, ona fikirləşmək üçün vaxt verdiyini demək istədi.

– Bəs kimdən gedir? – vəkil getdikcə zəifləyən bir səslə soruşdu və təzədən uzandı.

– Qardaşım oğlundan... Özünü də gətirmişəm. Və onu təqdim etdi: – Prokurist Yozef K.

– Belə dee... – xəstə bir az canlandı və əlini K.-ya uzatdı, – bağışlayın, sizi görmədim. Sən get, Leni.

Qız etiraz eləmədi, əlini vəkilə uzatdı, sanki uzun müddətə ayrılırdılar.

– Belə çıxır ki, – vəkil barışıq əlaməti kimi ona daha yaxınlaşan kişiyə tərəf döndü, – məni yoluxmaq üçün deyil, işin olduğu üçün gəlibsən.

Deyəsən, səhərdən bəri vəkilin əl-qolunu bağlayan kiminsə onu yoluxmağa gəlməsi fikri imiş, ancaq indi əməlli-başlı dirilmişdi, çətin də olsa, yerində dirsəklənmişdi, saqqalını tumarlayırdı.

– İfritə gedəndən sonra sağ-salamat adama oxşayırsan, – deyə sözə başlayan kişi qəflətən dayandı, sonra pıçıldadı: – Mərc gələrəm ki, indi qapıda dayanıb bizə qulaq asır! – yerindən sıçrayaraq qapıya tərəf cumdu. Ancaq orda heç kəs yox idi və geri qayıdan kişidə heç bir məyusluq əlaməti hiss olunmurdu, çünki qızın qulaq asmaması ona daha çox təsir eləmişdi – çünki bu əsl kin-küdurət, daha doğrusu, amansızlıq idi.

– Sən onu yaxşı tanımırsan... – vəkil bu sözlərdən sonra qızı bir daha müdafiə etməyə çalışmadı, sanki bununla onun heç bir müdafiəyə ehtiyacı olmadığını göstərmək istəyirdi. Ancaq onların halına yanırmış kimi sözünə davam etdi: – Oaldı sənin cənab qardaşoğlunun işinə – bu çətin işin öhdəsindən gəlməyə gücüm çatsaydı, özümü ən xoşbəxt adam sanardım. Çox qorxuram ki, gücüm çatmaya... ancaq bununla belə çalışacam... Gücüm çatmasa, bir başqasını da qoşarıq. Düzünü desəm, bu iş məni o qədər maraqlandırır ki, yox deyə bilmirəm. Əgər ürək dözməsə, ən azı, imtina etmək üçün layiqli bir əsasım olacaq.

K.-ya elə gəldi ki, onun danışığından heç nə başa düşmədi, əmisinin üzünə baxdı ki, bəlkə oradan nəsə anladı, ancaq o sakitcə oturmuşdu, bir əli ilə də tumbanın üstündəki şamdan yapışmışdı, yapışan kimi də ordakı dərman şüşəsinə toxunub xalçanın üstünə salmışdı və vəkil nə deyirdisə, başını tərpədirdi, hamısı ilə razılaşırdı, hərdən də K.-ya elə baxırdı ki, sanki "Sən də razılaş!" – deyirdi. Bəlkə əmisi vəkilə əvvəlcədən məhkəmə barəsində nəsə demişdi? Yox, bu mümkün deyildi, çünki indiyəcən olanlar bunun tam əksini deyirdi. Buna görə də dedi:

– Başa düşmürəm...

– Bəlkə mən sizi düz başa düşmədim? – vəkil də K. kimi heyrətlə, pərt halda soruşdu, – bəlkə də tələsdim... Mənimlə nə barədə danışmaq istəyirdiniz? Elə bilirdim, söhbət sizin məhkəmənizdən gedir...

– Əlbəttə! – deyən əmisi K.-dan soruşdu: – Özgə nə istəyirdin?

– Mənim haqqımda, məhkəmə haqqında haradan bilirsiniz?

– Belə de... – vəkil gülümsədi, – axı mən vəkiləm, məhkəmələrdə oluram, onlar haqqında deyilənləri eşidirəm və çox maraqlı olanlar, xüsusilə də dostunun qardaşı oğlu ilə bağlı deyilənlər yadımda qalır. Burda qəribə heç nə yoxdur.

– Daha nə istəyirsən? – əmisi K.-dan bir də soruşdu, – narahatsan ...

– Məhkəmədə işləyənlərlə oturub-durursunuz?

– Bəli.

– Sən lap uşaq sualı verirsən, – əmisi kənardan söz atdı.

– Öz sahəmdə olan adamlarla oturub-durmayıb, bəs kiminlə oturub-durmalıyam? – vəkil əlavə elədi. Bu sözləri elə inamla dedi ki, K. cavab verəsi olmadı. İstədi desin ki, siz çardaqdakı məhkəmədə deyil, Ədliyyə məhkəməsində işləyirsiniz, ancaq bacarmadı.

– Nəzərə alın ki, – vəkil elə bir tərzdə sözünə davam etdi ki, sanki adi bir məsələni yeri gəldiyi üçün ötəri izah edirdi, – nəzərə alın ki, mən bu münasbətlərin xeyrini çox görürəm... Özü də çox cəhətdən, ancaq hər şeyi deyə bilmərəm. Əlbəttə, indi xəstəliyimlə əlaqədar ora gedib-gələ bilmirəm, ancaq ordakı yaxşı dostlarım yanıma gəlirlər, mən də bəzi işlərdən xəbər tuturam. Bəlkə sağlam vaxtlarımda bütün günü orda oturub öyrəndiklərimdən çox öyrənirəm. Məsələn, indi çox əziz bir qonağım var... – o, otağın qaranlıq küncünü göstərdi.

– Hardadır? – heyrətdən K.-nın səsi kobud çıxdı. Şübhəli-şübhəli ətrafına boylandı. Balaca şamın işığı üzbəüz divardan o tərəfə keçmirdi. Doğrudan da küncdə nəsə bir tərpəniş hiss olundu. Əmisi şamı bir az yuxarı qaldırdı və orda balaca stolun arxasında yaşlı bir kişinin oturduğu göründü. Sanki indiyəcən heç nəfəs də almamışdı, ona görə də gözə dəyməmişdi. İndisə çətinliklə ayağa durdu, yəqin onu gördüklərindən narazı qalmışdı. Balaca quş qanadına oxşayan əlini yellətdi, sanki bununla heç bir görüş səhnəsinə, təqdimata ehtiyac olmadığını bildirdi, sanki burda qalıb onlara mane olmaq istəmədiyini dedi, sanki şamı yerinə qoyub onu təzədən qaranlığın qoynuna qaytarmağı, burda olduğunu büsbütün unutmalarını xahiş etdi. Ancaq heç kəs bununla razılaşmadı.

– Əslində, bizi təəccübləndirdiniz, – vəkil izahat verdi, əli ilə cənaba işarə etdi ki, çəkinməsin, yaxına gəlsin, o da yavaş-yavaş, tərəddüdlə, yan-yörəsinə baxa-baxa, ancaq qürurla irəli gəldi. – Cənab dəftərxana müdiri... Ah, bağışlayın, sizi təqdim etmədim – bu mənim dostum Albert K., yanındakı da qardaşı oğlu Yozef K., prokurist, bu da cənab dəftərxana müdiri... Sağ olsun, məni yoluxmağa gəlib. Bu gəlişin qiymətini yalnız onun işinin başından aşdığını yaxşı bilən adamlar verə bilər. Buna baxmayaraq, gəlib və biz sakitcə oturub söhbət edirdik, Leniyə də içəri adam buraxmamağı tapşırmamışdıq, çünki heç kəsi gözləmirdik, ancaq istəyirdik ki, tək qalaq, sonra da sən qapını yumruqlamağa başladın, Albert, cənab dəftərxana müdiri kreslosunu da, balaca

stolu da küncə çəkdi, ancaq indi bəlli oldu ki, biz imkan daxilində, yəni siz istəyirsinizsə, hamımız üçün ümumi olan bir işi müzakirə edərik və ona görə də yaxın otursaq yaxşıdır. Buyurun, cənab dəftərxana müdiri, – deyə o itaətkar bir təbəssümlə təzim edərək çarpayının yaxınlığındakı hörmə kreslonu göstərdi.

– Təəssüf ki, mən yalnız bir neçə dəqiqə otura biləcəm, – dəftərxana müdiri mehribanlıqla dilləndi, kresloya yayxandı və saata baxdı: – İşlər məni gözləyir, ancaq dostumun dostu ilə tanış olmaq fürsətini də əldən vermək istəmirəm. – O, təzə tanışlıqdan çox məmnun qalan, ancaq təbiətinə uyğun olaraq sədaqətini ifadə etməyi bacarmayan, çətin vəziyyətə düşdüyü üçün dəftərxana müdirinin sözlərini uca bir gülüşlə qarşılayan kişiyə yüngülcə təzim etdi. Nə iyrənc səhnə idi! K. hər şeyi rahatca müşahidə edə bilirdi, çünki ona fikir verən yox idi. Dəftərxana müdiri, deyəsən, buna adət etdiyi və bir də minnətlə dəvət olunduğu üçün təşəbbüsü ələ almışdı, yalnız özü danışırdı, bəlkə də təzə gələn qonaqlardan canını qurtarmaq üçün özünü zəif göstərən vəkil əlini qulağının dibinə qoyub diqqətlə qulaq asırdı, şamtutan əmisində – onu dizinin üstünə qoymuşdu, tez-tez düzəldirdi ki, düşməsin və bundan narahat olan vəkil də gözünü ondan çəkmirdi, – bayaqkı pərtlikdən əsər-əlamət qalmamışdı, dəftərxana müdirinin danışıq tərzinə, danışa-danışa əlini asta-asta, dalğavari şəkildə oynatmasına heyran olmuşdu. Dəftərxana müdiri bəlkə də bilərəkdən çarpayının başına söykənmiş K.-ya fikir vermirdi və belə çıxırdı ki, onun vəzifəsi yalnız bu yaşlı cənablara qulaq asmaqdan ibarətdir. Yeri gəlmişkən, heç söhbətin nədən getdiyini də bilmirdi, gah qulluqçu qız, gah əmisinin onunla necə kobud rəftar etməsi, gah da dəftərxana müdirini haradasa görüb-görmədiyi barədə düşünürdü. Bəlkə ilk istintaq zamanı görmüşdü? Əgər belə deyildisə, onda iştirakşıların arasında, birinci cərgədəki təkəsaqqal cənabın yanında dayanan görmüşdü...

Bu vaxt ön otaqdan sınan qab səsi eşidildi, hamısı o tərəfə baxdı.

– Gedim görüm nə olub, – deyə K. yavaş-yavaş qapıya tərəf getdi, sanki bununla içəridəkilərə şərait yaradırdı ki, onu getməyə qoymasınlar. Ön otağa girib gözləri qaranlığa alışana kimi hələ qapını dəstəyində olan əlinin üstünə balaca bir əl qoyuldu və K.-nın əlindən çox kiçik olan həmin əl qapını yavaşca örtdü. Qulluqçu idi, onu gözləyirdi.

– Heç nə olmayıb, – qız pıçıldadı, – boşqabı divara vurub sındırdım ki, siz gələsiniz.

K. pərt oldu:

– Elə mən də sizin haqqınızda fikirləşirdim...

– Daha yaxşı... Gəlin.

Bir neçə addımdan sonra tutqun şüşəli bir qapıya çatdılar, qız onu açdı:

– İçəri keçin, – dedi.

Şübhəsiz ki, bura vəkilin iş otağı idi. Otağın hər üç pəncərəsinin önünə kvadrat şəklində düşən ay işığında onun ağır, köhnə dəbli mebellərlə bəzədildiyini gördü.

– Bura keçin, – qız arxasına taxtadan söykənəcək düzəldilmiş qara rəngli sandığı göstərdi.

K. oturmamışdan əvvəl otağa göz gəzdirdi: hündür, geniş idi və kasıb-kusub vəkilinin müştəriləri burda itib-batardılar. K.-ya elə gəldi ki, müştərilərin xırda addımlarla bu nəhəng yazı stoluna necə yaxınlaşdıqlarını da gördü. Sonra hər şey yaddan çıxdı və indi yalnız lap böyründə oturub onu, demək olar ki, qoltuqaltına sıxan qıza baxırdı.

– Elə bilirdim, özünüz yanıma gələcəksiniz, – dedi qız, – çağırmaq lazım olmayacaq. Qəribə oldu... İçəri girən kimi gözlərinizi məndən çəkmədiniz, sonra da gözlətdiniz... Mənə, sadəcə olaraq, Leni deyin... – qız son sözləri tələsə-tələsə dedi, sanki vaxt itirmək istəmirdi.

– Məmnuniyyətlə... – K. cavab verdi. – Qaldı qəribəlik məsələsi – onu izah etmək çətin deyil, Leni. Birincisi, o qocaların nə çərənlədiklərinə qulaq asmalı idim, bəhanəsiz aralana bilməzdim, ikincisi də mən sırtıq adam deyiləm, əksinə, utancağam və siz də, Leni, doğrudan da tez yola gələnə oxşamadınız.

– Elə deyil... – Leni qolunu söykənəcəyin üstünə qoyub K.-ya baxdı. – Xoşunuza gəlmədim... yəqin heç indi də gəlmirəm.

– Xoşa gəlmək məsələsi deyildi... – K. etiraz etdi.

– Hə..ə.. – qız gülümsədi və K.-nın bu sözlərindən, həm də öz cavabından bir az ürəkləndi. Ona görə də K. bir anlığa susdu. Artıq gözləri qaranlığa alışdığı üçün otaqdakı bəzi şeyləri seçə bilirdi. Ən çox diqqətini çəkən qapının sağ tərəfindəki iri şəkil oldu, onu daha yaxşı görmək üçün başını qabağa uzatdı. Hakim mantiyasında olan bir kişinin şəkli idi. Qızılı haşiyələri parıldayan uca bir kresloda oturmuşdu. Qəribəsi bu idi ki, o narahat idi, məğrurluq hiss olunmurdu, sol əlini qoltuqaltı ilə söykənəcəyə sıxmışdı, sağ əlində heç nə yox idi, qoltuqaltıdan tutmuşdu, sanki indicə sıçrayıb ayağa qalxacaq, nəsə vacib bir söz deyəcək, ya da elə hökm oxuyacaqdı. Müttəhim də yəqin ki onun ayaqlarının ucundakı pilləkəndə oturmuş olardı və üstünə sarı rəngli xalça çəkilmiş həmin pilləkənin baş tərəfi şəkildə görünürdü.

– Bəlkə də mənim hakimimdir, – deyə K. barmağı ilə şəkli göstərdi.

– Onu tanıyıram, – Leni də şəklə tərəf baxdı, – bura tez-tez gəlir. Cavan vaxtının şəklidir, ancaq özü deyəsən heç vaxt ona oxşamayıb. Çünki bircə qarış boyu var. Ancaq şəkildə özünü ucaboy çəkdirib, çünki o da buradakıların hamısı kimi dəhşətli dərəcədə lovğadır. Elə mən özüm də lovğayam və xoşunuza gəlmədiyimdən çox narazıyam.

K. qızın son sözlərinə onu qucaqlayıb özünə tərəf çəkməklə cavab verdi və Leni də sakitcə başını onun çiyninə qoydu. Qalan sözlərinə isə cavab əvəzinə sual verdi:

– Onun vəzifəsi nədir?

– Təhqiqat müstəntiqidir. – qız K.-nın onu qucaqlamış əlinin barmaqları ilə oynamağa başladı.

– Ah, yenə də təhqiqat müstəntiqi... – K. məyus oldu. – Böyük vəzifəli məmurlar gizlənirlər. Ancaq onun oturduğu əsil hakim kreslosudur.

– Hamısı quraşdırmadır, – Leni üzünü K.-nın əlinə yaxınlaşdırdı, – əsil həqiqətdə isə mətbəx kreslosunda oturur, üstünə də köhnə bir yəhər qoyublar... – Sonra da yavaş-yavaş əlavə etdi, – siz elə həmişə məhkəmə barədə düşünməlisiniz?

– Xeyr, həmişə yox... Hətta deyərdim ki, o barədə çox az düşünürəm.

– Düz eləyirsiniz... Deyirlər, siz çox tərs adamsınız.

– Bunu kim deyir? – K. qızın bədənini sinəsində hiss elədi və onun qalın qara saçları boyu aşağı baxdı.

– Bunu desəm, çox sirri açmış olaram, – Leni cavab verdi. – Xahiş edirəm ad soruşmayın, səhvinizi də düzəldin, çox tərslik eləməyin, bu məhkəmədən can qurtarmaq olmaz, hər şeyi etiraf etmək lazımdır. Gələcəkdə, imkan düşən kimi, hər şeyi boynunuza alın. Yalnız bunun vasitəsilə sürüşüb aradan çıxmaq olar... Yalnız bununla, vəssalam. Ancaq bunun özü də kiminsə köməyi olmadan mümkün deyil və bu kömək məsələsində də qorxmayın, özüm sizə kömək edəcəm.

– Siz bu məhkəməni yaxşı tanıyırsınız, ona lazım olan saxtakarlıqları da bilirsiniz, – deyə K. özünü ona sıxan qızı qucağına aldı.

– Bax belə... – Leni onun qucağında yerini rahatladı, ətəyini aşağı çəkdi, koftasını düzəltdi. Sonra qollarını K.-nın boynuna dolayıb başını bir az geri əydi, uzun-uzadı onun üzünə baxdı.

– Boynuma almasam, kömək edə bilməzsiniz? – K. sınayıcı nəzərlərlə qıza baxdı. “Özümə yaxşı xanım köməkçilər tapıram...” – K. heyrət içində fikirləşdi, – “Əvvəlcə frölayn Bürstner, sonra məhkəmə məmurunun arvadı, indi də bu balaca qulluqçu qız... Heç bilmirəm məndə nə görüb... Gör dizimin üstündə necə oturub, elə bil burdan rahat yer yoxdur.”

– Xeyr, – Leni başını asta-asta buladı, – onda kömək edə bilmərəm. Ancaq siz də mənim köməyimi istəmirsiniz, sizə lazım deyil, çox inadkarsınız, sizi nəyəsə inandırmaq mümkün deyil. – sözlərinə biz ara verib soruşdu: – Sevgiliniz var?

– Yox!

– Ola bilməz...

– Düz deyirsiniz, var... Təsəvvür edin ki, ondan küsmüşəm, ancaq şəklini həmişə yanımda gəzdirirəm.

Qızın xahişlərindən sonra Elzanın şəklini ona göstərdi. Leni diqqətlə şəklə baxdı. Tez hazır olan şəkillərdən idi, qız rəqs edən yerdə çəkilmişdi, – Elza işlədiyi meyxanada belə rəqs etməyi xoşlayırdı – ətəyi yellənirdi, əllərini belinə qoymuşdu, boğazını dik tutaraq yana baxıb gülürdü. Şəkildə onun kimə baxdığı bilnmirdi.

– Belini cox çəkib, – deyə Leni şəkildə həmin yeri göstərdi. – Mənim xoşuma gəlmir, dikbaşdır, qabadır. Bəlkə də sizə qarşı mülayimdir, mehribandır, elə şəkildən də görünür. Belə dolubədənli, güclü qızlar çox vaxt mülayim, mehriban olmaqdan başqa heç nə bilmirlər. Ancaq özünü sənə qurban verə bilər?

– Xeyr, nə mülayimdir, nə də mehriban, özünü də heç vaxt mənə qurban verməz. Ancaq indiyə qədər dediklərinizin heç birini ondan tələb etməmişəm. Bu şəklə də heç vaxt sizin kimi belə diqqətlə baxmamışam.

– Deməli, sizi ona heç nə bağlamır... Deməli, sevgiliniz də deyil...

– Sevgilimdir! Mən dediyimdən dönən deyiləm.

– Ola bilsin, indi sevgilinizdir. Ancaq onu itirsəniz və ya da kiməsə dəyişsəniz, məsələn elə mənə dəyişsəniz, yeri o qədər də görünməz...

– Əlbəttə, – K. gülümsədi, – belə də ola bilər, ancaq sizdən bir böyük üstünlüyü var ki, mənim məhkəməm haqqında heç nə bilmir və hətta bilsə də, bu barədə fikirləşməz.

– Bu, üstünlük deyil. Əgər başqa üstünlükləri yoxdursa, onda mən hələ ümidimi üzmürəm. Fiziki çatışmazlığı var?

– Fiziki çatışmazlıq?

– Bəli. Mənim kiçik də olsa belə çatışmazlığım var. Baxın! – deyə qız sağ əlinin orta barmaqlarını bir-birindən araladı. Onlar bükəcəyə qədər bitişik idi. Qaranlıq olduğu üçün K. əvvəlcə qızın ona nə göstərmək istədiyini başa düşmədi, ona görə də qız onun əlini aparıb öz əlinin üstünə qoydu ki, hiss etsin.

– Təbiətin yaratdığına bax! – K. onun əlini tam nəzərdən keçirəndən sonra əlavə etdi: – Nə gözəl dırnaqlarınız var!

Leni bir növ məğrurluqla K.-nın heyrət içində onun baramaqlarını necə araladığına, sonra da bitişdirdiyinə baxdı. K. qəflətən onları yüngülcə öpüb buraxdı.

– Oh! – qız o dəqiqə qışqırdı. – Məni öpdünüz!

Sonra da dizlərini onun dizlərinin üstünə qoyaraq sinəsinə “dırmaşmağa” başladı. Özünü itirmiş K. ona indi lap yaxın olan qıza baxdı, kəskin, bibər iyisinə oxşar bir qoxu üzünə vurdu. Qız onun başını özünə tərəf çəkərək boğazını dişlədi, öpdü, hətta saçlarını da dişlədi. Hərdən də “Onu mənimlə əvəz etdiniz! Görürsünüzmü, onu mənimlə əvəz etdiniz” – deyirdi. Həmin anda dizi sürüşdü, yavaşdan qışqırdı, az qaldı xalçanın üstünə yıxılsın, K. onu qucaqladı ki, yıxılmasın, ancaq özü də onunla bərabər yıxıldı.

– İndi sən mənimsən! – dedi qız. – Bu da evin açarı, nə xaxt istəyirsən, gəl... – Qızın son sözləri bu oldu və K. durub gedəndə mənasız yerə onun kürəyindən öpdü.

K. bayıra çıxanda, yağış yağırdı və o, küçənin ortasına tərəf tələsdi ki, bəlkə qızı pəncərədə görə, ancaq elə həmin anda evin qabağında gözləyən maşından bir nəfər düşdü – halı özündə olmadığı üçün onu heç görməmişdi – əmisi idi, qollarından yapışıb onu giriş qapısına sıxdı, sanki qapıya mismarlamaq istəyirdi:

– Uşağın biri uşaq! Bu nə iş idi sən tutdun? İşin düzəlməyə doğru gedəndə, onu vurub korladın. O balaca ifritə ilə harasa əkilirsən – üstəlik də, ola bilsin, vəkilin məşuqəsidir – saatlarla yoxa çıxırsan. Heç bir bəhanə gətirmirsən, heç nəyi gizlətmirsən, yox, sən nəyisə gizlədən adam deyilsən, qızın yanına gedirsən, orda da qalırsan. Həmin vaxtda da biz bir yerdə otururuq – sənin üçün çalışan əmin, öz tərəfimizə çəkmək istədiyimiz vəkil və hər şeydən əvvəl də, dəftərxana müdiri, o böyük adam... İndiki mərhələdə sənin işin onun əlindədir. Məsləhətləşirik ki, sənə necə kömək edək, mən ehtiyatla vəkili buna hazırlayıram, vəkil də dəftərxana müdirini... Ən azı yanımızda qalıb mənə dəstək olmalı idin. Bunun əvəzində yoxa çıxırsan! Axırda hər şey məlum

olur, ancaq onlar yaxşı ki, tərbiyəli, mahir adamlardır, bu barədə danışmırlar, mənə yazıqları gəlir, ancaq son məqamda onlar da özlərini məcbur eləyə bilmirlər və iş barədə danışa bilmədikləri üçün susurlar. Xeyli sakitcə oturduq, qulağımız qapıda qaldı ki, bəlkə qayıdasan. Ancaq xeyri yoxdur. Axırda istədiyindən də çox oturmuş dəftərxana müdiri ayağa durur, vidalaşır, mənə kömək edə bilmədiyinə təəssüflənir, hətta ağıla sığmayan bir iltifatla qapıda bir az da ləngiyir, sonra çıxıb gedir. Əlbəttə, onun getdiyinə çox sevindim, çünki artıq havam çatmırdı. Xəstə vəkilə bütün bunlar daha çox təsir etdi, yazıq kişi mənimlə vidalaşanda, danışa da bilmədi. Bəlkə də bu hərəkətinlə onun axırına çıxdın, işin keçdiyi bir adamın ölümünü tezləşdirdin. Və məni – öz əmini yağışın altında saatlarla gözlədirsən, bir bax, suyun içindəyəm, əzab verirsən...

## YEDDİNCİ FƏSİL

### Vəkil. Fabrik sahibi. Rəssam

Bir qış günü nahardan əvvəl – bayırda hava tutqun idi, qar yağırdı – hələ tez olsa da, K. çox yorğun halda iş otağında oturmuşdu. Heç olmasa, aşağı vəzifəli məmurlardan canını qurtarmaq üçün xidmətçiyə tapşırmışdı ki, yanına adam buraxmasın, vacib işlə məşğuldur. Ancaq işləmək əvəzinə kresloya söykəndi, yavaş-yavaş əlinin altındakı şeyləri bir tərəfə çəkdi, özü də bilmədən qollarını geniş açaraq stolun üstünə qoydu, başını aşağı əydi, beləcə də oturub qaldı...

Artıq məhkəmə məsələsini beynindən çıxara bilmirdi. Bir neçə dəfə fikirləşmişdi ki, bəraət məktubu hazırlasın, onu məhkəməyə təqdim etsin. Bu məktubda da qısa şəkildə keçdiyi həyat yolunu təsvir etsin, vacib hesab elədiyi bəzi anları önə çəksin, nə üçün belə hərəkət elədiyinin səbəbini göstərsin, həmin hərəkətləri indi necə qiymətləndirdiyini açıqlasın, nəyi niyə elədiyinin izahını versin. Şübhəsiz ki, belə bir bəraət məktubunun vəkilin o qədər də qüsursuz olmayan adi müdafiəsindən üstünlükləri çox idi. Axı K. indi də bilmirdi ki, vəkil onun üçün nə iş görür, hər halda, çox iş görmürdü, bir ay idi ki, heç yanına da çağırmırdı, elə əvvəlki söhbətlərində də K. hiss etmişdi ki, bu adam onun üçün cox iş görə bilməyəcək. Hər şeydən əvvəl də, K.-dan işi barədə, demək olar ki, heç nə soruşmamışdı, halbuki soruşulmalı çox şey vardı. K.-ya elə gəlirdi ki, burda vacib olan sualları o özü verməlidir. Vəkil isə, əksinə, sual vermək əvəzinə özü nəsə danışır, ya da lal-dinməz onunla üzbəüz otururdu, hərdən də ona tərəf əyilirdi, yəqin pis eşitdiyi üçün belə eləyirdi, saqqalını dartışdırırdı, xalçaya – bəlkə də elə onun Leni ilə uzanmış olduğu yerə baxırdı. Bəzən də onu uşaq kimi qabağına qoyub mənasız nəsihətlər verirdi. Haqq-hesab çəkiləndə, K. nə bu mənasız nəsihətlərə, nə də cansıxıcı nitqlərinə görə ona bircə qəpik də verməyəcək! Vəkil əmin olanda ki, onu kifayət qədər alçaldıb, adəti üzrə, bir az ürəkləndirməyə başlayırdı. Deyirdi ki, dəfələrlə buna bənzər işləri ya tamamilə ya da qismən udub. Hətta mahiyyət etibarilə belə ağır iş olmasalar da, ilk baxışda ümidsiz görünən məhkəmləri də... Hamısının da siyahısı onun siyirməsindədir – belə deyəndə, əlini çəkməcələrdən birinə vurudu , ancaq təəsüf ki, onları göstərə bilməz, çünki söhbət burda məhkəmə sirrindən gedir. Buna

baxmayaraq, belə məhkəmlərdə topladığı təcrübə, şübhəsiz ki, K.-nın xeyrinə olacaq. Əlbəttə, o elə həmin dəqiqədən bu iş üzərində çalışmağa başlayıb və ilkin vəkalətnamə hazırdır. Bu vəkalətnamə çox vacibdir, çünki onun yaratdığı təəssürat əksər hallarda məhkəmənin istiqamətini tamamilə dəyişir. Ancaq təəssüf ki, K.-nın diqqətini bir məsələyə də cəlb etmək istəyir ki, bəzən ilkin vəkalətnamələri məhkəmədə heç oxumurlar. Onları, sadəcə olaraq işə tikirlər və deyirlər ki, hələlik müqəssirin istintaqı, müşahidənin nəticələri orda yazılanlardan daha vacibdir. Şikayətçi əl çəkməyəndə də əlavə edirlər ki, bununla bağlı bütün sənədlər toplanandan sonra, hökm çıxarılmazdan əvvəl bunlara da baxılacaq. Təəssüf ki, əksər hallarda bu sözlər də düz çıxmır, çünki ilkin vəkalətnamə, adətən ya başqa sənədlərin arasına düşür, ya da heç tapılmır, hətta sona qədər orda olsa da, eşitdiyi şayiələrə görə, oxunmur. Bütün bunların hamısı təəssüf doğurur, ancaq əsassız da deyillər. K. unutmamalıdır ki, istintaq qapalı şəkildə aparılır və belə də ola bilər ki, məhkəmə lazım bilsə, açıq da aparılar, ancaq qanunda onun açıq aparılması nəzərdə tutulmayıb. Buna əsasən də məhkəmənin materialları, hər şeydən əvvəl də ittihamnamə nə müttəhimə nə də onun müdafiəçisinə verilir, ona görə də adam bilmir, ya da dəqiq bilmir ki, ilk vəkalətnaməni hansı istiqamətdə yazsın və belə olan halda, orada yalnız təsadüfən işin xeyrinə nəsə ola bilir. Əsil təqdimatlar, dəlil-sübutlar müqəssirin istintaqı zamanı ittihamın səbəbləri, onları əsaslandıran məqamlar üzə çıxandan və ya təsəvvür ediləndən sonra yazılır. Belə bir şəraitdə müdafiəni qurmaq, əlbəttə, çətinləşir. Bunu da qəsdlə eləyirlər. Əslində, qanunla müdafiəyə icazə verilmir, sadəcə olaraq, ona dözürlər, ancaq qanunun həmin maddəsində dözmək haqqında nəyinsə olduğu da mübahisəlidir. Ciddi götürəndə, elə buna görə də, məhkəmə tərəfindən tanınan vəkil yoxdur və orda vəkil kimi çıxış edənlərin hamısı, əslində, ara vəkilləridir. Bu da ordakı durumu gözdən salır və K. gələn dəfə dəftərxanaya yolu düşəndə, bütün bunları öz gözləri ilə görmək üçün vəkillər otağına baxsın. Yəqin ki ora toplaşanları görəndə dəhşətə gələcək. Elə onlara ayrılmış o dar, alçaq hücrə məhkəmənin vəkillərə necə nifrət etdiyindən xəbər verəcək. Oraya işıq lap hündürdə qoyulmuş deşikdən düşür, kimsə çölə baxmaq istəyəndə, onun yaxınlığındakı sobanın tüstüsü burnuna dolur, üz-gözü qapqara olur, gərək bir adm tapasan ki, onu çiyninə alıb apara. Döşəməsi bir ildən çoxdur ki, deşilib – oradakı vəziyyətə ən yaxşı misal! – əlbəttə, elə böyük deyil ki, adam ordan aşağı düşə, ancaq bir ayağı düşər. Vəkillər otağı ikinci çardaqdadır, kiminsə ayağı ora düşündə, birinci çardaqda necə sallandığı görünür. Özü də müştərilər gözləyən dəhlizdə... Vəkillər öz aralarında bu şəraiti rüsvayçılıq hesab eləyirlər və onları qınamaq da olmaz. Rəhbərliyə verilən şikayətlərin hamısı nəticəsiz qalıb, bunun əvəzində vəkillərə öz hesablarına bu otaqda hər hansı bir dəyişiklik etmək ciddi şəkildə yasaq olunub. Ancaq vəkillərlə bu cür rəftar etməyin də öz səbəbləri var. Bununla, imkan daxilində, müdafiənin qarşısını alırlar, hər şeyi müttəhimin öz boynuna atırlar. Əslində, pis mövqe deyil, ancaq bundan belə nəticə çıxarmaq olmaz ki, bu məhkəmədə müttəhimə vəkil lazım deyil. Əksinə, bu məhkəmədə vəkil o biri məhkəmələrdəkinə nisbətən daha çox lazımdır. Məsələ burasındadır ki, məhkəmə materialları yalnız ictimaiyyət üçün deyil, həm də müttəhim üçün qapalıdır. Düzdür, bunu müəyyən həddə qədər eləmək mümkündür, ancaq onlar istədiklərini çox geniş miqyasda həyata keçirə bilirlər. Müttəhim məhkəmə materialları ilə tanış ola bilmir və xüsusilə də, istintaqlar vasitəsilə həmin materiallardan nəticə çıxara bilmir, çünki qorxur, bundan əlavə də, qayğıları çox olduğuna görə fikri dağılır. Belə vəziyyətdə vəkil işə qarışır. Ümumiyyətlə götürəndə, vəkillər istintaqda iştirak etmir, ona görə də istintaqdan sonra, imkan daxilində, müttəhimin çıxdığı qapının ağzındaca onu sorğu-suala tutmalı olurlar və onların çox dolaşıq məlumatlarından nəsə öyrənib müdafiə qururlar. Ancaq bu, əsas məsələ deyil, çünki belə üsulla çox şey öyrənmək olmur, başqa yerlərdəki kimi, burda da yalnız ağıllı

adamlar başqalarına nisbətən çox şey öyrənə bilər. Bütün bunlara baxmayaraq, vəkilin şəxsi əlaqələri burda çox böyük rol oynayır, müdafiənin dəyəri onlardan asılı olur. Yəqin ki K. orda gördüklərindən başa düşüb ki, bu məhkəmənin lap aşağı vəzifələrində xain, rüşvətxor məmurlar işləyir və elə onlara görə də çox qapalı saxlanılan sistemdə zəif yerlər əmələ gəlir. Çoxlu vəkil həmin zəif yerlərdən istıfadə edərək oraya yol tapır, rüşvətxorluq, qapı pusmaq başlayır, hətta bəzən, ən azı əvvəlki dövrlərdə, məhkəmə sənədlərinin oğurlanması halları da olub. Onu da danmaq olmaz ki, bu yolla, bəzən müvəqqəti də olsa, müttəhim üçün gözlənilməz müsbət nəticələr əldə etmək mümkündür və o vəkil kimilər də döşlərinə döyə-döyə gəzir, özlərinə təzə müştərilər tapırlar, ancaq məhkəmənin sonrakı gedişində məlum olur ki, hamısı boş şeydir, hətta bəzən də nəticəsi pis olur. Yalnız səmimi şəxsi minasibətlər nəyəsə yarayır, özü də yüksək vəzifəli – əlbəttə, aşağı səviyyədəki yuxarı vəzifəli məmurlarla... Yalnız bu yolla məhkəmənin gedişinə, əvvəlcə hiss olunmasa da, sonralar aydın şəkildə təsir etmək olur. Bunu da, şübhəsiz ki, hər vəkil bacarmır və bu baxımdan K.-nın seçimi çox əlverişli olub. Doktor Huldun əlaqələri bəlkə də bir-iki hakimdə ancaq olar. Belə vəkillər həmin otağa yığışanlara qarışmırlar, onlarla heç bir əlaqələri yoxdur. Ancaq məhkəmə məmurları ilə əlaqələri çox yaxşıdır. Məsələn, doktor Hulda həmişə məhkəməyə getmək, təhqiqat müstəntiqlərinin gözləmə otaqlarında təsadüfi bir görüşə ümid etmək, onların ovqatından asılı olaraq zahiri bir uğur qazanmaq, bəzən heç bunu da qazanmamaq lazım gəlmir. Xeyr, K. özü də gördü ki, həmin məmurlar – aralarında kifayət qədər yüksək vəzifəlilər də olur – özləri gəlib könüllü şəkildə məlumat verirlər, bunu kimisi açıq şəkildə, kimisi də aydınca başa düşülən işarələlə edir, məhkəminin sonrakı gedişi barədə danışırlar, bəli, hətta bəzi hallarda onları nəyəsə inandırmaq da olur, Huldun fikrini qəbul edirlər. Ancaq, yeri gəlmişkən, sononcu məsələdə onlara çox da etibar etmək olmaz, çünki burda müdafiənin xeyrinə olan yeni fikirlər söyləyir, çıxan kimi də birbaşa dəftəxanaya gedir və səhəri gün dediklərinin tam əksi olan hökm çıxarırlar. Bəlkə də bu cəza müttəhim üçün əvvəlcə nəzərdə tutduğundan qat-qat ağır olur, halbuki burda fikirlərindən tamamilə daşındıqlarını deyirlər. Əlbəttə, buna qarşı çıxmaq da olmur, çünki ikilikdə olan söhbət o iki nəfərin də arasında qalmalıdır, hətta müdafiə o cənabların xeyrinə nəsə etmək niyyətində olsa da, müzakirəyə çıxarıla bilməz. Digər tərəfdən bu da düzdür ki, həmin cənablar yalnız insanlara məhəbbətdən, səmimiyyətdən müdafiə ilə – əlbəttə, söhbət əsil müdafiədən gedir – əlaqə yaratmırlar, həm də bu zaman daha çox öz xeyirlərini güdürlər. Elə əvvəlindən qapalı keçirildiyi üçün məhz bu anda məhkəmə sistemindəki çatışmazlıq üzə çıxır. Məmurların camaatla əlaqəsi yoxdur, ancaq adi, orta səviyyəlli məhkəmələrdə məlumatları yaxşı olur, belələri, demək olar ki, öz yolu ilə düz gedir, yalnız hərdən-birdən ona təkan vermək lazım gəlir, lakin bir də görürsən, adi hallarda, eləcə də çətin vəziyyətlərdə nə edəcəklərini bilmirlər, çünki insan münasibətlərinin mahiyyətinə varmaq əvəzinə bütün vaxtı gecəli– gündüzlü öz qanunlarına qapanıb qalırlar, ona görə də belə anlarda çətinə düşürlər. Onda məsləhət üçün vəkilin yanına gəlirlər və arxasınca da xidmətçiləri hamıdan gizli saxlanılan sənədələri gətirir. Bu pəncərənin önündə elə adamları görərəsən ki, heç birindən belə şey gözləməzsən: vəkil onlara yaxşı bir məsələhət vermək üçün bu stolun arxasına keçib həmin sənədləri nəzərdən keçirəndə, orda yazıq-yazıq dayanıb küçəyə baxırlar. Yeri gəlmişkən, məhz belə anlarda onların öz vəzifələrinə necə dəhşətli dərəcədə ciddi yanaşdıqları, öz təbiətlərinə uyğun olaraq, üzləşdikləri çətinliklərin öhdəsindən gələ bilməyəndə necə ümidsizliyə qapıldıqları aydınca görünür. Onların işi də asan deyil, onlara qarşı ədalətsizlik eləyib, "işləri asandır" demək də olmaz. Bu məhkəmədə kimin nə vəzifədə olduğu, burda nə qədər adamın işlədiyi bilinmir, hətta münəccim də bundan baş tapa bilməz. Məhkəmə istintaqları bütövlükdə aşağı çinli məmurlardan gizli saxlanılır, buna görə də özləri apardıqları işləri sonrakı

mərhələlərdə tam şəkildə izləyə bilmirlər, iş onlara çatanda, çox vaxt haradan gəldiyindən xəbərləri olmur, sonra haraya getdiyi barədə də onlara məlumat verilmir. Beləliklə də, məhkəmənin gedişindən, çıxarılan hökmdən, belə bir hökmün nə üçün verildiyindən nəsə öyrənmək imkanını itirirlər. Onlar işin yalnız qanunun icazə verdiyi hissəsilə məşğul olur və çox vaxt onun sonrakı gedişi, gördükləri işin nəticəsi barədə, bir qayda olaraq, məhkəmənin axırına qədər müttəhimlə əlaqədə olan müdafiəçilərdən az bilirlər. Deməli, onlar bu istiqamətdə də, müdafiə vasitəsilə qiymətli məlumatlar əldə edə bilərlər. K. bütün bunları nəzərə alaraq, bəzən məmurların müştərilərlə necə əsəbi danışdıqlarına, xətirlərinə dəydiklərinə – bu, hamının başına gəlir – hələ çox təəccüblənəcək. Üzdən sakit görünsələr də, bütün məmurlar əsəbidir. Əlbəttə, bundan ən çox ziyan çəkən adi vəkilləridir. Məsələn, bütün bunların həqiqət olduğunu göstərən belə bir əhvalat danışırlar: sakit, yaxşı insan olan bir yaşlı məmurda vəkillərin öz vəkalətnamələrilə qarışdırdığı çətin bir məhkəmə işi olur. Kişi bir gün – bir gecə həmin işin üzərində çalışır – çalışqanlıqda heç kim bu məmurlara tay ola bilməz – səhərə yaxın, yəni iyirmi dörd saatdan sonra, güman ki, çox da yaxşı olmayan bir nəticə ilə giriş qapısına yaxınlaşır, onun arxasında dayanıb içəri girmək istəyən vəkilləri pilləkəndən bir-bir geri itələyir. Vəkillər pilləkən xanasına yığışıb, nə edəcəkləri barədə məsləhətləşirlər. Bir tərəfdən içəri keçməyə ixtiyarları olmadığından həmin məmura hüquqi cəhətdən heç nə eləyə bilməzlər və bayaq deyildiyi kimi, məmurları da özlərinə qarşı qaldırmaq olmaz, digər tərəfdən də məhkəmədə olmadıqları gün itirilmiş gün sayılır, ona görə də bir yol tapıb içəri girməyə çalışırlar. Axırda belə qərara gəlirlər ki, qoca məmuru yorub əldən salsınlar. Vəkillər bir-bir pilləkənlə yuxarı qalxır, "ciddi" müqavimət göstərsələr də, geri yıxılır, aşağıdakı yoldaşları da onu tutur. Bu, təxminən bir saat çəkir və onsuz da bütün gecəni işlədiyi üçün əldən düşmüş qoca məmur doğrudan da yorulur , otağına çəkilir. Aşağdakılar buna inanmır, əvvəlcə bir nəfər göndərirlər ki, onun doğrudan da qapının arxasında olub-olmadığını öyrənsin. Yalnız bundan sonra içəri doluşurlar və məlum məsələdir ki, orda cınqırlarının da çəkə bilmirlər. Cünki vəkillər – hətta ən adisinin də burdakı münasibətlərdən, qismən də olsa xəbəri var – məhkəmədə nəyisə dəyişməkdən, yaxşılaşdırmağa çalışmaqdan çox-çox uzaqdırlar, ancaq – buna ciddi fikir vermək lazımdır – hər bir müttəhim, hətta ən gicbəsəri də, məhkəməyə ayaq basan kimi nəsə bir dəyişiklik etmək üçün təkliflər vermək barədə düşünür, buna görə çoxlu vaxt, güc itirir, halbuki bunları daha yaxşı şeylərə sərf etmək olardı. Burda ən düzgün yol, mövcud vəziyyətlə barışmaqdır. Hətta bəzi xırda məsələləri düzəltmək mümkün olsa da, – bunun özü də mənasız bir xəyaldır – ən yaxşı halda, gələcək üçün nəsə qazansan da, kinli-küdurətli məmurların diqqətini cəlb etməklə özünə böyük ziyan vurmuş olursan. Diqqəti cəlb etmək olmaz! Lap ağlına batmayan şeylər də olsa, sakit dayanmalısan. Başa düşmək lazımdır ki, bu məhkəmə böyük bir orqanizm kimi həmişə müəyyən mənada göydən asılı vəziyyətdədir və əgər kimsə təkbaşına onun dayandığı yerdə nəyisə dəyişirsə, deməli, öz ayağının altını qazmış olur, ona görə də yıxılır, bu böyük orqanizm isə çox asanca başqa bir yerdə əvəz tapmaqla həmin xırda çatışmazlığın yerini doldurur, dəyişməz qalır, hətta bəlkə daha qapalı, daha diqqətli, daha ciddi, daha amansız olur. Yaxşı olar ki, vəkillərə mane olmaqdansa, bu işləri onların öhdəsinə buraxalar. İrad tutmaqla nəsə qazanmaq olmaz – ən çox da bu iradın səbəblərini açıqlaya bilməyəndə... Ancaq bununla belə, K.-ya deyilməlidir ki, dəftərxana müdirinə göstərdiyi o münasibətə görə öz işinə çox ziyan vurdu. Bu böyük mənsəb sahibinin adı, demək olar ki, K.-ya köməyi dəyə biləcək adamların siyahısından artıq silindi. Hətta o məhkəmənin adı ötəri çəkiləndə də, qəsdlə özünü eşitməzliyə vurur. Bəzi məsələlərdə bu məmurlar lap uşaq kimi olurlar. Bir də görürsən, adicə bir şeyin üstündə – təəssüf ki, K.-nın ondakı hərəkəti adi şey deyildi – elə inciyirlər ki, hətta ən yaxın dostları ilə də danışmırlar,

rastlaşanda üzlərini çevirirlər, imkan düşən kimi onların əleyhinə gedirlər. Ancaq sonra da gözlənilmədən, heç nədən adicə bir zarafata – adətən, adamın əli hər yerdən üzüləndə belə zarafata keçir – gülürlər və beləliklə də barışmış olurlar. Onlarla yola getmək həm çətindir, həm də asan və bunun da heç bir qayda-qanunu yoxdur. Bəzən adam lap təəccüb edir ki, orta bir insan ömrü burda, az da olsa, uğurla işləmək üçün bu qədər bilikləri əxz eləməyə necə çatır. Düzdür, hamı kimi onların da kədərli anları olur, elə bilirlər ki, indiyədək heç nəyə nail olmayıblar, elə düşünürlər ki, yalnız əvvəlində yaxşı sonluğu müəyyənləşdirilmiş məhkəmənin nəticəsi uğurlu alınıb, burda heç kəsin köməyinə ehtiyac olmayıb, qalanları uduzulub və deməli, bütün bu qaçhaqaçlar, əzab-əziyyətlər, o cüzi, yalançı uğurların böyük sevinci havayı imiş. Onda vəkil özünə əmin olmur və kimsə deyəndə ki, mahiyyət etibarı ilə yaxşı keçən məhkəmə onun “köməyindən” sonra başqa istiqamətə yönəlib, ona etiraz etməyə cəsarəti çatmır. Ancaq bu da özünəinamın bir növüdür və adama qalan da təkcə bu olur. Belə tutmalar – bəli, buna tutmadan başqa ad vermək olmaz – vəkilləri o vaxt haqlayır ki, xeyli müddət, kifayət qədər uğurla apardıqları işi qəflətən əllərindən alırlar. Bu, vəkilin başına gələn ən pis iş hesab olunur. Özü də müttəhimlərin vasitəsi ilə almırlar, heç vaxt belə olmur, müttəhim kimi özünə vəkil eləyibsə, o da işi axıra kimi aparmlıdır və həmişə də belə olub. Axı necə ola bilər ki, kiminsə köməyindən istifadə edəsən, sonra da hər şeyin öhdəsindən təkbaşına gəlməyə çalışasan? Deməli, bu mümkün deyil, ancaq bəzən məhkəmə elə bir istiqamətə yönəlir ki, vəkil daha orda iştirak edə bilməz. Sadəcə olaraq, vəkil məhkəmədən, müttəhimdən, ümumiyyətlə hər şeydən uzaqlaşdırılır. Belə hallarda məmurlarla çox yaxşı əlaqələrin də xeyri olmur, çünki onların özləri də heç nə bilmir. Məhkəmə onda elə bir mərhələyə çatmış olur ki, heç kimə kömək edə bilmirsən, onu əlçatmaz kollegiyalar aparır, vəkilin müttəhimə əli yetmir. Sonra da günlərin bir günü evə gələndə stolun üstündə böyük ciddi-cəhdlə, böyük ümidlərlə hazırladığın vəkalətnamələri görürsən, məhkəmənin yeni mərhələsində istifadə oluna bilmədikləri üçün hamısı rədd olunub, lazımsız kağız parçalarına çevrilib. Ancaq bu heç də məhkəmənin uduzulması demək deyil, yox, hələ uduzulmayıb, belə düşünmək üçün, ən azı, inandırıcı əsas yoxdur, sadəcə olaraq, məhkəmənin gedişindən xəbərdar olmursan və sonralar da heç nə öyrənə bilmirsən. Xoşbəxtlikdən, belə hallar istisnalıq təşkil edirlər və əgər K.-nın da məhkəməsində belə bir hal olacaqsa, eyib etməz, həmin mərhələyə hələ çox var. Burda müdafiə üçün çoxlu imkanlar var və K. əmin ola bilər ki, onların hamısından istifadə olunacaq. Deyildiyi kimi, vəkalətnamə hələ təqdim olunmayıb, heç tələsmək də lazım deyil, sözükeçən məmurlarla ilkin danışıqlar daha vacibdir və onlar da aparılıb. Düzünü desə, uğurlusu da olub, uğursuzu da... Ancaq yaxşısı budur, hələlik çox dərinə getməsin, çünki K.-ya pis təsir edə bilər – ya ümidlərini çox artırar, ya da qorxuya salar, indi bircə onu demək olar ki, bir neçəsi yaxşı danışıb, kömək etməyə hazır olduqlarını bildirib, bəziləri isə yaxşı danışmasalar da, köməkdən də imtina etməyiblər. Bütövlükdə götürəndə, nəticə çox sevindiricidir, ancaq nəticə şıxarmaq hələ tezdir, çünki ilkin danışıqların hamısı bir-birinə oxşayır, yalnız onların sonrakı gedişi bu danışıqların nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Hər halda heç nə itirilməyib və bütün olub-keçənlərə baxmayaraq, dəftərxana müdirini öz tərəfinə çəkə bilsə – artıq bu istiqamətdə müəyyən işlər görülüb – hər şey, cərrahlar demiş, tərtəmiz yara olacaq, kəs götür, vəssalam... İndi sakitcə işin gedişini gözləmək lazımdır.

Vəkil bu cür və ya buna bənzər nitqlərdən yorulmaq bilmirdi. Bunlar K.-nın hər gəlişində təkrar olunurdu. Həmişə irəliləyişdən danışırdı, ancaq heç vaxt onun nədən ibarət olduğu bilinmirdi. Elə hey ilkin vəkalətnamənin üzərində iş gedir, ancaq bitmirdi ki bitmirdi və eyni zamanda da bu, ən böyük üstünlük kimi qələmə verilirdi, çünki son zamanlar – heç kim bunu əvvəlcədən

deyə bilməzdi – təqdimat üçün əlverişli deyildi. Bəzən bu nitqlərdən yorulan K. deyirdi ki, bütün çətinliklər nəzərə alınsa da, işlər hər halda ləng gedir, vəkil də etiraz edirdi ki, xeyr, işlər heç də ləng getmir, ancaq o, vəkilə vaxtında müraciət etsəydi, irəliləyiş çox olardı. Təəssüf ki, K. gecikib və bu gecikmə hələ çox çətinliklər yaradacaq, özü də onlar yalnız zamanla bağlı olmayacaq...

Bu gəlişlər zamanı yeknəsəqliyi yalnız Leni pozurdu, işini elə qururdu ki, K. vəkilin yanında olanda çay gətirirdi. Sonra da K.-nın arxa tərəfində dayanırdı və özünü elə göstərirdi ki, guya acgözlüklə fincana tərəf boylanan, özünə çay süzüb içən vəkilə tamaşa edir, ancaq əslində, K.-ya gizlincə şərait yaradırdı ki, onun əlindən tutsun. Araya sükut çökürdü. Vəkil çayını içirdi. K. Leninin əlini sıxırdı, qız da hərdən ürəklənib onun saçlarını nəvazişlə sığallayırdı. Vəkil çayını içib qurtaran kimi soruşurdu:

– Sən hələ burdasan?

– Gözləyirəm ki, qab-qacağı aparım, – deyə qız axırda kişinin əlini sıxırdı. Vəkil ağzını silib, təzədən coşurdu.

Görəsən vəkil ona təsəlli vermək, yoxsa son ümidini də əlindən almaq istəyirdi? K. bunu bilmirdi, yalnız bircə onu bilirdi ki, müdafiəsi etibarlı əllərdə deyil. Ola bilsin, həmişə özünü ön plana çəkməyə çalışdığı lap aydın görünsə də, vəkilin dedikləri düz idi və çox güman ki, heç vaxt K.-nın məhkəməsi kimi böyük məhkəmə işi – özü bunu böyük iş hesab eləyirdi – aparmamışdı. Ancaq onun ardı-arası kəsilmədən məmurlarla əlaqələrini vurğulaması şübhəli idi. Məgər onların hamısı zorla K.-nın xeyrinə işləməli idilər? Vəkil söhbətin burda yalnız aşağı vəzifəli məmurlardan getdiyini onun nəzərinə çatdırmağı heç vaxt unutmurdu. Yəni onların hamısı kimlərdənsə asılı adamlar idi və məhkəmələrin gedişindəki hər hansı bir dönüş onların gələcəkləri üçün əhəmiyyətli ola bilərdi. Bəlkə onlar vəkildən işin gedişində müttəhimin xeyirinə olmayan belə bir dönüş yaratmaq üçün istifadə edirdilər? Yoxsa bunu bütün məhkəmələrdə eləmirdilər? Əlbəttə, eləməzlər, bu inandırıcı deyil, yəqin elə məhkəmələr də olur ki, vəkilə yaxşı imkanlar yaradırlar, çünki onun ad-sanının qorunması özlərinin də maraq dairəsindədir. Əgər belə olarsa, bəs onlar, vəkilin deməyinə görə, K.-nın bu çətin, vacib, elə əvvəlindən böyük maraq doğuran məhkəməsinə necə qarışa biləcəklər? Onların nəsə eləyə biləcəkləri çox şübhəli idi. Şübhəli olduğu da ondan bilinirdi ki, məhkəmə neçə ay idi davam edirdi, ancaq ilkin vəkalətnamə hələ də təqdim olunmamışdı və vəkilin dediyinə görə də iş hazırda başlanğıc mərhələsində idi, başqa çür də ola bilməzdi, çünki müttəhimin başının altına yastıq qoymaq, əl-qolunu bağlamaq istəyirdilər ki, qəfildən hökmü oxusunlar, ya da ən azı istintaqın onun ziyanına başa çatıdığını, işin yuxarı instansiyalara göndərildiyini desinlər.

K. mütləq özü işə qarışmalı idi. İndi bu qış günündə, özü də çox yorğun olduğu bir vaxtda, bütün bunların hamısını qeyri-ixtiyari xəyalından keçirdiyi bir anda əmin oldu ki, başqa cür alınmayacaq. Məhkəməyə qarşı əvvəlki nifrəti də artıq keçib getmişdi. Əgər özü bu dünyada tək olsaydı, məhkəməni heç vecinə almazdı və yeri gəlmişkən, belə məhkəmə, ümumiyyətlə, olmazdı. Ancaq indi əmisi gəlib onu vəkilin yanına aparmışdı, ailə söhbəti ortaya çıxmışdı. Artıq işdəki mövqeyi də hardasa məhkəmənin gedişindən asılı vəziyyətə düşmüşdü, özü ehtiyatsızlıq

eləyib tanışlarının yanında anlaşılmaz arxayınçılıqla məhkəmədən söz açmışdı, bəziləri də naməlum yollarla ondan xəbər tutmuşdular, məhkəmənin gedişinə uyğun olaraq, frölayn Bürstnerə münasibətində də tərəddüd edirdi – bir sözlə, daha məhkəməni qəbul və ya rədd etmək seçimi qalmamışdı, artıq işin içində idi və özünü müdafiə etməli idi. Yorulsa, daha pis olardı...

Ancaq, əslində, bu narahatçılığı belə şişirtməyə də əsas yox idi. Qısa bir vaxt ərzində bankda yüksək vəzifəyə qalxa bilmişdi, hamı tərəfindən qəbul olnduğu üçün də vəzifəsində qalmışdı, indi isə onu bu mənsəbə çatdıran bilik-bacarıqlarını bir az məhkəməyə yönəltməli idi, onda şübhəsiz ki, hər şey yaxşı qurtaracaqdı. Burda nəsə əldə eləmək üçün, hər şeydən əvvəl, hansısa bir günah işlədib-işlətmədiyin haqqındakı bütün fikirləri bəri başdan rədd etmək lazımdır. Heç bir günah da yox idi. Məhkəmənin özü də böyük bir ticarət işindən başaqa bir şey deyildi və özü bank üçün üstün cəhətləri çox olan xeyli iş görmüşdü. Belə işlərdə, bir qayda olaraq, gözə görünməyən çoxlu təhlükələr yatır və ilk növbədə onların qarşısını almaq lazımdır. Bunun üçün də özündə nəsə yalandan bir qünah axtarmaq əvəzinə, üstün cəhətlər tapıb, imkan daxilində, onlardan bərk yapışmaq daha yaxşıdır. Bu baxımdan da vəkilin köməyindən tezliklə – yaxşı olar ki, elə bu axşam – imtina etmək qaçılmazdır. Düzdür, vəkilin dediyinə görə, indiyəcən belə şey olmayıb, bəlkə də ona böyük təhqir kimi baxacaqlar, ancaq K. da daha dözə bilməz ki, məhəkəmədə onun bütün səyləri bəlkə də öz vəkili tərəfindən yaradılan maneələrə rast gəlsin. Hakim bir dəfə yaxşıca silkələnsə, vəkalətnamə o dəqiqə təqdim olunacaq və imkan daxilində, hər gün gedib onun nəzərə alınmasını tələb etmək mümkün olacaq. Əlbəttə, bunun üçün K.-nın da başaqaları kimi papağını skamyanın altına qoyub dəhlizdə oturması kifayət etməyəcək. Gərək özü də, qadınlar da, başqa nümayəndələri də məmurlara rahatlıq verməsinlər, onları məcbur etsinlər ki, barmaqlıqlar arxasından dəhlizləri güdmək əvəzinə, stollarının arxasında otuurub K.-nın vəkalətnaməsini oxusunlar. Bu cəhdlərə ara vermək olmaz, hər şey düzgün təşkil olunmalı və nəzarətdə saxlanılmalıdır, qoy məhkəmə görsün ki, öz hüququnu qorumağı bacaran müttəhim də var.

K. bütün bunları həyata keçirə biləcəyinə nə qədər inanırdısa, vəkalətnamə hazırlayacağını düşünəndə də bir o qədər qorxurdu. Əvvəllər, təxminən bir həftə öncə nə vaxtsa belə bir vəkalətnaməni özü hazırlamalı olacağını ağlına gətirəndə untancaqlıq hissi onu bürüyürdü. Ancaq bunun necə çətin ola biləcəyi haqqında heç fikirləşmirdi. Yadına düşdü ki, bir dəfə günortadan əvvəl, işinin başından aşdığı bir vaxtda qəflətən qabağında olanların hamısını bir kənara çəkdi, qeyd dəftərçəsini götürdü ki, vəkalətnaməyə bənzər nəsə yazıb onu astagəl vəkilinə versin, ancaq elə həmin anda direktor müavinin qapısı açıldı və o ucadan gülə-gülə içəri girdi. Onda K.-nın kefi yaman pozuldu, halbuki dirketor müavini vəkalətnamə barədə heç nə bilmirdi və təbii ki, ona da gülmürdü. Əslində o, birja barədə yenicə eşitdiyi bir lətifəyə gülürdü, lətifəni başa düşmək üçün də nəsə çəkmək lazım idi və direktor müavini K.-nın əlindən aldığı karandaşla vəkalətnaməni yazmağa hazırlaşdığı qeyd dəftərçəsinə nəsə çəkdi...

Bu gün K.-da o utancaqlıq hisslərindən əsər-əlamət qalmamışdı, vəkalətnamə mütləq yazılmalı idi. Əgər iş yerində buna vaxtı qalmasa – yəqin belə də olacaqdı – onda gecələr evdə yazardı. Əgər gecələr də bəs eləməsə, məzuniyyət götürməli idi. Yarı yolda qalmaq olmazdı! Bu yalnız işgüzar əlaqələrdə deyil, hər yerdə, hər zaman ən mənasız iş hesab olunurdu. Düzdür, vəkalətnamə yazmaq, demək olar ki, sonu-sonucu görünməyən bir iş idi. Ola bilsin, heç qorxaq adam olmayasan, ancaq cox asanca belə bir fikrə gələsən ki, onu heç vaxt yazıb qurtarmaq mümkün olmayacaq. Ona görə yox ki, ya tənbəllikdən, ya da məkrdən vəkili yazmağa

qoymursan... Ona görə ki, mövcud ittihamın nədən ibarət olduğunu, eləcə də sonra hansılarının qoşulacağını biməyə-bilməyə həyatında baş verən bütün hadisələri xırdalığına kimi yaddaşında canlandırmalı, təsvir etməli və onların hamısını da müxtəlif cəhətlərdən səciyyələndirməlisən. Üstəlik də, çox kədərli bir iş idi. Bəlkə də təqaüdə çıxandan sonra uşaqlaşmış qocalığını ovundurmaq, uzun çəkən günləri gödəltmək üçün yaxşı məşğuliyyət idi. Ancaq indi K. bütün fikrini-zikrini işə yönəltməli olduğu bir vaxtda, yel kimi uçub gedən hər saat ərzində yüksələ-yüksələ artıq direktor müavininə əsas rəqib olduğu halda, cavan oğlan kimi bu qısa gecələrdən, gündüzlərdən zövq almalı olduğu bir zamanda oturub vəkalətnamə yazmalı idi. Yenə xəyalında özünə yazığı gəldi. Demək olar ki, qeyri-ixtiyari, bütün bunların hamısına son qoymaq üçün barmaqlarını elektrik zənginin düyməsində gəzdirdi. Sonra onu basıb saata baxdı. On bir idi. Düz iki saat qiymətli vaxtını bu xəyallara sərf eləmişdi və əvvəlkindən də çox yorulmuşdu. Ancaq bunlar itirilmiş saatlar deyildi, çıxardığı qərarlar nə vaxtsa xeyirli ola bilərdi. Xidmətçilər gündəlik poçtdan əlavə, K.-nı çoxdan gözləyən iki cənabın vizit kartını da gətirdilər. Bankın vacib müştərilərindən olduqları üçün onları çox gözlətmək olmazdı. Axı niyə belə pis vaxtda gəlmişdilər, nə üçün -bunu sanki bağlı qapının o tərəfində oturan cənablar soruşurdu – yorulmaq bilməyən K. işin bu qızğın çağında öz şəxsi məsələləri ilə məşğul olurdu? İndiyəcən olanlardan da, bundan sonra olacaqlardan da yorulan K. ilk gələni qəbul etmək üçün ayağa durdu.

Gələn cənab balacaboy, gülərüz, K.-nın yaxşı tanıdığı bir fabrik sahibi idi. O, K.-nı vacib işindən ayırdığı üçün üzr istədi, öz növbəsində K. da onu çox gözlətdiyi üçün üzrxahlıq elədi. Ancaq bu üzrxahlığı elə qeyri-ixtiyari, elə qəlp səslə elədi ki, fabrik sahibinin başı öz işlərinə qarışmış olmasaydı, bunu hiss edərdi. Ancaq o, tələsik çiblərindəki haq-hesab kağızlarını, cədvəlləri çıxarıb K.-nın qarşısına düzdü, ayrı-ayrı bəndlərə izahat verdi, hətta bir ötəri baxışla gözünə sataşan xırda hesablama səhvini də düzəltdi, K.-ya bir il bundan əvvəl oxşar bir iş gördüklərini xatırlatdı, sözgəlişi onu da dedi ki, başqa bir bank çox böyük güzəştlərlə onunla bu işi görmək istəyir və nəhayət, susdu ki, K.-nın fikrini öyrənsin. K. doğrudan da əvvəlcə fabrik sahibinin dediklərinə diqqətlə qulaq asdı, işin vacibliyi onu da tutdu, ancaq bu çox çəkmədi, bir az keçəndən sonra daha qulaq asmadı, bir az da fabrik sahibinin ucadan dediklərinə başını tərpətməklə cavab verdi, axırda heç bunu da eləmədi və yalnız onun kağızlara tərəf əyilmiş daz başına baxmaqla kifayətləndi, eyni zamanda özü-özündən soruşdu ki, görəsən bu adam öz danışdıqlarının mənasız olduğunu nə vaxt anlayacaq. Fabrik sahibi nəhayət susdu və K.-ya doğrudan da elə gəldi ki, bu, özbaşına belə olmadı, kişi ona imkan yaratdı ki, qulaq asmaq iqtidarında olmadığını özü etiraf etsin. Yalnız təəssüf hissi ilə fabrik sahibiinin bütün etirazlara hazır olan gərgin baxışlarından duydu ki, bu işgüzar müzakirə davam etdirilməlidir. Əmrə tabe olan adam kimi başını aşağı əydi, karandaşın ucunu yavaş-yavaş kağızın üstündə gəzdirməyə başladı, hərdən onu saxladı, diqqətlə hansı rəqəməsə baxdı. Fabrik sahibi bunu nəyəsə etiraz əlaməti kimi qəbul etdi, bəlkə doğrudan da rəqəmlər düz deyildi, bəlkə də onlar heç nəyi dəyişnirdi, ancaq hər halda əlini kağızın üstünə qoraraq K.-ya bir az da yaxın dayandı, işin ümumi mahiyyətini təzədən izah etməyə başladı.

– Çətindir, – deyən K. dodaqlarını büzdü, fabrik sahibi əli ilə kağızın üstünü örtdüyü üçün nə edəcəyini bilməyib geri söykəndi. Hətta direktorun qapısı açılıb, onun çöl tərəfində sanki tül pərdənin arxasında dayandığı üçün güclə seçilən direktor müavini görünəndə də başını tam qaldırmadı. Müavinin qapıda görünməsinə çox da fikir verməyən K. bu görüntünün yanındakına necə təsir etdiyini müşayiət etməklə kifayətləndi və sevindi. Çünki fabrik sahibi tez kreslosundan hoppanıb qalxdı, direktor müavininə tərəf tələsdi. K.-dan olsaydı, o lap qaça-qaça gedərdi,

qorxurdu ki, birdən ona çatmaz. Sən demə, qorxusu əbəs imiş, onlar üzbəüz gəldilər, əl verib görüşdülər və birlikdə K.-nın yazı stoluna tərəf gəldilər. Fabrik sahibi şikayətə başladı ki, onun təklif etdiyi işə prokurist o qədər də maraq göstərmədi və direktor müavinin baxışları altında başını kağızlara tərəf əyən K.-nı göstərdi. Sonra ikisi də yazı stoluna söykənəndə və fabrik sahibi direktor müavinini öz tərəfinə çəkmək istəyəndə, K.-ya elə gəldi ki, son dərəcə cüssəli görünən bu iki kişi başı üzərindən onun haqqında danışır. Yavaş-yavaş, ehtiyatla gözlərini qaldırdı ki, yuxarıda nələr baş verdiyini görsün, o tərəfə baxmadan stolun üstündəki kağızlardan birini götürdü, onu ovcunun içinə alıb özü də dikəldi. Həmin anda heç nə barədə düşünmürdü, beynində yalnız bircə fikir dolaşırdı: özünü elə aparmalıdır ki, guya vəkalətnaməni yazıb qurtarıb, tamamilə yüngülləşib. Fabrik sahibinə çox diqqətlə qulaq asan direktor müavini ötəri kağıza baxdı, orda yazılanı heç oxumadı, çünki prokurist üçün vacib olan şeylər onun üçün əhəmiyyətsiz idi və kağızı K.-nın əlindən alaraq dedi:

– Təşəkkür edirəm, mən artıq hər şeyi bilirəm. – və onu sakitcə qaytarıb stolun üstünə qoydu. K. çəp nəzərlərlə onu süzdü, müavin isə bunu görmədi, görsə də vecinə almadı, tez-tez ucadan güldü, hətta bir dəfə öz hazırcavablığı ilə fabrik sahibini pərt elədi, elə o dəqiqə də könlünü alıb işi sona çatdırmaq üçün onu otağına dəvət etdi:

– Vacib işdir, mən buna gərək yaxşı-yaxşı baxam. Bu işdən onu azad etsək, – əslində, bunu da fabrik sahibinə deyirdi – yəqin cənab prokuristin də ürəyincə olar. Elə işdir ki, ona gərək arxayınçılıqla baxasan. Ancaq, deyəsən, onun işi bu gün çoxdur, qözləmə otağında da bir neçə nəfər çoxdan oturub.

K. üzünü ondan çevirib, öz mehriban, ancaq donuq təbəssümlə yalnız fabrik sahibinə baxmaqdan özünü güclə saxladı, onların işinə qarışmadı, bir az irəli əyilərək hər iki əli yazı stoluna söykəndi, bu iki cənabın danışa-danışa kağızları stolun üstündən necə götürdüklərinə, direktorun otağında gözdən itdiklərinə baxdı. Ancaq qapıya çatanda, fabrik sahibi geri döndü, dedi ki, hələ xudahafisləşmir, müzakirənin uğurlu nəticəsi barədə, əlbəttə, cənab prokuristə məlumat verəcək, bundan əlavə də, ona deyiləsi bir-iki sözü var.

Nəhayət, K. tək qaldı. Daha kimisə qəbul etmək barədə düşünmürdü və qeyri-ixtiyari sevinirdi ki, nə yaxşı bayırdakılar onun hələ də fabrik sahibi ilə söhbət etdiyini düşünürlər və buna görə də heç kəs, hətta xidmətçi də içəri girə bilməz.

Pəncərəyə tərəf gedib ona söykəndi, bir əli ilə onun dəstəyindən tutub meydana baxdı. Qar hələ də yağır, hava da açılmırdı ki açılmırdı.

Niyə narahat olduğunu bilmədən, uzun zaman beləcə oturdu, yalnız hərdən geri dönərək çiyinləri üzərindən səksəkə ilə qəbul otağının qapısına baxdı, elə bildi, ordan səs gəlir. Ancaq heç kəsin gəlmədiyini görüb sakitləşdi, əlüzyuyana tərəf gedib soyuq su ilə yuyundu, ayıq başla təzədən pəncərənin önünə qayıtdı. Müdafiəsini öz üzərinə götürmək qərarı ona əvvəlkindən də məsuliyyətli göründü. Nə qədər ki müdafiəni vəkilin boynuna qoymuşdu, elə bil məhkəmənin ona aidiyyatı yox idi, onu uzaqdan müşahidə edirdi, birbaşa bağlılıq hiss eləmirdi , istəsəydi onun nə yerdə olduğu ilə maraqlana bilərdi, istəməsəydi də çəkilib bir kənarda durardı. Ancaq artıq müdafiəsini öz üzərinə götürdüyü üçün, ən azı, indiki vaxda özünü bütövlükdə məhkəməyə həsr etməli idi və burda qazanacağı uğurla gələcəkdə tamamilə, biryolluq azad olacaqdı, lakin buna nail olmaq üçün özünü hələlik əvvəlkindən də betər təhlükələrin qoynuna atmalı idi. Əgər

qərarına şübhəsi olsaydı da, direktor müavini və fabrik sahibi ilə keçirdiyi anlar bunun əksini deyəcəkdi. Hər şey bir yana, eləcə müdafiəsini öz üzərinə götürmək qərarına gələndən sonra onların yanında necə oturmuşdu?! Elə bil, hər şey qurtarıb getmişdi... Bəs sonrası necə olacaqdı? Onu daha nələr gözləyirdi? Bütün bu çətinliklərin arasından onu uğurlu sonluğa aparan yolu tapa biləcəkmi? Özünü istənilən şəkildə müdafiə etmək – qalanları boş şey idi – hə, özünü istənilən şəkildə müdafiə etmək həm də, imkan daxilində, bütün işlərindən əl çəkmək məcburiyyətində qalmaq demək deyildimi? Bunların öhdəsindən gələ biləcəkmi? Bankda işləyə-işləyə bunları bacara biləcəkmi? Axı söhbət burda yalnız vəkalətnamənin yazılmasından getmirdi ki, məzuniyyət götürəydi, halbuki məhz indi məzuniyyət istəməyin özü böyük risq idi – əslində, söhbət burda nə vaxt qurtaracağı bilinməyən bir məhkəmədən gedirdi! Gör K. qəfildən öz həyat yolunda hansı çətinliklə üz-üzə qaldı!

Bütün bunlardan sonra indi bankın işlərini görməli idi? Yazı stolunun üstünə baxdı... İndi müştəriləri qəbul edib onlarla danışıqlar aparmalı idi? Məhkəməsi getdiyi bir vaxtda, məmurların çardaqdakı otaqlarında oturub onun sənədlərini araşdırdığı bir zamanda özü bank üçün işləməli idi? Məgər bunun özü məhkəmənin icazəsilə elə bu məhəkəmə ilə bağlı ona verilən işgəncəyə oxşamırdımı?! Bəs görəsən bankdakı işinə qiymət verilərkən onun indiki vəziyyətini nəzərə alan olacaqmı? Yox, heç kim heç vaxt almayacaq! Demək olmazdı ki, onun məhkəməsindən heç kəsin xəbəri yox idi, aydın şəkildə olmasa da, bilirdilər, ancaq kimin bilməsi, nə dərəcədə bilməsi məlum deyildi. Güman ki, şayələr direktor müavininə qədər gedib çatmamışdı, yoxsa həmkarı olduğuna baxmazdı, ona yazığı gəlməzdi və bundan K.-nın əleyhinə necə istifadə etdiyi də aydınca görünərdi. Bəs direktor? Əlbəttə, o, K. haqqında yaxşı fikirdə idi, bəlkə də məhkəmə barədə eşitsə, onun işini yüngülləşdirmək üçün əlindən gələni edərdi, ancaq məlum məsələ idi ki, indi o da heç nə eləyə bilməzdi, çünki direktorun xəstəhal vəziyyətindən istifadə edərək öz hakimiyyətini möhkəmlətməyə çalışan müavinlə müqayisədə K.-nın indiyəcən olan üstünlüyü zəifləməyə başlamışdı. Bəs K. nəyə ümid edə bilərdi? Kim bilir, bəlkə də belə fikirlərlə özünün müqavimət gücünü azaldırdı, ancaq nəyəsə uyub aldanmaq da olmazdı, hazırkı anda hər şeyə bacardığı qədər ayıq nəzərlərlə baxması da vacib idi.

Heç bir səbəb olmadan, yalnız yazı stoluna yaxınlaşmamaq xatirinə pəncərəni açmaq istədi. Ancaq çətin açıldığı üçün dəstəyi ikiəlli burmalı oldu. Elə həmin anda da otağa açıq yerin eni, uzunu boyda tüstü qarışıq duman doldu, yüngülcə yanıq iyi hiss olundu. Külək bir-neçə qar dənəciyini də içəri sovurdu.

– Yaman pis payız oldu, – arxa tərəfdən Fabrik sahibinin səsi eşidildi. Direktor müavivinin otağından cıxaraq hiss olunmadan içəri girmişdi. K. başını tərpətdi və narahatlıqla onun qoltuğundakı qovuluğa baxdı: yəqin indi ordakı kağızları çıxarıb müavinlə apardığı danışıqların nəticəsi barədə məlumat verməyə başlayacaq! Fabrik sahibi onun baxışlarını tutdu, əlini qovuluğun üstünə vura-vura, onu açmadan dedi:

– Siz indi danışıqların nəticəsini bilmək istəyirsiniz. Demək olar ki, imzalanmış müqavilə artıq cibimdədir. Sizin bu direktor müavini qiyamət adamdır, ancaq həm də təhlükəlidir... – o güldü, K.-nın əlini sıxaraq onu da güldürməyə çalışdı. Fabrik sahibinin kağızları göstərmək istəməməsi K.-nı şübhələndirdi və ona görə də burda gülməli heç nə görmədi. -Cənab prokurist, yəqin hava sizə pis təsir eləyir, bu gün çox qəmginsiniz...

– Elədir, – deyən K. əlini gicgahına apardı. – Başım ağrıyır... Ailə qayğıları...

– Çox düz deyirsiniz! – hövsələsiz olduğu üçün heç kəsə sakitcə axıra qədər qulaq asa bilməyən fabrik sahibi dilləndi. -Hərənin öz dərdi var...

K., qeyri-ixtiyari, qapıya tərəf yönləndi, sanki fabrik sahibini bayıracan ötürmək istəyirdi. O isə dedi:

– Cənab prokurist, sizə deyiləsi bir sözüm də var. Bəlkə də bununla sizə bu gün çox əziyyət vermiş oluram, çünki son vaxtlar iki dəfə yanınıza gəlmişəm, ancaq ikisində də yadımdan çıxıb deməmişəm. Gələn dəfəyə də saxlasam, yəqin ki mənasını tamam itirmiş olacaq. Ola bilər, mənim indi deyəcəyim sözün sizə xeyiri dəyər, ona görə də sonradan təəssüflənməli olarıq... – K. cavab verməyə macal tapmamış fabrik sahibi ona bir az da yaxınlaşaraq yumruqladığı əlini yüngülcə onun sinəsinə toxundurdu və astadan dedi: – İşiniz məhkəmədədir, elə deyilmi?

K. geri çəkilərək fikirləşmədən dedi:

– Bunu sizə direktor müavini deyib!

– Xeyr, xeyr, direktor müavini hardan bilərdi?

– Bəs siz hardan bilirsiniz? – K. artıq sakitləşmişdi.

– Hərdən mənə məhkəmə barədə bəzi xəbərlər çatır, sizə demək istədiyim də elə bu xəbərlərdən biridir.

– Bu məhkəmə ilə nə yaman çox adamın əlaqəsi varmış... – Başını aşağı salmış fabrik sahibini yazı stoluna tərəf apardı. Onlar bvayaqkı kimi üzbəüz oturdular və fabrik sahibi dedi:

– Təəssüf ki sizə çox şey deyə bilməyəcəm, ancaq belə məsələlərdə ən xırda şeyləri də nəzərdən qaçırmaq olmaz. Bundan əlavə, köməyi lap az da olsa, sizin üçün mütləq nəsə etmək istəyirəm. İndiyə qədər biz çox yaxşı tərəfdaş olmuşuq, elə deyilmi? Elə isə... – K. bu günki müzakirə zamanı etdiyi hərəkətə görə üzrxahlıq eləmək istədi, ancaq fabrik sahibi ona sözünü kəsməyə imkan vermədi. Govuluğu bərk-bərk qoltuğuna sıxmaqla tələsdiyini göstərdi və sözünə davam etdi: – Sizin məhkəməniz barədə Titorelli adlı bir nəfərdən eşitmişəm. Rəssamdır, Titorelli də ləqəbidir, əsil adını isə bilmirəm. İki ildir ki, hərdən mənim yanıma gəlir, xırda şəkillər gətirir, mən də əvəzində bir növ sədəqə verirəm, özü də, demək olar ki, dilənçi kökündədir. Ancaq şəkillər qəşəng olur: çəmənlik mənzərələri, buna bənzər təsvirlər... Alverimiz çox yaxşı gedirdi və ikimiz də buna öyrəşmişdik. Ancaq axır zamanlarda tez-tez gəlməyə başladı və mən də bunu ona irad tutdum, maraqlandım ki, təkcə rəssamlıqla necə dolana bilir. Eşidəndə ki, onun əsas gəlir mənbəyi portret çəkməkdəndir, çox təəccübləndim. Dedi ki, məhkəmə üçün işləyir. Hansı məhkəmə olduğunu soruşdum. Və o, məhkəmə barədə mənə xeyli danışdı. Eşitdiklərimə necə təəccübləndiyimi siz daha yaxşı təsəvvür edərsiniz. Həmin vaxtdan bəri hər dəfə gələndə məhkəmə barədə nəsə bir yenilik eşidirdim və beləliklə də onun haqqında müəyyən təsəvvürüm olurdu. Düzdür, Titorelli bir az boşboğazdır, onu tez-tez başdan eləməyim də yalnız yalan danışdığına görə deyil, ən çox da ona görədir ki, öz qayğıları içində itib-batan bir iş adamı kimi başqa şeylərlə maraqlanmağa vaxtım yoxdur. Bunu sözgəlişi dedim... Bəlkə – elə indi ağlıma gəldi – Titorellinin sizə nədəsə köməyi dəydi, hakimlərin çoxunu tanıyır... Özü elə sözükeçən adam olmasa da, nüfuzlu şəxslərlə əlaqə yaratmaq üçün məsləhətlər verər. Ola bilsin, bu

məsələhətlər heç nəyə yaramasın, ancaq zənnimcə, onları bilmək xeyrinizə olar. Axı sizin özünüz də, demək olar ki, vəkilsiniz. Mən həmişə deyirəm: prokurist K., demək olar ki, vəkildir. Məhkəməniz sarıdan da heç bir narahatçılığım yoxdur. Titorellinin yanına getmək istəyirsiniz? Mənim tövsiyəmlə əlindən gələni sizin üçün edəcək. Mənə doğrudan da elə gəlir ki, onun yanına getməlisiniz. Əlbəttə, elə vacib deyil ki, bu gün gedəsiniz... Başqa vaxt gedin... İmkan düşəndə... Ancaq onu da deyim ki, mən məsləhət bildiyimə görə Titorellinin yanına getməniz məcburi deyil. Xeyr, əgər sizə elə gəlirsə, Titorellisiz də keçinə bilərsiniz, bu daha yaxşı, onda getməyin. Bəlkə daha dəqiq planınız var, Titorelli maneçilik edər. Xeyr, elə isə, heç vaxt getməyin! Belələrindən məsləhət almağa da gərək özünü məcbur edəsən. Yaxşı, necə istəyirsiniz, elə də eləyin. Bax, bu tövsiyə məktubu, bu da onun ünvanı...

Pərt olmuş K. məktubu alıb cibinə dürtdü. Bu məsləhət nə qədər xeyirli olsa da, ziyanı bundan çox idi və həmin ziyan da ondan ibarət idi ki, fabrik sahibi məhkəmədən xəbər tutmuşdu, rəssam da şayələri yaymaqda davam edirdi. Özünü güclə məcbur edib, artıq qapıya tərəf gedən fabrik sahibinə təşəkkür əlaməti kimi bir-iki xoş söz deyə bildi.

– Onun yanına gedəcəm, – K. bu sözləri fabrik sahibi ilə qapının ağzında vidalaşanda dedi. – Ya da, indi işim çox olduğu üçün məktub yazacam ki, bura gəlsin.

– Bilirdim ki, ən yaxşı çıxış yolunu özünüz tapacaqsınız. Ancaq mən elə fikirləşirdim ki, məhkəmə barədə danışmaq üçün siz Titorelli kimi adamları banka çağırmazsınız. Belələrinin əlinə məktub vermək də həmişə xeyir gətirmir. Ancaq siz yəqin ki hər şeyi ölçüb-biçmisiniz və yaxşı bilirsiniz ki, nəyi etmək olar, nəyi yox...

K. başını tərpədərək fabrik sahibini qəbul otağından ötürdü. Zahirən sakit görünsə də, özü özündən qorxdu: Titorelliyə məktub yazacağını yalnız dildə demişdi ki, bu məsləhətini qiymətləndirdiyini, Titorelli ilə görüşmək üçün o dəqiqə yollar axtardığını fabrik sahibinə çatdırsın, ancaq onun köməyini doğrudan da dəyərli hesab edərdisə, tərəddüd etmədən həmin məktubu yazardı. Lakin bunun necə təhlükəli olduğunu fabrik sahibinin sözlərindən sonra başa düşdü. Doğrudanmı daha öz sağlam düşüncə tərzinə etibar eləyə bilməzdi? Məgər direktor müavini ilə aralarında bircə qapı ola-ola öz məhkəməsi barədə məsləhət almaq üçün üstəlik də məktub yazıb kimliyi bəlli olmayan bir adamı banka dəvət etmək bəlkə də bunun başqa təhlükələr yaradacağını görməmək, daha doğrusu, özünü həmin təhlükələrin qoynuna atması demək deyildimi? Axı onun yanında həmişə kimsə olmurdu ki, xəbərdar etsin. İşə bax ki, məhz indi, bütün gücünü toplayıb işə girişmək istədiyi bir anda öz sayıqlığına hələ indiyəcən görmədiyi-tanımadığı bir şübhə yaranmışdı! Doğrudanmı bank işlərində rastlaşdığı çətinliklər indi də məhkəmədə başlayırdı? Artıq indi heç özü də başa düşmürdü ki, Titorelliyə məktub yazıb onu banka dəvət etmək haradan ağlına gəlmişdi...

Xidmətçi ona yaxınlaşaraq qəbul otağındakı skamyada oturan üç nəfəri göstərəndə, K. hələ də başını bulayırdı. Onlar burda çoxdan oturub nə vaxt K.-nın qəbuluna düşəcəklərini gözləyirdilər. İndi xidmətçi onunla danışanda, onlar ayağa durdular və üçü də fürsətdən istifadə edib K.– ya birinci yaxınlaşmaq istədi. Bank tərəfindən hörmətsizlik olunduğu və bu qədər vaxt itirdikləri üçün onlar da hörmət saxlamaq istəmirdilər. Hətta onlardan biri dilə gəldi:

– Cənab prokurist!

Ancaq K. xidmətçiyə paltosunu gətirməyi tapşırmışdı və onun köməyilə geyinə-geyinə dedi:

– Bağışlayın, cənablar, indi sizi qəbul etməyə vaxtım yoxdur. Sizdən çox-çox uzr istəyirəm, təcili işim var, getməliyəm. Özünüz də gördünüz ki, məni çox yubandırdılar. Lütfən sabah və ya başqa bir gün gələ bilməzsiniz? Bəlkə telefonla danışaq? Ya da, indi nə iş üçün gəldiyinizi mənə qısaca deyin, sizə yazılı şəkildə ətraflı cavab verim. Ancaq yaxşı olar ki, başqa vaxt gələsiniz.

K.-nın təklifləri mənasız yerə gözlədiklərini anlamış cənabları elə təəccübləndirdi ki, söz tapmayıb bir-birinin üzünə baxdılar.

– Deməli, razılaşdıq! – deyən K. şlyapasını gətirmiş xidmətçiyə tərəf döndü. K. otağının açıq qapısından bayırda qarın gücləndiyi görünürdü. Ona görə də K. paltosunun yaxalığını qaldırdı və onu boğazına qədər düymələdi.

Elə həmin anda direktor müavini qonşu otaqdan çıxdı, K.-nın paltoda həmin cənablarla danışdığını görəndə təbəssümlə soruşdu:

– Gedirsiniz, cənab prokurist?

– Bəli, – K. qamətini düzəltdi, – iş dalınca gedirəm.

Ancaq direktor müavini artıq müştərilərə tərəf dönmüşdü:

– Bəs bu cənablar? Mənə elə gəlir, onlar çoxdan gözləyirlər.

– Artıq biz razılığa gəlmişik, – dedi K.

Ancaq kişilər daha özlərini saxlaya bilmədilər, K.-nı aralığa alıb izah etməyə başladılar ki, işləri çox vacib olmasaydı, bu qədər gözləməzdilər və ona görə də hər şeyi ətraflı, özü də təklikdə müzakirə etməlidirlər. Direktor müavini bir az onlara qulaq asdı, sonra əlindəki şlyapasının toz qonmuş yerlərini təmizləyən K.-ya baxıb dedi:

– Cənablar, bunun çox sadə bir yolu var. Əgər rəva bilsəydiniz, cənab prokuristin əvəzinə özüm sizinlə söhbət edərdim. Əlbəttə, işiniz mütləq müzakirə olunmalıdır. Biz də sizin kimi iş adamlarıyıq və vaxtın iş adamı üçün nə demək olduğunu yaxşı bilirik. Bəlkə içəri buyurasınız? – və özünün qəbul otağının qapısını açdı.

K.-nın məcburiyyət qarşısında qalıb əldən verdiklərini direktor müavini elə o dəqiqə də özününküləşdirirdi! Bəs K.-nın əldən verdikləri lazım olduğundan da çox deyildimi? İndi də çox qeyri-müəyyən, özü də etiraf eləməliydi ki, cüzi ümidlərlə tanımadığı-bilmədiyi bir rəssamın yanına gedə-gedə burdakı nüfuzuna sağalmaz yaralar vururdu. Bəlkə də ən yaxşısı bu olardı ki, paltosunu çıxarıb həmin adamlarla özü danışaydı. Bəlkə də həmin anda direktor müavinini öz otağında görməsəydi, bunu edərdi. Müavin sanki özünün iş otağındakı rəflərdə nəsə axtarırdı. Həyəcanlanmış K. qapıya tərəf gedəndə, o dedi:

– Ah, siz hələ getməmisiniz! – üzünü K.-ya tərəf çevirəndə, sifətindəki çoxsaylı gərgin qırışlar yaş əlaməti kimi deyil, güc nişanəsi kimi göründü və o, yenidən axtarmağa başladı. – Müqaviləni axtarıram, firmanın nümayəndəsi deyir ki, sizdə olmalıdır. Bəlkə mənə kömək edəsiniz?! – K. bir addım da atdı, ancaq həmin anda müavin dedi: – Təşəkkür edirəm, tapdım... – və bir qalaq kağızı götürüb otağına qayıtdı. Yəqin ki orda müqavilədən əlavə başqa sənədlər də vardı.

“İndi ona gücüm çatmaz”, – K. ürəyindən keçirdi. – “Qoy bu şəxsi işlərimi həll edim... Onda bunu birinci hiss eləyən o olacaq. Özü də əməlli-başlı hiss eləyəcək, payını alacaq...” Bu fikirdən sonra bir az yüngülləşən K. dəhlizin qapısını çoxdan açıq saxlayan xidmətçiyə tapşırdı ki, imkan düşəndə, direktora onun iş dalınca getdiyini çatdırsın və müəyyən vaxt ərzində yalnız öz işi ilə məşğul ola biləciyinə sevinərək bankdan çıxdı.

Elə o dəqiqə də məhkəmə dəftərxanaları olan yerdən tamamilə əks istiqamətdəki bir qəsəbədə yaşayan rəssamın yanına yollandı. Kasıb-kusublar yaşayan bir yer idi, evlər ordakından da bomboz görünürdü və küçələr ərimiş qarın ordan-burdan qabağına qatıb gətirdiyi zir-zibillə dolmuşdu. Rəssamın yaşadığı evin böyük alaqapısının bircə tayı açıq idi, bağlı tayının yanındakı divarda deşik vardı və K. yaxınlaşan anda oradan ürəkbulandıran sarı rəngli maye buğlana-buğlana bayıra axdı, bir neçə siçovul qorxudan yaxındakı çirkarxa doluşdu. Pilləkənin ayağında bir uşaq ağzı üstə yıxılıb ağlayır, ancaq səsi qapının o biri tərəfindəki tənəkə sexindən gələn gurultudan eşidilmirdi. Sexin qapısı açıq idi və üç şəyird nəyisə dövrələyib çəkiclə döyəcləyirdi. Divardan asılmış ağ tənəkə lövhədən qopan ölgün işıq zolağı şəyirdlərdən ikisinin üstünə düşür, onların sifətlərini, önlüklərini parıldadırdı. K.-nın bütün bunlara uzun-uzadı tamaşa etməyə vaxtı yox idi, çünki burdakı işini tez qurtarmaq, rəssama bir-iki sual verib onu yoxlamaq və elə həmin dəqiqə də banka qayıtmaq istəyirdi. Burda kiçicik bir uğur qazana bilsə, bu gün bankdakı işləri də yaxşı gedəcəkdi. Dördüncü mərtəbədə addımlarını yavaşıtdı, nəfəsi kəsilirdi, pilləkənlər də, mərtəbələr də çox hündür idilər və rəssam da lap yuxarıda, çardaqda yaşayırdı. Burda hava çatmırdı, heç pilləkən duracaqları da yox idi, dar pilləkənlərin hər iki tərəfini divarlar tutmuşdu, yalnız hündürdə bir-iki balaca pəncərə qoyulmuşdu. K. yenicə dayanıb nəfəsini dərən anda, mənzillərin hansındansa balaca qız uşaqları çıxaraq gülüçə-gülüşə, tələsə-tələsə yuxarı qalxmağa başladılar. K. yavaş-yavaş onların arxasınca getdi, qızlardan biri büdrəyərək geri qaldığı üçün ona çatdı, pillələri yanaşı çıxanda soruşdu:

– Rəssam Titorelli burda yaşayır?

Təxminən on üç yaşında olan bu qız bir az da qozbel idi və cavab əvəzinə dirsəyi ilə K. toxundu, çəpəki nəzərlərlə onu süzdü. Nə yaşı, nə də fiziki çatışmazlığı qızı tamamilə pozulmaqdan xilas edə bilməmişdi. Heç gülümsəmir, yalnız ciddi, kəskin, gəl-gəl deyən baxışlarla K.-nı süzürdü. K. özünü elə göstərdi ki, guya onun özünü necə apardığını görmür və soruşdu:

– Rəssam Titorellini tanıyırsan?

Qız başını tərpədərək suala sualla cavab verdi:

– Onunla nə işiniz var?

K.-ya elə gəldi ki, bu tələsikdə də Titorelli barədə nəsə öyrənsə yaxşıdır.

– Şəklimi çəkdirəcəm.

– Şəklinizi çəkdirəcəksiniz? – ağzı açıla qalan qız əlini yüngülcə K.-ya toxundurdu, elə bil nəsə çox qeyri-adi, mənasız bir söz eşitdi, onsuz da qısa olan ətəyini əlləri ilə bir az da yuxarı dartaraq, bacardığı qədər sürətlə, artıq səsləri yuxarı mərtəbələrdə eşidilməz olan rəfiqələrinin arxasınca qaçdı. Pilləkənin növbəti dönəcəyində K. qızların hamısını təzədən gördü. Məlum məsələ idi ki, qozbeldən K.-nın nəyə gəldiyini öyrənmişdilər və onu gözləyirdilər. Onlar hər iki

tərəfdən divara qısılmışdılar ki, K. aralarından rahat keçə bilsin və əlləri ilə önlüklərini düzəldirdilər. Qızların sir-sifətləri, eləcə də divar boyu belə düzülmələri həm uşaq olmalarından, həm də baxımsız qaldıqlarından xəbər verirdi. İndi K.-nı dövrəyə almış qızların başında yolgöstərən qozbel dayanmışdı. K. elə onun sayəsində mənzili düz tapmışdı. Əslində, bir az da qalxmaq istəyirdi, ancaq qız ona göstərdi ki, Titorellinin yanına getmək üçün dönmək lazımdır. Rəssamın mənzilinə gedən pilləkən daha dar, uzun idi və qurtaracağı da görünürdü: Titorellinin qapısının ağzında sona çatırdı. Rəng vurulmamış taxtadan düzəldilmiş bu qapının qarşısı o birilərinə nisbətən daha işıqlı idi, çünki lap yuxarıda çəpinə qoyulmuş balaca bir pəncərə vardı və Titorellinin adı da qalın fırça ilə qırmızı rəngdə yazılmışdı. K. öz “dəstəsi” ilə pillənin ortasına çatmamış, yuxırıda qapı azacıq aralandı və orada gecə köynəyində bir kişi göründü, deyəsən hay-küylü addım səslərini eşitmişdi. Dəstəni görəndə:

– Oho! – deyərək gözdən itdi.

Qozbel sevincindən əl çaldı, o biri qızlar da K.-nın arxasına düzülərək sanki onu tələsdirməyə çalışdılar.

Onlar hələ çatmamış, rəssam qapını tam açdı və baş əyərək K.-nı içəri dəvət elədi. Qızları isə qoymadı, nə qədər minnət eləsələr də, zorla dürtülmək istəsələr də, heç birini içəri buraxmadı. Yalnız qozbel onun qolunun altından sivişib keçə bildi, ancaq rəssam tez onun ardınca cumdu, ətəyindən tutub fırlada-fırlada geri gətirdi, burda olmadığı anda belə içəri girməyə cəsarət etməyən qızların yanında yerə qoydu. K. heç bilmədi, bu gördüklərinə nə desin, sanki dostlar bir-biri ilə zarafatlaşırdı. Qapının ağzına düzülmüş qızlar boyunlarını irəli uzadaraq bir neçə zarafatyana söz dedilər, ancaq K. heç birini başa düşmədi, hələ də qozbeli əlindən yerə qoymayan rəssam güldü. Sonra o, qapını örtüb, yenə də təzim etdi, əlini K.-ya uzadaraq özünü təqdim etdi:

– Rəssam– heykəltaraş Titorelli!

K. hələ də arxasından qızların pıçıltısı eşidilən qapıya işarə etdi:

– Deyəsən bu binada sizi çox sevirlər...

– Yaman dəcəldirlər, – deyə rəssam əbəs yerə gecə köynəyinin son düyməsini bağlamağa çalışdı. Ayaqları da yalın idi, əynində sarı rəngə çalan enli kətan şalvar vardı, belini kəmərlə bərk sıxmışdı, ayaq tərəfi isə yellənirdi. – Bu dəcəllərin əlindən mənə rahatlıq yoxdur, – deyə sözünə davam etdi, köynəyin sonuncu düyməsi düşdüyü üçün əlini aşağı saldı, gedib kreslo gətirdi, K.-ya oturmağı təklif etdi. – Onlardan birinin – bu gün burda yoxdur – şəklini çəkmişəm, indi məndən əl çəkmirlər. Özüm evdə olanda, yalnız mənim icazəmlə içəri gəlirlər, evdə olmayanda isə, ən azı biri burda olur. Qapıya düşən açar düzəltdiriblər, bir-birinə ötürülər. Necə təngə gəldiyimi təsəvvür edə bilməzsiniz. Məsələn, şəklini çəkmək üçün bir qadınla evə gəlirəm, açarımla qapını açıram və görürəm ki, qozbel balaca stolun arxasında oturub fırça ilə dodaqlarını qırmızı boyayır, onun yanında qoyub getdikləri balaca bacı-qardaşları da ora-bura qaçışır, hər yeri töküb-dağıdırlar. Ya da gecəyarısı – bu, dünən başıma gəlib – evə qayıdıram, – xahiş edirəm bunları nəzərə alaraq burdakı səliqəsizliyə görə məni bağışlayasınız – hə, evə qayıdıram, yatağa girmək istəyirəm, ayağıma nəsə dəyir, əyilib çarpayının altına baxıram, birini ordan dartıb çıxarıram... Heç bilmirəm, məndən nə istəyirlər, özləri başa düşməlidir ki, onlardan xoşum

gəlmir. Əlbəttə, işimə də maneçilik törədirlər. Bu emalatxananı mənə mənə pulsuz vermiş olsaydılar, çoxdan köçüb getmişdim...

Həmin anda qapının arxasından zərif, ürkək bir səs eşidildi:

– Titorelli, indi gələ bilərik?

– Yox!

Həmin səs yenə eşidildi:

– Tək mən də gələ bilmərəm?

– Sən də gələ bilməzsən! – deyə rəssam qapıya tərəf gedib, onu arxadan bağladı.

Bu aralıqda K. imkan tapıb otağa göz gəzdirmişdi və heç ağlına da gətirə bilməzdi ki, belə miskin balaca otağa emalatxana demək olar. Eni də, uzunu da heç iki addım olmazdı. Hər şey – döşəmə də, divarlar da, tavan da taxtadan idi və tirlərin arasında nazik şırımlar görünürdü. K. ilə üzbəüz divarın dibində üstünə rəngbərəng yataq dəsti salınmış çarpayı vardı. Otağın ortasındakı molbertin üstündə bir şəkil vardı və onun üzərinə qolları döşəməyə çatan köynək salınmışdı. Hava dumanlı olduğu üçün K.-nın arxasındakı pəncərədən yalnız qonşu binanın qarla örtülmüş damı görünürdü.

Qapıdan gələn açar səsi K.-ya xatırlatdı ki, burdan tez getmək istəyirdi. Ona görə də fabrik sahibinin məktubunu cibindən çıxarıb rəssama verdi və dedi:

– Haqqınızda bu cənabdan – tanışınızdan eşitmişəm və onun məsləhəti ilə gəlmişəm.

Rəssam onu ötəri oxuyaraq çarpayının üstünə tulladı. Fabrik sahibi Titorellidən yaxın tanışı, onun sədəqəsinə möhtac olan kasıb bir adam kimi danışmamış olsaydı, doğrudan da elə bilərdin, rəssam fabrik sahibini heç tanımır və ya, ən azı, onu yadına sala bilmir. Hələ üstəlik də soruşdu:

– Siz şəkil almaq, yoxsa şəklinizi çəkdirmək istəyirsiniz?

K. heyrətlə rəssama baxdı. Görəsən məktubda nə yazılmışdı?

K. elə bilmişdi ki, fabrik sahibi öz məktubunda onun məhkəmə barədə məlumat almaq istədiyini yazmışdı – başqa cür də ola bilməzdi! Çox tələsmiş, hər şeyi götür-qoy etmədən durub bura qaçmışdı! Ancaq indi rəssama nəsə cavab verməli idi və molbertə baxaraq dedi:

– Hazırda şəkil üzərində işləyirsiniz?

– Bəli, – deyə rəssam molbertin üzərinə çəkilmiş köynəyi götürüb çarpayının üstünə – məktubun yanına tulladı. – Portretdir, ancaq hələ tam hazır deyil.

Göydəndüşmə bir təsadüf K.-ya məhkəmədən söz salmağa fürsət verdi, çünki bu, hansısa bir hakimin portreti olmalı idi. Yeri gəlmişkən, şəkil vəkilin iş otağında gördüyünə çox bənzəyirdi. Düzdür, burda tamamilə başqa bir hakim – kök, yanaqlarını görünməz edən qalın qara saqqallı bir kişi təsvir olunurdu, ancaq ordakı yağlı boya ilə işlənmişdi, bu isə rəngli karandaşlarla çəkildiyi üçün zəif, solğun çıxmışdı. Qalanlar isə eyni idi, çünki burda da hakim kreslosunun dirsəkaltından yapışaraq sanki qəzəblə ayağa qalxmaq istəyirdi. K. elə o dəqiqə “Bu ki

hakimdir!" – demək istədi, ancaq hələlik özünü saxladı, bütün xırdalıqlarına baxmaq üçün şəklə yaxınlaşdı. Kürsünün arxa söykənəcəyinin düz ortasında təsvir olunmuş iri fiqurun nə olduğunu başa düşmədi, rəssamdan soruşdu. Rəssam dedi ki, onun üzərində bir az işləmək lazımdır və stolun üstündən rəngli bir karandaş götürüb fiqurun kənarlarını bir az işlədi, ancaq K. yenə də heç nə başa düşmədi. Nahayət, rəssam dilləndi:

– Bu,ədalətdir!

– İndi tanıdım, – dedi K. – bax bu gözlərini bağlamaq üçün təziər, bu da tərəzidir. Ancaq niyə qanadları ayaqlarındadır və sanki qaçır?

– Elədir, sifariş əsaında belə çəkmişəm. Əslində, Ədalət və Zəfər ilahələri bir yerdə təsvir olunub.

– O qədər də yaxşı ittifaq deyil, – K. gülümsədi, – Ədalət yerindən tərpənməməlidir, yoxsa tərəzi pozular, qərar ədalətli olmaz.

– Bu məsələdə mən sifarişçidən asılıyam...

– Elədir, – deyən K. sanki bu iradı ilə heç kimin xətrinə dəymək istəmədiyini bildirdi. – Bu fiquru elə çəkmisiniz ki, sanki doğrudan da kreslonun söykənəcəyində dayanıb.

– Xeyr, mən nə fiqur, nə də hakim kreslosu görmüşəm, bunların hamısı təxəyyülün məhsuludur, ancaq nə çəkəcəyimi mənə demişdilər.

– Necə yəni demişdilər? – K. özünü elə göstərdi ki, guya rəssamı yaxşı başa düşmür. – Bu, kreslosunda oturan hakim deyil?

– Elədir, ancaq baş hakim deyil və heç vaxt da belə kresloda oturmayıb.

– Ancaq buna baxmayaraq, belə təntənəli görkəmdə şəklini çəkdirir? Lap Ali Məhkəmənin sədri kimi oturub.

– Bəli, bu cənablar yaman şöhrətpərəstdirlər. Ancaq belə şəkil çəkdirməyə yuxarılardan icazələri var. Hamısına dəqiq deyilib ki, şəkillərini necə çəkdirə bilərlər. Təəssüf ki, bu şəklə görə onların mantiyaları, kresloları barədə heç nə demək olmaz, rəngli karandaş belə təsvirlər üçün yaramır.

– Elədir, ancaq qəribədir ki, bu şəkil rəngli karandaşla çəkilib.

– Hakim özü belə istədi, qadına bağışlayacaq.

Deyəsən, şəklin görünüşü rəssamı həvəsə gətirdi, köynəyinin qollarını çırmalayaraq bir neçə karandaş götürdü və K. karandaşların dalğavari hərəkətləri ilə hakimin baş tərəfində qırmızıya çalan kölgənin necə yarandığına, həmin kölgənin parıltısının şəklin kənarına tərəf uzandığına tamaşa elədi. Bu oynaq kölgə tədricən başa vurulan bəzəyə və ya taca oxşamağa başladı. Yalnız Ədalət ilahəsinin fiquru güclə nəzərə çarpacaq dərəcədə işıqlı qaldı və fiqur bu işıqda daha qabarıq görünməyə başladı. İndi o nə Ədalət, nə də Zəfər iilahəsinə bənzəyir, daha çox Ovçuluq

ilahəsini xatırladırdı. Rəssamın necə işləməsi K.-nı istədiyindən də çox maraqlandırmışdı. Ancaq sonda özünü danladı ki, burda çox qaldı və öz işi üçün heç nə eləmədi. Qəflətən soruşdu:

– Bu hakimin adı nədir?

– Bunu deməyə ixtiyarım yoxdur, – deyən rəssam şəklə tərəf əyilmişdi, sanki bir az bundan əvvəl hörmətlə qarşıladığı qonağını indi tamam unutmuşdu.

K. rəssamın bu hərəkətini şıltaqlıq hesab elədi və özünə acığı tutdu ki, niyə bu qədər vaxt itirdi.

– Siz yəqin məhkəməyə məhrəm adamlardansınız, elə deyilmi? – deyə soruşdu.

Rəssam o dəqiqə karandaşları yerinə qoydu, qəddini düzəldərək əllərini ovuşdurdu və təbəssümlə K.-ya baxdı:

– Bəli, indi açıq danışmağın vaxtı yetib... Məktubda da yazıldığı kimi, siz məhkəmə barədə məlumat əldə eləmək istəyirsiniz və məni də öz tərəfinizə çəkmək üçün əvvəlcə şəkillər bardə söhbətə başalayırsınız... Ancaq incimirəm, axı siz hardan biləsiniz ki, bu yolla məni ələ almaq olmaz. Xahiş edirəm... – K.-nın etiraz etmək istədiyini görüb, ona aman vermədi və sözünə davam etdi: – Yeri gəlmişkən, tamamilə düz dediniz, mən məhkəməyə məhrəm adamam... – Sözünə ara verdi, sanki bununla K.-ya öz vəziyyətilə barışmağa imkan yaratdı. Qapının arxasından yenə də qızların səsi eşidildi. Çox güman ki, ora yığışıb ya açar deşiyindən, ya da aralı qalmış yerlərdən içəri baxırdılar. K. bu və ya digər şəkildə üzr istəmək fikrindən vaz keçdi, çünki onun fikrini mövzudan yayındırmaq istəmirdi və bir də ən çox onu istəmirdi ki, rəssam özünü çəkib dağın başına qoysun. Ona görə də soruşdu:

– Siz orda rəsmi vəzifədəsiniz?

– Xeyr! – rəssam qısa cavab verdi, sanki bu sual onu çox danışmağa qoymurdu.

K. isə onun susmasını istəmirdi və ona görə dedi:

– Ancaq çox vaxt qeyri-rəsmi vəzifədə olanların sözü rəsmi vəzifədə olanların sözlərindən keçərli olur.

– Mənimki eləsindəndir, – deyə rəssam qaşlarını dartaraq başını tərpətdi. – Dünən fabrik sahibi ilə sizin işiniz barədə danışdıq. Məndən soruşdu ki, sizə kömək edə bilərəmmi. Dedim ki, həmin adam özü yanıma gəlsin və çox şadam ki, belə tez gəldiniz. Deyəsən, bu iş sizi çox narahat edir... Mən buna təəccüblənmirəm... Bəlkə əvvəlcə paltonuzu çıxarasınız?

K. burda çox az qalmaq niyyətində olmasına baxmayaraq, rəssamın təklifi ürəyindən xəbər verdi. Otağın havası tədricən onu sıxmağa başlamışdı, tez-tez heyrətlə küncdəki balaca və şübhəsiz ki, yanmayan dəmir sobaya tərəf baxmışdı, ancaq içəridəki bürkünün hardan gəldiyini başa düşməmişdi. Paltosunu çıxarıb pencəyinin düyməlerini açanda, rəssam üzrxahlıq elədi:

– Bura gərək həmişə isti olsun. Ancaq çox rahatdır, elə deyilmi? Bu cəhətdən otaq çox yaxşı yerdədir.

K. dillənmədi, çünki onu narahat edən isti yox, içərinin boğuq, az qala nəfəs almağı çətinləşdirən havası idi, yəqin otağın havası çoxdan dəyişdirilməmişdi. Rəssam ondan çarpayının üstündə

oturmasını xahiş edəndə, K.-nın narahatçılığı daha da artdı. O özü isə molbertin yanındakı yeganə stulda oturdu. Bundan əlavə də rəssam, deyəsən, K.-nın nə üçün çarpayının lap kənarında oturmasını başa düşmədi, tez-tez xahiş etdi ki, rahat əyləşsin və onun tərəddüd etdiyini görüb yerindən durdu, ona tərəf gəlib K.-nı çarpayının ortasına çəkdi. Sonra qayıdıb öz kreslosuna oturdu və nəhayət, işlə bağlı ilk sualını verdi, K. hər şeyi unutdu:

– Heç bir günahınız yoxdur?

– Yoxdur!

Bu suala çox böyük bir sevinc hissi ilə cavab verdi, çünki cavab verdiyi mülki adam idi və onun qarşısında heç bir məsuliyyət daşımırdı. Hələ heç kəs bunu K.-dan belə açıq şəkildə soruşmamışdı. Bu sevincdən bir az da ləzzət almaq üçün əlavə etdi:

– Mən tamamilə günahsızam!

– Belə... – rəssam başını aşağı salaraq fikrə getdi, sonra qəflətən onu dikəldib dedi: – Əgər günahınız yoxdursa, iş asanlaşır.

K.-nın baxışlarına yenə kədər qondu: guya məhkəməyə çox yaxın olan bu adam lap uşaq kimi danışırdı.

– Mənim günahsızlığım işi asanlaşdırmır, – deyən K. buna baxmayaraq, qeyri-ixtiyari, gülümsədi və başını asta-asta buladı. – Elə incəliklər var ki, məhəkəmə orda uduzur. Ancaq sonradan hardansa nəsə tapır, o vaxt heç nə olan o şey indi böyük bir günaha çevrilir.

– Bəli, bəli elədir... – rəssam özünü elə göstərdi ki, guya K. lazım olmadığı bir halda onun fikirləşməsinə mane oldu. – Axı siz günahsızsınız, elə deyilmi?

– Elədir ki var!

– Bu əsas məsələdir.

Əks dəlillərlə ona təsir etmək mümkün deyildi, ancaq qətiyyətindən də bilinmirdi ki, dediklərinə innanır, yoxsa biganəlikdən belə deyir. K. ilk öncə bunu dəqiqləşdirmək istədi və ona görə də dedi:

– Əlbəttə, siz məhkəməyə məndən yaxşı bələdsiniz, mənim bildiyim yalnız ondan-bundan eşitdiklərimdir, vəssalam. Ancaq bir məsələdə hamının fikri eynidir ki, boş yerdən ittiham irəli sürülmür, əgər məhkəmə ittiham irəli sürüsə, deməli müttəhimin günahkar olduğuna tam əmindir və onu bu inamından döndərmək çətin məsələdir.

– Çətin məsələdir? – deyə qışqıran rəssam əlini göyə qaldırdı. – Məhkəməni bu inamından döndərmək, ümumiyyətlə, mümkün deyil. Əgər mən o hakimlərin hamısını bu kətana yığsam da, özlərini elə ordan müdafiə edəcəklər və əsil məhkəmədəkindən çox uğur qazanacaqlar.

"Elədir ki var" – deyə öz-özünə fikirləşən K. unutdu ki, məqsədi yalnız rəssamın fikrini öyrənmək idi.

Qızlardan biri yenə qapının arxasından soruşdu:

– Titorelli, bəs o çıxıb getmək istəmir?

– Susun! -Titorelli qapıya tərəf qışqırdı. – Görmürsünüz onunla vacib söhbətim var?

Ancaq qız bununla razılaşmayıb soruşdu:

– Onun şəklini çəkəcəksən? – rəssamın cavab vermədiyini görüb əlavə etdi: – Xahiş edirəm çəkmə, çox pis adamdır.

Bayırdan anlaşılmaz sözlər eşidildi, ancaq bilinirdi ki, hamısı deyiləni təsdiqləyir. Rəssam qapıya tərəf cumub onu bir az açdı – ordan içəri dürtülmək istəyən qızların əl-qolları göründü – və dedi:

– Əgər sakit olmasanız, hamınızı pilləkəndən aşağı tullayacam. Pilləkəndə oturun, özünüzü sakit aparın. – Deyəsən, qızlar onun sözünə o dəqiqə əməl eləmədilər, ona görə də komanda səsi eşidildi:

– Pilləkəndə oturmaq!

Yalnız bundan sonra ətrafa sakitlik çökdü.

– Bağışlayın! – geri qayıdan rəssam uzr istədi. Həmin anda K. heç qapı tərəfə baxmamış, onu qoruyub-qorumayacağını, necə qoruyacağını rəssamın ixtiyarına buraxmışdı. İndi rəssam bayırda eşidilməsin deyə ona tərəf əyilib qulağına nəsə pıçıldayanda da yerindən qımıldanmadı.

– Bu qızlar da məhkəməyə işləyir...

– Necə? – K. başını yana çəkərək rəssama baxdı. O isə təzədən kreslosuna oturaraq yarızarafat, yarıciddi dedi:

– İndi hamı, hər şey məhkəməyə işləyir...

– Bunu hələ hiss eləməmişəm, – K. çox qısa cavab verdi və eşitdiyi bu ümumi sözlərdən sonra rəssamın qızlar haqqında dediklərinə çox da fikir vermədi. Ancaq bunula belə, bir anlığa qızların arxasında sakitcə oturduğu qapıya tərəf baxdı. Yalnız qızlardan biri yarıqdan içəri saldığı saman çöpünü aşağı-yuxarı çəkirdi.

– Deyəsən, siz bu məhkəməyə yaxşı bələd deyilsiniz, – deyən rəssam ayaqlarını geniş aralayaraq barmaqlarının ucu ilə döşəməni döyəcləyirdi. – Ancaq günahsız olduğunuza görə bu sizə lazım olmayacaq. Sizi ordan yalnız mən çıxara bilərəm.

– Bunu necə edəcəksiniz? – K. soruşdu. – Axı bayaq özünüz dediniz ki, məhkəmə heç bir dəlil-sübut qəbul etmir.

– Yalnız məhkəməyə təqdim olunan dəlil-sübutları qəbul etmir! – rəssam şəhadət barmağını yuxarı qaldırdı, sanki bununla K.-nın hansısa bir incəliyi başa düşmədiyinə işarə etdi. – Bu baxımdan açıq məhkəmədən kənarda görülən işlər daha önəmli olur. Məsələn, müşavirə otaqlarında, dəhlizlərdə, ya da elə lap burda – emalatxanada...

Rəssamın dedikləri K.– ya bu dəfə inandırıcı göründü, çünki başqalarından eşitdikləri ilə tamamilə üst-üstə düşürdü. Bəli, hətta çox ümidverici görünürdü. Əgər vəkilin dediyi kimi, şəxsi

münasibətlərlə hakimlərə təsir etmək mümkün idisə, deməli, rəssamın o şöhrətpərəst hakimlərlə əlaqələri çox vacib idi, bunu qiymətləndirməmək olmazdı. Belə olan halda o, K.-nın tədricən ətrafına topladığı köməkçilərə qoşulmuş olurdu. Bir dəfə bankda onun təşkilatçılıq qabiliyyətini çox tərifləmişdilər və indi özü ilə tək qaldığı bir anda bu istedadından yetərincə istifadə etməyə yaxşı fürsət yaranmışdı. Rəssam dediyi sözlərin K.-ya necə təsir etdiyini görəndə, deyəsən bir az qorxdu:

– Sizə elə gəlmirmi ki, mən lap hüquqşünas kimi danışıram? Məhkəmədəki cənablarla çox oturub– durmağımdandır... Düzdür, mənə çox xeyiri dəyir, ancaq nitqin ifadəliliyini də az itirmir.

– İlk dəfə hakimlərlə necə əlaqə yarada bildiniz? – K. onun xidmətindən istifadə etməmişdən əvvəl rəssamın etibarını qazanmaq istədi.

– Çox sadə yolla! Bu əlaqələr mənə miras qalıb. Atam da məhkəmə rəssamı idi. Bu elə bir vəzifədir ki, irsən kiməsə keçir. Buraya həmişə təzə adam götürmək olmaz. Müxtəlif çinli məmurların şəkillərinin çəkilməsi üçün müxtəlif, həm də gizli qaydalar var və bunları da bəzi ailələrdən başqa heç kəs bilmir. Məsələn, o çəkməcədə atamın qeydləri var, onları heç kimə göstərmərəm. Yalız onlardan xəbəri olanlar hakimlərin şəklini çəkə bilərlər. Hətta onları itirsəm də, yaddaşımda gəzdirdiklərim bəs eləyər ki, heç kəsin mənə sözü ola bilməsin. Axı hakimlərin hamısı şəkillərini keçmişdəki böyük hakimlər kimi çəkdirmək istəyir və bunu da yalnız mən bacarıram.

– Buna qibtə etmək olar! – deyən K. özünün bankdakı vəzifəsini xatırladı. – Belə çıxır ki, sizi yerinizdən tərpətmək olmaz.

– Olmaz! – rəssam fəxrlə çiyinlərini çəkdi. – Ona görə də hərdən hansı bir yazığasa məhkəmədə kömək etməyə cəsarətim çatır.

– Bəs bunu necə edirsiniz? – K. bunu elə soruşdu ki, deyərdin rəssamın indicə yazıq dediyi heç o deyil. Rəssam isə dediyindən dönmədi:

– Məsələn, tamamilə günahsız olduğunuz üçün sizin işinizdə belə edəcəm...

Tez-tez günahsız olmasının təkrarlanması K.-nı iyrəndirməyə başladı. Bəzən ona elə gəlirdi ki, rəssam belə sözlərlə məhkəmənin müsbət nəticəsini öz köməyi üçün əsas şərt hesab eləyir və belə olan halda da, həmin kömək mənasını itirirdi. Acaq bütün bu şübhələrə baxmayaraq, K. özünü zorla da olsa saxlayır, rəssamın sözünü kəsmirdi. Qəti qərara gəlmişdi ki, rəssamın köməyindən imtina etməsin, çünki ona elə gəlirdi ki, bu kömək vəkilin vəd etdiyi köməkdən də müəmmalı deyildi. K. rəssamın köməyini vəkilinkindən üstün hesab edirdi, çünki ziyansız idi, səmimi idi...

Rəssam kreslosunu çarpayıya yaxın çəkərək boğuq səslə soruşdu:

– İndiyəcən soruşmaq yadımdan çıxıb ki, siz necə bəraət istəyirsiniz? Onun üç növü var: tam bəraət, elüzəri bəraət və bir də süründürməçi bəraət. Əlbəttə, ən yaxşısı tam bəraətdir, ancaq məsələnin bu çür həllinə gücüm çatmaz. Yəqin ki burda əsas rolu müttəhimin günahsızlığı oynayır. Siz günahsız olduqları üçün, doğrudan da, yalnız öz günahsızlığınıza bel bağlaya bilərsiniz. Belə olan halda, sizə nə mənim, nə də başqasının köməyi lazım deyil.

Bu dəqiq təsvir əvvəlcə K.-nı çaş-baş saldı, ancaq sonra o da rəssam kimi alçaqdan dedi:

– Mənə elə gəlir ki, dediyinizdə ziddiyyətlər var.

– Hansı ziddiyyətlər? – səbrlə soruşan rəssam gülümsəyərək geri söykəndi.

Bu təbəssüm K.-da elə təsəvvür yaratdı ki, sanki indi rəssamın sözlərində deyil, ümumiyyətlə bütün məhkəmə sistemində ziddiyyətlər axtarmalıdır. Ancaq buna baxmayaraq, geri çəkilmədi:

– Əvvəlcə dediniz ki, məhkəmə heç bir dəlil-sübut qəbul etmir, sonra bunu yalnız açıq məhkəməyə aid etdiniz, indi isə deyirsiniz ki, günahsız adama heç bir kömək lazım deyil. Bu, ziddiyyətin biri... Bundan əlavə, əvvəlcə dediniz ki, hakimlərə şəxsən təsir etmək olur, ancaq indi bunu inkar edirsiniz ki, adına tam bəraət dediyiniz həmin azadlığı şəxsi təsirlə əldə eləmək heç cür mümkün deyil. Bu da ikinci ziddiyyət...

– Bu ziddiyyətlərin çox asan bir izahı var. Söhbət burda iki müxtəlif məsələdən gedir, yəni qanunda yazılandan və bir də mənim öz təcrübəmdə gürdüklərimdən – bunları qarışdırmayın. Qanunda, əlbəttə, bir tərəfdən yazılır ki, – düzdür, mən onu özüm oxumamışam – müttəhimə bəraət vermək olar, digər tərəfdən də orda yazılmır ki, hakimlərə təsir etmək olar. Ancaq təcrübədə mən həmişə bunun əksini görmüşəm. Mən kiməsə tam bəraət verildiyini hələ eşitməmişəm, ancaq təsirlərin çox şahidi olmuşam. Əlbəttə, belə də ola bilər ki, mən şahid olduqlarımın heç birində günahsız adam olmayıb. Ancaq bu inandırıcı görünürmü? Bu qədər işdə bircə nəfər də günahsız adam olmadı? Uşaq vaxtı atam evdə məhkəmədən danışanda, ona çox diqqətlə qulaq asırdım. Onun emalatxanasına gələn hakimlər də çox vaxt ondan danışırdılar, ümumiyyətlə, bizim dairələrdə bütün söhbətlər yalnız məhkəmə barədə olur. Özümün məhkəmələrə getmək imkanım yarananda, onun hamısından istifadə etdim, saysız-hesabsız məhkəmələrin ən vacib mərhələlərini izlədim, onların açıq keçirilən iclaslarında iştirak etdim və etiraf etməliyəm ki, kiməsə bəraət verildiyinin şahidi olmadım.

– Deməli, bircə dəfə də olsun bəraət verilmədi... – deyən K. sanki özü ilə, qəlbindəki ümidlərlə danışırdı. – Bu mənim məhkəmə haqqındakı düşüncələrimi bir daha təsdiqləyir. Deməli, bu nöqteyi-nəzərdən də onun heç bir mənası yoxdur. Bircə cəllad bütün bir məhkəməni əvəz edə bilər.

– Belə ümumiləşdirmək olmaz, – rəssam narazılıqla dilləndi, – mən yalnız öz təcrübəmdən danışdım.

– Elə bunun özü də kifayətdir... Yoxsa əvvəllər kiməsə bəraət verildiyi barədə eşidibsiniz?

– Yəqin ki kimlərəsə nə vaxtsa bəraət verilib. Ancaq onları dəqiqləşdirmək çox çətindir. Məhkəmələrin qətnamələri heç vaxt çap olunmur, hətta onları hakimlərə də göstərmirlər, ona görə də o keçmiş məhkəmələrdən yalnız əfsanələr qalıb. Yeri gəlmişkən, bu əfsanlərdə çoxlarına tam bərat verildiyindən danışılır, onlara inanmaq olar, ancaq təsdiq etmək mümkün deyil. Bütün bunlara baxmayaraq, deyilənlərə heç məhəl qoymamaq da olmaz, çünki onlarda da müəyyən həqiqətlər var, özü də çox gözəldirlər, hətta mən özüm də həmin mözularda bir nebə şəkil çəkmişəm.

– Mənim fikrimi belə lətifələrlə dəyişmək olmaz! Yəqin heç məhkəmədə də bu lətifələrə əsaslanmaq olmaz, elə deyilmi?

Rəssam güldü:

– Xeyr, olmaz...

– Elə isə, bu barədə danışmağa da dəyməz, – deyən K. hələlik onun dediklərinə inanmasa da, eşitdikləri bildiklərinin əksi olsa da, rəssamın nə fikirləşdiyinin hamısını öyrənmək istəyirdi. Onsuz da indi onun dediklərinin nə dərəcədə düzgün olub-olmadığını yoxlamağa, etiraz eləməyə vaxtı yox idi və əgər rəssamı, lap cüzi də olsa, nədəsə, hardasa kömək etməyə razı sala bilmişdisə, deməli, artıq istədiyinə nail olmuşdu. Ona görə də dedi:

– Yaxşı, tam bəraəti bir kənara qoyaq, ancaq daha iki bəraət növünün adını çəkdiniz...

– Elüzəri bəraət və bir də süründürməçi bəraət. Amma bunlar haqqında danışmamışdan əvvəl bəlkə pencəyinizi çıxarasınız? Yəqin istilənmiş olarsınız.

– Elədir, – deyən K. indiyə qədər onun dediklərindən başqa heç nəyə fikir verməmişdi, ancaq rəssam bürkü adı çəkən kimi alnında iri bir tər damcısı düyünləndi. – Demək olar ki, dözülməzdir.

Rəssam başını tərpətdi, sanki K.-nın nə çəkdiyini yaxşı başa düşürdü.

– Pəncərəni açmaq olmaz? – K. soruşdu.

– Xeyr, çərçivəyə bərkidilmış şüşədir, açmaq olmur.

İndi K.-nın yadına düşdü ki, bütün vaxtı ya rəssamın ya da özünün pəncərəyə tərəf cumub onu taybatay açacaqlarına ümid edirdi. Hazırlaşmışdı ki, hətta içəri dolacaq dumanı da acgözlüklə içinə çəksin. Ona elə gəldi ki, artıq havası çatmır və başı hərləndi. Əlini yavaşca yanındakı tük döşəyə toxunduraraq zəif səslə dedi:

– Burda heç dayanmaq olmur, cana da ziyandır...

– Xeyr, xeyr, – rəssam öz pəncərəsinin müdafiəsinə qalxdı, – açılmadığı üçün, adicə təkqat şüşə olsa da, içərini ikiqat pəncərədən isti saxlayır. Havanı dəyişmək istəyəndə – taxtaların arasındaki yarıqlardan həmişə təmiz hava gəldiyi üçün bu heç lazım olmur – qapılardan birini, ya da ikisini də açıram.

– Rəssamın dediklərindən, az da olsa, təsəlli tapan K. ikinci qapının yerini öyrənmək üçün yan-yörəsinə baxdı. Bunu hiss edən rəssam dilləndi:

– Arxanızdadır, çarpayı ilə qabağını kəsmişəm...

K. divardakı balaca qapını yenicə gördü.

– Emalatxana üçün balacadır, çox şey də artıqlıq eləyir, – rəssam sanki K.-nı qabaqlamaq istədi, – ancaq gərək bura yerləşəydim. Əlbəttə, qapının qabağındakı çarpayı çox pis yerdə durub... Məsələn, indi şəklini çəkdiyim hakim həmişə bu qapıdan gəlir və açarın birini də ona vermişəm ki, mən evdə olmayanda içəri girib gözləsin. Ancaq o da, adətən, səhər tezdən – mən yatanda

gəlir. Əlbəttə, nə qədər bərk yatsam da, çarpayının yanındakı qapı açılan kimi, ayılıram. Səhər-səhər çarpayımın üstünə çıxanda ona necə lənətlər yağdırdığımı eçitsəydiniz, hakimlərə olan bütün hörmətinizi itirərdiniz. Düzdür, açarı geri ala bilərəm, ancaq pislikdən başqa qazancım olmayacaq. Burdakı qapıları heç bir əziyyət çəkmədən çərçivəsindən çıxarmaq olur...

Rəssam danışan anda K. pencəyini çıxarıb-çıxarmayacağı barədə düşündü və axırda başa düşdü ki, bunu eləməsə, burda çox qala bilməyəcək, ona görə də çıxarıb dizinin üstünə qoydu ki, söhbəti qurtaran kimi geyinib gedə bilsin. Pencəyi çıxaran kimi qızlardan biri qışqırdı:

– Artıq pencəyini çıxarıb!

Və bu tamaşaya baxmaq üçün qızların qapıdakı yarıqların qabağına necə düzüldükləri eşidildi.

– Qızlar elə bilir, şəklinizi çəkəcəm, ona görə soyundunuz.

– Belə de... – K. rəssama fikir vermədi, çünki indi köynəkdə oturmasına baxmayaraq, hələ də özünü yaxşı hiss eləmirdi və demək olar ki, mızıltı ilə soruşdu: – O iki imkanın adı necə oldu?

Həmin ifadələri yenə unutmuşdu...

– Elüzəri bəraət, bir də süründürməçi bəraət. Hansını istəyirsiniz, onu da seçin. Hər ikisini mənim köməyimlə almaq olar. Əlbəttə, heç biri asan başa gəlməyəcək, fərq yalnız orda olacaq ki, elüzəri bəraət üçün az vaxt, ancaq gərgin əmək, süründürməçi bəraət üçünsə az əziyyət, lakin çox vaxt tələb olunacaq. Deməli, elüzəri bəraətdən başlayırıq. Əgər siz bunu istəsəniz, onda mən bir vərəq kağız götürüb, orda sizin günahsız olduğunuza zəmanət verirəm. Bu zəmanətin mətni mənə atamdan qalıb və ona əl gəzdirmək lazım deyil. Sonra onu götürüb tanış hakimlərin yanına gedirəm. Deməli, indi şəklini çəkdiyim hakimdən başlayıram, bu axşam iclasa gəlsə, ona verirəm. Verəndə də deyirəm ki, sizin heç bir günahınız yoxdur və günahsız olduğunuza zəmanət verirəm. Bu, elə-belə zəmanət deyil, əsil zəmanətdir, nəyisə boynuma götürürəm... – rəssam öz baxışları ilə sanki K.-nı məzəmmət etdi ki, ona görə bu ağır yükü öz boynuna götürür.

– Siz çox böyük bir lütfkarlıq edirsiniz, – dedi K. – Deməli, hakim sizə inanacaq, ancaq bununla belə mənə tam bəraət verməyəcək?

– Bayaq dediyim kimidir... Yeri gəlmişkən, bu hələ o demək deyil ki, hakimlərin hamısı mənə inanacaq, bəzisi deyəcək ki, sizi şəxsən onun yanına aparım. Deməli, onda mənimlə gedəsi olacaqsınız. Əlbəttə, belə olan halda, işin yarısını artıq udulmuş hesab etmək mümkündür, xüsusilə də həmin hakimin yanına getməmişdən əvvəl orda özünüzü necə aparacağınızı sizə dəqiq başa salandan sonra... Ancaq əvvəlcədən “yox” deyən – belə hallar da olacaq – hakimlərlə çətin alınacaq. Əlbəttə, mən müxtəlif vasitələrlə onları yola gətirməyə çalışacam, əgər alınmasa, bu hakimlərdən imtina etməli olacağıq və bunu edə də bilərik, çünki heç biri ayrılıqda qəti hökm verə bilməz. Mən kifayət qədər imza toplayandan sonra həmin zəmanəti götürüb sizin işi aparan hakimin yanına gedirəm. Bəlkə elə onun özünün də imzasını almış oldum, onda hər şey nisbətən tez həll olunacaq. Əslində, bütün bunlardan sonra elə böyük çətinliklər qalmır və müttəhim də artıq özünü inamlı hiss edə bilər. Qəribə də olsa, həqiqətdir ki, müttəhimlər bu vaxt ərzində bəraətdən sonrakından da inamlı olurlar. Daha elə bir çətin iş qalmır. Artıq hakimin əlində bir neçə hakimin də imzaladığı zəmanət olur və heç nədən çəkinmədən sizi azad bilir və məlum

məsələdir ki, mənə, eləcə də digər tanışlarına minnət qoyaraq bəzi formal işləri yerinə yetirəndən sonra bunu edir də... Siz məhkəmədən çıxırsınız və azad olursunuz!

– Deməli, azad oluram... – K. tərəddüdlə dilləndi.

– Bəli, ancaq yalnız elüzəri, daha dəqiq desək, müvəqqəti azad olursunuz. Mənim tanışlarımın da aid olduğu aşağı çinli hakimlərin kimisə tam azad etməyə hüquqları çatmır, bu hüquq yalnız Ali Məhkəmədə olur ki, ona da nə sizin, nə mənim, nə də başqalarının əli yetir. Orda işin necə aparıldığını biz bilmirik və yeri gəlmişkən, heç bilmək də istəmirik. Deməli, bizim hakimlərə kiminsə üzərindən ittihamı götürə bilmək kimi ali hüquq verilməyib, onlar yalnız onu rədd edə bilərlər. Bu isə o deməkdir ki, siz hələlik azad olunursunuz, üzərinizdən ittiham bir anlığa götürülür, ancaq o, başınızın üstündə fırlanır və yuxarıdan əmr gələrsə, təzədən qüvvəyə minir. Məhkəmə ilə əlaqələrim çox yaxşı olduğu üçün, tam bəraətlə elüzəri bəraətin dəftərxana sənədlərində zahirən seçildiklərini sizə deyə bilərəm. Tam bəraət zamanı məhkəmənin bütün sənədləri yoxa çıxır, bütün istintaq materialları, ittihamnamə, hətta tam bəraət haqqındakı qətnamənin özü də məhv edilir. Hər şey, hər şey məhv olunur... Elüzəri bəraətdə isə baçqa cür olur. Sənədlərdə heç bir dəyişiklik edilmir, qovluq yalnız günahsızlıq barədəki zəmanətin, bəraət və onu əsaslandıran qətnamənin hesabına bir az qalınlaşır. Ümumiyyətlə götürəndə, dəftərxana yazışmalarının tələbinə uyğun olaraq, məhkəmə hələ də davam edir, sənədlər yuxarı instansiyaların məhkəmələrinə göndərilir, sonra təzədən aşağı instansiyaya qayıdır və beləliklə, gah sürətlə, gah sürünə-sürünə, gah yerlərdə çox, gah da az qalmaqla gedib-gəlirlər. Bu get-gəlin də nə qədər çəkdiyi bilinmir. Kənardan baxanda, bəzən adama elə gəlir ki, hər şey unudulub, sənədlər itib, bəraət də qətiləşib. Ağlı başında olan adam buna inanmaz. Heç bir sənəd itmir, məhkəmə də heç nəyi unutmur. Günlərin bir günü, heç kimin gözləmədiyi bir halda, hansı hakimsə onu qaldırıb diqqətlə baxır və görür ki, ittiham hələ də öz qüvvəsindədir, elə o dəqiqə də həbs haqqında qərar çıxarır. Bununla demək istəyirəm ki, elüzəri bəraətlə yenidən həbs olunmağın arası çox çəkir. Ancaq bu belə ola bilər! Eyni zamanda belə də ola bilər ki, – bu cür hallar da görmüşəm – bəraət alan adam evə qayıdanda görür ki, məhkəmə icraçıları təzədən həbs etmək üçün onu gözləyirlər. Onda da azad həyata əlvida!

– Məhkəmə də təzədən başlayır? – K. inamsızlıqla soruşdu.

– Elədir, məhkəmə təzədən başlayır, ancaq yenə də əvvəlki kimi elüzəri bəraət qazanmaq mümkündür. Bütün gücünü toplayıb, təslim olmamaq lazımdır.

Bəlkə də rəssam bu son sözləri K.-nın ruhdan düşdüyünü hiss edərək dedi. K. da sanki rəssamın hansısa büründəkli fikirlərini qabaqlamaq üçün dilləndi:

– Bəs ikinci dəfə bəraət almaq birincidən çətin olmayacaq?

– Bu barədə dəqiq fikir söyləmək olmaz. Yəqin demək istəyirsiniz ki, ikinci dəfə həbs olunmağınız hakimləri sizin əleyhinizə kökləyəcək? Belə şey ola bilməz. Hakimlər bəraət verəndə, bu həbsi artıq nəzərdə tutmuş olurlar. Deməli, bunun təsiri ola bilməz. Ancaq ola bilsin, digər saysız-hesabsız səbəblərdən hakimlərin ovqatı, işə verdikləri hüquqi qiymət dəyişər, ona görə də ikinci bəraət üçün görülən işlər dəyişmiş vəziyyətə uyğunlaşdırılmalıdır və ümumiyyətlə, birinci bəraətdə olduğu kimi var gücünü toplamalısan.

– Ancaq bu ikinci bəraət də qəti olmayacaq, – K. narazılıqla başını geri çevirdi.

– Əlbəttə olmayacaq, çünki ikinci bəraətdən sonra üçüncü həbs gələcək, üçüncü bəraətdən sonra da dördüncü həbs... və beləcə də davam edəcək. Elüzəri bəraətin mahiyyəti belədir.

K. susdu.

– Deyəsən, elüzəri bəraət o qədər də xoşunuza gəlmədi, -rəssam sözünə davam etdi, – bəlkə də süründürməçi bəraət sizə daha çox uyğun gəlir.

K. başını tərpətdi. Rəssam kresloya yayxanmışdı, gecə köynəyinin yaxası tam açıq idi və əlinin birini də içəri salmışdı, gah sinəsini, gah da böyrünü sığallayırdı.

– Süründürməçi bəraət... – rəssam gözlərini bir nöqtəyə zilləyərək uyğun sözlər axtarırdı, – süründürməçi bəraətin mahiyyəti ondan ibarətdir ki, iş uzun zaman məhkəmənin ən aşağı mərhələsində saxlanılır. Buna nail olmaq üçün müttəhim və köməkçisinin, xüsusilə də köməkçinin, ara vermədən məhkəmə ilə əlaqədə olması vacibdir. Təkrar edirəm, burda elüzəri bəraətdə olduğu kimi çox güc sərf eləmək lazım gəlmir, ancaq bununla belə, son dərəcə diqqətli olmaq gərəkdir. Məhkəməni gözdən qoymaq olmaz, işi aparan hakimin yanına yalnız təyin olunmuş günlərdə deyil, fürsət düşən kimi də getmək, onunla mehribançılıq yaratmağa çalışmaq lazımdır. Hakimlə şəxsi tanışlığın yoxdursa, başqa tanış hakimlər vasitəsilə ona təsir etmək lazımdır, ancaq bununla bərabər, onun özü ilə birbaşa müzakirələr aparmaq cəhdindən də əl çəkmək olmaz. Yalnız bunların hamısını eləməklə kifayətə qədər əminliklə demək olar ki, məhkəmə ilkin mərhələsindən o yana gedə bilməyəcək. Düzdür, məhkəmə dayandırılmır, ancaq azadlıqda gəzən bir adam kimi müttəhimin haqqında heç bir hökm çıxarıla bilməz. Elüzəri bəraətlə müqayisədə süründürməçi bəraətin üstünlüyü ondadır ki, müttəhimin gələcək taleyində qeyri-müəyyənlik az olur, qəfil həbs edilmək təhlükəsi altında yaşamır və qorxmur ki, onun üçün çox namünasib bir vaxtda elüzəri bəraət qazanmaq üçün bütün gücünü sərf eləsin, həyəcanlansın... Ancaq bütün bunlarla bərabər, süründürməçi bəraətin də müttəhim üçün bəzi mənfi cəhətləri var və bununla da hesablaşmamaq olmaz. Burda mən heç də müttəhimin azad olmadığını nəzərdə tutmuram, elə elüzəri bəraət zamanı da o, sözün həqiqi mənasında azad olmur. Bu, ayrı bir çatışmayan cəhətdir. Orda, ən azı saxta dəlil– sübutlar olmalıdır ki, məhkəmə dayanmasın. Ona görə də məhkəməyə xaricdən müdaxilə lazımdır. Yəni hərdən nəsə bir göstərişin verilməsi, müttəhimin dindirilməsi, təhqiqat aparılması və sair işlərin görülməsi lazımdır. Məhkəmə həmişə onun üçün süni şəkildə yaradılmış çevrədə hərəkət etməlidir. Əlbəttə, bütün bunlar müttəhim üçün müəyyən narahatçılıqlar yaradır, ancaq onları çox şişirtmək də lazım deyil. Onlar yalnız zahirən belə görünürlər, ancaq, məsələn, dindirmələr az çəkir, vaxtın, ya da həvəsin olmayanda üzrxahlıq eləyib heç getmirsən, hətta bəzi hakimlərlə razılaşaraq gedəcəyiniz günlərin cədvəlini uzun müddət üçün əvvəlcədən tuta bilərsiniz. Əslində, burda söhbət yalnız ondan gedir ki, siz müttəhim kimi hərdən hakimlə görüşməlisiniz.

Rəssam son sözləri deyəndə, K. artıq ayağa durub pencəyini qolunun üstünə aşırmışdı.

– O durdu! – həmin dəqiqə bayrdan səs gəldi.

– Getmək istəyirsiniz? – Rəssam da artıq ayaq üstə idi. – Yəqin havaya görə qala bilmirsiniz. Heç yaxşı olmadı... Sizə hələ bəzi şeyləri də demək istəyirdim. Qısa danışmalı oldum... Ancaq ümid edirəm ki, məni başa düşdünüz.

– Əlbəttə! – özünü zorla ona qulaq asmağa məcbur etdiyi üçün K.-nın başı ağrıyırdı.

K. onu başa düşdüyünü təsdiq eləsə də, rəssam dediklərini yekunlaşdırdı, sanki bununla getməyə hazırlaşan K.-ya təsəlli vermək istədi:

– Hər iki üsulun ümumi bir cəhəti var ki, müttəhim haqqında hökm çıxarılmasına yol vermirlər.

– Həm də tam bəraət verilməyə qoymurlar, – K. yavaşdan dedi və sanki bunu başa düşdüyünə görə utandı.

– Deməli, işin məğzini başa düşübsünüz, – rəssam tez dilləndi.

K. əlini paltosuna tərəf apardı, ancaq bilmədi əvvəlcə pencəyini geysin, ya yox. Ondan olsa, hamısını bir yerə bükər, tez təmiz havaya çıxardı. Onun geyinməyə başladığını sevinclə bir-birinə ötürən qızlar da onu geyinməyə məcbur edə bilmədi. Rəssam isə K.-nın burdan hansı ovqatla getdiyini bir təhər öyrənmək istəyirdi və ona görə də dedi:

– Yəqin ki mənim təkliflərim haqqında qəti bir qərara gəlməmisiniz. Bunu özüm də alqışlayıram. Heç mən də qoymazdım ki, belə tez qərar çıxarasınız. Onların üstünlükləri ilə çatışmazlıqları arasındakı fərq iynənin ulduzu boydadır. Hər şeyi diqqətlə ölçüb-biçmək lazımdır. Ancaq çox gecikmək də olmaz.

– Bu yaxınlarda yenə gələcəm, – deyən K. qəflətən nə fikirləşdisə, pencəyini geydi, paltosunu da qolunun üstünə aşırıb qapıya tərəf tələsdi. Qızlar artıq orda qışqırışmağa başlamışdılar və K.-ya elə gəldi ki, onları qapının arxasında görür.

– Gərək sözünüzün üstündə durasınız, – rəssam da onun arxasınca qapıya tərəf gəldi, – yoxsa özüm durub banka gələcəm.

– Qapını açsanız! – K. dəstəyi dartışdırdı və hiss etdi, qızlar da onu çöl tərəfdən bururlar.

– İstəyirsiniz ki, qızlar zəhlənizi töksünlər? Yaxşısı budur, o biri qapıdan çıxasınız, – deyən rəssam çarpayının yanındakı qapını göstərdi.

– K. razılaşaraq çarpayıya tərəf qayıtdı. Ancaq rəssam qapını açmaq əvəzinə çarpayının altına əyilərək elə ordan soruşdu:

– Bircə dəqiqə... Bir şəklə də baxın, bəlkə alası oldunuz?!

K. özünü nəzakətli adam kimi göstərmək istədi, bundan əlavə də rəssam onu qəbul etmişdi, kömək edəcəyinə söz vermişdi, yadından çıxdığı üçün köməyə görə nə verəcəyi barədə də söz açmamışdı, ona görə də yox deyə bilməzdi və bütün səbri tükəndiyi üçün titrədiyinə baxmayaraq, şəkli görmək istədiyini bildirdi. Rəssam çarpayının altından bir qalaq çərçivəsiz, toz basmış şəkil çıxardı, lap üstdəkini üfürdü, ordan qalxan toz K.-nın ağzına doldu, az qaldı, nəfəsini kəssin.

– Səhra mənzərəsidir, – deyə rəssam şəkli K.-ya uzatdı.

Orda yanıb-qaralmış otların üstündə bir-birindən çox uzaqda bitmiş iki ağac və arxa planda da qürub edən günəşin əlvan şəfəqləri təsvir olunmuşdu.

– Gözəldir! Bunu alıram.

K. qeyri– ixtiyari belə tez və qısa cavab verdi və rəssamın bundan inciməyib ikinci şəkli döşəmədən qaldırdığını görəndə sevindi.

– Bu isə həmin şəklin əksidir, – dedi rəssam.

Ola bilsin, onun əksi kimi düşünülmüşdü, ancaq əslində, birincidən çox az fərqlənirdi: burda da ağaclar, ot, qürub edən günəş təsvir olunmuşdu. Ancaq bu, K.-nı maraqlandırmırdı və ona görə dedi:

– Gözəl mənzərələrdir, ikisini də alıram, iş otağımdan asaram.

– Deyəsən, mövzu xoşunuza gəlir, – deyə rəssam üçüncü şəkli çıxardı, – yaxşı ki, bunlara oxşayan bir şəkil də var.

Ancaq burda oxşarlıqdan söhbət gedə bilməzdi, əslində eyni mənzərə idi. Rəssam fürsətdən yaxşıca istifadə edərək köhnə şəkillərini satırdı.

– Yaxşı, bunu da götürürəm, – dedi K. – üçü bir yerdə neçə eləyir?

– Bu barədə gələn dəfə danışarıq. İndi tələsirsiniz, ancaq biz onsuz da əlaqə saxlayacağıq. Yeri gəlmişkən, çox şadam ki, şəkillər xoşunuza gəldi. Çarpayının altındakı bütün şəkilləri verirəm, aparın. Hamısı çöl mənzərələridir, belələrini çox çəkmişəm. Bəzi adamlar belə şəkilləri xoşlamır və deyirlər ki, çox qəmli görünürlər, bəziləri də – siz də belələrindənsiniz – məhz qəmli mənzərələri xoşlayırlar.

Ancaq K. dilənçi kökündə olan bir rəssamın "peşəkarlıq təcrübəsi" haqqındakı mühazirəsinə qulaq asmaq iqtidarında deyildi və ona görə də rəssamın sözünü kəsdi:

– Şəkillərin hamısını qablaşdırın, sabah xidmətçim gəlib aparacaq.

– Lazım deyil, indi bir hambal taparam, sizinlə birlikdə aparar. – rəssam bu sözləri deyəndən sonra, nəhayət, çarpayının üzərindən əyilərək qapını açdı. – Çəkinməyin, çarpayının üstünə çıxın, bura gələnlər hamısı belə edir.

K. rəssam deməmiş də bunu edəcəkdi və artıq ayağının birini də tük döşəyin üstünə qoymuşdu, ancaq açıq qapıdan çölə baxan kimi onu tez geri çəkdi.

– Bu nədir? – deyə rəssamdan soruşdu.

– Niyə təəccüblənirsiniz? – deyən rəssamın özü də təəccübləndi, – məhkəmə dəftərxanalarıdır. Burda məhkəmə dəftərxanalarının olduğunu bilmirdiniz? Axı onlar, demək olar ki, bütün çardaqlarda var, burda niyə olmamalı idilər? Mənim emalatxanam da, əslində, bu dətərxanalara aiddir, onu mənə məhkəmə verib.

K. burada məhkəmə dəftərxanalarına rast gəldiyinə görə çox da qorxmadı, onu ən çox qorxudan özü, məhkəmə işlərindən belə xəbərsizliyi oldu. Ona elə gəldi ki, müttəhim həmişə hər şeyə hazır olmalı, heç nəyə təəccüblənməməli, hakim solunda dura-dura küt-küt sağa baxmamalıdır və həmişə də elə bunlarda ilişirdi. Qarşısında uzun bir dəhliz görünürdü və ordan gələn hava ilə

müqayisədə emalatxananın havası tərtəmiz hava idi. Onun hər iki tərəfinə K.-nın getdiyi dəftərxananın gözləmə zalındakı kimi skamyalar düzülmüşdü. Deyəsən, bütün dəftərxanaların təchizatı müəyyən qaydalar əsasında aparılırdı. İndi burda müştəri az idi. Bir kişi skamyaya çöküb başını əlləri arasına almışdı və deyəsən yatırdı. Başqa biri də dəhlizin sonundakı yarımqaranlıqda dayanmışdı. Nəhayət, K. çarpayının üstünə çıxdı, rəssam da əlində şəkillər onun arxasınca gəldi. Onlar tezliklə bir məhkəmə xidmətçisinə rast gəldilər – K. indi bütün məhkəmə xidmətçilərini mülki paltarlarının adi düymələri arasında parıldayan qızılı düymədən tanıyırdı – və rəssam ona tapşırdı ki, şəkilləri götürüb K.-nın arxasınca getsin. K. isə artıq yerimir, səndələyirdi və cib yaylığını da ağzına tutmuşdu. Çıxış qapısına yaxınlaşanda, qızlar onlara tərəf cumdular və məlum oldu ki, K. hələ onlardan da canını qurtara bilməyibmiş. Yəqin o biri qapının açıldığını görərək yan tərəfdən fırlanıb bura gəlmişdilər.

– Sizi bura qədər ötürə bilərəm, – qızların artıq dövrəyə aldığı rəssam güldü, – hələlik! Çox fikirləşməyin...

K. heç ona tərəf baxmadı da. Küçəyə çatan kimi qarşısına çıxan ilk faytonu saxlatdırdı. İndi bircə istəyi vardı ki, qızılı düyməsi bəlkə də heç kəsin nəzərinə çarpmayan, ancaq K.-nın gözlərini deşən xidmətçidən birtəhər canını qurtarsın. Öz vəzifəsini axıracan yerinə yetirmək istəyən xidmətçi isə faytonun qozlasına oturdu, ancaq K. onu düşürtdü. O, banka çatanda, artıq günortadan keçmişdi. Şəkilləri faytonda qoyub getmək istədi, ancaq qorxdu ki, onları nə vaxtsa rəssama göstərəsi olar. Buna görə də onları otağına apartdırdı, yazı stolunun lap axırıncı çəkməcəsinə qoyub ağzını açarla bağladı ki, ən azı, yaxın günlərdə direktor müvininin gözünə sataşmasın.

## SƏKKİZİNCİ FƏSİL

### Tacir Blok. Vəkildən imtina

Nəhayət K. qərara aldı ki, vəkilin xidmətindən imtina etsin. Düzdür, bu hərəkətin nə dərəcədə düzgün olması barədəki şübhələr ona rahatlıq vermədi, ancaq bununla belə, qəti inamı hamısını üstələdi. Qərarı vəkilin yanına gedəcəyi gün qəbul elədi və həmin gün də onu çox yordu, yavaş-yavaş işlədi, otağında çox qaldı. Nəhayət, vəkilin qapısına çatanda, artıq saat onu keçmişdi. Zəngi basmamışdan əvvəl fikirləşdi ki, bəlkə də bunu telefonla, ya da məktubla bildirsəydi, daha yaxşı olardı, çünki üzbəüz oturub söhbət eləmək o qədər də ürəkaçan olmayacaqdı. Buna baxmayaraq, üzbəüz oturub demək istədi, başqa cür imtina etsəydi, ya sakitcə, ya da bir-iki quru sözlə qəbul olunacaqdı və Leni də bəzi şeyləri öyrənib deməsəydi, K. heç vaxt vəkilin bunu necə qəbul etdiyindən, eyni zamanda da, bu imtinanın özü üçün necə nəticələnəcəyindən xəbər tuta bilməyəcəkdi, halbuki vəkilin fikirləri də mənasız deyildi. Ancaq vəkil onunla üzbəüz otursaydı və hətta bu xəbərdən təəccüblənsə də, ondan çox şey qoparmaq mümkün olmasaydı da, üzünün ifadəsindən, rəftarından K. istədiyini asanca öyrənə bilərdi. Belə də ola bilərdi ki, müdafiəsinin vəkilə həvalə edilməsinin yaxşılığına inanırdı və ondan imtina etməzdi.

Həmişə olduğu kimi, bu dəfə də ilk zəng cavabsız qaldı. “Leni bir az cəld tərpənsə, yaxşı olardı” – K. ürəyindən keçirdi. Ancaq indinin bir üstünlüyü vardı ki, heç kim onun işinə qarışmırdı, yoxsa adətən, ya gecə köynəyində həmin kişi, ya da bir başqası çıxıb onun zəhləsini tökürdü. İkinci dəfə zəngi basanda, geri dönüb qonşu qapıya baxdı, ancaq indi o da açılmadı. Nəhayət, vəkilin qapısındakı deşikdə bir cüt göz göründü, amma Leninin gözləri deyildi. Kimsə qapının rəzəsini çəkdi, lakin arxasından tutub açılmağa qoymadı, içəri tərəfə dönüb, “Odur!” – deyə qışqırdı və sonra qapını tamamilə açdı. K. qapıya tərəf cumdu, çünki arxadakı qapıda açar tələsik buruldu. Ona görə də qapı açılan kimi, necə deyərlər, özünü içəri təpidi, hələ çatdırıb qapını açan adamın xəbərdarlığından sonra otaqların arasındakı dəhlizdə bircə köynəkdə qaçan Lenini də gördü. Onun arxasınca bir az baxandan sonra qapını açan adama tərəf döndü. Balaca, sısqa, topasaqqal bir kişi idi və əlində də şam tutmuşdu.

– Burda işləyirsiniz? – K. soruşdu

– Xeyr, qonağam, vəkil mənim nümayəndəmdir, bir işə görə məsləhət almağa gəlmişəm.

– Pencəksiz gəlmisiniz? – K. əli ilə işarə etdi ki, paltarının yarısını çıxarıb.

– Ah, bağışlayın, – kişi əlndəki şamla özünü işıqlandırdı və sanki nə kökdə olduğunu yenicə gördü.

– Leni məşuqənizdir? – K.-nın sualı qısa oldu. Ayaqlarını bir az aralamış, şlyapasını saxlayan əllərini də arxasında çarpazlamışdı. Əynində belə bahalı palto olması, onun bu arıq kişidən çox üstün olduğunu göstərirdi.

– İlahi! – Dəhşətə gələn kişi əlləri ilə üzünü örtdü, – xeyr, xeyr, nə danışırsınız?!

– Yaxşı, inandım, – K. gülümsədi, – ancaq buna baxmayaraq, mənimlə gedəcəksiniz. – Şlyapası ilə işarə etdi ki, qabağa düşsün.

– Bəs adınız nədir? – K. gedə-gedə soruşdu.

– Blokdur... Tacir Blok – deyən balaca kişi K.-ya tərəf döndü və dayanmaq istədi, ancaq K. qoymadı.

– Bu sizin əsil adınızdır?

– Əlbəttə! Niyə şübhələnirsiniz ki?

– Mənə elə gəldi ki, adınızı gizlətməyə əsasınız var...

K. özünü o qədər sərbəst hiss edirdi ki, adam yalnız yad bir yerdə özündən səviyyəcə aşağı olan insanlarla danışanda, özünə aid olan şeylər barədə susaraq etinasızlıqla onların maraqlarından danışa-danışa həmsöhbətlərini öz gözlərində böyüdəndə, istədiyi anda da kiçildəndə, belə sərbəst ola bilərdi. Vəkilin iş otağının qapısına çatanda, K. dayanıb onu açdı, itaətkarlıqla qabağa qaçmış taciri geri çağırdı:

– Tələsməyin! Buranı işıqlandırın!

K.-ya elə gəlirdi ki, Leni burda gizlənmiş olacaq və tacirə bütün künc-bucağı axtartdırdı, ancaq otaqda heç kəs yox idi. Hakimin şəklinin yanından keçəndə, K. tacirin çiyinbağından tutub saxladı:

– Bunu tanıyırsınınz? – deyə şəhadət barmağını yuxarı tuşladı.

Tacir şamı qaldıraraq gözlərini qıya-qıya yuxarı baxdı:

– Hakimdir.

– Baş hakimdir? – K. tacirlə böyür-böyürə dayanıb şəklin ona necə təsir etdiyini bilmək istədi. Tacir heyranlıqla yuxarı baxdı:

– Baş hakimdir! – dedi.

– Adamları o qədər də yaxşı tanımırsınız. Alçaq çinli istintaq hakimlərinin ən alçağıdır.

– Bəli, indi yadıma düşdü... – tacir şamı aşağı saldı. – Bu barədə eşitmişəm də...

– Əlbəttə! Yadımdan çıxmışdı, deyəm... Əlbəttə, eşitməli idiniz...

– Axı niyə, niyə?

K. onu itələyə-itələyə qapıya tərəf apardı, dəhlizə çıxanda soruşdu:

– Leninin harada gizləndiyini bilməmiş olmazsınız?!

– Gizləndiyini? Xeyr, indi yəqin mətbəxdədir, vəkilə şorba bişirir.

– Niyə bunu o dəqiqə demədiniz?

– Sizi elə ora aparırdım, özünüz geri çağırdınınz.. – tacir K.-nın gah belə, gah da onun əksini əmr eləməsindən çaş-baş qalmışdı.

– Elə bilirsiniz ki, çox hiyləgərsiniz... Yaxşı, məni ora aparın!

K. indiyəcən mətbəxdə olmamışdı: çox böyük idi və içində hər şey vardı. Elə soba adi sobalardan üç dəfə böyük idi, qalan şeyləri isə yaxşı seçmək olmurdu, çünki balaca lampa qapının girəcəyində asılmışdı, içəriyə işıq az düşürdü. Həmişəki kimi ağ önlük taxmış Leni sobanın qarşısında dayanıb xörəyə yumurta çırpırdı və yana çevrilərək dedi:

– Axşamın xeyir, Yozef.

– Axşamın xeyir, – deyən K. əli ilə tacirə işarə elədi ki, kənardakı kresloya otursun və o da oturdu. Özü isə Leniyə lap yaxınlaşaraq çiyinləri üzərindən boylana-boylana soruşdu:

– Bu kişi kimdir?

Bir əli ilə şorbanı qarışdıran Leni o biri əli ilə K.-nı qucaqlayaraq onu özünə tərəf çəkdi:

– Yazığın biridir, kasıb tacirdir, adı da Blokdur... Sən bir ona bax!

İkisi də dönüb geri baxdı. Tacir K.-nın göstərdiyi kresloda oturmuşdu, daha lazım olmadığı üçün şamı üfürüb söndürmüşdü və indi də tüstünü kəsmək üçün onun başlığını əli ilə sıxırdı.

– Sən bircə köynəkdə idin, – K. əli ilə qızın başını sobaya tərəf döndərdi. Leni isə susurdu. – Məşuqundur?

Leni şorba qazanını götürmək istədi, ancaq K. onun hər iki əlindən yapışıb dedi:

– Cavab ver!

– İş otağına keçək, orda hər şeyi sənə başa salaram.

– Xeyr, istəyirəm burda başa salasan.

Qız ona sarılıb öpmək istədi, K. geri çəkildi.

– İstəmirəm indi məni öpəsən.

– Yozef! – Leni yalvarıcı, ancaq dik baxışlarla K.-nın gözlərinin içinə baxdı. – Sən məni cənab tacirə qısqana bilməzsən. Rudi, – deyə o tacirə tərəf döndü, – mənə kömək elə, görürsən ki, məndən şübhələnir, şamı at getsin...

Fikirləşmək olardı ki, tacir ona fikir verməyəcək, ancaq, sən demə, qulağı onlarda imiş:

– Heç mən də bilmirəm ki, niyə qısqanır... – tacir sanki kişilənmək istədi.

– Heç mən özüm də bilmirəm! – K. təbəssümlə tacirə baxdı.

Leni ucadan güldü, K.-nın bir az boşalmasından istifadə edərək onun qolları arasında yerini rahatlayaraq pıçıldadı:

– Onda işin olmasın... özün görürsən ki, necə adamdır. Onunla bir az xoş rəftar etdim, çünki vəkilin daimi müştərisidir. Başqa səbəb yoxdur... Bəs sən? Bu gün vəkillə danışmaq istəyirsən? İndi çox ağrıyır, ancaq istəsən, gəldiyini deyərəm. Gecə də mənim yanımda qalarsan. Mütləq qalarsan... Çoxdan bura gəlmirsən, vəkil özü də səni soruşurdu. Məhkəməni yaddan çıxarma! Mənim də sənə sözüm var, bəzi şeylər öyrənmişəm. Ancaq əvvəlcə paltonu çıxar!

Leni ona paltosunu soyunmağa kömək etdi, şlyapasını aldı, onları asmaq üçün girəcəyə tərəf tələsdi, tezcə də geri qayıtdı, şorbaya baxdı:

– Əvvəlcə sənin gəldiyini xəbər verim, yoxsa şorbasını aparım?

– Əvvəlcə gəldiyimi de!

K. əsəbiləşmişdi. Gələndə fikrində tutmuşdu ki, Leni ilə öz işlərini, xüsusilə də həlalik sual altında olan imtina məsələsini yaxşı-yaxşı müzakirə etsin, ancaq tacirin burda olması onu həvəsdən saldı. Bununla belə, işini o dərəcədə vacib hesab edirdi ki, bu balaca kişinin burda olması ona təsir edə bilməzdi və artıq yolda olan Lenini geri çağırdı:

– Əvvəlcə şorbasını apar, mənimlə söhbət etmək üçün özünə bir az güc toplasın, bu ona lazım olacaq.

– Aha, siz də vəkilin müştərisisiniz, – tacir oturduğu küncdən yavaşca dilləndi, elə bil bununla nəsə nəyisə demək istədi. Ancaq bu ordakıların xoşuna gəlmədi.

– Bunun sizə nə dəxli var? – K. tez dilləndi və Leni də əlavə etdi:

– Sən sus! – Sonra K.-ya tərəf döndü: – Deməli, əvvəlcə şorbanı aparıram... – şorbanı boşqaba tıkdü. – Bircə qorxusu var ki, yatar, adətən yeməyini qurtaran kimi yuxuya gedir.

– Məndən eşitdikləri onu yatmağa qoymayacaq... – K. bununla bir daha nəzərə çarpdırmaq istəyirdi ki, vəkillə çox vacib bir məsələ haqqında danışmaq niyyətindədir və gözləyirdi ki, Leni nə barədə danıçacağını soruşsun, o da qızdan məsləhət istəsin. Ancaq Leni yalnız deyilənləri dəqiqliklə yerinə yetirirdi. Əlində boşqab K.-ın yanından keçəndə, qəsdlə ona toxundu və pıçıldadı:

– Şorbasını yeyib qurtan kimi gəldiyini deyəcəm ki, bacardıqca tez yanıma qayıdasan.

– Get, get!

– Bir az nəzakətli olsan yaxşıdır, – deyə qız əlində boşdaq qapıya çatanda, yenə geri döndü.

K. onun arxasınca baxdı. Artıq qəti qərara gəlmişdi: vəkildən imtina edəcək! Bəlkə də əvvəlcə Leni ilə bu barədə danışmaması daha yaxşı oldu. Onsuz da işə tam bələd deyildi, deyəcəkdi ki, lazım deyil və bəlkə onu doğrudan da bu dəfə fikrindən daşındıracaqdı, özü isə yenə də şübhə-tərəddüdlər içində üzüləcək, axırda nə vaxtsa bu qərarını həyata keçirəcəkdi, çünki burda başqa yol yox idi. Bu işi nə qədər tez eləsə, ziyanı o qədər az olar... Yeri gəlmişkən, bəlkə elə tacir də bu barədə nəsə deyə bilər...

K. ona tərəf çevrildi, tacir bunu hiss edən kimi ayağa qalxmaq istədi.

– Oturun, – deyə K. öz kreslosunu ona yaxın çəkdi. – Siz çoxdan bu vəkilin müştərisisiniz?

– Lap çoxdan müştərisiyəm...

– Neçə ildir sizi təmsil edir?

– Bilmirəm-nəyi nəzərdə tutursunuz?! Ticarət məsələlərində – mən taxıl işi ilə məşğul oluram – bu vəkil işə başladığım vaxtdan, yəni iyirmi ildir, məhkəmə işimdə də – yəqin siz buna işarə edirsiniz – lap əvvəlindən, yəni beş ildən çoxdur ki, məni təmsil edir. Bəli, beş ildən çoxdur... – deyə tacir cibindən köhnə bir pulqabı çıxartdı, – hamısını burda yazmışam, istəsəniz tarixləri də dəqiq deyə bilərəm. Hamısını yadda saxlamaq çətindir. Yəqin mənim məhkəməm hələ çox çəkəcək, arvadım öləndən azacıq sonra başlayıb, bu da beş il yarımdan çoxdur.

K. ona bir az da yaxınlaşdı:

– Bu vəkil adi mülki işlər də götürür? – Məhkəmələrin adi hüquq normalarına bağlı olması K.-nı əməlli-başlı sakitləşdirdi.

– Əlbəttə! – deyən vəkil səsini bir az alçaltdı. – Hətta deyirlər ki, belə işlərdə daha yaxşıdır. – Ancaq, deyəsən, dediyinə peşman oldu, əlini K.-nın çiyninə qoydu. – Xahiş edirəm, məni satmayın.

K. sakitləşdirmək üçün əlini onun dizinin üstünə qoydu:

– Mən satqın deyiləm!

– Çox kinli adamdır...

– Belə sadiq müştəriyə heç nə eləməz.

– Eləyər, eləyər. Əsəbiləşəndə, heç kəsə fərq qoymur... Özü də mən ona, əslində, sadiq deyiləm.

– Necə yəni sadiq deyilsiniz?

– Sizə bel bağlamaq olar? – tacir şübhə ilə soruşdu.

– Mənə elə gəlir ki, olar.

– Yaxşı, onda bəzi məsələləri sizə etibar edərəm, ancaq siz də bir sirrinizi mənə açmalısınız ki, ikimiz də vəkilin qarşısında möhkəm dayana bilək.

– Siz çox ehtiyatlı adamsınız. Ancaq sizə elə bir sirrimi açacam ki, tamamilə sakitləşəcəksiniz. Vəkilə sadiq olmadığınız özünü nədə göstərir?

– Mənim... – tacir elə tərəddüd etdi ki, sanki alçaqlığını etraf edirdi. – Ondan başqa da vəkillərim var...

– Burda nə pis iş var ki?! – K. bir az pərt oldu.

– Burda yoxdur... – etirafından sonra ağaır-ağır nəfəs alan tacir K.-nın sözlərindən sonra bir az ürəkləndi. – Buna icazə verilmir. Uzaqbaşı, uzaqbaşı bir ara vəkili tutmaq olar. Mən də elə bunu eləmişəm, ondan əlavə də beş ara vəkili tutmuşam.

– Be..e..ş! – bu rəqəm K.-nı heyrətə gətirdi. – Bundan əlavə beş vəkil?

Tacir başını tərpətdi:

– İndi də altıncısı ilə danışıqlar aparıram.

– Bu qədər vəkil nəyinizə lazımdır ki?

– Hamısı lazımdır.

– Nəyə lazım olduğunu mənə başa sala bilərsiniz?

– Məmnuniyyətlə. Hər şeydən əvvəl, məhkəməni uduzmaq istəmirəm... Bu, məlum məsələdir. Ona görə də xeyrimə nə varsa, hamısından istifadə etməyə çalışıram. Hətta nəyinsə xeyir gətirəcəyinə ümid lap az olanda da, onu əldən vermirəm. Buna görə də nəyim vardısa, hamısını məhkəməyə xərcləmişəm. Məsələn, bütün pullarımı dövriyyədən çıxarmışam, əvvəllər şirkətimin iş otaqları bir mərətəbəni tutmuşdu, ancaq indi lap arxa otaqların birində şəyirdlə oturub işləyirik. İşimin geriləməyi yalnız pulumun qurtarması ilə deyil, həm də iş qabiliyyətimin zəifləməsi ilə bağlıdır. Məhkəmə üçün nəsə eləmək istəyəndə, başqa işlərə vaxt qalmır.

– Deməli, siz özünüz də məhkəmədə işləyirsiniz? Bu mənim üçün çox maraqlıdır.

– Bu barədə çox danışmaq olmaz. Əvvəllər, buna cəhd göstərdim, ancaq sonra özüm istəmədim. Çox yorucudur və elə böyük uğur da qazanmaq olmur. Ən azı, məlum oldu ki, mənim üçün həm orda işləmək, həm də danışıqlar aparmaq mümkün deyil. Elə orda oturub gözləməyin özü adamı yorur. Dəftərxanalarda havanın necə ağır olduğunu da özünüz yaxşı bilirsiniz.

– Mənim orda olduğumu siz hardan bilirsiiniz?

– Siz ordan keçəndə, gözləmə otağındaydım.

– Təsadüfə bax! – K. elə həyəcanlandı ki, hətta tacirin əvvəlcə ona necə gülünc göründüyünü də unutdu. – Deməli, məni görmüsünüz! Mən ordan keçəndə, gözləmə otağındaymışsınız... Bəli, mən ordan bir dəfə keçmişəm...

– Elə gözlənilməz təsadüf deyil, demək olar ki, mən hər gün ordayam.

– Yəqin bundan sonra mən də oraya tez-tez gedəcəm və yəqin ki, əvvəlki təki hörmət-izzətlə qarşılanmayacam. Hamı ayağa durdu, elə bildilər hakiməm.

– Xeyr, onda biz məhkəmə xidmətçisini salamlayırdıq. Sizin müttəhim olduğunuzu bilirdik. Belə xəbərlər çox tez yayılır.

– Deməli, artıq bilirdiniz. Bəlkə də mənim özümü necə apardığımı yekəxanalıq hesab eləmisiniz. Bu barədə nəsə deyən oldu?

– Xeyr, əksini dedilər. Ancaq bunların hamısı səfehlikdir...

– Niyə səhehlik olur?

– Siz niyə soruşursunuz? – tacir əsəbiləşdi. – Deyəsən, ordakıları hələ yaxşı tanımırsınız və ona görə də bəzi şeyləri düz başa düşmürsünüz. Nəzərə alın ki, belə bir şəraitdə heç bir ağıla sığmayan şeylər danışılır, adam, sadəcə olaraq, yorulur, şox şeyi anlamır, əvəzində mövhumatçılığa başlayır. Mən indi başqalarından danışıram, ancaq özüm onlardan da betərəm. Bu möhumatçılığa bir misal: çoxları müttəhimin üz-gözündən, ən çox da dodaqlarından məhkəmənin nəticəsini öyrənmək istəyir. Onlar deyirlər ki, müttəhimin dodaqlarına baxıb onun mütləq, özü də tezliklə məhkum olunacağını duyurlar. Təkrar edirəm, bütün bunlar gülünc mövhumatçılıqdır, çox vaxt da faktlar hamısını tamamilə inkar edir, ancaq elə bir cəmiyyətdə yaşayan adam onlardan çətin can qurtara bilir. İndi bu mövhumatçılığın adamlara necə təsir etdiyini təsəvvürünüzə gətirin! Siz orda birini danışdırdınız, elə deyilmi? Ancaq cavab verə bilmədi. Əlbəttə, orda çaşmaq üçün səbəb çoxdur və onlardan biri də sizin dodaqlarınız olub. Sonralar deyirdi ki, guya sizin dodaqlarınızda öz məhkumluğunun nişanəsini görüb.

– Mənim dodaqlarımda? – K. cib güzgüsünü çıxarıb ona baxdı. – Mən öz dodaqlarımda elə xüsusi bir əlamət görmürəm. Siz görürsünüz?

– Mən də görmürəm. Heççə nə görünmür.

– Adam nə qədər mövhumatçı olarmış!

– Bəs mən demədim?! Onlar öz aralarında yəni bu qədər söhbət edir, fikir mübadiləsi aparırlar? Mən indiyəcən onlardan kənar gəzmişəm.

– Ümumiyyətlə götürəndə, bir-biri ilə görüşmürlər. Bu heç mümkün də deyil, çünki həddən artıq çoxdurlar. Ümumi maraqları da azdır. Bəzən hansısa bir dəstədə belə bir inam yaranır ki, maraqları eynidir, ancaq sonradan üzə çıxır ki, səhv edirlərmiş. Bir yerdə bu məhkəmədən heç nə qoparmaq olmaz. Ən dəqiq məhəkəmədir, bütün işləri ayrı-ayrılıqda yoxlayır. Bir yerdə heç nə əldə eləmək olmaz, yalnız bəzən kimsə ayrılıqda gizlincə nəsə edə bilir, qalanlar da nəsə əldə olub qurtarandan sonra ondan xəbər tuturlar. Heç kim də bunun necə alındığını bilmir. Deməli, orda birlik yoxdur, yalnız hərdən gözləmə otaqlarında rastlaşırlar ki, orda da çox şey müzakirə etmək olmur. Bu mövhumatçı fikirlər də lap çoxdan yaranıblar və öz-özünə çoxalırlar.

– Mən həmin cənabları orda – gözləmə otağında görmüşəm. Onda mənə elə gəldi ki, mənasız yerə gözləyirlər.

– Gözləmək mənasız olmur. Yalnız kiminsə özünün işə qarışması mənasız olur. Bayaq dedim ki, bundan əlavə beş vəkilim var. Fikirləşmək olardı ki, – ən əvvəl özüm belə fikirləşirdim – işi tamamilə onların öhdəsinə buraxmaq olar. Ancaq bu, böyük bir səhv olardı. Beş nəfər olsalar da, öhdələrinə buraxa bilmərəm. Yəqin niyəsini başa düşmədiniz?

– Xeyr, – deyə K. çox sürətlə danışan taciri bir az sakitləşdirmək üçün əlini mehribanlıqla onun əlinin üstünə qoydu, – xahiş edirəm bir az yavaş danışın, dedikləriniz mənim üçün son dərəcə vacibdir, hamısını tuta bilmirəm...

-Yaxşı ki, yadıma saldınız. Axı siz təzəsiniz, lap sütülsünüz. Məhkəməniz yarım ildir ki, gedir, elə deyilmi? Bəli, bu barədə eşitmişəm. Lap yeni başlayıb ki! Ancaq mən bu məsələləri o qədər götür-qoy etmişəm ki! İndi bu dünyada ən çox bildiyim şeylərdir...

– Yəqin ki məhkəmənizin bu qədər uzandığına sevinirsiniz?! – K. ondan işinin indi hansı vəziyyətdə olduğunu birbaşa soruşmadı və ona görə aldığı cavab da bürüncəkli oldu.

– Bəli, bu məhkəməni beş il uzada bilmişəm, – deyə tacir başını aşağı saldı, – balaca uğur deyil...

Kişi bir anlığa susdu. K. qapını dinşədi: görəsən Leni gəlir, yoxsa yox... Bir tərəfdən gəlməsini istəmirdi, çünki soruşmağa hələ çox şey vardı və həm də qızın onu tacirlə belə mərəhəm söhbət etdiyini görməsini istəmirdi, digər tərəfdən də K. burda olduğunu bilə-bilə vəkilin yanında belə çox qaldığına acığı tuturdu, axı şorba yedirtmək bu qədər çəkməzdi.

– Vaxtı dəqiq yadımdadır, – vəkil yenə sözə, K. da diqqətlə ona qulaq asmağa başladı, – onda mənim məhkəməm də elə sizinki kimi yarım il olardı ki, başlamışdı. O vaxt vəkilim təkcə bu idi, ondan da çox razı deyildim...

“Aha, indi hər şeyi öyrənəcəm”, – deyə K. ürəyindən keçirdi və razılıqla başını tərpətdi, sanki bununla taciri nəsə lzımlı bir şey deməyə həvəsləndirmək istədi.

– Məhkəmə irəli getmirdi, – tacir sözünə davam etdi, – düzdür, istintaqlar olurdu və mən də hamısına gedirdim, sənədlər toplayırdım, haqq-hesab kağızlarının hamısını təqdim etmişdim, ancaq sonralar öyrəndim ki, bunlar heç lazım deyilmiş, tez-tez vəkilin yanına qaçmağa başladım, o da bir neçə vəkalətnamə yazdı...

– Bir neçə vəkalətnamə?

– Əlbəttə!

– Bu mənim üçün çox vacibdir. Mənim işimlə bağlı birinci vəkalətin üstündə hələ də işləyir. Heç nə eləməyib. İndi görürəm ki, məni necə rüsvay edib.

– Vəkalətnamə bir neçə üzürlü səbəbdən hazır olmaya bilər. Yeri gəlmişkən, sonralar bilindi ki, mənimkilərin hamısı mənasız imiş. Hətta birini məhkəmə xidmətçisinin sayəsində özüm də oxudum. Düzdür, savadlı yazılmışdı, ancaq mənası yox idi. Hər şeydən əvvəl, çoxlu latın sözləri işlənmişdi, mən də onları başa düşmədim, sonra bir neçə səhifə məhkəmənin ünvanına yazılmış ümumi sözlər gəlirdi, sonra bir neçə məmur təriflənirdi, adları çəkilməsə də, bu ağıl sahiblərinin kimlər olduğu bilinirdi, sonra özünü tərifləyirdi, it kimi məhkəməyə şırvanırdı və axırda da mənim işimə bənzəyən keçmiş məhkəmə işlərindən söhbət açılırdı. Bu təhqiqatlar mən bildiyim qədər diqqətlə aparılmışdı. Əlbəttə, mən bu deyilənlərlə vəkilin işini heçə endirmək istəmirəm və mənim oxuduğum vəkalətnamə də çoxlu vəkalətnamələrdən biri idi, ancaq yalnız onu demək istəyirəm ki, o vaxt işimdə heç bir irəliləyiş hiss eləmədim.

– Siz hansı irəliləyişi görmək istəyirdiniz ki? – K. soruşdu.

– Çox ağıllı sualdır, – tacir gülümsədi, – bu məhkəmədə irəliləyişi nadir hallarda görmək olur. Ancaq onda bunu bilmirdim. Mən tacir adamam, onda da indikindən yaxşı tacir idim, gözəgörünən irəliləyiş istəyirdim, bütün bunlar sona çatmalı, ya da ən azı, əsil inkişaf olmalı idi. Bunun əvəzində, çox vaxt da eyni məzmunda dindirmələr olurdu. Hamısının cavabını da dua kimi əzbər bilirdim. Məhkəmə xidmətçiləri həftədə bir neçə dəfə işə, evə, ya da məni tapa biləcəkləri yerə gəlirdilər. Əlbəttə, bu mənə heç əl vermirdi (indi heç olmasa bu baxımdan vəziyyət xeyli yaxşılaşıb, telefonla çağırılmaq adama az mane olur), iş qurduğum dostlarım, xüsusilə də qohumlarım arasında məhkəmə barədə şayiələr yayılmağa başladı, hər tərəfdən ziyana düşdüm, ancaq bunula belə, yaxın günlərdə ilk məhkəmə dinləmələrinin başlanacağını göstərən heç bir əlamət görünmürdü. Belə olan halda vəkilin yanına gəlib şikayət etdim. Düzdür, uzun-uzadı izahat verdi, ancaq mənim istədiyim istiqamətdə hər hansı bir addımın atılmasını qətiyyətlə rədd etdi, dedi ki, heç kəs məhkəmənin gedişinə təsir edə bilməz və mənim vəkalətnamə ilə çıxış etmək tələbimi də ağılasığmaz hesab elədi ki, ikimizi də məhv edər. Elə onda fikirləşdim ki, bu vəkilin istəmədiyi, bacarmadığı bir işi başqası istəyər də, bacarar da... Beləliklə, başqa vəkillər axtarmağa başladım. Elə bəri başdan deyim ki, heç biri əsas dinləmənin başlanmasını tələb etmədi və buna da nail ola bilmədi. Yeri gəmişkən, bir məsələ nəzərə alınmazsa, – bu barədə sonra danışacam – doğrudan da, bu mümkün olan iş deyil, deməli, bu məsələdə vəkil məni aldatmayıb. Ancaq bununla belə, başqa vəkillərə müraciət etdiyimə görə də peşman deyiləm. Yəqin ki, ara vəkilləri barədə doktor Hulddan eşitmiş olarsınız və məlum məsələdir ki, onlardan nifrətlə danışıb. Onlar doğrudan da nifrətə layiqdirlər. Ancaq onların haqqında danışanda, öz həmkarlarını onlarla müqayisə edəndə, kiçicik bir səhvə yol verir və mən də, yeri gəlmişkən, sizin diqqətinizi həmin səhvə yönəltmək istəyirəm. O öz dairəsindəki hakimləri fərqləndirmək üçün onları həmişə "böyük hakimlər" adlandırır. Bu səhvdir, çünki kimin könlündən keçirsə, özünə "böyük" deyə bilər, ancaq bu yalnız məhkəmə qaydası ilə müəyyənləşdirilə bilər. Bu qaydalara görə ara vəkillərindən başqa balaca və böyük vəkillər var. Bu vəkil və onun həmkarları. əslində, balaca vəkillərdir, ancaq bizim haqqında eşidib üzünü

görmədiyimiz o böyük vəkillər bunlarla nifrətəlayiq ara vəkilləri arasındakı müqayisədən qat-qat yüksəkdə dayanırlar.

– Böyük vəkillər? Onlar kimlərdir? Onların yanına necə getmək olar?

– Deməli, siz onların haqqında hələ eşitməmisiniz. Elə müttəhim tapılmaz ki, onların haqqında eşidəndən sonra şirin xəyallara dalmamış olsun. Ancaq yaxşısı budur, belə şeylərə uymayın. Bu böyük vəkillərin kim olduğunu heç mən də bilmirəm və onların yanına getmək mümkün də deyil. Mən elə bir hala rast gəlməmişəm ki, onlar kimisə dəqiq müdafiə etmiş olsunlar. Əlbəttə, kimisə müdafiə edirlər, ancaq bu, həmin adamın istəyi ilə olmur, onlar yalnız öz istədiklərini müdafiə edirlər. Ancaq onların götürdükləri iş yəqin ki, aşağı instansiyaları adlamış olmalıdır. Yaxşısı budur, bu barədə heç fikirləməyəsən, yoxsa başqa vəkillərlə elədiyin söhbətlər, onların məsləhətləri, kömərkləri gözündən düşür, hamısına nifrət eləyirsən. Mən öz təcrübəmdə görmüşəm, adam istəyir hər şeyə tüpürsün, gedib evdə uzansın, heç nə görməsin, heç nə eşitməsin. Ancaq bunun özü də ən böyük səfehlikdir, çünki heç evdə də rahat uzana bilmirsən...

– Belə çıxır ki, siz o vaxtlar böyük vəkillər haqqında düşünməyibsiniz?

– Çox düşünməmişəm, – tacir yenə də gülümsədi, – ancaq təəssüf ki, onları tamam unutmaq olmur. Xüsusilə də gecələr yatanda... Ancaq mən onda tez uğur qazanmaq istəyirdim, ona görə də ara vəkillərinin yanına getdim.

– Nə yaxşı belə mehriban oturubsunuz! – Əlində fincan qapının ağzında dayanmış Leninin səsi gəldi. Doğrudan da bir-birinə çox yaxın oturmuşdular, başlarını azacıq geri döndərsəydilər, toqquşardılar. Onsuz da balaca olan tacir çiyinlərini bir az da qısmışdı və K. da onu yaxşı eşitmək üçün ikiqat əyilməyə məcbur olmuşdu.

– Bircə dəqiqə! – K. Leniyə işarə etdi ki, gəlməsin və hələ də tacirin əlinin üstündə olan əlini səbirsizliklə tərpətdi.

– İstəyir mən ona məhkəməmdən danışım, – tacir Leniyə baxdı.

– Yaxşı, danış, danış! – Leni tacirlə yumşaq danışsa da, ona yuxarıdan aşağı baxdığı hiss olunurdu. Bu, K.-nın xoşuna gəlmədi. İndi görmüşdü ki, tacir o qədər mənasız adam deyil, ən azı təcrübəli idi və öz təcrübəsindən də danışmağı bacarırdı. Leni onun haqqında düz fikirləşmirdi. Və indi də o, tacirin bütün vaxtı əlində bərk-bərk saxladığı şamı alanda, önlüyü ilə onun əlin silәndə, yanında diz cökərək şalvarına damcılamış piyi təmizləyəndə, acıqla qıza baxdı.

– Siz mənə ara vəkillərindən danışmaq istəyirdiniz, – deyə K. özünə heç nə demədən Leninin əlini geri itələdi.

– Sən məndən nə istəyirsən? – Leni əlini yavaşca K.-ya toxundurdu və işini davam etdi.

– Bəli, ara vəkillərindən... – tacir alnını ovuşdurdu, sanki fikrə getdi.

K. ona kömək etmək istədi:

– Siz tez uğur qazanmaq istəyirdiniz və ona görə də ara vəkillərinin yanına getdiniz...

– Tamamilə düzdür... – deyən tacir sözünə davam etmədi.

“Bəlkə də Leninin yanında bu barədə danışmaq istəmir” – deyə ürəyindən keçirən K. indi tacirə qulaq asmaq həvəsində olsa da, səbrini basa bildi, çox dərinə getmədi.

– Gəldiyimi ona dedin? – Lenidən soruşdu.

– Əlbəttə! İndi səni gözləyir. Blokla sonra da danışarsan, o hələ burdadır.

K. tərəddüd etdi:

– Hələ burdasınız? – Tacirin özündən cavab eşitmək istəyirdi. İstəmirdi ki, Leni onun haqqında burda olmayan adam kimi danışsın, onsuz da bu bu gün, üzə vurmasa da, qıza çox acığı tutmuşdu. Ancaq yenə də cavab verən Leni oldu:

– O tez-tez burda yatır.

– Burda yatır? – K. elə bilmişdi ki, tacir yalnız oturub onu gözləyəcək, özü də vəkillə söhbəti tez qurtaracaq, sonra ikisi də bir yerdə çıxacaq, bütün məsələləri arxayınca hərtərəfli müzakirə edəcəklər.

– Elədir, – Leni dilləndi, – hamı sənin kimi deyil, Yozef, istədiyin vaxt vəkilin yanına gəlirsən. Deyəsən, heç buna da təəccüblənmirsən ki, nə yaxşı vəkil xəstə ola-ola gecə saat on birdə səni qəbul edir. Dostlarının sənin üçün gördükləri işi onların borcu hesab eləyirsən. Ancaq dostların, ən azı mən, bu işləri məmnuniyyətlə görürük. Mənə təşəkkür lazım deyil, heç nə də istəmirəm, bircə onu istəyirəm ki, məni sevəsən.

“Səni sevmək?” – K. o dəqiqə ürəyindən keçirdi, ancaq sonra da özlüyündə bununla razılaşdı: “Elədir, mən onu sevirəm...”. Buna baxmayaraq, heç nəyə fikir vermədən dedi:

– Məni ona görə qəbul edir ki, müştərisiyəm. Bunun üçün mənə başqasının köməyi lazımdırsa, deməli, addımbaşı həm dilənçilik, həm də təşəkkür etməliyəm.

– Görürsən, o bu gün necə pis adamdır, düz demirəm? – Leni tacirə baxdı.

“ İndi burda olmayan mənəm!” – K. ürəyindən keçirdi və hətta tacirə acığı tutdu ki, o da Leni kimi nəzakətsizliyə başladı:

– Vəkil onu başqa səbəblərə görə qəbul edir. Yəqin onun işi mənimkindən maraqlıdır. Bundan əlavə də, bu iş hələ başlanğıc mərhələsindədir və ona görə də çox qarışıq deyil, vəkil də məmnuniyyətlə onunla məşğul olur. Sonralar başqa cür olacaq.

– Bəli, bəli, – Leni gülə-gülə tacirə baxdı, – gör nə yaxşı çərənləyir! – Sonra K.-ya tərəf döndü: – Sən ona inanma... Nə qədər mehriban adam olsa da, bir o qədər də çərənçidir. Bəlkə də elə buna görə vəkilin ondan xoşu gəlmir. Yalnız kefi yuxarı olanda, qəbul edir. Çox çalışmışam ki, bunu dəyişim, ancaq mümkün olmayıb. Təsəvvür elə ki, Blokun gəldiyini deyirəm, ancaq iki gündən sonra onu qəbul edir. Yanına çağıran anda Blok yerində olmasa, hamısı heçə dönür, təzədən qəbula gəlməlidir. Ona görə də Bloka burda yatmağa icazə vermişəm, çünki elə olub ki, onu gecə yanına çağırıb. Deməli, Blok indi gecələr də hazır vəziyyətdə olur. Bu gün də həmişəki kimi olacaq: Blokun burda olduğunu hiss etsə, çağırmayacaq.

K. sualedici nəzərlərlə tacirə baxdı. O da başını tərpətdi, bayaqkı kimi açıq danışmağa başladı, sanki untandığından özünü itirmişdi:

– Bəli, bir az keçəndən sonra adam öz vəkilindən çox asılı olur.

– Üzdə belə şikayətlənir, – Leni sözə qarışdı, – mənə neçə dəfə deyib ki, burda məmnuniyyətlə yatır. – o, balaca qapıya tərəf gedib, onu açdı. – Onun yataq otağına baxmaq istəmirsən?

K. ora yaxınlaşıb astanadan pəncərəsiz alçaq otağa baxdı: ensiz bir çarpayı içərini tamam tutmuşdu. Yatağa girmək üçün çarpayının başından aşmaq lazım idi. Çarpayının baş tərəfindəki divarda bir oyuq vardı və oraya da pinti şəkildə şam, mürəkkəbqabı, qələm düzülmüşdü. Orda bir bağlama kağız da vardı – yəqin ki məhkəmə sənədləri idi.

– Siz qulluqçu qızın otağında yatırsınız? – deyə K. tacirə tərəf döndü.

– Oranı mənim üçün Leni düzəldib, şox rahatdır.

K. taciri uzun-uzadı süzdü. Deyəsən, taciri ilk dəfə görəndə yaranmış təəssürat özünü doğruldurdu. Düzdür, təcrübəsi vardı, çünki məhkəməsi çoxdan davam edirdi, ancaq bu təcrübə ona çox baha başa gəlmişdi. Qəflətən K. tacirin bu görünüşünə dözə bilmədi, Leniyə tərəf qışqırdı:

– Onu yatırt!

Qız, deyəsən, heç nə başa düşmədi. K. isə indi vəkilin yanına getmək, ondan imtina etməklə təkcə vəkildən deyil, həm də Lenidən, tacirdən canını qurtarmaq istəyirdi. Ancaq o, qapıya çatar-çatmaz tacir pıçıldadı:

– Cənab prokurist... – K. qəzəblə geri döndü. – Verdiyiniz sözü unutdunuz, – tacir oturduğu yerdən dilək dolu nəzərlərlə K.-ya tərəf meyilləndi, – bir sirrinizi mənə açmalı idiniz...

– Düzdür! – K. diqqətlə ona baxan Leniyə ötəri bir nəzər saldı: – Elə isə qulaq asın! Əslində, bu, demək olar ki, artıq sirr deyil. İndi vəkilin yanına gedirəm ki, ondan imtina edim.

– Ondan imtina edir! – deyə tacir oturduğu yerdən sıçrayıb qalxdı, əllərini göyə qaldıraraq mətbəxdə dövrə vurmağa başladı. Elə hey də qışqırırdı: “Vəkildən imtina edir!” Leni o dəqiqə K.-ya tərəf cumdu, ancaq tacir onun yolunu kəsdi, qız yumruğu ilə onun sinəsindən vurub geri itələdi və elə yumruqları düyünlənmiş halda da K.-nın arxasınca qaçdı. K. isə cəld tərpənmişdi və Leni ona çatanda, artıq vəkilin otağında idi. Qapını arxasınca tam bağlaya bilmədi, Leni ayağını onun arasına qoydu, K.-nın qolundan tutub geri çəkmək istədi. Ancaq K. dəstəkdən elə bərk çəkdi ki, Leni ufuldayıb əlini geri çəkdi və onun arxasınca içəri girməyə cəsarət etmədi, K. isə qapını içəridən açarla bağladı.

– Sizi çoxdan gözləyirəm, – deyə vəkil çarpayıda uzanaraq şam işığında oxuduğu kağızı tumbanın üstünə qoydu, eynəyini taxaraq K.-nı kəskin nəzərlərlə süzdü. K. üzr istəmək əvəzinə dedi:

– İndi gedirəm...

Vəkil üzrxahlıq olmadığına görə K.-nın dediklərinə fikir vermədi:

– Gələn dəfə də belə gec gəlsəniz, qəbul etməyəcəm.

– Elə bu niyyətlə gəlmişəm...

Vəkil sualedici nəzərlərlə ona baxdı:

– Oturun, – dedi.

– Siz istədiyinizə görə otururam, – deyən K. kreslolardan birini tumbaya yaxın çəkib oturdu.

– Mənə elə gəldi ki, qapını açarla bağladınız.

– Bəli, Leniyə görə bağladım. – İndi heç kəsə yazığı gəlmirdi.

– Yenə də sizə girişmişdi?

– Girişmişdi?

– Bəli, – vəkil güldü, öskürək onu boğdu, hər şey keçib gedəndən sonra yenə güldü. – Yəqin özünüz də hiss eləmiş olarsınız ki, adama yaman girişir. – vəkil bu sözləri deyib əlini K.-nın tumbaya söykədiyi əlinə toxundurdu, K. tez əlini geri çəkdi. – Yaxşı ki ona çox fikir vermirsiniz, – K.-nın susduğunu görən vəkil sözünə davam etdi, – yoxsa mən özüm bəlkə də sizdən üzr istəməli olacaqdım. Yeri gəlmişkən, bu qəribəliyini ona çoxdan bağışlamışam və əgər qapını içəridən bağlamasaydınız, bu haqda danışmazdım. Əslində, bu qəribəlik haqqında heç bu qədər danışmalı deyildim, ancaq mənə elə pərt halda baxırsınız ki, danışmalıyam: bu qəribəlik ondan ibarətdir ki, müttəhimlərin çoxu Leninin xoşuna gəlir. Hamısına vurulur, hamısını sevir və yeri gəmişkən, deyəsən, hamı tərəfindən də sevilir. Sonra da məni əyləndirmək üçün – əlbəttə, icazə verəndə – onlardan danışır. Mən bunların heç birinə sizin kimi təəccüblənmirəm. Doğrudan da, bir az diqqətlə baxanda, onlar çox vaxt gözəl görünür. Yeri gəlmişkən, çox qəribə, müəyyən mənada da təbii bir olaydır. Əlbəttə, ittiham olunmaqla adamın zahiri görkəmində elə bir aydın, nəzərəçarpacaq dəyişiklik yaranmır. Burda başqa məhkəmə işlərindən fərqli olaraq, müttəhimlərin çoxu öz adi həyat tərzini davam etdirir, əgər yaxşı vəkilləri varsa, bütün işləri boyunlarına götürürlərsə, onda məhkəmə onların işlərinə mane olmur. Ancaq bununla belə, təcrübəli adamlar böyük bir dəstənin içindən müttəhimləri bircə-bircə seçə bilir. Soruşacaqsınız ki, nədən bilirlər? Cavabım sizi təmin etməyəcək. Müttəhimlər onların arasında ən gözəlləri olurlar. Onları gözəlləşdirən günahları ola bilməz, çünki – mən indi, ən azı, vəkil kimi danışmalıyam – hamısı cünahkar deyil və onları gözəlləşdirən aldıqları layiqli cəza da deyil, çünki hamısı cəzalandırılmır, deməli, belə çıxır ki, bunun sirri onların barəsində qaldırılan işdədir. Yeri gəlmişkən, bu gözəllərin arasında daha çox gözəl olanlar da var. Ancaq hamısı gözəldir, hətta Blokun özü də... O iyrənc soxulcan da...

Vəkil danışıb qurtaranda, K. artıq hər şeyə hazır idi, hətta onun son sözlərini başını tərpətməklə təsdiqlədi, sanki bununla özünün o vaxtdan gəldiyi bir fikri təsdiqləyirdi ki, vəkil həmişə olduğu kimi yenə də işə heç bir dəxli olmayan ümumi şeylərdən danışaraq onu azdırır, K.-nın məhkəməsilə bağlı konkret hansı işlərin görüldüyünü deməkdən yayınır. Yəqin vəkil də hiss eləmişdi ki, K. bu dəfə həmişəkindən çox narazıdır və buna görə susdu, özü dilə gəlmək üçün K.-ya şərait yaratdı, onun dinmədiyini görüb soruşdu:

– Bu gün gəlməkdə nəsə bir niyyətiniz var?

– Var, deyə K. vəkili daha yaxşı görmək üçün əlini şamın qarşısına tutdu, – gəldim deyəm ki, sizin vəkilliyinizdən imtina edirəm.

– Sizi düz başa düşdüm? – Vəkil yatağında bir az dikələrək bir əlini yastığa dayadı.

– Mənə elə gəlir, düz başa düşdünüz... – K. kresloda elə dimdik oturmuşdu ki, sanki marıta yatmışdı.

– Olsun... Biz bu planı da müzakirə edə bilərik.

– Bu, artıq plan deyil!

– Ola bilər... Ancaq biz gərək tələsməyək.

“Biz” sözünü işlətməklə sanki ondan əl çəkmək niyyətində olmadığını, əgər vəkili olmayacaqsa, ən azı, məsləhətçisi kimi qalmaq niyyətində olduğunu demək istədi.

– Burda tələsiklik yoxdur, – K. yavaş-yavaş yerindən durub kreslonun arxasına keçdi, – yaxşı-yaxşı götür-qoy edilib... Bəlkə də həddən artıq götür-qoy olunub... Qərar qətidir!

– Elə isə icazə verin sizə bir neçə söz deyim... – Vəkil tük yorğanı kənara çəkərək çarpayının kənarında oturdu. Çılpaq, ağ tük basmış qıçları soyuqdan titrəyirdi. K.-dan xahiş etdi ki, divanın üstündəki örtüyü ona versin. K. örtüyü gətirib ona uzatdı və dedi:

– Siz boş yerə özünüzü soyuğa verirsiniz.

– Boş yerə deyil! – deyə vəkil yorğana büründü, örtüyü də ayağının üstünə saldı. – Əminiz dostumdur, özünüz də bu vaxt ərzində mənim üçün doğma oldunuz. Mən bunu açıq etiraf edirəm. Özü də utanmıram...

Qocanın bu riqqətli sözləri K.-nın xoşuna gəlmədi, indi gərək ona geniş izahat verəydi, halbuki bunu heç istəmirdi və bundan əlavə də, çaş-baş qalırdı, ancaq onu da dəqiq bilirdi ki, bu sözlər onu qərarından döndərə bilməz.

– Bu xoş sözlərə görə təşəkkür edirəm, – dedi, – özüm də bilirəm ki, imkanınız daxilində, mənim üçün çox çalışdınız, mənim üçün xeyirli hesab elədiyiniz bütün işləri gördünüz . Ancaq mən son anda belə qərara gəldim ki, bunlar kifayət etmir. Əlbəttə, mən heç vaxt sizin kimi yaşlı, təcrübəli bir adamı bu qərarın doğruluğuna inandırmağa çalışmayacam. Əgər nə vaxtsa buna qeyri-ixtiyari çalışmısamsa, məni bağışlayın, ancaq məsələ, özünüzün də dediyi kimi, kifayət qədər ciddidir və mənim fikrimcə, məhkəməyə indiyə qədər olduğundan çox müdaxilə etmək lazımdır.

– Sizi başa düşürəm... Ancaq səbirsizsiniz...

– Səbirsiz deyiləm! – K. bir qədər əsəbiləşdi, bundan sonra dediyi sözlərə çox da fikir vermədi. – Axı, əmimlə birinci dəfə buraya gələndə dediniz ki, mən bu məhkəməyə ciddi yanaşmıram, necə deyərlər, kimsə zorla yadıma salmasa, onu tamamilə unuduram. Onda əmim dedi ki, siz mütləq mənim vəkilim olmalısınız, mən də onun xətrini xoş eləmək üçün buna razılıq verdim. Gözləmək olardı ki, işim əvvəlkinə nisbətən yüngülləşəcək, axı vəkili ona görə tutursan ki, məhkəmənin

yükündən bir az azad olasan. Ancaq bunun əksi alındı! Əvvəllər belə deyildi, yalnız siz mənə vəkillik eləməyə başlayandan sonra məhkəmə sarıdan narahatçılığım artdı. Tək olanda, məhkəməm üçün heç bir iş görməsəm də, elə bir narahatçılıq keçirmirdim, ancaq indi əksinə, vəkilim oldu və hər şey də buna hesablanmışdı ki, nəsə bir irəliləyiş olacaq, bütün vaxtı gərginlik içində sizin işə qarışacağınızı gözlədim, ancaq qarışmadınız. Düzdür, məhkəmə barədə sizdən elə məlumatlar aldım ki, bunları başqasından ala bilməzdim, ancaq məhkəmənin məni gizli-gizli, yavaş-yavaş öz caynağına keçirdiyi bir anda bunlar kifayət etmir.

K. kreslonu bir az özündən aralayaraq əli pencəyinin cibində vəkilin qabağında dimdik dayanmışdı. Vəkil isə sakitcə, astadan dedi:

– Təcrübə göstərir ki, məhkəmənin müəyyən mərhələsində eyni şeylər baş verir. Çoxlu müştərim məhkəmənin təxminən eyni mərhələsində sizin kimi qarşımda dayanıb eyni sözləri deyiblər.

– Deməli, o müştərilər də mənim kimi haqlı imişlər. Sizin bu sözləriniz məni yolumdan döndərə bilməz!

– Mən bu sözlərlə sizi yolunuzdan döndərmək istəmirdim, yalnız onu demək istəyirdim ki, o birilərə nisbətən sizdən daha yaxşı mühakimə qabiliyyəti gözləyirdim, çünki məhkəmə sistemi, mənim ordakı fəaliyyətim barədə o biri müştərilərə demədiklərimi sizə demişdim. İndi görürəm ki, bütün bunlara baxmayaraq, mənə etibar eləmirsiniz. Bununla da işimi çətinə salırsınız...

Gör vəkil onun qarşısında özünü necə alçaldırdı! Axı öz peşəsinin şərəfini məhz indi qorumalı idi! Görəsən niyə belə eləyirdi? Hiss olunurdu ki, işi çoxdur, üstəlik də varlıdır, işin birini itirməsi, müştərilərindən birinin əldən çıxması ona bu qədər təsir etməməli idi. Bundan əlavə də, xəstəhal idi, gərək özü bu işdən imtina edəydi. Ancaq yenə də K.-dan əl çəkmək istəmirdi! Axı niyə? Bəlkə əmisinə görə? Yoxsa K.-nın məhkəməsində nəsə bir qeyri-adilik görür, burda uğur qazanacağına ümid edərək özünü K.-ya, ya da elə – bu da istisna deyildi – məhkəmədəki dostlarına göstərmək istəyirdi? K. onu sınayıcı nəzərlərlə nə qədər süzsə də, üz-gözündən heç nə oxuya bilmədi. Adama elə gəlirdi ki, vəkil qəsdlə üzünün ifadəsini gizlədir ki, sözlərinin təsirini öyrənsin. Və K.-nın susmasını əlverişli fürsət hesab edərək yenidən sözə başladı:

– Yəqin görmüş olarsınız, mənim böyük bir dəftərxanam var, ancaq orda heç kəsi işlətmirəm. Əvvəllər başqa cür idi, onda mənə bir neçə hüquqşünas kömək edirdi, indi isə tək işləyirəm. Bu, bir tərəfdən iş təcrübəmin dəyişməsilə bağlıdır, belə ki, son vaxtlar yalnız sizin iş kimi işləri götürürəm, digər tərəfdən də bu cür işlərə daha yaxşı bələd olmuşam, öyrənmişəm. Fikirləşdim ki, əgər müştərilərim, eləcə də boynuma götürdüyüm vəzifə qarşısında pis vəziyyətə düşmək istəmirəmsə, onda bu işi başqasına etibar etmək olmaz. Bütün işləri öz boynuma götürməyim də axırda öz təbii nəticəsini verdi: demək olar ki, işlərin çoxundan imtina etdim, yalnız ürəyimcə olanları saxladım. Qalanları da... Böyür-başda nə qədər desən alçaq var, mən tulladığım qırıntıları göydəcə qapırlar. Üstəlik də gərginlikdən xəstələndim. Bütün bunlara baxmayaraq, qərarımdan peşman deyiləm, ola bilsin, gördüyüm işlərin çoxundan imtina etməli idim, ancaq məlum oldu ki, özümü bütünlüklə boynuma götürdüyüm işə həsr etməyim vacib imiş və qazandığım uğur da bunun mükafatı oldu. Nə vaxtsa yazıların birində adi işlərə vəkillik etməklə belə işlərə vəkillik etməyin fərqi barədə gözəl bir fikir oxumuşam. Orda yazılmışdı: birinci halda vəkil öz müştərisini tükdən də nazik bir iplə məhkəmənin hökmünə qədər aparır, ikinci halda isə çiyninə alıb düşürtmədən hökm oxunana qədər, hələ ondan o yana da aparır. Doğrudan da

elədir... Ancaq bayaq söyləyəndə ki, gördüyüm böyük işlərin heç vaxt peşmançılığını çəkməmişəm, düz demirdim. Məsələn, sizin kimi başqaları da onun qədrini bilməyəndə, demək olar ki, peşmançılıq çəkirəm...

Vəkilin bu cür danışmağı K.-nı inandırmaq əvəzinə daha da hövsələdən çıxardı. Dediyi sözlərin ahəngindən hiss elədi ki, təslim olsa, onu nə gözləyə bilər: yenə o təsəllilər, vəkalətnamə üzərində işin uğurla davam etdirilməsi, məhkəmə məmurlarının ona münasibətinin yaxşılaşması və əlbəttə, qarşıya şıxan böyük çətinliklər... Sözün qısası, K.-nı yenə də yalançı ümidlərlə çaşdırmaq, qeyri-müəyyən hədə-qorxularla incitmək üçün o məlum iyrənc nağıllar... Bütün bunlara qəti şəkildə son qoymaq lazım idi və ona görə də dedi:

-Vəkillikdə qalsanız, mənim işimlə bağlı nələri edəcəksiniz?

Vəkil hətta bu sualdakı təhqiramiz ahəngə də dözərək cavab verdi:

– İndiyəcən elədiklərimi davam etdirəcəm.

– Belə də bilirdim... Əlavə sözə ehtiyac yoxdur.

– Mən yenə də sizi başa salmağa çalışacam... – Vəkil elə danışırdı ki, sanki K.-nı həyəcanlandıran bütün bu işlər müştərisinin deyil, onun öz başına gəlib. – Mənə elə gəlir ki, hüquqi cəhətdən göstərdiyim köməkləri düzgün qiymətləndirə bilmədiyiniz, özünüzü belə aparmağınız, müttəhim olmağınıza baxmayaraq, sizinlə yaxşı rəftar edilməsinin, daha doğrusu, işinizə süni şəkildə başdansovdu yanaşılmasının nəticəsidir. Başdansovdu yanaşmanın da öz səbəbi var: çox vaxt qandalda olmaq azadlıqda olmaqdan qat-qat yaxşıdır. Ancaq mən indi sizə başqa müttəhimlərlə necə rəftar olunduğunu göstərərəm, özünüz nəticə çıxararsınız. Daha doğrusu, indi Bloku bura çağıracam, qapını açın, özünüz də tumbanın yanında oturun!

– Məmnuniyyətlə, – deyə K. vəkilin istədiklərini elədi. Öyrənməyə həmişə hazır idi! Ancaq özünü hər təsadüfə qarşı sığortalamaq üçün, yenə də soruşdu:

– Vəkilliyinizdən imtina etdiyimi nəzərə almısınız?

– Bəli, ancaq siz elə bu gün qərarınızı dəyişə bilərsiniz, – deyə vəkil təzədən yerinə girdi, yorğanı çənəsinə qədər çəkdi, üzünü divara çevirdi. Sonra zəngi çaldı.

Zəngin səslənməsi ilə Leninin qapıda görünməsi bir oldu, baxışları ilə burda nə baş verdiyini öyrənmək istədi. K.-nın sakitcə vəkilin çarpayısının yanında oturması onu sakitləşdirdi. Qız K.-nın diqqətlə ona baxdığını görüb təbəssümlə başını tərpətdi.

Vəkilin səsi eşidildi:

– Bloku bura gətir!

Leni gedib onu gətirmək əvəzinə qapıya yaxınlaşaraq qışqırdı:

– Blok, vəkilin yanına! – Və sonra da vəkil hələ də üzü divara olduğu üçün ona fikir vermədiyini görüb, səssiz addımlarla K.-nın oturduğu kreslonun arxasına keçdi. Bundan sonra ona rahatlıq vermədi, gah başını kreslonun söykənəcəyindən irəli uzatdı, gah da əlləri ilə ehtiyatla, nəvazişlə

onun saçlarını, yanaqlarını sığalladı. K. axırda ona mane olmaq üçün bir əlindən yapışdı, qız onu onu çıxarmağa çalışdı, ancaq alınmadığını görüb sakitləşdi.

Blok qızın səsini eşidən kimi qapıya gəldi, ancaq çatan kimi dayandı, deyəsən fikirləşdi ki, içəri girsin, ya girməsin. Qaşlarını dartaraq başını aşağı əydi, sanki "Vəkilin yanına" – əmrinin bir də təkrar olunmasını gözlədi. K. istəsə, onu içəri keçməyə ürəkləndirərdi, ancaq qərara almışdı ki, bu evdə yalnız vəkillə deyil, hamı ilə biryolluq qurtarsın və buna görə də yerindən qımıldanmadı. Leni də susurdu. Blok hiss etdi ki, ən azı, onu burdan qovan olmayacaq və ayaqlarının ucunda içəri girdi. Üz-gözündən gərginlik yağırdı, əllərini arxasında çarpazlamışdı. Qapını da açıq qoydu ki, birdən geri qayıdası olar. O, K.-ya tərəf baxmırdı, gözlərini yorğana zilləmişdi, onun altında uzanıb divara qısılmış vəkil isə görünmürdü. Birdən onun səsi eşidildi:

– Blok gəldi?

Bu sual çarpayıdan xeyli aralıda dayanmış Blokun sinəsinə, sonra da kürəklərinə sanki bir yumruq kimi dəydi, o səndələdi, ikiqat olaraq dedi:

– Mənə görə qulluğunuz?!

– Nə istəyirsən? Gəlişin yerinə düşmür.

– Məni çağırtdırmayıbsınız? – Blok bu sualı sanki vəkilə deyil, özünə verdi və əllərini qaldıraraq getməyə hazırlaşdı.

– Çağırtdırmışam! – Vəkilin səsi eşidildi. – Buna baxmayaraq, gəlişin yerinə düşmür. – bir az fasilə verib əlavə etdi: – Sənin gəlişin heç vaxt yerinə düşmür.

Vəkil danışmağa başlayan andan Blok çarpayıya tərəf baxmırdı, gözlərini evin küncündə bir nöqtəyə zilləmişdi, sanki vəkilin sözlərindən gözləri qamaşırdı, buna dözə bilmirdi. Vəkil üzü divara tərəf, özü də alçaqdan, tez-tez danışdığı üçün nə dediyini başa düşmək olmurdu.

– Getməyimi istəyirsininz? – Blok soruşdu.

– Artıq gəlibsən, – dedi vəkil, – qal!

Görən deyərdi ki, vəkil onun qalmaq arzusunu yerinə yetirmək əvəzinə Bloku döyməklə hədələdi və o, doğrudan da titrəməyə başladı.

– Dünən üçüncü hakimin – dostumun yanındaydım, – vəkil sözə başladı, – söhbəti yavaş-yavaş sənin üstünə gətirdim. Onun nə dediyini bilmək istəyirsən?

– Əlbəttə! Xahiş edirəm...

Vəkil bir az gec cavab verdiyi üçün Blok xahişini bir neçə dəfə təkrar etdi və o qədər əyildi ki, sanki diz çökmək istədi. Həmin anda K. onun üstünə qışqırdı:

– Neyləyirsən?

Leni əli ilə onun ağzını tutmağa çalışdı ki, qışqıra bilməsin, ancaq K. qızın bu əlindən də yapışıb sıxdı. Ancaq bu sıxmaq istəkdən deyildi və ona görə də qız tez-tez ah çəkərək əllərini çıxarmağa çalışdı. K.-nın qışqırdığına görə Blok cəzalandırıldı. Vəkil ondan soruşdu:

– Sənin vəkilin kimdir?

– Siz!

– Məndən başqa kimdir?

– Sizdən başqa heç kəs!

– Onda heş kəsə qulaq asma!

Vəkilin dedikləri ilə razılaşan Blok acıqla K.-ya baxdı, əsəbi halda başını yellətdi. Onun bu hərəkətlərini sözlərə çevirsəydin, kobud söyüşlər alınardı. K. da belə bir adamla dostcasına öz işi barədə danışmaq istəyirdi...

– Daha sənə heç nə deyən deyiləm, – K. kresloya söykəndi, – istəyirsən diz çök, istəyirsən də iməklə, öz işindir. Daha heç nəyi vecimə alan deyiləm.

Ancaq Blokun da öz mənliyi vardı, ən azı K.-dan çəkinəcəyi yox idi və ona görə də əl-qolunu ölçə-ölçə ona tərəf yeridi, vəkilin yanında olduğu üçün çox da ucadan qışqıra bilmədi:

– Mənimlə belə danışa bilməzsiniz, buna haqqınız yoxdur! Niyə məni təhqir edirsiniz? Üstəlik də cənab vəkilin – ikimizə də, sənə də, mənə də mərhəmət göstərən bir adamın yanında? Məndən üstün adam deyilsiniz, çünki siz də nədəsə ittiham olunursunuz, məhkəməniz gedir. Bundan əlavə, əgər özünüzü cənab hesab edirsinizsə, elə mən də cənabam, bəlkə də sizdən yaxşı cənabam. İstəyirəm, siz də mənə cənab kimi müraciət edəsiniz. Sizin burda sakitcə oturub qulaq asmağınızı, mənimsə, bayaq dediyiniz kimi, iməkləməyimi öz üstünlüyünüz hesab edirsinizsə, onda yadıma köhnə bir məhkəmə məsəli düşür: müttəhim üçün hərəkət etmək sakit dayanmaqdan sərfəlidir, çünki kim sakit dayanırsa, özü də bilmədən tərəzinin gözündə oturmuş olur və onun bütün günahları ölçülür.

K. dinmədi, sakitcə nə danışdığını bilməyən bu adama baxıb heyrətə gəldi. Bu son saatda o nə qədər dəyişmişdi! Yoxsa onu bir yerdə qərar tutmağa, dostunu, düşmənini tanımağa qoymayan da məhkəmə idi? Məgər görmürdü ki, vəkil onu qəsdlə alçaldır və indi də yeganə məqsədi K.-ya öz gücünü göstərmək, bəlkə bu yolla onu da özünə tabe etdirmək istəməsidir? Əgər Blok bunu görməyi bacarmırdısa və ya vəkildən belə qorxurdusa, onda necə olurdu ki, hiyləgərlik edirdi, vəkili aldatmağa cəsarəti çatırdı, başqa vəkilləri ola-ola, bunu vəkildən gizlədirdi? Bəs buna necə cəsarəti çatırdı ki, K.-nın bu sirri elə indicə aça biləcəyindən qorxmayıb ona hücum çəkirdi? Hələ bütün bunlar az imiş kimi, vəkilin çarpayısına yaxınlaşıb orda da K.-dan şikayətə başladı:

– Cənab vəkil, bu kişinin mənimlə necə danışdığını eşitdiniz? Onun məhkəməsinin saatlarını da saymaq olar, ancaq indi durub mənə – məhkəməsi beş ildir davam edən bir adama yaxşıca dərs verir. Hətta məni söyür də! Özünün heç nədən başı çıxmır, ancaq məni söyür! Mən isə bu zəif gücümün çatdığı qədər ədəb-ərkanın, vəzifə borcunun, məhkəmə qaydalarının adamdan tələb etdiyi hər şeyi dəqiq öyrənmişəm.

– Heç kəsə fikir vermə, – vəkil dilləndi, – nəyi düzgün hesab edirsənsə, onu da elə!

– Əlbəttə! – Blok sanki bunula özünə ürək-dirək verdi və K.-ya qıyqacı bir bir nəzər salıb çarpayının önündə diz çökdü.

– Hüzurunuzda diz çökürəm, mənim vəkilim! -dedi.

Vəkil isə susurdu. Blok bir əli ilə yorğanı ehtiyatla sığalladı. Araya sükut çökdü və bu zaman K.-nın əlindən qurtarmış Leninin səsi eşidildi:

– Ağrıdır... Burax... Blokun yanına gedirəm.

Qız ona tərəf gedib çarpayının kənarında oturdu. Blok Leninin gəlişinə çox sevindi və coşqunluqla, ancaq lal bir işarə ilə xahiş etdi ki, vəkilin yanında onun tərəfini saxlasın. Görünür, vəkilin deyəcəyi xəbərlər onun üçün çox vacib idi, bəlkə də onları o biri vəkillərinə tez çatdırmaq istəyirdi. Yəqin ki Leni vəkilə necə yaxınlaşmağın çəmini yaşı bilirdi və onun əlini göstərərək dodaqlarını yumruladı, sanki öpməyə hazırlaşırdı. Blok o dəqiqə vəkilin əlindən öpdü və Leninin təhriki ilə bunu iki dəfə də təkrarladı. Ancaq vəkil hələ də susurdu. Onda Leni özü çarpayının üstündən vəkilə tərəf əyildi və həmin anda şux qamətinin bütün gözəlliyi göründü. Başını vəkilin sifətinə lap yaxınlaşdıraraq onun dümağ uzun saçlarını sığalladı. O nəsə deməyə məcbur oldu:

– Bunu deməyə tərəddüd edirəm, – deyə vəkil başını bir az tərpətdi, sanki bununla qızın əlinin təmasını daha yaxşı hiss etmək istədi. Blok başını aşağı salıb onlara elə qulaq asırdı ki, deyərdin bu da ona yasaq olunub.

– Niyə tərəddüd edirsən ki? – Leni soruşdu.

K.-ya elə gəldi ki, əvvəlcədən hazırlanmış bir söhbətə qulaq asır. Bu söhbət həmişə təkrar olunmuşdu, bundan sonra da olunacaqdı və Blok üçün də həmişə təzə qalacaqdı.

– Bu gün özünü necə aparıb? – Vəkil cavab vermək əvəzinə soruşdu.

– Leni onun sualına cavab verməmişdən əvvəl yuxarıdan aşağı Bloka, onun yalvarış əlaməti kimi əllərini necə yuxarı qaldıraraq bir-birinə çarpazladığına baxdı, sonra ciddiləşərək başını tərpətdi və dedi:

– Sakit, çalışqan idi!

İşə bax, yaşlı bir tacir, uzun saqqallı bir kişi gənc qızdan imdad diləyirdi! Bəlkə də burda nəsə bir gizli məqsədi vardı, ancaq heç nə onun bu hərəkətinə haqq qazandıra bilməzdi! K. heç cür ağlına sığışdıra bilmirdi ki, vəkil bu tamaşa ilə onu öz tərəfinə çəkmək fikrinə düşər. Əgər bundan əvvəl K. ondan imtina etməmiş olsaydı, bu səhnə ilə bəlkə də arzusuna çatardı. İndi, demək olar ki, tamaşaçısını da alçaldırdı. Deməli, bu vəkilin iş üsulu belə imiş, müştərini elə bir vəziyyətə salırmış ki, o, hər şeyi unudurmuş, çaşqınlıq içində sürünə-sürünə məhkəmənin sonuna qədər gedib çıxacağına ümid bəsləyirmiş və xoşbəxtlikdən, K. bu vəziyyətə düşməmişdi, çünki vaxt az olmuşdu. Həmin adam onda vəkilin müştərisi yox, iti olurdu. Əgər vəkil ona əmr etsəydi ki, koması kimi çarpayının altına girib orda hürsün, bunu məmnuniyyətlə edərdi. Sanki K.-ya tapşırıq verilmişdi ki, burda danışılanların hamısını yadda saxlasın, sonra da yüksək instansiyaların birinə bu barədə yazılı məlumat versin, ona görə də çox diqqətlə qulaq asır, heç nəyi buraxmaq istəmirdi.

– Bütün günü nə işlə məşğul olub? – deyə vəkil soruşdu.

– Qulluqçunun otağına salıb qapını bağlamışdım ki, mənə mane olmasın. Çox vaxt orda qalır. Hərdən də pəncərədən nə ilə məşğul olduğuna baxırdım. Çarpayının üstündə dizi üstə çöküb sənin verdiyin sənədləri pəncərənin qabağına sərmişdi, onları oxuyurdu. Bu, mənim xoşuma gəldi. Əslində, pəncərə hava gələn şaxtaya açılır və ordan, demək olar ki, işıq düşmür. Buna baxmayaraq, Blokun oxuması göstərdi ki, üzüyola adamdır.

– Bunu eşitdiyimə çox şadam, – vəkil dilləndi, – ancaq görəsən başa düşə-düşə oxuyurdu?

Bütün bu söhbət əsnasında Blokun dodaqları dayanmadan tərpənirdi, yəqin ki Lenidən gözlədiyi cavabları öz-özünə pıçıldayırdı.

– Əlbəttə, mən bu suala dəqiq cavab verə bilmərəm. Ancaq görürdüm ki, çox diqqətlə oxuyur. Bütün günü bir səhifənin üstündə qalıb və oxuya-oxuya da barmağını sətirlərin üstündə gəzdirib. Hər dəfə baxanda görürdüm ki, ah-uf edir, sanki oxumağa çətinlik çəkirdi. Yəqin ona verdiyin sənədlər çətin başa düşülür.

– Bəli, doğrudan da elədir. İnanmıram ki, nəsə başa düşmüş olsun. Bu sənədələr yalnız ondan ötrüdür ki, onun müdafiəsi üçün necə çətin mübarizə apardığımı başa düşsün. Ancaq mən bu çətin mübarizəni kimin üçün aparıram? Adam deməyə də utanır – Blok üçün! Bunun da nə demək olduğunu başa düşməlidir. Ara vermədən oxuyub?

– Demək olar ki, ara verməyib. Yalnız bircə dəfə su istəyib. Pəncərədən bir fincan su vermişəm. Saat səkkizdə çölə buraxmış və bir az yemək vermişəm.

– Blok qıyqacı baxışlarla K.-nı süzdü, sanki onun qəhrəmanlığından danışırdılar və o da bunu nəzərə almalı idi. Deyəsən, qəlbində yeni ümidlər baş qaldırmışdı, indi özünü bir az sərbəst aparırdı, hətta dizi üstə döşəmədə o tərəf-bu tərəfə gedirdi. Ancaq vəkilin sözlərindən sonra necə daşa döndüyü də aydınca göründü. Vəkil dedi:

– Sən onu tərifləyirsən, mən də elə ona görə danışa bilmirəm. Əslində, hakim Blokun özü haqda da, məhkəməsi barədə də yaxşı danışmadı.

– Yaxşı danışmadı? Bu necə ola bilər?

Blok qıza elə gərginliklə baxdı ki, sanki hakimin dediklərini onun xeyirinə yozacağına inanırdı.

– Yaxşı danışmadı, – vəkil sözünə davam etdi, – Blokdan söhbət salmağım heç xoşuna gəlmədi. “Blok barədə danışmayın!” – dedi. Dedim ki, o mənim müştərimdir. “O sizdən sui-istifadə edir,” – dedi. Dedim ki, onun işini ümidsiz hesab etmirəm. “ O sizdən sui-istifadə edir”, – deyə təkrar etdi. Dedim ki, mən buna inanmıram, Blok çox fəaldır, işini boş buraxmır, demək olar ki, həmişə mənim yanımda qalır, hazır dayanır, bu cür canfəşanlıq hamıda olmur. Düzdür, bir insan kimi xoşagələn deyil, özünü aparmağı bilmir, pintidir, ancaq məhkəmə məsələlərində nöqsansızdır. Nöqsansızdır deyəndə, özüm qəsdlə şişirtdim. Hakim isə dedi: “Blok bicdir. Çoxlu təcrübə toplayıb, məhkəməni uzatmağın yolunu tapıb. Ancaq kütlüyü bicliyindən çoxdur. Görəsən xəbər tutsa ki, məhkəməsi hələ heç başlamayıb, onun başlanması ünün hələ zəng çalınmayıb, onda sözü nə olacaq?! – Bu anda Blok təraddüdlə qalxmaq istədi və yəqin xahiş edəcəkdi ki, bunların nə demək olduğunu ona başa salsın. İlk dəfə idi ki, vəkil birbaşa Blokun özünə müraciət edirdi.

Yorğun baxışları gah Bloka, gah da uzaqlara zillənirdi və Blok da bu baxışlar altında təzədən dizi üstə çökdü. – Sakit ol, Blok! Hakimin nə dediyinə fikir vermə. Hər sözdən qorxma. Bir də belə eləsən, sənə heç nə deyən deyiləm. Adam ağzını açan kimi elə baxırsan ki, elə bil hökm oxunur. Heç olmasa, mənim müştərimdən utan! Onun mənə olan inamını da qırırsan. Hələ yaşayırsan, mənim himayəmdəsən, özgə nə istəyirsən? Mənasız yerə qorxursan! Özün də hardasa oxuyubsan ki, bəzi hallarda son hökmü kimsə nə vaxtsa gözlənilmədən oxuyur. Bir çox hallar nəzərə alınmasa, yazılanlar düzdür, ancaq bu da bir həqiqətdir ki, sənin bu cür qorxmağın məni artıq iyrəndirir, eyni zamanda, mənə lazım olan qədər inanmadığından xəbər verir. Axı nə dedim ki? Yalnız bir hakimin fikirlərini çatdırdım. Özün də bilirsən ki, iş haqqında müxtəlif fikirlər söylənilir, onların hamısından baş açmaq olmur. Məsələn, bu hakim məndən fərqli olaraq, məhkəmənin başlanğıcını başqa vaxtdan götürür. Bu, fikir ayrılığıdır, vəssalam! Köhnə qaydaya görə məhkəmənin müəyyən mərhələsində zəng çalınır və bu hakimin fikrincə məhkəmə yalnız onda başlayır. Mən indi bunun belə olmadığını sübut edən dəlillərin hamısını sadalamaq fikrində deyiləm, sən onları başa düşən də deyilsən, yalnız bunu bilməyin kifayətdir ki, belə dəlillər çoxdur.

Blok pərt halda çarpayının yanındakı ayaqaltının tüklərini didişdirirdi. Hakimin dedikləri onu elə qorxutmuşdu ki, vəkilə qarşı olan itaətkarlığını tədricən unutmuşdu və indi yalnız özü barədə düşünür, hakimin sözlərini müxtəlif tərəflərə yozurdu.

– Blok! – Leni onun pencəyinin yaxalığından bir az dartaraq onu xəbərdar etdi: – Dəri ilə oynama, vəkilə qulaq as!

Bu fəsil tamamlanmayıb

## DOQQUZUNCU FƏSİL

### Kilsədə

K.-ya tapşırmışdılar ki, onlarla həm əməkdaşlıq, həm də dostluq edən, bank üçün çox vacib olan, eyni zamanda, bu şəhərə birinci dəfə gələn italiyalıya bir neçə incəsənət abidəsi göstərsin. Başqa vaxt olsaydı, bu tapşırığı özü üçün şərəf hesab edərdi, ancaq indi, bankdakı nüfuzunu böyük çətinliklər hesabına qorumağa çalışdığı bir zamanda, buna həvəssiz razılıq verdi. İş otağından kənarda keçirdiyi hər saat onun üçün dərdə-qəmə çevrilirdi. Düzdür, işdə olanda da həmişəki kimi məhsuldar işləyə bilmirdi, saatlarla vacib bir işlə məşğul olurmuş kimi içəridə qurdalanırdı, ancaq kənarda narahatçılığı daha da artırdı. K.-ya elə gəlirdi ki, marıta yatmış direktor müavini hərdən onun otağına girir, iş stolunun arxasında oturub sənədlərə baxır, illərdən bəri işlədiyi üçün artıq dostlaşmış olduğu müştəriləri qəbul edir, onları K.-ya qarşı kökləyir, hətta bəlkə işində səhvlər də tapır. Onsuz da işləyəndə elə bilirdi ki, hər tərəfdən səhvlər onu hədələyir, nə qədər çalışsa da onlardan canını qurtara bilmir. Ona görə hətta mükafat kimi də ezamiyyətə və ya qısamüddətli səfərlərə – təsadüfən də son vaxtlar belə tapşırıqların sayı çoxalmışdı – göndəriləndə, az qala fikirləşirdi ki, onu bir az otağından ayırmaq, işlərini yoxlamaq, ya da ən

azı, onsuz da keçinməyin mümkünlüyünü göstərmək istəyirlər. Heç bir çətinlik çəkmədən bu işlərin çoxundan imtina edə bilərdi, ancaq buna cəsarət eləmirdi, çünki indi nədənsə çəkindiyi bir o qədər də hiss olunmurdu, ancaq tapşırıqdan imtina eləmək nədənsə qorxduğunu etiraf etməsi demək olardı. Ona görə də bu tapşırıqları zahiri bir soyuqqanlılıqla qəbul edirdi. Hətta işlə bağlı iki günlük üzücü səfərə göndəriləndə də soyuqladığını gizlətdi ki, birdən belə yağışlı payız havasında onu getməyə qoymazlar. Həmin səfərdən dəhşətli baş ağrısı ilə qayıdan günü xəbər tutdu ki, sabah İtaliyadan gələn qonağı müşayiət edəcək. Çox istəyirdi ki, heç olmasa, bu dəfə "yox" desin, çünki bu tapşırıq, hər şeydən əvvəl, onun vəzifə borcu ilə birbaşa bağlı deyildi, ancaq bununla belə, əcnəbi tərəfdaşla bağlı olan bu ictimai tapşırıq da şübhəsiz ki, vacib idi. K. onu da yaxşı bilirdi ki, yalnız işində qazandığı uğurlara görə vəzifəsində qala bilər və əgər bu olmasa, italiyalını lap valeh eləsə də, xeyri yox idi. Bircə günlüyə də olsa, işindən kənarda qalmasını istəmirdi, çünki təzədən yerinə qayıtmamaq qorxusu çox böyük idi. Düzdür, bu qorxunu çox şişirtdiyini də bilirdi, ancaq bununla belə, əl-qolu bağlanırdı. İndiki halda ağılabatan bir bəhanə tapmaq da, demək olar ki, mümkün deyildi. Düzdür, italyan dilini o qədər də yaxşı bilmirdi, ancaq bildikləri kifayət edərdi. Burda əsas məsələ o idi ki, K.-nın tarixi sənət əsərlərindən başı çıxırdı və onun bir vaxtlar, ticarət yönümlü olsa da, Şəhər Tarixi Abidələrin Qorunması Cəmiyyətinin üzvü olması da bankda həddən artıq şişirdilmişdi. Deyilənə görə, italiyalı da incəsənət vurğunu idi və onu şəhərdə gəzdirmək üçün K.-nın seçilməsi çox təbii görünürdü.

Onu ağır bir gün gözlədiyindən əsəbiləşən K. səhər saat yeddidə banka gələndə, yağışlı, tufanlı bir hava idi. İstəyirdi ki, qonaq gəlib onun başını qarışdırana qədər, heç olmasa, bir işini görüb qurtarsın. Çox yorğun idi, çünki bir az hazırlaşmaq üçün gecənin yarısına kimi italyan dilinin qrammatikası ilə məşğul olmuşdu. Son vaxtlar tez-tez qarşısında oturduğu pəncərə onu yazı stolundan çox özünə tərəf çəkirdi, ancaq özünü saxlaya bildi və oturub işləməyə başladı. Heyif ki elə həmin anda da xidmətçi içəri girib dedi ki, cənab direktor onu cənab prokuristin gəlib-gəlmədiyini öyrənmək üçün göndərib; əgər gəlibsə, onda zəhmət çəkib qəbul otağına buyursun, italiyalı qonaq artıq gəlib.

– Gəlirəm, – deyən K. balaca lüğəti cibinə qoydu, şəhərin görməli yerləri haqqındakı kitabçanı – bunu əvvəlcədən qonaq üçün hazırlamışdı – qoltuğuna vurdu, müavinin otağından keçərək direktorun kabinetinə girdi. Heç kəsin gözləmədiyi halda işə belə tez gəldiyinə, direktor çağıran kimi hazır olduğuna çox sevindi. Məlum məsələ idi ki, direktor müavininin otağı boş idi, elə bil hələ sabah açılmamışdı, yəqin xidmətçi onu da direktorun otağına çağırmaq istəmiş, ancaq yerində tapmamışdı. K. qəbul otağına girəndə, iki cənab dərin kreslolardan qalxdılar. Direktor mehribanlıqla gülümsədi, hiss olundu ki, K.-nın gəlişinə sevindi və həmin dəqiqə də onu təqdim etdi, italiyalı K.-nın əlini bərk-bərk silkələdi, təbəssümlə hansı tez yuxudan duran adamınsa adını çəkdi. K. onun kimi nəzərdə tutduğunu başa düşmədi, üstəlik də çox qəribə söz idi, onun mənasını xeyli sonra anladı. Bir-iki sığallı cümlələrlə ona cavab verdi, italiyalı yenə də gülə-gülə, eyni zamanda da titrəyən əlini çallaşmış qalın bığlarına çəkə-çəkə ona qulaq asdı. Hiss olunurdu ki, bığlarına ətir vurub, adam az qalırdı ona yaxınlaşıb iyləsin. Üçü də oturub qısa giriş söhbətinə başlayanda, K. gördü ki, italiyalını yalnız hərdən başa düşə bilir və bundan çox narahat oldu. O, sakit danışanda, demək olar ki, hamısını başa düşürdü, ancaq bu hərdən belə olurdu, qalan vaxtlarda sözlər sanki ağzından daşıb tökülürdü, üstəlik də bundan ləzzət alırmış kimi

başını yellədirdi. Belə danışanda, tez-tez hansı dialektəsə keçirdi və bu da artıq K. üçün italyan dili olmurdu. Ancaq direktor nəinki onu başa düşür, hətta özü də həmin dialektdə danışırdı. Əslində, K. bunun səbəbini bilməli idi: qonaq Cənubi İtaliyadan idi və direktor da orda bir neçə il yaşamışdı. Hər halda, K. anladı ki, italiyalı ilə ünsiyyət yaratmaq imkanları xeyli azaldı, çünki onun fransızcası da güclə başa düşülürdü. Fransızca danışanda da bığları dodaqlarını görünməyə qoymurdu, yoxsa onların tərpənişindən nəsə tutmaq olardı. K. hiss etdi ki, onu bu gün çoxlu xoşagəlməz hadisələr gözləyir, ancaq hələlik italiyalını başa düşmək cəhdindən vaz keçdi – onu yaxşı başa düşən direktorun yanında özünə havayı əziyyət verməyə dəyməzdi – və qaşqabaqla onun dərin kresloya necə rahatca yayxandığına, tez-tez qısa, sadə biçimli pencəyinin yaxasını dartışdırdığına, bir dəfə də əlini yuxarı qaldıraraq dirsəkdən yellədə-yellədə nəyisə izah etməyə çalışdığına tamaşa etməklə kifayətləndi. Özü də bir az qabağa əyilərək onun əllərinin hərəkətini nə qədər izləsə də, heç nə başa düşmədi. Axırda bekarçılıqdan, gah onun gah da bunun ağzına baxmaqdan əvvəlki yorğunluğu təzədən qayıtdı və bir də onda özünə gəldi ki, – nə yaxşı ki, bunu vaxtında hiss elədi! – fikri tamam dağılıb, ayağa durmaq, geri dönüb getmək istəyir. Nəhayət, italiyalı saatına baxıb ayağa durdu. Direktorla vidalaşandan sonra K.-ya yaxınlaşdı və o qədər yaxın gəldi ki, o, tərpənmək üçün kreslosunu bir az geri itələməli oldu. Direktor yəqin ki K.-nın gözlərindən onun necə çətinə düşdüyünü oxumuşdu və ona görə də söhbətə qarışdı, ağıllı, həssas adam olduğu üçün özünü elə göstərdi ki, guya ayaqüstü məsləhət verir, ancaq əsil həqiqətdə italiyalı nə qədər onun sözünün arasına girsə də, hər şeyi qısa şəkildə K.-ya başa saldı. K. direktordan öyrəndi ki, italiyalının bəzi işləri var, təəssüf ki, vaxtı da azdır, bütün görməli yerlərə də belə tələsik baxmaq istəmir, ona görə də qərara alıb ki, – əlbəttə, K. buna razı olsa, çünki son qərarı o verəcək – yalnız kilsəyə getmək, ancaq ona yaxşı-yaxşı baxmaq istəyir. Çox sevinir ki, belə mehriban, alim adamın müşayiətilə kilsəyə baxacaq – o, K.-nı nəzərdə tuturdu, K. isə ona qulaq asmır, daha çox direktorun dediklərinə fikir verirdi – və xahiş edir ki, əgər mümkündürsə, iki saatdan sonra, yəni təxminən saat onda orda görüşsünlər. Ümid edir ki, özü həmin vaxt mütləq orda ola biləcək. K. ona lazım olan cavabları verdi, italiyalı əvvəlcə direktorun, sonra da K.-nın, daha sonra bir də direktorun əlini sıxdı, hər ikisinin müşayiəti ilə gah ona, gah da buna tərəf dönərək danışa-danışa qapıya doğru getdi. Sonra K. bu gün daha çox xəstəhal görünən direktorla bir yerdə qaldı. Direktora elə gəldi ki, nə üçünsə K.-ya üzrxahlıq eləməlidir – onlar bir-birinə mərhəm adamlar kimi çox yaxın dayanmışdılar – və dedi ki, əvvəlcə özü italiyalı ilə getmək istəyirmiş, sonra fikirləşib ki, – ancaq səbəbini demədi – K. getsə yaxşıdır. O, italiyalını əvvəlcə başa düşməsə, özünü itirməsin, bir az keçəndən sonra başa düşəcək. Ancaq hamısını başa düşməsə də olar, eyib etməz, çünki italiyalı üçün onun başa düşülməsi çox da vacib deyil. Yeri gəlmişkən, K.-nın italyancasına söz ola bilməz və bu işin öhdəsindən lap yaxşı gələ biləcək. Bunu deyib K. ilə xudahafisləşdi. K. ona qalan boş vaxtı kilsədə izahat verərkən ona lazım olacaq çətin sözləri lüğətdən seçib yazmaqla məşğul oldu. Çox zəhlətökən iş idi, üstəlik də xidmətçi poçtu gətirdi, işçilər müxtəlif suallarla gəldilər, onun məşğul olduğunu görüb qapının ağzındaca dayanıb durdular, sözlərini deməmiş getmədilər, direktor müavini də mane olmaq fürsətini əldən vermədi, tez-tez içəri girdi, lüğəti ondan alıb mənasız yerə vərəqlədi, hər dəfə qapı açılanda yarıqaranlıq qəbul otağında müştərilər göründü, onlar tərəddüdlə təzim etdilər – bununla K.-nın diqqətini özlərinə cəlb etmək istəyir, ancaq görünüb– görünmədiklərini dəqiq bilmirdilər – ... və K. bütün bu işlərin mərkəzində dayana-dayana ona lazım sözləri seçir, onları lüğətdə tapıb mənalarını yazır, tələffüzünü məşq edir, axırda da əzbərləməyə çalışırdı. Deyəsən, əvvəlki yaxşı yaddaşı yox olub getmişdi, hərdən onu belə əziyyətə salan italiyalıya elə acığı tuturdu ki, lüğəti kağız-kuğuzun arasına atırdı, qəti qərara gəlirdi ki, daha hazırlaşmayacaq, sonra

da fikirləşirdi ki, italiyalı ilə kilsədəki sənət əsərlərinin qarşısından lal-dinməz keçib gedə bilməz və bayaqkından betər hirslənərək lüğəti təzədən götürürdü.

Düz saat onun yarısında – durub getmək istəyəndə, telefon zəng çaldı, Leni ona “Sabahın xeyir!” – deyib, əhvalını soruşdu. K. tələsik təşəkkür edərək dedi ki, indi onunla çox danışa bilməyəcək, çünki kilsəyə getməlidir.

– Kilsəyə? – Leni təəccübləndi.

– Bəli, kilsəyə...

– Kilsədə nə işin var?

K. hər şeyi ona qısa şəkildə başa salmaq istədi, ancaq çatdıra bilmədi, çünki Leni qəfildən dedi:

– Onlar səni qızışdırır!

Diləmədiyi, gözləmədiyi bu halıyananlıq K.-nın xoşuna gəlmədi, ona görə də bir-iki sözlə vidalaşdı, ancaq dəstəyi yerinə qoyanda, yarı özünə, yarı da uzaqda olan qıza – o bunu heç eşitmədi – dedi:

– Bəli, məni qızışdırırlar...

Artıq gec idi, gecikmək təhlükəsi vardı. Taksi ilə getdi, yalnız son anda yadına düşmüşdü ki, səhər-səhər imkan tapıb kitabçanı qonağa verə bilməmişdi və onu da özü ilə götürmüşdü. İndi onu dizinin üstünə qoymuşdu və bütün yol boyu da əsəbi halda əli onu döyəcləyirdi. Yağış səngimişdi, ancaq hava sərin və tutqun idi, nəm iyi verirdi. Belə havada kilsədə çox şeyə baxmaq mümkün deyildi, ancaq orda soyuq kaşının üstündə çox dayanmaq K.-nın soyuqdəyməsini daha da mürəkkəbləşdirəcəkdi. Kilsə meydanı bomboş idi və K.-nın yadına düşdü ki, hələ uşaq vaxtı bu dar meydanın ətrafındakı evlərin pəncərələrində pərdələrin həmişə salınması onun diqqətini cəlb etmişdi. Ancaq belə havada bu başadüşülən idi. Deyəsən, kilsə da boş idi, çünki belə havada heç kim bura gəlməzdi. K. hər iki köndələn tağları gəzdi, yalnız isti şala bürünüb Müqəddəs Məryəmin əksi önündə diz çökərək ona baxan yaşlı qadına rast gəldi. Sonra uzaqdan axsaya-axsaya yan qapıda gözdən itən itən bir xidmətçini gördü. K. vaxtında gəlmişdi, içəri girən kimi saat onu vurdu, ancaq italiyalı hələ görünmürdü. K. əsas girişə tərəf qayıtdı, nə edəcəyini bilməyib orda bir az dayandı, yağış başından tökə-tökə kilsənin ətrafına dolandı ki, bəlkə qonaq səhvən yan qapıların birinin ağzında gözləyir. Ancaq onu heç yerdə tapa bilmədi. Bəlkə direktor vaxtı düz başa düşməmişdi? Məgər bu adamın özünü düz başa düşmək olurdu? Hər necə olsa da, K., onu yarım saat gözləməli idi. Yorulduğu üçün oturmaq istədi, təzədən kilsəyə girdi, pillələrdən birində xalçaya bənzəyən palaz çırığı gördü, onu ayağının ucu ilə yaxındakı skamyanın önünə çəkdi, bərk-bərk paltosuna büründü, onun yaxalığını yuxarı qaldırıb oturdu. Fikrini dağıtmaq üçün kitabçanı açdı, onu bir az vərəqlədi, ancaq tez də dayanmalı oldu, çünki ətraf birdən elə qaranlıqlaşdı ki, başını qaldıranda, yaxındakı köndələn tağlarda belə heç nəyi seçə bilmədi.

Uzaqda – baş mehrabın üstündə üçbucaq şəklində şamlar yanırdı. K. bunları əvvəlcə görüb-görmədiyini deyə bilməzdi. Bəlkə də yenicə yandırmışdılar. Axı kilsə xidmətçiləri elə bil ayaqyalın gəzirlər, onları görmək olmur. K. təsadüfən geri dönəndə, arxa tərəfindəki sütuna bərkidilmiş uzun, qalın bir şamın da yandığını gördü. Gözəl idi, ancaq qaranlıqdakı yan

mehrablardan asılmış şəkilləri işıqlandırmağa bəs eləmirdi, qaranlığı daha da dərinləşdirirdi. İtaliyalı gəlməməklə nəzakətsizlik eləmiş olsa da, ağıllı tərpənmişdi, onsuz da heç nəyi görmək olmurdu, uzaqbaşı K.-nın elektrik cib fanarının işığında gömrük işçisi kimi nəyəsə baxa bilərdi. K. bunu yoxlamaq üçün yan tərəfdəki yaxın kapellalardan birinə yaxınlaşdı, bir-iki pillə qalxaraq ən aşağıdakı mərmər sürahiyə çatanda dayandı, onun üstündən bir az qabağa əyilərək mehrabdakı şəkli fənərlə işıqlandırdı. K.-nın ilk gözünə sataşan, qismən də tanış gələn şəklin lap qurtaracağında təsvir olunmuş zirehli cəngavər oldu. O qarşısındakı qupquru torpağa – yalnız orda-burda qurumuş ot saplaqları görünürdü – sancdığı qılıncına söykənmişdi və deyəsən, qarşısında baş verənləri diqqətlə izləyirdi. Qəribə idi ki, o dayanıb qalmışdı və oraya yaxınlaşmırdı. Ola bilsin, onu keşik çəkməyə qoymuşdular. Çoxdan şəklə baxmayan K. lampanın yaşıl işığı gözlərini qamaşdırsa da, uzun-uzadı cəngavərə tamaşa elədi. Sonra işığı şəkilin başqa tərəfinə döndərəndə Isanın sərdabəyə qoyulması mərasimini gördü. Bu səhnə burda da bütün başqalarında olduğu kimi təsvir edilmişdi və şəkil də lap təzə idi. O, lampanı cibinə qoyub bayaq oturduğu yerə qayıtdı.

Yəqin ki daha italiyalını gözləməyə dəyməzdi, bayırda da yağış leysana çevrilmişdi və burda gözlədiyi qədər də soyuq olmadığı üçün K. qərara aldı ki, hələlik içəridə qalsın. Yaxınlığında böyük bir kafedra vardı, onun balaca, yumru damına da bir-birinə tərəf əyilmiş iki qızıl xaç bərkidilmişdi və onlar da lap son nöqtələrində kəsişirdilər. Sürahinin çöl divarı və əsas sütuna keçid yaşıl yarpaqlardan düzəldilmiş, uçan və uçmayan balaca mələklər də onlardan yapışmışdılar. K. kafedranın qabağına gəlib onu hər tərəfdən yoxladı: daş çox diqqətlə işlənmişdi, onun arxa tərəfi ilə yaşıl yarpaqlar arasındakı qatı qaranlığı sanki aldadıb oraya salmış, ağzını da bağlamışdılar. K. əvvəlcə əlini həmin boşluğa saldı, sonra da onu ehtiyatla daşın üstündə gəzdirdi. İndiyə qədər burda kafedranın olduğunu bilməmişdi. Həmin anda təsadüfən o biri cərgədəki skamyaların arasında bir kilsə xidmətçisinin dayandığını gördü. Onun çiynində qasıglı qara cübbə var idi, sol əlində burunotu qabı tutmuşdu və özü də K.-ya tərəf baxırdı. “O nə istəyir?” – deyə K. ürəyindən keşirdi. -“Yoxsa məndən şübhələnir? Bəlkə çaypulu istəyir?” Xidmətçi K.-nın onu gördüyünü hiss edən kimi sağ əli ilə – onun iki barmağı arasında bir çimdik tütün vardı – qeyri-müəyyən bir istiqaməti göstərdi. K. onun hərəkətlərindən heç nə anlamadı, bir az da gözlədi, ancaq xidmətçi dayanmırdı, əli ilə nəyisə göstərirdi, üstəlik də təsdiq əlaməti kimi başını tərpədirdi. “O nə istəyir?” – deyə K. astadan soruşdu, çünki burda bərkdən danışmağa cəsarət etmirdi. Sonra pulqabını çıxarıb o biri cərgəyə keçdi ki, ona yaxınlaşa bilsin. Kişi o dəqiqə əlini yellədərək onu rədd etdi, çiyinlərini çəkdi və axsaya-axsaya ordan uzaqlaşdı. Belə yerişi – hoppana-hoppana axsamağı – K. uşaq vaxtı çox yeriyir, guya at çapırdı. “ Qocalığında uşaqlaşıb” – K. ürəyindən keçirdi – “Ağlı indi yalnız kilsə xidmətçisi olmağa çatır. Mən dayanan kimi o da durur, pusur ki, mən nə vaxt yerimdən tərpənəcəm!” K. gülə-gülə bütün yan tağları keçib qocanı baş mehraba qədər izlədi. Qoca hələ də dayanmadan nəyisə göstərirdi, ancaq K. qəsdlə o tərəfə baxmırdı, bilirdi ki, onu azdırmaq üçün belə eləyir. Axırda doğrudan da qocadan əl çəkdi, çünki onu çox da qorxutmaq istəmirdi, üstəlik də onu çox ürkütmək olmazdı, italyalı gəlib çıxsa, bunu da görərdi.

Əsas yolla geri qayıdıb kitabçanı qoyduğu yeri axtaranda, sütunların birinin yanında, mehrab xoru üçün qoyulmuş skamyaların lap yaxınlığında balaca, sadə, çılpaq, bomboz bir daşdan yonulmuş kafedra gördü. Kafedra o qədər balaca idi ki, uzaqdan hansı Müqəddəsinsə heykəlciyini qoymaq üçün düzəldilmiş divar oyuğuna oxşayırdı. Vaiz sürahidən bircə addım da geri ata bilməzdi. Bundan əlavə də onun naxışsız daş qübbəsi o qədər alçaqda tağlanırdı ki, orta

boylu bir adam orda düz dayana bilməz, sürahiyə tərəf əyilməli olardı. Bütün bunlar vaizə əzab vermək üçün idi və başa düşmək olmurdu ki, içəridə bu qədər böyük, naxışlı-bəzəkli kafedralar ola-ola, bu kimə və nəyə lazımdır...

Əgər yuxarısında lampa asılmış olmasaydı, bu balaca kafedra, şübhəsiz ki, K.-nın diqqətini belə cəlb etməzdi. Lampanı ibadət başlamağa az qalanda ora qoyurdular. İndi ibadət olmalı idi? Özü də bomboş kilsədə? K. sütuna söykənə-söykənə kafedraya qalxan pillələrə baxdı. Bu pilləkən o qədər ensiz idi ki, deyərdin adamlar üçün deyil, sütuna vurulmuş naxışdır. Ancaq onun ayağnda – K. onu görəndə heyrətdən gülümsədi – doğrudan da bir keşiş dayanmışdı, bir əli ilə sürahidən yapışaraq yuxarı qalxmağa hazırlaşır və K.-ya tərəf baxırdı. Keşiş başını yüngülcə tərpətdi, buna cavab olaraq K. da xaç çəkərək baş əydi, halbuki bunu əvvəlcədən etməli idi. Keşiş özünə yüngül bir təkan verib qısa, ancaq cəld addımlarla kafedraya qalxmağa başladı. Doğrudan ibadət başlayırdı? Bəlkə kilsə xidmətçisi hələ ağlını tamam itirməmişdi, onu vaizin yanına gətirmək istəyirdi? Bəlkə kilsənin belə boş olduğu bir vaxtda bu çox vacib idi? Yeri gəlmişkın, hardasa Müqəddəs Məryəmin əksi önündə dayanmış bir qoca qadın da vardı, o da gələ bilərdi. Əgər bu ibadət idisə, bəs niyə orqan musiqisi yox idi? Orqan sakitcə dayanmışdı, qaranlıqda zəif parıltısı güclə sezilirdi.

K. fikirləşdi ki, bəlkə burdan tez uzaqlaşsın, əgər indi getməsə, ibadət başlayandan sonra bunu edə bilməyəcək, onda gərək axıra kimi qalaydı. Onsuz da işdə italyalını gözləyəndə, çox vaxt itirmişdi, bundan artıq gözləməyə də borclu deyildi. Saatına baxdı: on bir idi. Doğrudan indi ibadət başlayırdı? Bəs o bütün ibadətçiləri əvəz edə bilərdi? Bəs o da kilsəyə baxmağa gəlmiş əcnəbi olsaydı necə? Əslində, belə idi. İndi ibadət olacağını fikirləşmək mənasız idi: saat on bir, iş günü. Belə pis hava... Yəqin keşiş – şübhəsiz ki, cavan keşiş idi, hamar, tutqun sifəti vardı – səhvən yandırılmış lampanı söndürmək üçün yuxarı qalxırdı.

Ancaq belə deyildi. Keşiş lampanı bir neçə dəfə yoxladı, işığını bir az artırdı, sonra yavaş-yavaş sürahiyə tərəf döndü, hər iki əlini onun üstünə qoydu. Xeyli beləcə dayandı, başını tərpətmədən içəriyə göz gəzdirdi. K. xeyli geri çəkilərək dirsəyi ilə lap öndəki skamyaya söykənmişdi. Ona gəldi ki, bayaqkı beli bükülmüş xidmətçi hardasa gözünə dəydi, vəzifəsini yerinə yetirəndən sonra bir kənarda rahatca büzüşüb oturmuşdu, ancaq hara olduğunu dəqiq bilmədi. Kilsəyə elə sakitlik çökmüşdü ki! K. bu sakitliyi pozmalı idi, burda qalmaq istəmirdi. Əgər keşiş müəyyən saatda şəraiti nəzərə almayıb moizə etməli idisə, qoy eləsin, onsuz da K-nın burda olub-olmaması heç nəyi dəyişmirdi. Yavaş-yavaş yerindən tərpəndi, ayağının ucu ilə skamyaya toxuna-toxuna geniş orta yola çıxdı, heç bir maneəyə rast gəlmədən irəliləməyə başladı. Yalnız daş döşəmə üzərindəki sakit addım səsləri eşidilir və bu səs də arasıkəsilmədən ahəngdar şəkildə qübbələrdə əks-səda verirdi. K. bəlkə də keşişin baxışları altında bomboş skamyaların arası ilə gedə-gedə özünü bir az tənha hiss elədi, üstəlik də ona elə gəldi ki, kilsə yaman böyükdür, adam buna dözə bilməz. Bayaqkı yerə çatanda, dayanmadan əlini uzadıb kitabçanı götürdü. Demək olar, skamyalar qurtarmışdı, onlarla çıxış qapısı arasındakı boş yerə yaxınlaşırdı ki, ilk dəfə keşişin səsini eşitdi. Uca, ötkəm bir səs! Bu böyük kilsəyə necə də yayıldı! Yox, keşiş ibadətçilərə müraciət etmirdi, kimə müraciət etdiyi qəqiq bilinirdi, ondan qaçmaq olmazdı:

-Yozef K.!

Dayanıb yerə baxdı. Hələlik azad idi, gedə bilərdi, yaxınlıqdakı üç balaca qapının birindən çıxıb qaça bilərdi. Özünü elə göstərə bilərdi ki, başa düşməyib, ya da başa düşüb, ancaq vecinə almır.

Geri dönməyi ilə yerində mıxlanıb qalmağı bir oldu, çünki bunula etiraf etmiş oldu ki, hər şeyi yaxşı başa düşüb, çağırılan odur və elə özü bu çağırışa doğru getmək istəyir. Keşiş bir də çağırsa, yəqin ki çıxıb gedərdi, ancaq sakitlik olduğundan və özü də dayandığı üçün keşişin nə etdiyini bilmək məqsədilə başını azacıq geri döndərdi. O bayaqkı kimi sakitcə kafedrada dayanmışdı və aydınca hiss olunurdu ki, K.-nın başını geri döndərdiyini görüb. K. indi tamamilə geri dönməsəydi, bu, uşaq kimi gizlənpaç oynamağa bənzəyərdi. Belə də elədi, keşiş əlinin işarəsilə onu yanına çağırdı. Artıq hər şey göz qabağında idi və K. həm onu bürüyən maraqdan, həm də məsələni tez həll eləyib qurtamaq üçün iri, sürətli addımlarla kafedraya tərəf qayıtdı. Skamyaların birinci cərgəsinə çatanda dayandı, ancaq bu məsafə keşişə çox uzaq göründü, əlini irəli uzadaraq şəhadət barmağı ilə kəskin şəkildə kafedranın yaxınlığını göstərdi. K. göstərilən yerə gəldi, ancaq onu görmək üçün başını geri atmalı oldu.

– Sən Yozef K.-san, – deyə keşiş sürahiyə qoyduğu əlini qeyri-müəyyən tərzdə yuxarı qaldırdı.

– Bəli!

Fikirləşdi ki, əvvəllər çəkinmədən adını deyirdi, ancaq neçə vaxt idi ki, adını demək onun üçün ağır yükə çevrilmişdi, indi birinci dəfə gördüyü adamlar da onun adını bilirdi. Ah, özünü təqdim edərək adını söyləmək necə də gözəl imiş!

– Sən ittiham olunursan! – Keşiş bu sözləri lap alçaqdan dedi.

– Bəli, bunu mənə artıq deyiblər.

– Elə isə, sən axtardığım adamsan. Mən türmənin keşişiyəm.

– Belə de...

– Səni bura çağırtdırmışam ki, söhbət eləyim.

– Bunu bilmirdim. Bura ona görə gəlmişdim ki, kilsəni italiyalı qonağa göstərim.

– İkinci dərəcəli şeylərdən danışma! Əlindəki nədir? Dua kitabıdır?

– Xeyr, şəhərin görməli yerləri haqqında kitabçadır.

– Tulla getsin!

K. kitabçanı elə bərk tulladı ki, o, göydə açıldı və vərəqləri yellənə-yellənə döşəmənin üstü ilə bir az sürüşdü.

– Bilirsənmi məhkəmədə işlərin pis gedir?

– Mənə də elə gəlir. Çox çalışdım, ancaq indiyə qədər bir şey çıxmadı.Yeri gəlmişkən, heç vəkalətnamə də hazır deyil.

– Bəs işin sonunu necə təsəvvür edirsən?

– Əvvəllər fikirləşirdim ki, hər şey yaxşı qurtaracaq. Ancaq indi özüm də buna bəzən şübhə edirəm. Bilmirəm necə qurtaracaq... Sən bilirsən?

– Xeyr! Ancaq qorxuram ki, pis qurtarsın. Səni günahkar hesab eləyirlər. Bəlkə də məhkəmən heç aşağı instansiyalardan çıxmadı... Ən azı, sənin günahını hələlik sübut olunmuş hesab edirlər.

– Axı mənim heç bir günah işim yoxdur! Bu, səhvdir! Ümumiyyətlə, insan necə günahkar ola bilər?! Axı hamımız eyni adamlarıq...

– Düzdür, ancaq bütün günahkarlar belə danışır.

– Sən də məni günahkar hesab edirsən?

– Xeyr, mən səni günahkar hesab etmirəm.

– Təşəkkür edirəm. Ancaq bu işdə iştirak edənlərin hamısı məni günahkar hesab edir. Onlar iştirak etməyənlərə də təsir edirlər. Mənim də vəziyyətim getdikcə çətinləşir.

– Sən işin mahiyyətini başa düşmürsən. Hökm birdən-birə verilmir, ancaq istintaq getdikcə hökmə çevrilir.

– Deməli, beləymiş... – K. başını aşağı saldı.

– Gələcəkdə işinlə bağlı neyləmək fikrindəsən?

– Kömək axtaracam, – deyə K. başını qaldırdı ki, keşişin buna necə baxdığını görsün. – Hələ istifadə etmədiyim bəzi imkanlar da var.

– Kənarda çox kömək axtarırsan, – keşiş onun fikrini bəyənmədi, – özü də ən çox qadınlardır. Görmürsən ki, bu, əsil kömək deyil?

– Bəzən, hətta bir çox hallarda sənə haqq qazandırardım... Ancaq həmişə yox! Qadınların hökmü böyükdür. Əgər tanıdığım bir neçə qadını mənim üçün birlikdə işləməyə razı sala bilsəydim, nəsə əldə eləyə bilərdim. Xüsusilə də bu məhkəmədə... Demək olar ki, hamısı qadın düşgünüdür... Müstəntiqə uzaqdan bir qadın göstər, stolunu da, müttəhimi də unudub, onun arxasınca qaçacaq.

Keşiş başını sürahiyə tərəf əydi, deyəsən damın alçaq olması onu yenicə narahat etməyə başladı. Bayırda hava niyə belə pis idi? Buna tutqun hava demək olmazdı, elə bil gecənin yarısı idi. Divarlara çökmüş qaranlığı azacıq da olsa səksəndirmək üçün böyük pəncərələrdən içəri kiçicik işartı belə düşmürdü. Üstəlik də xidmətçi baş mehrabdakı şamları bir-birinin ardınca söndürməyə başlamışdı.

– Mənə acığın tutdu? – K. keşişdən soruşdu. – Bəlkə heç özün də hansı məhkəməyə qulluq etdiyini bilmirsən...

Cavab gəlmədi!

– Mən öz gördüklərimdən danışıram.

Yuxarıda sakitlik idi.

– Sənin xətrinə dəyəmək istəmirdim... – K. yenə dilləndi. Elə həmin anda yuxarıdan keşişin qışqırtısı eşidildi:

– Sən iki addımdan o yanı görə bilmirsən?

Bu qışqırtıda qəzəb vardı, ancaq həm də elə bir adamın qışqırtısı idi ki, kiminsə yıxıldığını görür, özü də bərk qorxduğu üçün, qeyri-ixtiyari, ucadan çığırır.

İkisi də uzun müddət susdu. Əlbəttə, keşiş aşağıdakı qaranlıqda K.-nı yaxşı görə bilmirdi, K. isə balaca lampanın işığında onu aydınca seçirdi. Bəs keşiş niyə aşağı düşmürdü? Moizə oxumadı, yalnız K.-ya bəzi şeyləri dedi. Dedikləri də, diqqətlə baxsan, xeyirdən çox ziyan gətirərdi. Ancaq onu da bilirdi ki, keşişin niyyətinin xoş olması şübhəsizdir, ola bilsin, o, aşağı düşəndən sonra razılığa gələ bilərdilər, ola bilsin, ondan ağılabatan, həlledici məsləhət ala bilərdi. Məsələn, bu məsləhətdən məhkəməyə necə təsir etməyi deyil, ondan necə qaçmağı, ondan kənarda necə yaşamağı öyrənərdi. Belə bir imkan olmamış deyildi və K. da bu barədə son vaxtlar tez-tez düşünürdü. Əgər keşiş belə bir imkanın olduğunu bilirdisə, K. xahiş etsə, özünün məhkəmədə işləməsinə, K. məhkəməyə hücum çəkərkən mülayimliyini unudaraq onun üstünə qışqırmasına baxmayaraq, bəlkə də deyərdi.

– Aşağı düşmək istəmirsən? – K. ondan soruşdu. – Moizə də oxumayacaqsan, aşağı düş...

– İndi düşə bilərəm, – deyən keşiş bəlkə də qışqırdığına peşman olmuşdu. Lampanı çəngəldən çıxaranda dedi: – Əvvəlcə səninlə uzaqdan-uzağa danışmalı idim, yoxsa tez təsir altına düşürəm, vəzifəm yadımdan çıxır.

K. onu pilləkənin ayağında gözləyirdi. Keşiş hələ yuxarı pillələrdə olanda, əlini K.-ya uzatmışdı.

– Mənimlə söhbət etməyə bir az vaxtın olar? – K. soruşdu.

– İstədiyindən də çox olar... – deyə keşiş balaca lampanı ona uzatdı ki, götürsün. K.-nın lap yaxınlığında olasa da, keşiş yenə təntənəli görünürdü.

– Sən mənə qarşı çox mehribansan, – dedi K. Onlar kilsənin qaranlığında yanaşı gəzişirdilər. – Sən məhkəmə qulluqçuları arasında müstəsnasan. Orda tanıdığım adamların arasında ən çox sənə etibar edirəm. Səninlə açıq danışa bilərəm.

– Səhv eləmə!

– Axı, nədə səhv edirəm?

– Məhkəmə məsələsində səhvə yol verirsən. Qanuna girişdə bu səhv haqqında belə yazılır: Qanunun qapısında keşikçi durur. Bu keşikçinin yanına kənddən bir kişi gəlir və xahiş edir ki, onu içəri buraxsın. Ancaq keşikçi deyir ki, indi ona içəri keçməyə icazə verə bilməz. Kişi bir az fikirləşir və soruşur ki, sonra keçə bilərmi. “Ola bilər,” – deyir keşikçi. – “Ancaq indi olmaz!” Həmişə olduğu kimi, onda da Qanunun qapısı açıq olur və keşikçi də yana çəkildiyi üçün kişi əyilib qapıdan içəri baxır. Keşikçi bunu görəndə gülür və deyir: “Əgər sənin üçün belə maraqlıdırsa, mənim yasaq etməyimə baxma, içəri gir. Ancaq yadında saxla: mən güclüyəm. Ancaq həm də keşikçilərin ən zəifiyəm. Hər zalın qapısında keşikçi durur, biri də o birindən güclü olur. Mən elə üçüncünü görəndə, qorxdum. Kənddən gələn kişi işin belə çətin olacağını gözləmirmiş, fikirləşirmiş ki, Qanunun qapısı hamı üçün həmişə açıq olmalıdır, ancaq indi diqqətlə keşikçinin qalın kürkünə, dik burnuna, seyrək, qara saqqalına baxıb qərara alır ki, icazə verənə qədər gözləsin. Keşikçi ona bir kətil verir ki, qapının yanında oturub gözləsin. Kişi

günlərlə, illərlə orda oturur. Çox çalışır ki, içəri keçsin və xahiş-minnətilə keşikçini yorur. Keşikçi də tez-tez onu sorğu-suala tutur, hardan gəldiyini soruşur, böyük adamlar kimi məsələyə dəxli olmayan suallar verir və axırda da həmişəki kimi deyir ki, hələ buraxa bilməz. Çoxlu səfər ehtiyatı götürmüş kişi qiymətə baxmır, ələ almaq üçün hamısını ona verir ki, içəri buraxsın. Düzdür, keşikçi verilənin hamısını götürür və götürəndə də deyir: “ Ona görə götürürəm ki, fikirləşməyəsən: vay, bundan istifadə eləmədim” . Bu uzun illər ərzində kişi ara vermədən keşikçini müşahidə edir. Başqa keşikçiləri unudur, fikirləşir ki, onu Qanunun içinə buraxmayan elə birinci keşikçidir. İlk illərdə bu kor təsadüfü ucadan lənətləyir, sonralar qocalanda isə öz-özünə donquldanır. Lap uşaq kimi olur, illər uzunu keşikçini yaxından öyrənə-öyrənə, onun kürkünün yaxalığındakı birələri də tanıyır, onlardan da xahiş edir ki, kömək eləsinlər, keşikçini yola gətirsinlər. Axırda gözlərinin işığı zəifləyir, doğrudanmı qaranlığın düşdüyünü, ya da gözlərininmi onu aldatdığını bilmir. Ancaq indi qaranlıqda Qanunun qapısındakı sönməz parıltını görür. Artıq çox yaşaya bilmir. Ölümündən qabaq illər uzunu qazandığı təcrübələr beynində bir yerə yığışıb elə bir sual yaradırlar ki, kişi onu hələ indiyəcən keşikçiyə verməmiş olur. Qaxaca dönmüş bədənini tərpədə bilmədiyi üçün keşikçini əlinin işarəsi ilə yanına çağırır. Keşikçi ona tərəf çox əyilməli olur, çünki kişi bapbalaca olmuşdu. “İndi nəyi bilmək istəyirsən?” – deyə soruşur, – “Səni heç razı salmaq olmur...” Kişi deyir: “Hamı Qanuna can atır. Bəs necə olur ki, bu uzun illər ərzində heç kəs ora girmək istəmədi?” Keşikçi görür ki, artıq kişinin sonu çatıb, eşidə də bilmir və ona görə də çığıra-çığıra deyir: “ Burdan heç kəs keçə bilməzdi, çünki bu giriş yalnız sənin üçün qoyulmuşdu. İndi mən gedib onun qapısını bağlayaram!”

Bu əhvalatdan çox təsirlənən K. o dəqiqə dedi:

– Deməli, keşikçi kişini aldadıb !

– Tələsmə! Başqasının fikrini də yoxlamamış qəbul etmə! Mən bu əhvalatı yazıda olduğu kimi danışdım. Orda aldatmaq barədə heç nə yazılmayıb.

– Aydındır! Sən əvvəlcə düz dedin. Keşikçi əsil həqiqəti onda deyib ki, daha o, kişiyə lazım deyildi.

– Axı ondan əvvəlcə soruşan olmayıb. Nəzərə al ki, o, yalnız keşikçi idi və bir keşikçi kimi də vəzifəsini yerinə yetirib.

– Niyə sənə elə gəlir ki, o, vəzifəsini yerinə yetirib? Əslində, yerinə yetirməyib. Onun vəzifəsi bəlkə də başqalarını rədd eləmək, bu kişini isə qapı onun olduğu üçün içəri buraxmaq idi.

– Sən bu yazıya kifayət qədər hörmətlə yanaşmırsan və əhvalatı dəyişdirirsən. Bu əhvalatda Qanunun içərisinə buraxılmaq üçün keşikçinin iki vacib izahatı var – biri əvvəldə, biri də axırda. Birində deyilir ki, indi ona içəri keçməyə icazə verə bilməz, o biri isə belədir: bu qapı yalnız sənin üçün idi. Əgər bu izahatlar arasında təzad olsaydı, onda sən haqlı çıxardın və keşikçi kişini aldatmış olardı. Ancaq burda heç bir təzad yoxdur. Əksinə, birinci izahat ikinciyə aparıb çıxarır. Hələ bəlkə də demək olar ki, keşikçi kişiyə gələcəkdə buraxıla biləcəyini deməklə vəzifə borcunu aşıb. Deyəsən, o vaxtlar yalnız kişini rədd etmək onun vəzifə borcu hesab olunub və bu yazının tədqiq edənlərin çoxu təəccüb edir ki, görəsən gözətçi niyə buna işarə vurub, çünki onun özü dəqiqliyi sevən adam olub, qapını yaxşı qoruyub. Uzun illər keşik çəkir, qapını da lap axırda bağlayır, vəzifəsinin vacibliyini yaxşı başa düşür, çünki belə deyir: “Mən güclüyəm!” Vəzifəcə

özündən böyüklərə hörmətlə yanaşır, çünki belə deyir: “ Mən keşikçilərin içində ən zəifiyəm!” O, boşboğaz deyil, illər uzunu, orda yazıldığı kimi, yalnız “məsələyə dəxli olmayan suallar verir”, rüşvət almır, çünki hər dəfə hədiyyəni götürəndə belə deyir: “ Ona görə götürürəm ki, sonra fikirləşməyəsən: vay, bundan istifadə eləmədim...” Söhbət vəzifəsinin yerinə yetirilməsindən gedəndə, onu nə yumşaltmaq, nə də özündən çıxarmaq olur, çünki orda kişi haqqında yazılıb ki, “ o öz xahiş-minnəti ilə gözətçini yorur”. Nəhayət, onun xarici görnüşü necə pedant adam olduğunu göstərir: iri dik burnu, uzun, seyrək, qara saqqalı. Öz vəzifəsinə bundan da sadiq keşikçi tapmaq olarmı? Ancaq bu keşikçidə içəri buraxılmasını tələb edən adam üçün çox əlverişli xasiyyətlər də var və elə onlardan bilinir ki, keşikçi onun gələcəkdə buraxıla biləcəyinə işarə vurmaqla vəzifə həddini aşa bilər. Əslində, bunu da inkar etmək olmaz ki, o, bir az sadəlövh və elə buna görə də bir az lovğadır. Onun istər öz gücü, istərsə də digər gözətçilərin gücü, eləcə də onlardan birini görəndə qorxduğu barədə dediklərinin – mənim fikrimcə, hətta bunlar lap düz olsa da, – ifadə tərzi göstərir ki, bu sadəlövhlüyü, lovğalığı onun anlama qabiliyyətini məhdudlaşdırır. Tədqiqatçılar bu barədə deyir: “Hər hansı bir işin düzgün anlamı və onun səhv başa düşülməsi bir-birini heç vaxt qəti şəkildə inkar etmir”. Ancaq hər halda belə hesab etmək lazımdır ki, ondakı bu sadəlövhlük, lovğalıq nə qədər az olsalar da, giriş qapısının qorunmasını zəiflədir, deməli, bunlar keşikçinin xarakterindəki zəif yerlərdir. Üstəlik də keşikçi təbiətən mehriban adam təsiri bağışlayır və buna görə də həmişə rəsmi məmur ola bilmir. Elə ilk dəqiqələrdə lağlağıya başlayır ki, qəti qadağan olunmasına baxmayaraq, içəri keçə bilər, sonra da onu qovmur, əksinə, orda yazıldığı kimi, kətil də verir ki, qapının yanında otursun. Uzun illər boyu kişinin xahişlərinə səbrlə dözməsi, qısa sorğu-suallar, hədiyyələri qəbul etməsi, elə yanındaca belə bir keşikçiyə rast gəldiyi üçün kor təsadüfü ucadan lənətləməsinə alicənablıqla yanaşması... – bütün bunların hamısı onun qəlbində mərhəmət hissinin baş qaldırdığına dəlalət edir. Hər keşikçi belə hərəkət etməzdi. Axırda da bircə işarəsi ilə kişiyə tərəf əyilir, son sualını vermək üçün ona şərait yaradır. Yalnız “Səni heç razı salmaq olmur” sözlərində keşikçinin səbrinin azaçıq tükəndiyi hiss olunur – onda da bilirdi ki, artıq hər şey qurtarıb. Bu növ yozumlarda hətta bəziləri bir qədər də dərinə gedərək iddia edirlər ki, “Səni heç razı salmaq olmur” sözləri bir növ səmimi heyranlığın ifadəsidir ki, bu da, əlbəttə, mərhəmətdən xali deyil. Hər halda, keşikçi obrazı sən düşündüyün kimi deyil.

– Sən bu əhvalatı məndən yaxşı, özü də çoxdan bilirsən.

Onlar bir anlığa susdular. Sonra K. dedi:

– Deməli, sənə elə gəlir ki, kişini aldatmayıblar?

– Məni düzgün başa düş! Mən sənə yalnız bu haqda olan fikirləri çatdırıram. Ancaq sən bu deyilənlərə fikir vermə. Yazıya pozu yoxdur və bu fikirlər də çox vaxt onun haqqında yaranan şübhələri ifadə edir. Hətta burda belə bir fikir də var ki, aldadılan elə keşikçinin özüdür.

– Maraqlı fikirdir! Bəs bunu necə əsaslandırırlar?

– Gözətçinin sadəlövhlüyü ilə. Deyirlər ki, o, Qanunun iç tərəfini tanımır, yalnız onun qapısına qədər olan yolu gedir, elə ordan da geri dönür. Onun İçəri haqqındakı təsəvvürləri uşaq təsəvvürü kimidir və deyirlər ki, kişini qorxutmaq istədiyi şeydən özü də qorxur. Bəli, özü kişidən çox qorxur, çünki kişi hətta içəridəki keşikçilərin çox dəhşətli olduqlarını biləndən sonra da oraya girmək istəyir, ancaq keşikçi, əksinə, girmək istəmir, ən azı, bu haqda heç nə bilinmir.

Düzdür, bəziləri deyir ki, o, əvvəllər içəridə olub, nə vaxtsa onu məhkəmədə qulluğa götürüblərmiş və bunlar da yalnız İçəridə baş verə bilərdi. Onlara belə cavab vermək olar ki, o, İçəridən gələn bir səslə də keşikçi təyin olunardı və özü, ən azı, üçüncü keşikçinin görkəmindən qorxduğu üçün heç İçəridə olmaya da bilərdi. Bundan əlavə də, orda onun uzun illər ərzində İçəri haqqında, üçüncü keşikçi barədə dediklərindən əlavə nəsə deməsi yazılmır. Ola bilsin, bu ona yasaq edilibmiş, ancaq yasaq barədə də heç nə yazılmayıb. Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, o, İçərinin görünüşü, mahiyyəti barədə heç nə bilmir və onun haqqında da səhv təsəvvürdədir. Eyni zamanda, kənddən gələn kişi haqqındakı təsəvvürü də səhvdir, çünki özü ona tabedir, ancaq bundan xəbəri yoxdur. Ancaq onunla tabeliyində olan adam kimi rəftar etməsi çox yerdə hiss olunur və sən onların hamısını xatırlaya bilərsən. Elə bu fikrə əsasən, həm də onun kişiyə tabe olması aydınca üzə çıxır. Hər şeydən əvvəl, azad adam asılı adamdan yüksəkdə dayanır. Əslində, kişi azad bir adamdır, hara istəsə gedə bilər, ona yalnız Qanunun qapısından içəri girmək yasaqdır və bunu da ona yalnız bir nəfər – keşikçi yasaq edir. Qapının yanına kətil qoyub ömrü boyu orda oturması da könüllüdür, heç yerdə məcburiyyətdən söhbət getmir. Keşikçi isə, əksinə, vəzifəsindən asılı adamdır, burdan aralana bilməz və göründüyü kimi, istəsə də, içəri keçə bilməz. Bundan əlavə, Qanun qulluqçusu olsa da, yalnız onun giriş qapısını qoruyur və deməli, təkcə bu qapının aid olduğu adama qulluq edir. Həm də elə bu səbəbdən həmin kişiyə tabe olur. Belə hesab eləmək olar ki, o, uzun illər, bir insan ömrü qədər, necə deyərlər, mənasız bir işlə məşğul olub, çünki orda yazılır ki, bir kişi gəlir, yəni yaşlaşmış çağında gəlir. Deməli, keşikçi öz vəsifəsini yerinə yetirmək üçün çox gözləməli olur. O qədər gözləməli olur ki, kişi özü gəlmək fikrinə düşür, könüllü gəlir. Ancaq onun vəzifəsinin sonu da kişinin həyatının sonu ilə müəyyənləşir, deməli, o, axıra qədər kişidən asılı olur. Və həmişə də vurğulanır ki, deyəsən, keşikçinin bunlardan xəbəri olmur. Ancaq burda qəribə heç nə yoxdur, çünki həmin fikrə görə keşikçi bundan da pis aldadılıb və bu da onun vəzifəsinə aiddir. Lap axırda giriş qapısından danışır və deyir: "İndi gedib onu bağlayaram", ancaq əvvəldə deyilir ki, Qanunun qapısı həmişəki kimi açıq idi. Əgər həmişə, həmişə açıq olursa, bu o deməkdir ki, aid olduğu adamın nə qədər yaşamasından asılı deyil, onda da belə çıxır ki, keşikçi onu bağlaya bilməz. Burda fikirlər haçalanır: keşikçi qapını bağlayacağını deyəndə, sadəcə olaraq, cavab vermək, yoxsa vəzifə borcunu vurğulamaq, ya da kişini son anda peşman etmək, kədərləndirmək istəyir?! Çoxları bu fikirdədir ki, o, qapını bağlaya bilməyəcək. Onlara elə gəlir ki, ən azı sonda, həqiqətin dərk edilməsi baxımından, kişi ondan üstündür, çünki o, Qanunun qapısından gələn parıltını görür, keşikçi isə həmin anda arxası qapıya tərəf dayanır, nəsə bir dəyişiklik hiss etdiyi barədə heç nə demir.

-Yaxşı əsaslandırılıb, – deyən K. keşişin söylədiyi bəzi fikirləri güclə eşidiləcək tərzdə öz-özünə təkrar elədi. – Yaxşı əsaslandırılıb, mən də inanıram ki, keşikçi aldanıb. Ancaq yenə də əvvəlki fikrimdən dönmürəm, çünki hər iki yozum yalnız müəyyən məqamlarda bir-birinə uyğun gəlir. Keşikçinin burda hər şeyi bilməsi və ya aldadılması əsas deyil. Mən bayaq dedim ki, kişi aldadılıb. Əgər keşikçi hər şeyi bilsəydi, onda buna şübhə etmək olardı, yox, əgər keşikçi aldanıbsa, deməli, onda onun səhvi mütləq kişiyə də keçməlidir. Düzdür, keşikçi yalançı deyil, ancaq bu qədər sadəlövh olduğuna görə işdən qovulmalı idi. Unutma ki, keşikçinin aldanması ona ziyan gətirmir, ancaq kişinin aldanması ona çox baha başa gəlir.

– Belə olan halda, sən başqa bir fikirlə qarşılaşırsan. Bəziləri deyirlər ki, bu əhvalat heç kəsə keşikçini mühakimə etməyə hüquq vermir. Biz də belə fikirləşə bilərik ki, o, Qanunun qulluqçusudur, deməli Qanuna aiddir, deməli, insanlar onu mühakimə edə bilməzlər. Onda

kişinin keşikçidən yüksəkdə dayandığına da inanmaq olmaz. Yalnız vəzifəsilə bağlı həmişə Qanunun qapısı ağzında dayanıb qalmaq bu dünyada azad yaşamaqdan qat-qat üstündür. Kişi yenicə Qanunun yanına gəlir, keşikçi isə çoxdan ordadır. Bu qulluğa onu Qanun qoyub, keşikçinin ləyaqətini şübhə altına almaq – Qanunun özünü şübhə altına almaq deməkdir.

– Mən bu fikirlə razı deyiləm, – K. başını buladı, – çünki bununla razılaşmaq, keşikçinin dediklərinin hamısını həqiqət hesab eləmək deməkdir. Ancaq bunun mümkün olmadığını özün indicə geniş şəkildə əsaslandırdın.

– Xeyr, hamısını həqiqət hesab etmək lazım deyil, bunu yalnız vacib hesab etmək lazımdır.

– Kədərli nəticədir, – dedi K., – dünyanı yalanla düzəldirlər!

K. bunu son söz kimi desə də, hələ son qərarı deyildi. Çox yorulmuşdu, bütün yozumların mahiyyətinə vara bilmirdi, bu cür mühakimələr yürütməyə də öyrəşməmişdi, hamısı da gerçək olmayan şeylər idi, məhkəmə məmurlarının öz aralarında müzakirəsinə yaxşı yarayardılar, K.-ya lazım deyildilər. Adicə bir əhvalat çox şişirdilmişdi, onu tamamilə unutmaq istəyirdi və keşiş də indi böyük bir həssaslıq göstərdi, K.-nın dediyi son sözlər onun fikirlərinə uyğun gəlməsə də susdu.

Onlar kirimişcə yollarına davam etdilər. K. indi harda olduğunu bilmədən keşişlə yanaşı gedirdi. Əlindəki lampa çoxdan sönmüşdü. Qəflətən qarşısında hansı Müqəddəsinsə gümüş heykəlindən gümüşü bir parıltı qopub qaranlığa qarışdı. K. tamamilə keşişdən asılı vəziyyətdə qalmamaq üçün soruşdu:

– Biz indi əsas qapının yanındayıq?

– Xeyr, biz ordan çox uzaqdayıq. Getmək istəyirsən ki?

K. indi bu barədə düşünməsə də, tez dedi:

– Əlbəttə getmək istəyirəm. Bankda prokurist işləyirəm, orda məni gözləyirlər. Buraya da bir əcnəbi dostumuza kilsəni göstərməyə gəlmişdim.

– Yaxşı, – deyə keşiş əlini ona uzatdı, – onda get!

– Ancaq qaranlıqda yolu tək tapa bilmərəm.

– Sola – divara tərəf get, sonra onun dibi ilə gedərsən. Ondan aralanma, axırda çıxış qapısını tapacaqsan.

Keşiş yenicə ondan bir-iki addım aralanmışdı ki, K. lap ucadan qışqırdı:

– Xahiş edirəm, dayan!

– Dayandım!

– Daha məndən heç nə istəmirsən?

– Xeyr!

– Əvvəlcə mənə qarşı çox mehriban idin, hər şeyi başa saldın, ancaq indi qoyub gedirsən, elə bil sənin üçün heç kiməm...

– Axı sən getməlisən.

– Elədir... Ancaq məni başa düş...

– Əvvəlcə sən özün başa düş ki, mən kiməm...

– Sən türmənin keşişisən, – deyə K. ona tərəf getdi. Banka belə tez qayıtması o qədər də vacib deyildi, hələ burda xeyli qala bilərdi.

-Deməli, mən də məhkəmənin adamıyam. Niyə səndən nəsə istəməli idim?! Məhkəmə səndən heç nə istəmir. O səni gələndə qəbul edir, gedəndə də yola salır.

## ONUNCU FƏSİL

## Son

Otuz bir yaşı tamam olmağa bir gün qalmış – axşam saat doqquz radələri idi, küçələrin səs-küyü səngimişdi – K.-nın yaşadığı mənzilə iki cənab gəldi. Əyinlərində sürtuk, başlarında isə sanki oraya yapışdırılmış dik şlyapa vardı, kök idilər, özləri də avazımışdılar. Mənzilin qapısından girərkən az çəkən “Buyur! – Yox, sən buyur!” mərasimi K.-nın yaşadığı otağın qapısında xeyli çəkdi. Kimlərinsə gələcəyini əvvəlcədən ona xəbər verməsələr də, K. özü qara geyinib qapının yanındakı kresloda oturmuşdu və təzə, dar əlcəklərini yavaş-yavaş barmaqlarına taxırdı, sanki qonaq gözləyirdi. O dəqiqə ayağa durub maraqla gələn cənablara baxdı.

– Məni aparmağa gəlmisiniz? – deyə soruşdu.

Cənablar başlarını tərpətdilər və əllərindəki şlyapaları ilə bir-birini göstərdilər. K. öz-özünə dedi ki, axı o başqa qonaq gözləyirdi. Pəncərəyə tərəf gedib, bir daha qaranlıq küçəyə baxdı. Küçənin o biri üzündəki pəncərələrin, demək olar ki, hamısı qaranlıq idi və çoxunun da pərdəsi salınmışdı. Yalnız hansısa pilləkən xanasının torlanmış pəncərəsindən işıq gəlir və orda da uşaqlar oynayırdılar. “Arxamca yaşlı, ikinci dərəcəli aktyorları göndəriblər!” – deyə ürəyindən keçirən K. buna bir daha əmin olmaq üçün ətrafına baxdı, – “ Çox ucuz yolla mənim axırıma çıxmaq istəyirlər”. Və qəflətən onlara tərəf dönüb soruşdu:

– Hansı teatrda oynayırsınız?

-Teatrda? – deyə dodaqları səyriyən cənab sanki o birindən məsləhət istədi. O biri isə özünü lallığa vurdu, sanki gücənir, ancaq danışa bilmirdi. “Suallara hazır deyillər” – deyə ürəyindən keçirən K. şlyapasını götürməyə getdi.

Artıq elə pilləkəndəcə cənablar onun qolundan tutmaq istədilər, ancaq K. qoymadı:

– Küçədə tutarsınız... Mən xəstə deyiləm.

Ancaq giriş qapısına çatan kimi ondan elə asıldılar ki, K. ömründə heç kəslə belə yol getməmişdi. Onlar çiyinlərini bərk-bərk K.-nın çiyinlərinə söykədilər, lap aşağıda əllərindən möhkəm-möhkəm yapışdılar, sanki məktəb uşaqları əl-ələ vermişdi. K. dimdik onların arası ilə yeriyirdi və üçü də bir-birinə elə yapışmışdı ki, birinə əl vursan, üçünə də dəyərdi. Yalnız cansız əşyaları bir-birinə belə yaxın qoymaq olardı...

Küçə fənərlərinin altından keçəndə, bu cür gedişlə çox çətin olsa da, K. öz müşayiətçilərinə yaxşı-yaxşı baxmaq istədi, çünki otağı yarıqaranlıq olduğu üçün bunu edə bilməmişdi. Onların sallaq buxaqlarını görəndə, ürəyindən keçirdi: "Bəlkə də tenorlardır!" Sifətlərinin tər-təmiz işıldaması onu iyrəndirdi. Ona elə gəldi ki, hətta gözlərin kənarlarını təmizləyən, üst dodağı silən, buxaqdakı qırışları sığallayan əli də gördü...

K. dayandığı üçün o birilər də dayanmalı oldu. Onlar boş, kimsəsiz, yaşıllıqlarla bəzədilmiş bir meydanın kənarına çatmışdılar. "Axı niyə məhz sizi göndəriblər?!" – Bu sözlərdə sualdan çox təəssüf vardı. Deyəsən, cənablar nə deyəcəklərini bilmədilər, xəstənin nəfəsini dərməsini gözləyən sanitarlar kimi onun əlindəncə tutub dayandılar.

– Mən daha getmirəm! – deyə K. onları yoxlamaq istədi.

Cənablara nəsə demək lazım gəlmədi, sadəcə olaraq, əllərini buraxmadılar, onu yerindən qoparmağa çalışdılar, ancaq K. müqavimət göstərdi. "Onsuz da mənə güc bir daha lazım olmayacaq, indi onun hamısından istifadə edəcəm," – deyə ürəyindən keçirdi. Yadına yapışqana ilişmiş milçəklər düşdü: dartınanda ayaqları qırılıb orda qalır, özləri isə azad olurdular. "Cənablara çətin olacaq!"

Bu vaxt aşağıdakı küçədən meydana tərəf qalxan balaca pilləkəndə frölayn Bürstner göründü. K. onun Bürstner olduğunu dəqiq bilmədi, ancaq çox oxşayırdı. İndi onun frölayn Bürstner olub-olmamasının K. üçün heç bir mənası yox idi və elə həmin anda da başa düşdü ki, müqavimət göstərməyin özü də mənasızdır. Müqavimət göstərmək, cənabların işini çətinə salmaq, özünü müdafiə etməklə son həyat işartısından ləzzət almağa çalışmaq elə böyük qəhrəmanlıq deyildi. Yerindən tərpəndi və bununla cənablara bəxş etdiyi sevincdən özünə də bir az pay düşdü. Ona görə cənablar onun hansı tərəfə gedəcəklərini müəyyənləşdirməsinə də maneçilik törətmədilər və o da onları frölayn Bürstnerin getdiyi yola çəkib apardı. Əlbəttə, qıza çatmaq, ona uzun-uzadı baxmaq istəmirdi, yalnız onu istəyirdi ki, bir xəbərdarlıq nişanəsi kimi onu gözdən itirməsin. "İndi əlimdən bircə o gəlir ki... – deyə ürəyindən keçirdi və öz addım səslərinin cənabların addım səsləri ilə ahəngdarlığı onun bu fikrini təsqiqlədi, – ... indi əlimdən bircə o gəlir ki, özümü axıra qədər sakit idarə edəm. Həmişə həyatdan dördəlli yapışmışam və üstəlik də niyyətim həmişə yaxşı olmayıb. Bu, düzgün deyildi! İndi də onu göstərməliyəm ki, bir il davam edən məhkəmə mənə dərs olmadı? Doğrudanmı mən bu dünyadan qanmaz bir adam kimi köçməliyəm? Məgər mənim haqqımda mütləq deyilməlidi ki, məhkəmənin əvvəlində onu tez qurtarmaq istəyirdi, ancaq indi, sonunda onu təzədən başlamaq istəyir? İstəmirəm belə desinlər! Sağ olsunlar ki, mənə belə yarımlal, qanmaz yol yoldaşları verdilər, özümə deyiləsi vacib sözləri deməyi öz ixtiyarıma buraxdılar..."

Bu aralıqda frölayn Bürstner yan küçəyə burulmuşdu, ancaq o, daha K.-ya lazım deyildi, özünü bütünlüklə müşayiətçilərinin ixtiyarına vermişdi. Üçü də bir-birindən razı halda irəliləyərək ay işığına qərq olmuş bir körpünün üstünə çıxdılar. Cənablar indi K.-nın hər bir xırda hərəkətinə güzəştə gedirdilər və o, körpünün sürahisinə tərəf meyillənəndə, cənablar da fırlanıb onun yanında dayandılar. Ay işığında titrəyə-titrəyə parıldayan su iki tərəfə bölünərək balaca bir ada yaratmışdı və tökülmüş yarpaqlar, ot-alaq orda qalaqlanıb qalmışdı. Aşağıda indi görünməyən çınqıllı bir yol uzanırdı və həmin yol boyu da rahat skamyalar düzülmüşdü. K. yayda hərdən gəlib onların üstündə yayxanaraq oturar və ya uzanardı.

– Mən heç burda dayanmaq istəmirdim, – K. müşayiətçilərinin ona belə güzəşt etməsindən utanaraq dilləndi. Deyəsən, cənablardan biri onu düz başa düşmədikləri üçün K.-nın çiyinləri üzərindən o birinə yüngülcə iradını bildirdi və onlar yollarına davam etdilər.

Üzüyuxarı qalxan bir neçə küçəni keçdilər. Hərdən də gah uzaqdan, gah da lap yaxından polisləri gördülər. Onlardan bəziləri gəzişirdi, bəziləri də tində dayanmışdı. Lopabığ bir polis əli qılıncının qəbzəsində sanki qəsdlə bu şübhəli dəstəyə lap yaxın gəldi. Cənablar dayandılar və polis yenicə ağzını açıb nəsə demək istəyəndə, K. güclə onları arxasınca dartıb apardı. Yolda tez-tez ehtiyatla dönüb geri baxdı ki, polis onları izləyir, ya yox. Polisdən bir tin aralanan kimi K. qaçmağa başladı, cənablar təngi nəfəs olsalar da, birlikdə qaçmalı oldular.

Şəhərdən tez çıxdılar və elə yerə gəldilər ki, burdan o yana birbaşa düzənliklər başlayırdı. Şəhərdəki son binanın lap yaxınlığında kimsəsiz, başsız qalmış bir daş karxanası vardı. Cənablar burda dayandılar: ya əvvəlcədən buraya gələcəklərini bilirdilər, ya da yorulub əldən düşmüşdülər, daha gedə bilmirdilər. Sakitcə dayanıb gözləyən K.-nın əllərini buraxdılar, şlyapalarını çıxarıb, tərlərini sildilər. Hər yan özünəməxsus təbiiliyi və sakitliyi ilə seçilən ay işığına qərq olmuşdu.

Cənablar öz aralarında nəzakətlə indi kimin nə edəcəyini müəyyənləşdirəndən sonra – deyəsən, kimin nə iş görəcəyi əvvəlcədən onlara deyilməmişdi – biri K.-ya yaxınlaşıb pencəyini, jiletini, axırda da köynəyini çıxardı. K., qeyri-ixtiyari üşəndi, kişi onu sakitləşdirmək üçün yüngülcə kürəyinə vurdu. Sonra paltarları səliqə ilə qatladı, sanki yaxın zamanlarda olmasa da, onlardan hələ istifadə ediləcəkdi. K. getdikcə sərinləşən axşam havasında hərəkətsiz qalıb üşüməsin deyə, kişi onun qolundan tutub gəzişməyə başladı və həmin vaxt ərzində o biri cənab da karxanada uyğun yer axtardı. Yeri tapan kimi əl elədi, cənab, K.-nı ora apardı. Karxananın divarına yaxın yer idi, yanında da qırılmış bir daş vardı. Cənablar K.-nı yerə oturtdular, daşa tərəf əydilər, başını onun üstünə qoydular. Ancaq nə qədər çalışsalar da, hətta K. özü onlara kömək etsə də, onu avandına uzada bilmədilər, pis alındı. Cənablardan biri o birindən xahiş etdi ki, bu işi onun öhdəsinə buraxsın, ancaq yenə də alınmadı. Axırda elə uzandırdılar ki, əvvəlkilərdən də pis oldu. Sonra cənablardan biri sürtukunun yaxasını açdı, jiletinin üstündən bağlanmış kəmərdən sallanan qından nazik, uzun, iki tərəfi də kəsən bir qəssab bıçağı çıxardı, onu işığa tutub itiliyini yoxladı. Yenə o iyrənc "buyur, buyur" mərasimi başladı, biri bıçağı K.-nın başı üzərindən o birinə uzatdı, o da eyni tərzdə geri qaytardı. K. indi dəqiq bilirdi ki, onun vəzifəsi başı üzərində əldən-ələ keçən, o tərəf-bu tərəfə süzən bıçağı alıb, öz qarnına soxmaqdır. Ancaq bunu eləmədi, əksinə, boğazını bir az da geri qanırıb ətrafa baxdı. Özünü tam doğrulda bilmədi, onların vəzifələrini əllərindən ala bilmədi və bu son səhv üçün də məsuliyyəti o kəs daşıyırdı ki, bunun üçün lazım olan son gücü ona vermədi. Gözləri karxanaya lap yaxın olan evin son mərtəbəsinə sataşdı.

Qəflətən ordakı pəncərənin gözləri taybatay açıldı, arıq çəlimsiz bir kişi uzaqlardan, lap yuxarıdan aşağı əyildi, əllərini irəli uzatdı. Kim idi? Dost idi? Yaxşı adam idi? Ona yazığı gələn idi? Ona kömək etmək istəyirdi? Tənha idi? Yoxsa, hamısı idi? Kömək etmək olardımı? Bəlkə unutmuşdu, hələ bəhanələr gətirmək olardı? Əlbəttə, olardı! Düzdür, məntiq həmişə güclü olur, ancaq yaşamaq istəyən adamın qarşısında o da dayana bilməzdi! Bəs bircə dəfə də görə bilmədiyi o baş hakim harada idi? Əllərini qaldırıb, barmaqlarını araladı...

Cənablardan biri ikiəlli onun xirtdəyindən yapışdı, o biri isə bıçağı ürəyinə yeridib, iki dəfə burdu. Gözləri çevrilən K. son anda cənabların ona tərəf əyilərək yanaqları bir-birinə dəyə-dəyə onun necə keçindiyinə tamaşa etdiklərini gördü.

– Lap it kimi oldu! – Bu sözləri elə dedi ki, sanki utancaqlığı özündən çox yaşamalı idi...

http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?id=2723